AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
NAXÇIVAN UNİVERSİTETİ

VƏLİ BAXŞƏLİYEV, FİZZƏ QULİYEVA

# NAXÇIVANIN TARİXİ ABİDƏLƏRİ

Bakı-Nurlan-2017

Dərslik Naxçıvan Universiteti Elmi şurasının qərarı ilə nəşr olunur.

**Elmi redaktor:** **Abbas Seyidov**
tarix üzrə elmlər doktoru, professor

**Rəyçilər:** **Arif Məmmədov**
tarix üzrə elmlər doktoru, professor
**Gülnarə Qəmbərova**
memarlıq üzrə fəlsəfə doktoru

İSBN

Vəli Baxşəliyev, Fizzə Quliyeva. Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.

Dərslikdə Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrindən bəhs edilmişdir. Dərslikdə e.ə.VII minillikdən başlayaraq Naxçıvanda yaranan qədim yaşayış yerləri və memarlıq abidələri haqqında məlumat verilmişdir. Dərslik tədqiqatçılar, müəllimlər və Universitet tələbələri üçün nəzərdə tutulmuşdur.

© Vəli Baxşəliyev, Fizzə Quliyeva

# MÜNDƏRİCAT

Giriş....................................................................................................4
I FƏSİL. Naxçıvanın qədim abidələri.........................................................10
II FƏSİL. Dəmir dövrü abidələri................................................................89
III FƏSİL. Naxçıvan Erkən Orta əsr abidələri..........................................122
IV FƏSİL. Naxçıvanin IX-XV əsr abidələri...............................................140
V FƏSİL. Naxçıvanın XVI-XVIII əsr abidələri.........................................183
VI FƏSİL. XIX əsrin tarix-memarlıq abidələri..........................................198
Nəticə.................................................................................................212

# GİRİŞ

Naxçıvanın ərazisinin əlverişli təbii-coğrafi şəraiti burada insanların qədim dövrdən məskunlaşmasına imkan yaratmışdır. Naxçıvanın qədim tarixinin tədqiqində arxeoloji abidələr mühüm yer tutur. Bu abidələr hələ XIX əsrin 70-ci illərindən tədqiqatçıların diqqətini cəlb etmişdir. O, dövrdən keçən müddət ərzində Naxçıvanda xeyli arxeoloji abidə aşkar olunmuşdur. Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra abidələrimizin tədqiqi, qeydə alınması və qorunması sahəsində xeyli işlər görülmüşdür. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr sərəncamından sonra bu sahəyə diqqət daha da artırılmışdır. AMEA Naxçıvan Bölməsi əməkdaşlarının Naxçıvan Dövlət Universiteti əməkdaşları ilə birlikdə apardığı məqsədyönlü tədqiqatlar nəticəsində Muxtar Respublika ərazisində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, onların da əksəriyyəti arxeoloji abidədir. Arxeoloji abidələr Naxçıvanın qədim və Orta əsr tarixinin öyrənilməsi üçün dəyərli mənbədir. Bu abidələr Naxçıvanın qədim tarixini Daş dövründən başlayaraq izləməyə imkan verir. Muxtar respublika ərazisində qədim Daş dövrünə aid bir neçə daş alət və nukleuslar vardır. Belə tapıntılar Ovçulartəpəsindən və Şahtaxtı ərazisindən aşkar olunmuşdur. Naxçıvanda Daş dövrünün geniş tədqiqatlarla öyrənilmiş abidəsi Qazma mağarasıdır.

Daş dövrünün sonrakı mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Babək rayonunda yerləşən I Kültəpə abidəsinin alt təbəqəsi Neolit dövrünə aid edilmişdir. 2011-ci ildə aparılan araşdırmalar zamanı Sədərək yaşayış yerindən Neolit dövrünə aid daş toxa aşkar olunmuşdur. Naxçıvanda istehsal təsərrüfatının formalaşması və inkişafı, qədim mədəniyyətlərimizin Şərq ölkələri ilə əlaqələrinin öyrənilməsi üçün Neolit və Eneolit abidələrinin tədqiqinin olduqca mühüm əhəmiyyəti vardır. İndiyədək arxeoloji qazıntılarla yalnız I Kültəpə abidəsində Neolit dövrünün sonu və erkən Eneolit mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları öyrənilmişdir. Sirab ərazisində aparılan araşdırmalar zamanı xeyli Eneolit abidəsinin aşkar olunması bu dövrə aid abidələrin Naxçıvanda geniş yayıldığını göstərdi. Onu da qeyd etmək lazımdır ki, Cənubi Qafqazda qədim əkinçilik mədəniyyətlərinin öyrənilməsi məhz Naxçıvan Kültəpəsindən başlamışdır.

Neolit və Eneolit dövrü abidələri arasında I Kültəpə, Ovçulartəpəsi, Yeni yol, Şorsu, Zirincli və Uçan Ağılda geniş qazıntılarla öyrənilmişdir. Araşdırmalar e.ə.VI-IV minilliklərdə Naxçıvanda məkunlaşan qədim

tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin material vermişdir. I Kültəpənin Neolit təbəqəsindən aşkar olunan Xalaf tipli boyalı qab Naxçıvanın qədim sakinlərinin Şimali Mesopotamiya ilə iqtisadi mədəni əlaqələrini göstərir. Bir qrup tədqiqatçılar arxeoloji materiallara əsaslanaraq müəyyən əhali qrupunun Şimali Mesopotamiyadan Naxçıvana gəldiyini söyləmişdir. Eneolit abidələrinin tədqiqi Mesopotamiyada formalaşan Ubeyd mədəniyyəti ilə olan əlaqələri də öyrənməyə imkan verir. Bu mədəniyyətin təsiri ilə Naxçıvanda boyalı keramika məmulatı ortaya çıxmışdır. Ovçulartəpəsində bir ədəd idxal malına da rast gəlinmişdir. Ovçulartəpəsindən, Xələc, Şortəpə və Uçan Ağıldan aşkar olunan boyalı keramikanın əksəriyyəti yerli istehsalın məhsuludur. Bu isə bəzi tədqiqatçıların iddia etdiyi kimi Eneolit mədəniyyətinin gətirilmədiyini, yerli istehsalın məhsulu olduğunu göstərir. Ovçulartəpəsində aparılan araşdırmalar Eneolit dövrünün sonunda Naxçıvanda yaşayan tayfaların iqtisadi-mədəni və sosial həyatında baş verən dəyişiklikləri izləmək üçün dəyərli nəticələr vermişdir. Araşdırmalar bu dövrdə ibtidai icma quruluşunun dağılma ərəfəsində olduğunu göstərir.

Arxeoloji tədqiqatlar zamanı Naxçıvan MR ərazisində Erkən Tunc dövrünə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Şortəpə, Sədərək və onlarla digər yaşayış yerləri, Dizə nekropolu, Qarabulaq nekropolu, Plovdağ nekropolu və Xornu nekropolu kimi qəbir abidələri tədqiq edilmişdir. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti adlandırılmışdır. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi bu mədəniyyətin mənşəyi, xronologiyası və inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmişdir. Qafqaz, o cümlədən Azərbaycan arxeologiyasında mübahisəli olan bu məsələnin aydınlaşdırılmasında Naxçıvan abidələrinin müstəsna əhəmiyyəti olmuşdur. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi zamanı arxeoloji ədəbiyyatda “Proto Kür-Araz keramikası” adlandırılan mədəniyyət aşkar olunmuş və bu tapıntılardan sonra I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, Sədərək və digər abidələrdən aşkar olunan, Kür-Araz mədəniyyətinin formalaşma dövrünə aid materialları dəyərləndirmək mümkün olmuşdur. Tədqiqatların nəticələri Naxçıvanın Kür-Araz mədəniyyətinin formalaşdığı əsas regionlardan biri olduğunu göstərmişdir.

Orta Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi bu dövrdə Naxçıvanın Urmiya hövzəsi daxil olmaqla Azərbaycanın cənubu və Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni rayona daxil olduğunu göstərir. Bu dövrdə Naxçıvan boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilir. Iqtisadiyyatın, xüsusilə sənətkarlıq və ticarətin inkişafı

şəhər tipli yaşayış yerlərinin və şəhər dövlətlərin formalaşması ilə nəticələnir. Naxçıvan ərazisindəki arxeoloji abidələr Yaxın Şərqdə formalaşan Orta Tunc dövrü mədəniyyətinin bir sıra xarakterik cəhətlərini müəyyən etməyə imkan verir. Orta Tunc dövründə Yaxın Şərqdən fərqli olaraq Naxçıvanda oturaq həyat fasiləyə uğramada davam edir və qala tipli yaşayış yerləri meydana çıxır. Bunlar arasında II Bəzəkli qalası, Göynük qalası, Qazançıqala, Qızqalası, Qurddağ qalası strateji cəhətdən əlverişli mövqedə yerləşmiş yaşayış yerləridir. Bu tip abidələr cəmiyyətin iqtisadiyyatında və ictimai quruluşunda meydana gələn dəyişiklikləri izləməyə imkan verir.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrünə aid arxeoloji abidələri bu dövrdə Azərbaycanın cənub rayonlarında baş verən sosial-mədəni prosesləri, habelə şimal və cənub rayonları arasındakı iqtisadi-mədəni əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir. Araşdırmalar Son Tunc dövründə Naxçıvanda boyalı qablarla xarakterizə edilən mədəniyyətin davam etdiyini, eyni zamanda Azərbaycanın şimal rayonlarında yayılan Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlərin bu əraziyə daxil olduğunu göstərir. Naxçıvan və Xudafərin ətrafında aparılan araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın cənubuna doğru yayıldığını göstərir. Fikrimizə görə bu, e.ə. II minilliyin sonu və I minilliyin əvvəlində Azərbaycanın cənub rayonlarıda baş verən siyasi dəyişikliklər, o cümlədən yerli tayfaların xarici işğal təhlükəsinə qarşı birləşməsi prosesi ilə bağlı olmuşdur. Bu dövrdə Naxçıvan ərazisində I Kültəpə, II Kültəpə, Şahtaxtı, Sədərək, Xələc, Şortəpə kimi iri yaşayış yerləri mövcud olmuşdur. Orta Tunc dövründə olduğu kimi bu dövrdə də qala tipli yaşayış yerləri mövcud olmuşdur. Əhali müdafiə olunmaq üçün Orta Tunc dövrünün qalaları ilə yanaşı yeni qalalar da inşa etmişdir. Sədərəkqala, Oğlanqala, Çalxanqala bu tip abidələr sırasına daxildir.

Dəmir dövrünün inkişaf etmiş mərhələsinə aid abidələr bu dövrün siyasi və iqtisadi mənzərəsini aydınlaşdırmaq üçün ən dəyərli mənbələrdir. Bu dövrə aid tədqiq edilmiş abidələr başlıca olaraq Şərur və Ordubad rayonları ərazisindədir. Xaraba-Gilanda yerləşən Xalı-Keşan, Mərdangöl, Muncuqlutəpə nekropollarının materialları bu dövrün xarakteristikasını vermək üçün dəyərli mənbədir. Bu dövrün tarixini öyrənmək üçün ən dəyərli abidə Oğlanqala yaşayış yeridir. 2008-2011-ci illərdə birgə Azərbaycan-Amerika ekspedisiyasının apardığı araşdırmalar zamanı Naxçıvan tarixinin öyrənilməsi üçün maraqlı faktlar aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, Oğlanqala e.ə. IX-VI əsrlərdə Şərur düzündə meydana gələn kiçik bir şəhər dövlətin paytaxtı olmuş və Urartu işğalçılarına qarşı mübarizə

aparmışdır. Şərur rayonunda Qarasuqala, I Qızqala, Kəngərli rayonunda Yurdçu sərdabəsindən də bu dövrə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

Naxçıvan muxtar respublikasının ərazisində Antik dövr abidələri arxeoloji tədqiqatlarla geniş öyrənilməmişdir. Lakin arxeoloji tapıntılar bu dövr haqqında müəyyən məlumat əldə etməyə imkan verir.

Orta əsrlər dövrünün də arxeoloji abidələri az öyrənilmişdir. Lakin çoxsaylı arxeoloji materiallar yazılı mənbələrin Naxçıvan haqqında verdiyi məlumatları tamamlamağa imkan verir.

Naxçvan abidələrinin arxeoloji tədqiqinə XIX əsrin 70-ci illərindən başlanmışdır. Həmin illərdə dağ-mədən mühəndisi fon Koşkul qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları Peterburq Antropoloji muzeyinə vermişdir. Həmin illərdə Beyer tərəfindən aşkar olunan əmək alətlərinin bir qismi Peterburq və Tiflis muzeylərinə, bir qismi isə Naxçıvan şəhər məktəblərindən birinə verilmişdir. Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin əmək alətləri ilə tanış olmuş, onlardan qədim duz mədənlərində istifadə olunduğunu qeyd etmişdir.

1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onların duz çıxarmaq üçün istifadə olunduğunu qeyd etmişdir. Həmin ildə Qızılburun nekropolunun təsadüfən dağıdılması nəticəsində aşkar olunan arxeoloji maeeriallar bütün dünya alimlərinin diqqətini cəlb etmiş, 1896-cı ildə burada Imperator Arxeoloji Komissiyasının razılığı ilə N.V.Fyodorov arxeoloji tədqiqat aparmışdır. 1926-cı ildə A.A.Miller və I.I.Meşşaninovun rəhbərliyi ilə Naxçıvnda iki ekspedisiya işləmiş və kəşfiyyat xarkterli araşdırmalar aparılmışdır. Onlar Qızılburun nekropolunda bir neçə qəbir abidəsi tədqiq etmişlər.

1936-cı ildə Ə.K.Ələkbərov Naxçıvana arxeoloji səfər təşkil etmiş, Şahtaxtı, Şortəpə və Oğlanqalada tədqiqatlar aparmışdır. 1951-ci ildə Naxçıvanın arxeoloji abidələrinin geniş araşdırılmasına başlanmışdır. O.H.Həbibullayev 1951-1964-cü şllərdə I Kültəpə yaşayış yerində araşdırmalar apararaq Naxçıvanın qədim tarixinin böyük bir dövrünü əhatə edən maddi mədəniyyət nümunələrini aşkara çıxararaq öyrənmişdir. Bu maddi mədəniyyət nümunələri e.ə. VII-I minillikləri əhatə edir. Bu abidənin tədqiqi ilə Cənubi Qafqazda ilk dəfə olaraq Neolit mədəniyyəti aşkar olunaraq tədqiqata cəlb edilmişdir. 1968-ci ildən başlayaraq V.H.Əliyevin rəhbərliyi ilə II Kültəpə abidəsinin tədqiqi də Naxçıvanın e.ə. IV-I minilliklərə aid tarixinin öyrənilməsi və qədim şəhər mədəniyyətinin üzə çıxarılması üçün mühüm əhəmiyyətə malik olmuşdur.

1960-1980-ci illərdə Naxçıvan ərazisində yüzlərlə abidə qeydə alınmış, onların bəzisində arxeoloji tədqiqatlar aparılmışdır. Bunlar arasında Qazma mağarası, Xaraba-Gilan, I Maxta Kültəpəsi, Şahtaxtı və Oğlanqalada aparılan tədqiqatlar Naxçıvanın qədim tarixinin öyrənilməsi ilə bağlı dəyərli material vermişdir. Qazma mağarasında aparılan araşdırmalar Naxçıvanın Son buzlaşma dövründə məskunlaşdığını, bəzi abidələrdən aşkar edilən tapıntılar isə qədim daş dövründən məskunlaşdığını deməyə əsas verir.

1992-1995-ci illərdə Naxçıvanın bir qrup arxeoloji abidəsi toplu halında nəşr edilmişdir. Naxçıvan abidələrinin tədqiqində O.H.Həbibullayev, V.H.Əliyev, Ə.K.Ələkbərov, Q.M.Aslanov, S.M.Qaşqay, B.I.Ibrahimov, V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov, Q.H.Ağayev, Ə.I.Novruzlu, N.Ə.Müseyibli, Ə. Q.Cəfərov, Ə.Bədəlov və digər arxeoloqların böyük əməyi olmuşdur.

1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan, o cümldən Naxçıvan abidələrinin öyrənilməsində yeni mərhələ başlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisini sədri, hörmətli Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısı bu sahədə mühüm işlərin görülməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisini sədrinin təşəbbüsü və sərəncamlarına uyğun olaraq Nuh peyğəmbərin qəbirüstü abidəsi arxeoloji tədqiqatlar nəticəsində aşkar olunaraq bərpa edilmişdir. Nuh peyğəmbər və dünya tufanı ilə bağlı beynəlxalq konfranslar keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisini sədrinin təşəbbüsüilə 2001-2005-ci illərdə Gəmiqaya abidəsinə arxeoloji səfər təşkil edilmiş, minlərlə qayaüstü təsvir qeydə alınmışdır. Ali Məclis sədrinin sərəncamı əsasında 2006-2007-ci illərdə Naxçıvanın tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış və tədqiqatların yekunları ilə bağlı «Naxçıvan abidələri ensiklopediyası» çap olunmuşdur.

Dövlət qayğısının nəticəsidir ki, hazırda Naxçıvanda bir neçə arxeoloji ekspedisiya, o cümlədən iki beynəlxalq ekspedisiya fəaliyyt göstərir. AMEA Naxçıvan Bölməsinin ABŞ-ın Corciya, Pensilvaniya, Emori Universitetləri və AMEA Arxeologiya və Etnoqrafiya Institutu ilə birlikdə təşkil etdiyi «Naxçıvan Arxeoloji Proyekti» adlı ekspedisiya II Kültəpə, I Maxta Kültəpəsi və Oğlanqala yaşayış yerlərində araşdırmalar aparmışdır. 2008-2012-cu illərdə Oğlanqalada aprılan tədqiqatlar Naxçıvan tarixinin öyrənilməmiş səhifələrini üzə çıxarmağa imkan vermişdir. Araşdırmalar e.ə. IX-VI əsrlərdə Oğlanqalanın müstəqil dövlətin mərkəzi olduğunu və

urartulara qarşı müvəffəqiyyətlə mübarizə apardığını göstərir. Arxeoloji tapıntılar göstərir ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Naxçıvanda məskunlaşması və Naxçıvan tayfalarının Göyçə ətrafındakı Etiuni tayfaları ilə ittifaq yaratması onun yadelli işğalçılara müqavimət göstərməsinə imkan yaratmışdır. Arxeoloji dəlillərə əsasən demək olar ki, e.ə. IV əsrdə Oğlanqala Atropatena dövlətinin əsas əyalət mərkəzlərindən biri olmuşdur.

2006-2012-ci illərdə Ovçulartəpəsində aparılan araşdırmalar e.ə. V-III minilliklərdə Naxçıvanda yaşayan tayfaların həyat tərzini öyrənməyə imkan vermiş, Proto Kür-Araz mədəniyyətinin mənşəyi ortaya çıxarılmış, Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etdiyi müəyyən olunmuşdur. Ovçulartəpəsində aşkar olunan arxeoloji materialların kompleksi onu «Ovçulartəpəsi mədəniyyəti» adlandırmağa imkan vermişdir. Ovçulartəpəsində aşkar olunan, üzərində qabarıq keçi və qoyun təsvirləri olan gil qablar Naxçıvanda professional təsviri sənətin səkkiz min il tarixi olduğunu təsdiq etmişdir.

2008-2012-ci illərdə Xaraba-Gilan, Xələc, Ərəbyengicə, I Maxta Kültəpəsi, Sirab və digər abidələrdə aparılan arxeoloji araşdırmalar zamanı yerli mədəniyyətlərin inkişaf xüsusiyyətləri ilə bağlı və Naxçıvan tarixinin Qədim Şərq ölkələri ilə əlaqələrinə dair xeyli yeni faktlar aşkar olunmuşdur.

2013-2016-cı illərdə I Kültəpə yaşayış yerində birgə Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının apardığı araşdırmalar bu abidənin Cənubi Qafqazın ən qədim Neolit məskəni olduğunu göstərmişdir. Araşdırmalar həmçinin Naxçıvan şəhəri ərazisində e.ə.V minillikdən məskunlaşma olduğunu göstərmişdir.

2013-2016-cı illərdə Şərur rayonundakı Qızqalası yaşayış yerinin birgə Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən tədqiqi nəticəsində Naxçıvanda qala tipli yaşayış yerlərinin e.ə. III minilliyin sonunda mövcud olduğu təsdiq olunmuşdur.

Ümumiyyətlə Naxçıvan abidələrinin tədqiqi onların Cənubi Qafqaz və Yaxın Şərq tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malik olduğunu və Naxçıvanın qədim mədəniyyətlərin beşiyi olduğunu təsdiq edir.

# I FƏSİL. NAXÇIVANIN QƏDİM ABİDƏLƏRİ

**Daş dövrü abidələri.** Naxçıvavn ərazisində Daş dövrü yaxşı öyrənilmədiyindən onun bütün inkişaf mərhələlərini ardıcıllıqla izləmək mümkün olmamışdır. Lakin Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Naxçıvandakı bir sıra karts mağaralarında, o cümlədən Qara Zağa, Damlama, Qazma və digərlərində arxeoloji araşdırmalar aparılmışdır.

Arxeoloji araşdırmalar zamanı Kəngərli rayonunda Şahtaxtı yaşayış yerində və Şərur rayonunda Ovçulartəpəsi yaşayış yerində Daş dövrünə aid alətlər aşkar olunmuşdur. Bu alətlərin üçü xüsusili ilə diqqəti cəlb edir. Alətlər çay daşından hazırlanmışdır. Onların biri bir tərəfdən ağız kənarından mərkəzə doğru qəlpələnmə üsulu ilə hazırlanmışdır. Eyni texnika ilə hazırlanan digər daş alətlər hər iki üzdən qəlpələnmişdir. Bu alətlər Naxçıvanda insanların qədim Daş dövründən məskunlaşdığını təsdiq edir.



Şəkil 1. Qazma mağarası.

Qazma mağarasındakı tədqiqatlar xüsusilə dəyərli elmi nəticələr vermişdir. Mağarada qalınlığı 3 m olan altı mədəni təbəqə aşkar

olunmuşdur. Bu təbəqələrin üçündən – IV, V, VI təbəqələrdən osteoloji materiallar, ocaq yerləri və Müstye mədəniyyətinə aid daş alətlər aşkar edilmişdir. Altıncı təbəqə maddi-mədəniyyət qalıqları ilə xüsusilə zəngin olmuşdur. Bu təbəqədə aşkar olunan ocaqların ağzı mağaranın içərisinə yönəldilmiş vəziyyətdə olmuşdur. Əmək alətlərinin hazırlanmasında əsasən obsidian [92,7%], qismən isə çaxmaqdaşı [21 ədəd] və daşlı şistdən [5 ədəd] istifadə edilmişdir. Yerli daş növlərindən hazırlanan əmək alətləri əsasən itiuclulardan və qaşovlardan ibarətdir. Xeyli miqdarda istehsal tullantısının – nukleus, qəlpə, obsidian və çaxmaqdaşı parçalarının aşkar edilməsi göstərir ki, daşın ilkin emalı mağarada olmuşdur.

Abidənin dördüncü təbəqəsindən daş alətlərlə bərabər sümük alətlər də tapılmışdır. Biz, bıçaq, kəsici və oyuculardan ibarət olan bu alətlər heyvanların parçalanmış lülə sümüklərindən hazırlanmışdır.



Şəkil 2. Kültəpədə yaşayış binası.

Qazma mağarasından aşkar edilmiş əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin Musye dövrünə aid həmdövr abidələrindən aşkar olunmuş əmək alətləri ilə bənzərdir. Arxeoloji materialların öyrənilməsi göstərir ki, mağarada məskən salan qədim insanların əsas məşğuliyyəti ovçuluq olmuş, yığıcılıq təsərrüfatda ikinci dərəcəli rol oynamışdır. Dördüncü təbəqənin arxeoloji materiallarında Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu göstərir.

Neolit dövrü Naxçıvanda e.ə. VII-VI minillikləri əhatə edir. Araşdırmalar zamanı keramikasız Neolitə aid maddi-mədəniyyət qalıqları aşkar edilməmişdir. Naxçıvanın Neolit mədəniyyəti Yaxın Şərq ölkələrinin həmdövr mədəniyyəti ilə bir sıra ortaq xüsusiyyətlərə malik olmaqla yalnız keramikalı Neolit mərhələsini əks etdirir. I Kültəpənin "1a" və "1b" təbəqəsində rastlanan maddi-mədəniyyət qalıqları Neolit dövrünün son mərhələsini izləməyə imkan vermişdir.




Şəkil 3. Kültəpənin Neolit keramikası.

Bu dövrdə daşın işlənmə texnikası inkişaf etmiş, qədim insanlar daşı cilalamağı və deşməyi öyrənmişdir. Insanlar oturaq həyatə keçmiş, istehsal təsərrüfatını mənimsəmişdir. I Kültəpədən aşkar olunan tikinti qalıqları Neolit dövründə insanların dördkünc və dairəvi formalı evlərdə yaşadığını, başlıca olaraq əkinçilik və maldarlıqla məşğul olduğunu göstərir. Qəbilənin təsərrüfat ehtiyaclarının ödənilməsində ovçuluğun da müəyyən rolu olmuşdur. Yaşayış binalarının döşəməsi saman qatılmış gillə suvanmış, evlərin qızdırılmasında dairəvi formalı ocaqlardan istifadə edilmişdir. Bəzi

evlərin döşəməsində qamışdan toxunmuş həsir qalıqları saxlanmışdır. Bu dövrdə yaşayış yerində və evlərin döşəməsində dəfn etmə adəti mövcud olmuşdur. Dəfnlər tək və cüt olmuş, qəbirlərə əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Skeletlərin bəzisi oxra ilə boyanmışdır.



Şəkil 4. Kültəpə. Xalf tipli boyalı qab.

I Kültəpənin «1a» təbəqəsindən aşkar olunmuş oraq dişləri, obsidian plastinkalar, maral buynuzundan hazırlanmış oraq çərçivəsi əkinçilik mədəniyyətinin xeyli inkişaf etdiyini göstərir. Əkinçilik və maldarlıqla yanaşı ev sənətkarlığının digər sahələri, o cümlədən toxuculuq, dulusçuluq, daş və sümük işləmə də inkişaf etmişdi.



Şəkil 5. Neolit dövrünə aid gil qab (Kültəpə).

I Kültəpə yaşayış yerində aparılan araşdırmalar Neolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir. Araşdırmalar təsdiq edir

ki, Naxçıvanın Neolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir. I Kültəpənin erkən mərhələsində meydana gələn düzbucaqlı evlər Əliköməktəpə və Ilanlıtəpənin bənzər tikintiləri kimi Urmiya hövzəsinin qədim arxitekturası ilə bağlıdır. Neolit və Eneolit dövrünə aid düzbucaqlı tikintilərə Urmiya hövzəsində Hacı-Firuz, Yanıqtəpə və Göytəpədə rastlanmışdır. Keramika məmulatı və əmək alətlərinin bənzərliyi I Kültəpə, Pijdəlitəpə, Göytəpə, Tilkitəpə kimi abidələrin eyni mədəni rayona daxil olduğunu göstərir. I Kültəpənin Neolit mədəniyyətinin Xalaf-Ubeyd mədəniyyəti ilə bağlılığı boyalı keramika və arxasıüstə uzadılmış skeletlərin aşkar olunması ilə də təsdiq olunur. Belə qəbirlər I Kültəpədə 20,8 m dərinlikdən başlayaraq müxtəlif dövrlərə aid tikinti qatlarından aşkar edilmişdir. Bu qəbirlərin birindən Mesopotamiyadan gətirildiyi təsdiq edilən boyalı çölmək aşkar olunmuşdur. Son Neolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrinin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil orğaya çıxarılmışdır. Urmiya hövzəsində yayılan Neolit dövrünə aid boyalı keramikanın Şimali Ubeydin lokal variantı olması, Urmiya hövzəsinin qədim əkinçilik mədəniyyətinin formalaşmasında Şimali Mesopotamiyadan gələn tayfalaın müəyyən rol oynadığını təsdiq edir. Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Şübhəsiz ki, bu miqrasiyalar Naxçıvanı da əhatə etmişdir. Məlum olduğu kimi, Ubeyd mədəniyyəti protoşumerlərə və şumerlərə aid edilmişdir. Şumer dili hind-avropa dilləri ilə qohum olmamış, onun türk dilləri ilə bağlı olmasına dair inkaredilməz dəlillər aşkar olunmuşdur. Bu mədəniyyət üçün xarakterik olan arxasıüstə uzadılmış skeletlərin Mesopotamiyada yayılması şumerlərin gəlişi ilə əlaqələndirilir. I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir Azərbaycanlılarla bənzər olduğunu göstərmişdir. Mesopotamiya mənşəli boyalı keramikanın yalnız iqtisadi-mədəni əlaqələr nəticəsində deyil, həm də müəyyən əhali qrupunun, daha doğrusu, şumerlərin Naxçıvan ərazisinə gəlməsi ilə gətirildiyini söyləmək olar. Arxasıüstə uzadılmış qəbirlərin I Kültəpənin müxtəlif tikinti qatlarından aşkar olunması, bu tayfaların Naxçıvanda uzun müddət məskunlaşdığını təsdiq edən faktlardan biridir. Mesopotamiya sivilizasiyasının müəyyən nailliyyətlərinin mənimsənilməsi iqtisadiyyatın inkişafına, əhalinin daha geniş ərazilərə yayılmasına səbəb olmuşdur. Azərbaycanın cənub rayonları, o cümlədən I Kültəpə üçün xarakterik olan samanlı keramikanın Cənubi Qafqaz abidələrində yayılması qədim tayfaların cənubdan şimala doğru hərəkəti ilə

bağlı olmuşdur. Urmiya hövzəsi və Naxçıvan üçün xarakterik olan Eneolit mədəniyyətinin indiki Ermənistan ərazisində yerləşən Mahaltəpə, Xatunarx, Texut, Kültəpə və digər abidələrdə izlənilməsi onların vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edir.



Şəkil 6. Kültəpədə arxeoloji qazıntılar.

Son illərin araşdırmaları zamanı Ovçular Təpəsindən aşkar olunan heyvan qalıqlarının tədqiqi bu heyvanların vaxtilə qədim əkinçilik mədəniyyətlərinin ardınca Naxçıvana gəldiyini təsdiq edir. Lakin heyvanlar müəyyən dəyişikliyə uğrayaraq yerli şəraitə uyğunlaşmış və İkiçayarasında yaşayan əcdadlarından bir qədər fərqlənmişlər. Araşdırmalar bu heyvanların təqribən e.ə. VIII-VII minilliklərdə qədim əkinçilik mədəniyyətlərinin ardınca bu əraziyə yayıldığını göstərir. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir etdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramika, o cümlədən Xələc boyalı keramikası Cənub mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur. Sirab ətrafında qeydə alınan Zirincli, Uçan Ağıl və digər yaşayış yerlərində mis filizinin minerallarına

rastlanması, Zirincli yaşayış yerində isə mis baltalar tökmək üçün qəlibin aşkar olunması bunu bir daha təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına təlabatın artması da müəyyən rol oynamışdır. Bununla belə Naxçıvanın qədim əkinçilik mədəniyyətlərinin cənubdan gətirildiyi nəticəsinə gəlmək olmaz. Şübhəsiz ki, gəlmələr yerli mədəniyyətə təsir göstərsələr də onlarla qaynayıb qarışmış, vahid etnos halında formalaşmışdır.



Şəkil 7. Kültəpədə döşəməyə basdırılmış küplər.

Neolit dövründə Naxçıvanın qədim sakinləri əsasən oturaq həyat sürmüş, köçmə maldarlıqla məşğul olmuş, dördkünc və dairəvi formalı evlərdə yaşamınlar. Evlərin döşəməsi saman qarışıq  gillə suvanmış, onların qızdırılmasında dördkünc və dairəvi formalı sobalardan istifadə edilmişdir. I Kültəpənin XII tikinti qatında aşkar olunan tapıntılar yaşayış binalarının yaxınlığında qurulan mətbəx ocaqlarından da istifadə edildiyini göstərir.

I Kültəpənin tədqiqi Neolit evlərinin sadə daxili interyerə malik olduğunu göstərir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular olmuşdur. Ərzaq ehtiyyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanmışdır. Evlərin həyatində və təsərrüfat tikintilərinin ətrafında daş döşəmələrdən istifadə edilmişdir ki, bu da Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə malik olduğunu təsdiq edir.

I Kültəpənin VIII tikinti qatında aşkar olunan tikinti qalıqları, ritual məqsədlə istifadə olunan ocaqlar ev kultunun varlığını, yaşayış yerində ziyarətgahların olduğunu göstərir. Ön Asiya, o cümlədən Şərqi Anadolunun Neolit və Eneolit mədəniyyətləri üçün xarakterik olan ev ziyarətgahlarının interyeri yaşayış evlərindən o qədər də fərqlənməmişdir.




Şəkil 8. Kültəpədə Neolit dövrünə aid insan skeleti.

Naxçıvan ərazisinin yumşaq və mülayim iqlimi, bu ərazinin yabanı bitən yumşaq buğda, bərk buğda, covdarla zəngin olması əkinçilik mədəniyyətinin erkən meydana gəlib inkişaf etməsi üçün şərait yaratmışdır. I Kültəpədən aşkar olunmuş yumşaq buğda [Triticum sativum], şarşəkilli buğda [Triticum steriococum], cırtdan buğda [Triticum kompactum Hest], qılcıqsız arpa [Hordeum Sativum], butulkaşəkilli arpa [Hordenm Lagun culiforme] növləri əkinçiliyin müəyyən inkişaf səviyyəsində olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı əkinçiliklə bağlı əmək alətlərinin, xüsusilə toxalar, dən daşları, sürtkəclər, həvənglər, dəstələr və digər alətlərin aşkar olunması əkinçilik məhsullarının yaşayış yerində emal olunduğunu

təsdiq edir. Əkinçilik mədəniyyətinin yüksək inkişaf səviyyəsi həmçinin buynuzdan hazırlanmış oraq çərçivəsi və çoxsaylı oraq dişləri ilə də sübut olunur. Oraq dişləri və bıçaqşəkilli alətlər həm yaşayış evlərindən, həm də qəbir abidələrindən aşkar olunmuşdur. Çoxsaylı əmək alətləri və becərilən bitkilərin çeşidləri Naxçıvanda əkinçiliyin başlanğıc mərhələdə olmadığını təsdiq edir. Yaşayış yerlərinin çay kənarlarında, əlverişli mövqelərdə yerləşməsi nəinki dəmyə, həm də suvarma əkinçiliyi üçün əlverişli olmuşdur. Ovçulartəpəsinin tədqiqi Son Eneolit dövründə əhalinin başlıca olaraq arpa əkdiyini göstərir. Buğda olduqca az əkilmiş və buğdaya olan tələbatın bir qismi mübadilə vasitəsi ilə ödənilmişdir. Şübhəsiz ki, Eneolit dövründə əmək alətləri kifayət qədər təkmil olmadığından geniş əraziləri mənimsəmək və suvarma əkinçiliyini inkişaf etdirmək mümkün olmamışdır.



Şəkil 9. Ovlanmış maral sümükləri (Kültəpə).

Kültəpənin Neolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu göstərir.

Neolit dövründə iqtisadiyyatın aparıcı sahələrindən biri də maldarlıq olmuşdur. Eneolit dövrünün əvvəllərinə aid sümük qalıqlarının analizi iri buynuzlu maldarlığın təsərrüfatda əsas yer tutduğunu göstərir. Tədqiqatçıların fikrinə görə, bu dövrdə iqlimin mülayim və rütubətli olması iri buynuzlu maldarlıq üçün daha əlverişli şərait yaratmışdır. Son Neolitdə maldarlıqda əsas yeri xırdabuynuzlu heyvanlar tutmuşdur. İnsanların

həyatında köçmə maldarlığın müəyyən rolu olmuşdur. Kültəpədən aşkar olunan obsidianların analizi onların başlıca olaraq Göyəm dağlarından gətirildiyini təsdiq edir. Tapıntılar Neolit dövrünün son mərhələsində köçmə maldarlığın inkişaf etdiyini deməyə əsas verir.



Şəkil 10. Çay daşları ilə əhatələnmiş ocaq (Kültəpə).

Naxçıvanda yerləşən qədim tayfaların mədəni inkişafını göstərən faktlardan biri də metallurgiyanın meydana gəlməsi və inkişafıdır. I Kültəpənin Neolit təbəqəsindən mis külçəsindən hazırlanmış əmək aləti aşkar olunmamışdır. Ehtimal ki, bu dövrdə metal yüksək qiymətləndirildiyi üçün təkrar emal olunmuşdur. Bu isə metal əşyaların az tapılmasının əsas səbəblərindən biridir. Lakın I Kültəpədən aşkar olunmuş metal əşyaların tədqiqi Neolit dövründə iqtisadi tərəqqinin yüksək inkişaf səviyyəsində olduğunu sübut edir.

Neolit dövrü metal əşyaların hazırlanmasında istifadə olunan ərintiləri üç tipə bölmək olar. Birinci tipə təmiz misdən, ikinci tipə mis-arsen ərintisindən hazırlanan əşyalar daxildir. Üçüncü tip mis-arsen-nikel ərintisi ilə təmsil edilmişdir.

Məlum olduğu kimi, mis-nikel ərintiləri Yaxın Şərq ölkələri üçün xarakterik olmuşdur. Tədqiqatçıların fikrinə görə, Cənubi Qafqazın nikel qarışığı olan əşyaları, ya idxal olunmuş, ya da idxal olunmuş metal əsasında hazırlanmışdır.

Nikelə təbiətdə başlıca olaraq arsen və kükürdlə birləşmə halında rastlanır. Buna görə belə hesab edilir ki, mis-arsen-nikel ərintilərinin tərkibindəki nikel kupfernikel [NiAs] və arsen-nikel [Ni AsS] mineralları ilə bağlı olmuşdur. Bu minerallara arsen filizinin tərkibində çox rastlanır. Bu, həm də onunla təsdiq olunur ki, mis-arsen-nikel ərintilərinin tətbiqi, arsenin misin əsas aşqarlayıcı komponenti kimi aradan çıxması ilə kəsilmişdir. I.R.Səlimxanov apardığı tədqiqatlara əsaslanaraq belə hesab edir ki, o dövrdə insanlar nikel metalı ilə tanış olmamışdır. Lakin nikelli tuncun bəzi xüsusiyyətlərinə bələd olan metallurq əritmə prosesində xəlitəyə nikelli filizi də əlavə etmişdir.



Şəkil 11. Obsidian emalatxanasının qalıqları (Kültəpə).

I Kültəpənin birinci təbəqəsindən aşkar olunan metal əşyalar dövrünə görə olduqca inkişaf etmiş metallurgiyanın məhsuludur. Odur ki, aşkar olunan əşyalar mis metallurgiyasının erkən mərhələsini deyil, inkişaf etmiş mərhələsini təmsil edir. I Kültəpədən aşkar olunan metal əşyaların tədqiqi onlaran yerli istehsalın məhsulu olduğunu göstərmişdir. Bunu Ovçulartəpəsindən aşkar olunan metal əşyalar da təsdiq edir. Son Eneolit dövrünə aid qəbirlərin birindən tökmə üsulu ilə hazırlanmış üç ədəd təkmil baltanın, Ovçulartəpəsində körük ucluğunun tapılması, Zirinclidən isə, yastı baltalar tökmək üçün qəlibin aşkar olunması yerli istehsalın formalaşmasını təsdiq edir.

Dünyanın ən böyük arsen yataqlarından biri olan Darıdağ yatağının Naxçıvanda yerləşməsi mis-arsen metallurgiyasının yerli zəmində meydana

gəlib inkişaf etməsini təmin edən əsas faktorlardan biri olmuşdur. Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Metallurgiya və metalişləmənin yüksək inkişafı iqtisadiyyatın digər sahələrinin ahəngdar inkişafı ilə təmin edilmişdir. Cənubi Qafqazın Eneolit abidələrindən, o cümlədən Naxçıvanın Eneolit abidələrindən aşkar olunan tapıntılar Kür-Araz mədəniyyəti dövründə inkişaf edən mis-arsen metallurgiyanın əsasının məhz Eneolit dövründə qoyulduğunu göstərir.



Şəkil 12. Təsərrüfat küpünün qalıqları (Kültəpə).

Arxeoloji araşdırmalara əsasən demək olar ki, I Kültəpədə həmçinin toxuculuq, dulusçuluq, sümükişləmə, daşişləmə və ev sənətkarlığının digər sahələrinin inkişaf etmişdir.

Neolit sakinlərinin əsas məşğuliyyət sahələrindən biri dulusçuluq olmuşdur. Müxtəlif formalı gil qablarla təmsil olunan dulusçuluq məmulatı qum və saman qarışığı olan gildən əldə hazırlanaraq bişirilmişdir. O. H. Həbibullayevin fikrinə görə, qabların bişirilməsində dulus kürələrindən istifadə olunmuşdur. Keramika məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəng arasında dəyişməkdə olan rəng tonları ilə təmsil olunmuşdur. Abidələrin araşdırılması göstərir ki, saman qarışıq keramika Naxçıvanda Neolit dövründən istehsal edilmişdir. Bu tip keramika I Kültəpədə aparılan araşdırmalar zamanı aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, burada başlıca olaraq sarı və qırmızı rəngdə bişirilmiş keramika yayılmışdır. Bununla belə boz, qəhvəyi və qara rəngli keramikaya da rast gəlinmişdir.

Saman qarışığı olan qırmızı rəngdə bişirilmiş keramika Naxçıvanda Son Eneolit dövrünədək davam etmişdir. Son Eneolit dövründə əvəlki dövrlərə nisbətən keramika məmulatının çeşidi artmışdır. Məlum olduğu kimi, Azərbaycan abidələrində, o cümlədən Naxçıvanda daraqşəkilli ornamentlə naxışlanmış keramika Son Eneolit dövründə meydana çıxır.



Şəkil 13. Qapı daşı (Kültəpə).

I Kültəpədən aşkar olunan arxeoloji materiallar yüksək inkişaf etmiş bir sosial həyatın varlığını sübut edir. Neolit təbəqəsində aşkar olunan evlərin sahəsi 19 - 56 kv.m , diametri isə 5 - 8,5 m arasındadır. Düzbucaqlı binalar çox dağıntıya uğradığından onların ölçüləri tam müəyyən edilməmişdir. Evlərin sahəsi orta hesabla 37,5 kv. m olmuşdur. Belə hesab etmək olar ki, I Kültəpənin tək otaqlı dairəvi evlərində cüt nikaha əsaslanan ailə, onların bəzilərində isə böyük ailələr yaşamışdır. Bu baxımdan arakəsmələrlə ayrılan bina diqqətəlayiqdir. Etnoqrafik materiallar dairəvi formalı evlərdə böyük ailələrin yaşadığını göstərmişdir. Cüt nigaha əsaslanan ailənin Neolit dövründə formalaşdığı araşdırmalarla sübut olunmuşdur. Belə hesab etmək olar ki, Neolit dövründə cüt nikaha əsaslanan ailənin daha böyük kollektivlərdə birləşməsi prosesi getmişdir. Naxçıvanın Neolit iqtisadiyyatının əsasını cüt nikaha əsaslanan və böyük kollektivlərdə birləşmiş ailələr təşkil etmişdir. Böyük ailələrin meydana gəlməsi istehsal səylərinin birləşdirilməsi ilə də bağlı ola bilərdi. Analoji faktlar Azərbaycanın digər abidələrinin də tədqiqi zamanı ortaya çıxarılmışdır. Erkən əkinçilik mədəniyyətlərində qadınlar yüksək mövqeyə sahib olsa da,

texnikanın və təsərrüfatın inkişafı kişinin rolunu artırmışdır. Ehtimal ki, Neolit dövrünün sonunda 5-7 nəfərlik üzvdən ibarət ailəyə kişi rəhbərlik etmişdir.



Şəkil 14. Neolit dövrünə aid insan skeleti (Kültəpə).

I Kültəpənin Neolit dövrünə aid qəbir abidələrinin müəyyən bir qismində qəbir avadanlığına rastlanması, digərlərində isə ona təsadüf olunmaması xüsusi mülkiyyətin mövcudluğunu ehtimal etməyə imkan verir. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi insanların sosial həyatında bərabərsizliyin meydana gəldiyini təsdiq edir. Bu həmçinin yaşayış yerindən aşkar olunan, zəngin qəbir avadanlığı ilə dəfn olunmuş uşaq qəbiri ilə də təsdiq olunur.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, Neolit dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə baxmayaraq, əkinçilik və maldarlıq təsərrüfatda aparıcı mövqe tutmuşdur. Məhsuldarlığın artırılması, qorunması, habelə təbii stixiyalara qarşı mübarizə qədim insanların ideoloji təsəvvürlərinin formalaşmasında mühüm rol oynamışdır. Qonşu Şərq ölkələrindən fərqli olaraq Naxçıvan sakinlərinin dairəvi formalı, evlərə üstünlük verməsi ehtimal ki, onların ideoloji təsəvvürləri ilə də bağlı olmuşdur. Azərbaycan xalqı arasında yayılan inanclara görə insanın ətrafına çəkilmiş dairə onu bəd ruhlardan qoruya bilərmiş. Göyəm dağlarındakı bəzi qayaüstü rəsmlərdə insanlar dairənin içərisində təsvir edilmişdir. Ehtimal ki, evlərin dairəvi formada tikilməsi insanların təbii stixiyadan, bəd qüvvələrdən qorunması ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Tədqiqatlar bu dövrdə

Günəş və Ayla bağlı inancların yayıldığını göstərir. Bu inanclar Neolit dövründən sonra da arxeoloji materiallarda aydın şəkildə izlənmişdir. Daim işıq mənbəyi və təbiətin məhsuldar qüvvələrinin başlanğıcı olan Günəş insanlar tərəfindən ilahiləşdirilmiş, sitayiş obyektinə çevrilmişdir.

Naxçıvanın qədim sakinlərinin dünyagörüşü ilə bağlı ən dəyərli materiallar qəbir abidələrinin tədqiqi zamanı aşkar olunmuşdur. Bu dövrə aid qəbir abidələri yalnız I Kültəpənin Neolit təbəqəsindən aşkar olunmuşdur. Qəbir avadanlığı başlıca olaraq bəzək əşyalarından, əsasən muncuqlardan ibarət olmuşdur. Lakin qəbirlərin bəzilərində əmək alətlərinin qalıqlarına, o cümlədən oraq dişlərinə rastlanmışdır. Araşdırmalar Neolit dövründə I Kültəpədə yaşayış binalarının altında və onların arasında dəfn etmə adətinin olduğunu göstərir. Qəbirlərin müəyyən istiqaməti yoxdur, skeletlər müxtəlif cəhətlərə yönəldilmiş vəziyyətdə aşkar edilmişdir. Bəzi qəbirlərin döşəməsi dəfndən əvvəl gillə suvanmış, bəzilərində isə dəfndən sonra qəbrin üzərinə gil suvaq çəkilmişdir. Skeletlərin böyük bir qrupunun üzərində həsir qalıqlarına rastlanması onların dəfn zamanı həsirə büküldüyünü göstərir. Skeletlər sol, yaxud sağ böyrü üstə, bəzən isə arxası üstə uzadılmış vəziyyətdə aşkar olunmuşdur. Qəbirlərin bəzisində mərhumun başının altına daş, yaxud gil qab parçası qoyulması adətinə rastlanmışdır. Dəfnlər tək, cüt və kollektiv halda olmuşdur. Şübhəsiz ki, evin döşəməsində dəfn etmə adəti ulu əcdada sitayiş, mərhumun ruhunun daim evdə olması, evin, ocağın mühafizəsi, son nəticədə məhsuldarlığın təmin edilməsi ideyası ilə bağlı olmuşdur. Mifoloji şəkildə dərk edilən o biri dünya qədim insanların mövcudluğunun əsasını təşkil etmişdir. Qəbilə rəhbərinin evin altında dəfn edilməsi əcdadın ruhunun çağrılması, onların qəbrinə təmas edilməsi və s. vasitələrlə əcdadın ruhu ilə əlaqə yaradılışına sübutdur.

Qəbirlərin ikisində it skeletinə rastlanmışdır. Məlum olduğu kimi, it insanların əhliləşdirdiyi ilk heyvanlardan biridir. Araşdırmalar itlə dəfn etmənin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. Itlə bağlı dəfnə Naxçıvanda Sarıdərə nekropolunda və Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində də rastlanması bunu təsdiq edir.

İtlə bağlı inincların yaranması maldarlığın yaranmasından xeyli əvvələ, ovçuluq dövrünə aiddir. İtlərin iy və iz bilmə keyfiyyətləri onlara böyük önəm qazandırmış, qədim ovçu tayfalar ovun axtarılması və tutulmasında böyük rolu olan itə sitayiş etmişlər.

İstər Ön Asiya abidələrindən, istərsə də Azərbaycan abidələrindən aşkar olunan itlə bağlı dəfnlər bu adətin qədim ovçu-maldar tayfaların inancları ilə bağlı olduğunu təsdiq edir. İtlə bağlı dəfnlər müəyyən ritualla bağlı olmuş, sakral məna daşımışdır. Şübhəsiz ki, qədim insanların dini-

mifoloji görüşlərinin formalaşmasında maldar tayfaların itin qoruyucu funksiyası ilə bağlı inancları da müəyyən rol oynamışdır. Etnoqrafik materiallar həyətlərdə it kəlləsi asılmasının insanların bəd ruhlardan qorunması ilə bağlı olduğunu göstərir.

Məlum oluğu kimi, skif tayfa birliklərindən birinin rəhbəri İspaka adlanmışdır. İspaka sözünün midiya dilində sbaka [sobaka] sözünə zahirən bənzədiyinə əsaslanan bəzi tədqiqatçılar skiflərin irandilli olduğunu qeyd etmişdir. Lakin O.Süleymanov iz-bak=ispak=sıbak [sbaka] çevrilməsinin mümkünlüyünü sübut etmiş və sobaka sözünün hind-iran dillərinə türk dilindən keçdiyini söyləmişdir. İtə sitayiş semitlərdə, hind-avropalılarda, fin-uqarlarda rastlanmışdır. Lakin qədim köçəri türk tayfaları itə Tanrı kimi sitayiş etmiş, miflərdə isə öz mənşələrini onunla bağlamışlar. Tobol tayfalarında ulu əcdad-əfsanəvi qəhrəman Ak-kobok [Ağ köpək] adlanmışdır. Ağ noqoylar da həmçinin Ak-koboku öz əcdadları hesab etmişlər. Kobyak [köpək] adı türk tayfaları arasında geniş yayılmış adlardan biri olmuşdur. Tayfa başçılarına it adı qoyulması onları bəd ruhlardan mühavizə etmək, onların yenilməzliyini təmin etmək məqsədi güdmüşdür. Başqırlarda mövcud olan adətə görə qadının uşağı tez-tez öldükdə uşağı anadan ayırıb it südü ilə bəsləyirdilər. Yaxud azərbaycanlılar uşağı olmayan qadını və onun uşağını qurd dərisindən keçirirdilər. Araşdırmalar itlə dəfnetmənin və ona sitayişin türk xalqlarının mifologiyası ilə bağlı olduğunu təsdiq edir.

Qəbirlərin birində kəllənin ayrıca qoyulması adətinə rastlanmışdır. Kəllənin ayrıca qoyulması əcdada sitayişin formalarından biri hesab edilə bilər. Ön Asiya abidələrində aparılan araşdırmalarla müəyyən edilmişdir ki, dəfn zamanı qəbilə rəhbərlərinin başı bədənindən ayrılaraq boyanmış və evlərdə düzəldilmiş xüsusi səkilərin üzərində saxlanmışdır. Bəzi tədqiqatçılar kəllənin ayrıca dəfn edilməsini, yaxud evdə saxlanmasını kəlləyə sitayişlə əlaqələndirmişlər.

Yuxarıda qeyd edildiyi kimi, I Kültəpə qəbirlərinin bəzisində mərhumun başının altına daş qoyulması adətinin movcud olması aşkara çıxarılmışdır. Ön Asiyanın bir sıra abidələrinin tədqiqi zamanı mərhumun başının altına daş qoyulması müəyyən edilmişdir. Arxeoloji araşdırmalar bu adətin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. Belə hesab edirik ki, mərhumun başının altına daş qoyulması adəti türk xalqları içərisində geniş yayılan daşa sitayişlə bağlı olmuşdur. İnanca görə, insan dünyasını dəyişərkən, onun ruhu daşa keçir. Azərbaycan türklərinin folklorunda ruhun daşa keçməsi, insanların daşa dönməsi, daşın balalaması ilə bağlı xeyli inanclar vardır. Daşla niyyət etmə adəti Azərbaycan xalqı arasında indi

də qalmaqda davam edir. I Kültəpə tapıntısı göstərir ki, Azərbaycan türkləri arasında yayılan daşa və dağa sitayişin tarixi kökləri olduqca qədimdir. Qədim dünyanın bir çox xalqlarında olduğu kimi Azərbaycanda məskən salan qədim tayfaların da dünyagörüşündə Tanrıların dağlarda məskən salması haqqında təsəvvürlər olmuşdur. Xalq arasında müqəddəs hesab edilən bir çox ziyarətgahların hündür dağlarda yerləşməsi də bununla bağlıdır. Dağların ziyarətgaha çevrilməsində, habelə bu bölgələrdə qaya təsvirlərinin yaranmasında dağa sitayişin mühüm rolu olmuşdur. Dağ ziyarətgahlarına Naxçıvan ərazisində çox rastlanmışdır. Belə ziyarətgahların tipik nümunələrindən biri Əshabi-Kəhf ziyarətgahıdır. Bu ziyarətgah Azərbaycan xalqının islamaqədərki bir çox inanclarını qoruyub saxlamışdır. Burada daş atma, dilək daşı, daşla niyyət etmə və digər inanclar daşa sitayişlə bağlıdır.

Neolit dövrünə aid dəfn adətinin xarakterik cəhətlərindən biri skeletlərin oxra ilə boyanmasıdır. Skeletlərin oxra ilə boyanması məhsuldarlıqla bağlı olmuşdur. Araşdırmalar göstərir ki, skeletlərin oxra ilə boyanması insanların işıq və qaranlıq haqqındakı təsəvvürlərini əks etdirmişdir. Qırmızı rəng qədim insanların təsəvvürlərində od, işıq, Günəş rəmzi olmuşdur. Məhsuldarlığın və artımın başlıca mənbəyi hesab edilən Günəş kosmik başlanğıc kimi düşünülmüş, xaotik başlanğıca qarşı qoyulmuşdur. Skeletlərin oxra ilə boyanması, şübhəsiz ki, mərhumun məzarının işıqlandırılması, onun ruhunun bəd ruhlardan qorunması, dirilmə ideyası ilə bağlı olmuşdur. Naxçıvan abidələrinin tədqiqi göstərir ki, bu ideya qədim tayfalar arasında uzun müddət yaşamış və başlıca olaraq onların mifoloji təsəvvürləri ilə bağlı olmuşdur.

**Mis – daş dövrü [Eneolit] abidələri.** Eneolit dövrü e.ə. V-IV minillikləri əhatə edir. Bu dövrdə mis emalının və metalişləmənnin əsası qoyulmuşdur. Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Naxçıvanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rastlanması mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər mənimsənilmişdir. Naxçıvanda Eneolit mədəniyyəti Daş dövrünə nisbətən daha geniş öyrənilmsişdir. Bu dövrə aid I Kültəpə, Ovçulartəpəsi, Sədərək, Xələc, Ərəbyengicə və digər abidələr qeydə alınmışdır. Son illər Babək rayonunun Sirab kəndi yaxınlığında aparılan araşdırmalar zamanı 20-dən artıq Eneolit abidəsi aşkar olunmuşdur.

Cənubi Qafqazda, o cümlədən Azərbaycanda erkən əkinçilik və heyvandarlıq mədəniyyətlərinin önəmli yer tutan yaşayış yerlərindən biri Naxçıvan şəhəri yaxınlığında I Kültəpə yaşayış yeridir. Məlum olduğu kimi, bu yaşayış yerinin tədqiqi 1951-ci ildən başlanmışdır. O.H.Həbibullayev yaşayış yerinin ən altda yerləşən "1a" təbəqəsini Neolit dövrünə, "1b" təbəqəsini isə Eneolit dövrünə aid etmişdir. Daha sonra O.H.Həbibullayev bu fikrindən imtina edərək hər iki təbəqəni Eneolit dövrünə aid etmişdir. Amma son illər I Kültəpədə aparılan araşdırmalar bu abidənin "1a" və "1b" olaraq adlandırılan təbəqələrinin Son Neolit dövrünə aid olduğunu təsdiq etmişdir. Kültəpənin müxtəlif təbəqələrindən götürülən karbon analizlərin nəticələri e. ə. 6070-5200-cü illəri göstərmişdir (Tablo 1). Bu dövr Cənubi Qafqazı tədqiq edən tədqiqatçılar tərəfindən Son Neolit dövrü olaraq qəbul edilmişdir. Eneolit dövrü I Kültəpədə yaxşı təmsil edilmədiyindən Naxçıvanın Eneolit mədəniyyətinin öyrənilməsində I Kültəpə ətrafında aşkar olunan Eneolit dövrünə aid yeni yaşayış yerləri olduqca önəmlidir. Bu baxımdan Sirabçay hövzəsində aşkar olunan yaşayış yerləri xüsusi əhəmiyyətə malikdir. Bu yaşayış yerlərindən götürülən karbon analizlərin nəticələri e. ə. 4600-3800-cü illəri göstərmişdir[1]. Bütöv olaraq götürüldükdə Eneolit dövrünün erkən və orta mərhələsinə aid abidə Cənubi Qafqazda yox deyiləcək qədər azdır. Bu baxımdan Sirabçay hövzəsində aşkar olunan Uzun Oba və Uçan Ağıl yaşayış yerlərinin müəyyən əhəmiyyəti vardır. Bu yaşayış yerlərindən götürülən karbon analizlərin nəticələri e. ə. 4690-4450-ci illəri göstərməklə Ovçulartəpəsi ilə təmsil olunan son Eneolit dövründən əvvəlki dövrə aiddir.

Uzun Oba yaşayış yeri müəyyən xüsusiyyətlərinə görə diqqət çəkir. Yaşayış yerində aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, bu abidəyə aid mədəni təbəqənin üzəri 2 m qalınlığında torpaq qatı ilə örtülmüşdür. Babək rayonunun Uzunoba kəndi yaxınlığında, Naxçıvançayın sağ sahilində yerləşən bu abidə yalnız kəşfiyyat xarakterli qazıntı ilə öyrənilmişdir. Abidənin şərq yamacında 2 m uzunluğunda açılan kəşfiyyat qazıntısı zamanı alınan stratiqrafik kəsikdə 2, 5 m qalınlığında olan təbəqənin yığılma ardıcıllığını müəyyən etmək mümkün olmuşdur. Qazıntı zamanı e.ə. V minilliyin birinci yarısı ilə tarixlənən boyalı keramika parçalarının aşkar olunması (Şəkil 15, 3-4) mədəni təbəqənin e. ə. V minilliyə aid olduğunu göstərir ki, bu da region üçün olduqca nadir haldır. Bu dövrə aid maddi-mədəniyyət nümunələri 2010-cu ilin qazıntıları zamanı Culfa Kültəpəsindən də aşkar olunmuşdur ki, bu da həmin istiqamətin e. ə.

---

[1]Kömür nümunələri İtaliyanın Lesse şəhərindəki laboratoriyada analiz edilmişdir.

V minillikdə, yaxud ondan əvvəl Şimal-Qərbi İranla (Cənubi Azərbaycan) Naxçıvançay vadisi arasında əsas yol olduğunu göstərir. Naxçıvançay və Sirabçay hövzəsində yapılan arxeoloji və geomorfoloji araşdırmalar e. ə. V minilliyin sonlarına doğru Naxçıvanda müəyyən yaşayış yerlərinin, o cümlədən Uzun Oba və Dəyirman Yeri kimi abidələrin daşqına məruz qaldığını və mədəni təbəqənin qalın torpaq qatı ilə örtüldüyünü göstərir. Bu hadisə Naxçivanda bəzi yaşayış yerlərinin torpaq altında qalaraq izsiz itdiyini göstərir.




Şəkil 15. Eneolit dövrünün boyalı keramikası: Uçan Ağıl (1-2), Uzun Oba (3-4) və Ovçular Təpəsi (5).

Araşdırmalar göstərir ki, Urmiya hövzəsi və Culfa Kültəpəsində başlıca olaraq Sünik obsidianından istifadə edilmişdir. Şübhəsiz ki, Arazdan cənubda yerləşən yaşayış yerlərinin Sünik obsidianı ilə təmin edilməsi Naxçıvançay, Sirabçay və Qahabçay vadisində yerləşən abidələr vasitəsi ilə

həyata keçirilmişdir. I Kültəpə və Ovçular Təpəsinin obsidian məmulatı arasında az da olsa Şərqi Anadoludan – Meydandağdan gətirilmiş obsidiandan da istifadə olunmuşdur ki, bu da Şərqi Anadolu ilə əlaqələrin olduğunu təsdiq edir (Tablo 2).

Babək rayonunun Sirab kəndindən şimalda yerləşən Uçan Ağıl yaşayış yerinin yerüstü materialları boyalı qablar və samanlı keramika nümunələrindən ibarətdir (Şəkil 15, 1, 2; Şəkil 17). Abidədə Kür-Araz mədəniyyətinə aid keramika parçalarına da rast gəlinmişdir. Tapıntılar arasında Duzdağdan məlum olan daş baltalara bənzər bir ədəd əmək alətinin aşkar olunması da diqqətəlayiqdir. Yaşayış yerində üç yerdə qazıntı aparılmışdır. Birinci sahənin ölçüsü 5x5 m, ikinci sahənin ölçüsü 5x5 m, üçüncü sahənin ölçüsü 5x10 m olmuşdur. Qazıntılar mədəni təbəqənin relyefdən asılı olaraq 20-60 sm arasında olduğunu göstərir. Uçan Ağıl yaşayış yerinin tədqiqi zamanı saman qarışığı olan qırmızı rəngli keramika nümunələri, o cümlədən boyalı qabların parçaları aşkar olunmuşdur. Keramika nümunələrinin araşdırılması onların e. ə. V minilliyin birinci yarısına və Ovçular Təpəsindən əvvələ aid olduğunu təsdiq edir.

Bu, abidələrdən götürülən karbon nümunələrinin analizi ilə də təsdiq olunmuşdur. Uçan Ağıl yaşayış yerindən Culfa Kültəpəsindən məlum olan Dalma Təpə tipli boyalı keramika parçalarının aşkar olunması bu yaşayış yerləri arasında əlaqələrin olduğunu təsdiq etməkdədir. Ovçular Təpəsi yaşayış yerindən götürülən karbon nümunələrinin analizi Son Eneolit dövrünə aid nəticələr vermişdir. Bu yaşayış yerindən Dalma Təpə tipli boyalı keramika aşkar olunmasa da, bir nümunə ilə təmsil olunan Ubeyd tipli boyalı keramika Mesopotamiya ilə əlaqələrin olduğunu göstərir. Qeyd edək ki, Uçan Ağıldan aşkar olunan boyalı keramika nümunələrinin biri də Mesopotamiya ilə əlaqələrin olduğunu təsdiq edir. Bununla bərabər Sirabçay hövzəsindən aşkar olunan Son Eneolit dövrü keramikası Ovçular Təpəsi mədəniyyətində fərqli xüsusiyyətlərə malikdir. Ovçular Təpəsindən fərqli olaraq Sirabçay hövzəsinin Son Eneolit keramikasında darama bəzəmələr yoxdur. Ovçular Təpəsindən sonraya aid olan bu mədəniyyət sarı və qırmızı rəngli, saman qarışığı olan keramika ilə təmsil olunmuşdur. Saman qarışığı olan keramika nümunələrinin bir qismi cilalanmışdır. Keramika nümunələrinin bir qismi isə qaba qum qarışığı olan gildən hazırlanmışdır. Bu yaşayış yerlərinin araşdırılması Naxçıvanın Erkən və Son Eneolit dövrü mədəniyyətinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə əlaqələr şəraitində inkişaf etdiyini göstərir.

| | Sampl İD | Sample | Radiocarbon Age (BP) | $\delta^{13}C$ (‰) | Date BC (95,4%) |
|---|---|---|---|---|---|
| 1 | Kultepe-2013-B-035 | LTL14889A | 6374 ± 50 | -24.4 ± 0.4 | 5473-5293 BC |
| 2 | Kultepe-2013-B-006 | LTL14890A | 6926 ± 45 | -18.6 ± 0.2 | 5903-5720 BC |
| 3 | Kultepe14-P1,002 | LTL14935A | 6477 ± 45 | -21.3 ± 0.6 | 5520-5341 BC |
| 4 | Kultepe14-D004 | LTL14936A | 7042 ± 45 | -22.8 ± 0.6 | 6014-5836 BC |
| 5 | Kultepe14-C021 | LTL14937A | 6548 ± 45 | -19.6 ± 0.5 | 5616-5466 BC |
| 6 | Kultepe14-A057 | LTL14939A | 6420 ± 45 | -25.5 ± 0.3 | 5475-5320 BC |
| 7 | Kultepe14-A072 | LTL14940A | 6355 ± 45 | -23.9 ± 0.6 | 5468-5399 BC |
| 8 | Kultepe13 AO12 | LTL14035A | 6462 ± 45 | -26.6 ± 0.5 | 5490-5320 BC |
| 9 | Kultepe14-C034 | LTL15113A | 7099 ± 50 | -21.1 ± 0.6 | 6070-5880BC |
| 10 | Kultepe14-C032 | LTL15114A | 7065 ± 50 | -19.9 ± 0.5 | 6040-5840BC |
| 11 | Deyirman Yeri | LTL14886A | 5011 ± 45 | -26.4 ± 0.3 | 3946-3701 BC |
| 13 | Yeni Yol2013 | LTL14894A | 5063 ± 45 | -22.1 ± 0.5 | 3965-3761 BC |
| 14 | Yeni Yol2014-1007 | LTL14895A | 4853 ± 45 | -17.1 ± 0.4 | 3712-3622 BC |
| 15 | Serin Bulaq 2013-1 | LTL14892A | 4953 ± 40 | -20.7 ± 0.4 | 3902-3880 BC |
| 16 | Ucan Agil2013 | LTL14893A | 5585 ± 45 | -21.9 ± 0.7 | 4497-4344 BC |
| 17 | Sorsu 2013: 1008 | LTL14063A | 4945 ± 45 | -27.7 ± 0.5 | 3910-3870 BC |
| 18 | Uzunoba 15- 010 | LTL16019A | 5674 ± 45 | -20.3 ± 0.5 | 4620-4370 BC |
| 19 | Uçan Agıl 15-2019 | LTL16009A | 5713 ± 45 | -23.4 ± 0.4 | 4690-4450 BC |

Tablo 1. Naxçıvanın Neolit və Eneolit yaşayış yerlərindən götürülən karbon nümunələrin analizinin nəticələri.




Şəkil 16. Sirabçay və Qahabçay qeydə alınmış Eneolit abidələri (1-3, 5-8, 11-12, 16-17, 33, 35, 37-40, 43).




Şəkil 17. Erkən Eneolit keramikası.

Ovçular Təpəsinin keramikası Şərqi Anadoluda Tülintəpə və Norşuntəpə kimi yaşayış yerlərinin keramikası ilə yaxın bənzərlik göstərir. Şərqi Anadolunun Son Eneolit keramikası Ovçular Təpəsində olduğu kimi saman qarışıqlı və darama naxışlıdır. Lakin Şərqi Anadolu yaşayış yerlərinin keramikası texnoloji baxımdan, xüsusilə rəng baxımından Ovçular Təpəsinin keramikasından fərqlidir. Sirabçay hövzəsinin keramikası texnoloji baxımdan və gilinin rənginə görə daha çox Urmiya hövzəsinin keramikası ilə bənzərdir.

Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində Naxçıvançay, Sirabçay və Qahabçay vadisində 23 Eneolit abidəsi aşkar olunmuşdur. Bu abidələrin bəzisində, xüsusilə Yeni yol və Şorsu yaşayış yerlərində Neolit keramikasının aşkar olunması bu vadilərin həmin dövrdən

məskunlaşdırıldığını təsdiq edir. Yeni yaşayış yerlərinin GPS qeydiyyatı onların cənubdan şimala doğru istiqamətləndiyini göstərir.



Şəkil 18. Uçan Ağıl yaşayış yeri.

Bu yaşayış yerlərinin tədqiqi pastoral həyat tərzinin Neolit dövründən mövcud olduğunu təsdiq edir. Araşdırmalar göstərir ki, bu mövsümi yaşayış yerləri Göyəm, Dərələyəz və Zəngəzur dağlarında yerləşən metal və qeyri metal yataqların istismarında müəyyən rol oynamışdır. Zirincli yaşayış yerində mis filizinin qalıqlarına və metal qəliblərə rast gəlinməsi bu yaşayış yerlərində metal emalının mövcud olduğunu göstərir. Zirincli yaşayış yerindən aşkar olunan gil qəlib standart yastı baltalar tökmək üçündür. Bu, yaşayış yerində bu tip baltaların seriyalarla buraxıldığına işarə etməkdədir. Ovçular Təpəsində isə metaləritmə sobaları üçün körük ucluğu tapılmışdır. Məlum olduğu kimi mis ilə zəngin Zəngəzur dağlarının yataqlarından qədim dövrdə istifadə olunmuşdur. Zəngəzur yataqlarında qədim mədənlərə və mis emalının izlərinə də rast gəlinmişdir. Şübhə yoxdur ki, qədim insanların köç yolları üzərində salınan bu yaşayış yerləri Zəngəzur mis yataqlarınının Naxçıvanda məskunlaşan tayfalar tərəfindən istismar edildiyini göstərir. Naxçıvanın Eneolit abidələrinin bir qismində Sünik yataqlarının obsidianlarından istifadə olunması da bunu təsdiq edir.

Naxçıvanın Erkən və Son Eneolit keramikasının bir qismi boya ilə naxışlanmışdır. Boyalı keramika nümunələri texnoloji baxımdan fərqli xüsusiyyətlərə malikdir. Bir qisim keramika nümunələrində naxışlar birbaşa

qabın saxsısı üzərinə, digərlərində isə boya üzərindən çəkilmişdir. Bu tip boyalı qablara Xələcdə daha çox rast gəlinmişdir. Küpə və kasalardan ibarət olan Xələc qablarının bir qisminin üzəri qırmızı-qəhvəyi rənglə örtülmüş (Şəkil 3, 2), bir qisminin isə naxışları qara və qırmızı rənglə qabların qırmızı, ya da narıncı rəngli saman üzlü saxsısı üzərinə çəkilmişdir. Naxışlar düz və dalğalı enli xətlərdən ibarətdir (Şəkil 3, 1). Bu tip boyalı keramika Şortəpə və Ovçulartəpəsindən də məlumdur. Boya başlıca olaraq qırmızı rəng üzərindən, qabların cilalanmış səthinə qəhvəyi ya da qara rənglə çəkilmiş naxışlar üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki bu qrupdakı boyalıların bir qrupu qarışığı olmayan gildən hazırlanmışdır. Xələc və Ovçulartəpəsi qablarının bir qismi birbaşa qabın saxsısı üzərinə sürmə ilə çəkilmiş ornamentlə naxışlanmışdır. Ovçular Təpəsi boyalı qablarının bir qismi Norşuntəpə boyalıları ilə eyni özəllikləri paylaşır.




Şəkil 19. Xalacın boyalı keramikası.

Xələc keramikasının formaca Urmiya hövzəsindəki Göytəpə yaşayış yerindən aşkar olunan qablarla bənzər olmasına baxmayaraq boyama motivləri tamamilə fərqlidir. Lakin Göytəpədə də anqobüstü naxışlara rastlanır. Yanıqtəpə ilə də bəzi müqayisələr aparmaq mümkündür. Yanıqtəpə

qablarında Xələc üçün xarakterik olan enli paralel xətlərə rastlanır. Xələc keramikasının bəzəmə motivi yaxınlıqda yerləşən Tilkitəpə və Texut keramikasından fərqlənir. Xələc keramikasının bəzi motivləri Mil düzünün abidələri, xüsusilə Kəbirli keramikasının naxışları ilə uyğundur. Onlar naxışların çəkilmə texnikasına görə də eynidir. Bəzi hallarda Xələcdə olduğu kimi anqobüstü naxışlardan istifadə olunmuşdur. Xələc keramikasının naxış motivlərinin bənzər olduğu abidələrdən biri Norşuntəpədir. Lakin Norşuntəpədə boya anqob üzərinə deyil, qabın saxsısı üzərinə çəkilmişdir. Xələc boyalılarının bəzi bəzəmə motivləri Xalaf tipli qablarda da işlənmişdir.

| Yer | Alət sayı | Meydan Dağ | Sünik 2 | Sünik 3 | Göyəm |
|---|---|---|---|---|---|
| Çay Ağzi | 2 | | | 2 | |
| Kültəpə | 8 | 1 | | 2 | 5 |
| Qələmə Bulaq | 2 | | | 2 | |
| Uçan Ağil | 2 | | | 2 | |
| Sərin Bulaq | 2 | | | | 2 |
| Zirincli | 6 | | 1 | 1 | 4 |

Tablo 2. Naxçıvanın Neolit və Eneolit abidələrindən obsidian analizlərinin nəticəsi.

Naxçıvançay və Sirabçay vadisində yerləşən abidələrdən aşkar olunan boyalı keramikanın, xüsusilə Yeni Yol, Uçan Ağıl və Uzunobadan aşkar olunan nümunələrin naxışlama motivləri Hacı Firuz və Dalma təpə keramikası ilə uyğundur.

Araşdırmalar göstərir ki, Naxçıvanın boyalı keramikası Urmiya hövzəsi və Şərqi Anadolunun arxeoloji materialları ilə bənzərdir. Naxçıvan boyalı qablarının araşdırılması onların yerli istehsala məxsus olduğunu, bəzilərinin isə mübadilə yolu ilə Şimali Mesopotamiyadan idxal edildiyini göstərir. Amma idxal malları olduqca azdır.

Yeni tapıntılar Naxçivanın Eneolit dövrü mədəniyyətini kəsintisiz izləmək üçün olduqca faydalıdır. Arxeoloji materiallar arasında Erkən və Son Eneolit dövrünə aid keramika məmulatı vardır. Söyləyə bilərik ki, son zamanlar Naxçivanda aşkar olunan yeni yaşayış yerləri Son Neolit və Eneolit dövrü mədəniyyətini bütövlükdə ələ almağa imkan verəcək,

Naxçıvanın Neolit və Eneolit mədəniyyətinin Yaxın Şərq, xüsusilə Şərqi Anadolu ilə əlaqələrini müəyyənləşdirməyə imkan verəcəkdir. Digər tərəfdən Naxçıvanın yaşayış yerlərində az da olsa Şərqi Anadoluda mövcud olan obsidian yataqlarının materiallarından istifadə olunması bu bölgələr arasında əlaqələrin olduğunu təsdiq etməkdədir. Lakin Culfa Kültəpəsi vasitəsi ilə Urmiya hövzəsi ilə əlaqələr daha intensiv olmuşdur. Belə hesab edirik ki, gələcək araşdırmalar zamanı Naxçıvanın Şərqi Anadolu ilə əlaqələrinə aid yeni tapıntılar ortaya çıxarılacaqdır.



Şəkil 20. Şorsu yaşayış yeri.

Son Eneolit dövrü Ovçulartəpəsində geniş öyrənilmişdir. Bu yaşayış yerində Eneolit mədəniyyətinin iki mərhələsi izlənmişdir.Birinci mərhələ üçün yarımqazma evlər, ikinci mərhələ üçün isə dördkünc formalı çoxotaqlı evlər xarakterik olmuşdur.

**Qədim duz mədənləri.** Duzdağ Naxçıvan şəhərinin 10 kilometrliyində, Təbrizi Konstantinopolla birləşdirən əvvəlki Böyük ipək yolu üzərində yerləşir. Onun yerləşdiyi ərazinin Cənubi Qafqazın əsas strateji marşrutları üzərində olduğunu nəzərə alaraq demək olar ki, onun zəngin duz layları qədim dövrdən diqqəti cəlb etmişdir. Mənbələrdə Naxçıvan Duzdağının Nuh peyğəmbər tərəfindən aşkar edilməsi haqqında əsatirlər vardır. Rəvayətə görə əfsanəvi gəmisi ilə bəşəriyyəti dünya tufanından xilas etmiş Nuh peyğəmbər Naxçıvan Duzdağını da kəşf etmiş, ikinci sivilizasiyanın əsasını qoymuşdur. Yataqların müəyyən olunması,

mədənlərin qazılması, duz parçalarının əldə olunması, daşınması, üyüdülməsi, alınıb-satılması, əmək alətlərinin – daş baltaların, pazların hazırlanması sənətkarlığın yüksək inkişafından şəhər tipli yaşayış tərzinin



Şəkil 20. Duzdağın ümumi görünüşü.

formalaşmasından xəbər verir. Buna görədir ki, dünyadakı duz mədənlərinin demək olar ki, hamısının yaxınlığında qədim şəhərlər vardır.




Şəkil 21. Duzdağdan tapılmış əmək alətləri.

Birgə Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının 2006-2012-ci illərdə Duzdağda apardıqları axtarışlar nətlcəsində əldə etdikləri nəticələr Naxçıvan duz mədənlərinin 8 min ildən çox yaşı olduğunu təsdiq etmişdir.

Kənd mühitindən uzaq mədənçilik işi şəhər tipli yaşayış üçün səciyyəvidir. Naxçıvanda şəhərsalmanın tarixi ən azı Duzdağ mədənləri ilə eyni vaxta, bəlkə bir az da qədimlərə aiddir. Çünki Duzdağ üçün əmək alətlərinin – daş baltaların, pazların, daşınma vasitələrinin hazırlanması, duzun üyüdülməsi, ticarəti şəhər mədəniyyəti üçün xarakterikdir. Duzdağda əmək alətlərinə, axtarış işlərinə, daşınmaya, duzun üyüdülməsinə, satışına, mübadlləsinə yaranan tələbat Naxçıvanda şəhərsalma, şəhərləşmə işinin inkişafına təkan vermişdir. Tarixin bütün dövrlərində Duzdağ amili Naxçıvan şəhərinin taleyində mühüm rol oynamışdır.



Şəkil 22. Duzdağda arxeoloji araşdırmalar.

Müxtəlif vaxtlarda Duzdağdan tapılmış daş baltaları arxeoloq alimlər tarixin ayrı-ayrı dövrlərinə aid edirlər. Nəzərə almaq lazımdır ki, dəmirin kəşfinə qədərki bütün mərhələlərdə, hətta Tunc dövründə və sonrakı dövrlərdə də Duzdağda daş baltalardan istifadə olunmuşdur. Şübhəsiz ki, tapılan baltalar müxtəlif dövrlərə aiddir. Duzdağda mədən işləri nə vaxtdan başlayıbsa, daş baltalardan da həmin dövrdən istifadə olunmuşdur. Naxçıvan Duzdağının daş baltalarının ilk nümunələri mis-daş dövrünün yadigarlarıdır. Daş baltalar tarixi inkişafla əlaqədar olaraq dəyişmiş və təkmilləşdirilmişdir. Ona görə də daşdan hazırlanmış  əmək alətlərinin dövrləşdirilməsinə və təsnifatına ciddi ehtiyac vardır.

Rusiya mənbələrində Naxçıvan duz mədənlərinin işçilərinin əvvəllər ətrafdakı daxmalarda yaşadıqları qeyd olunmuşdur. Lakin həmin

daxmalardan ibarət yaşayış yerləri uçulub dağıdıldığından XIX əsrdə şaxtaçılar mədənlərdə gecələməli olurdular. Naxçıvan Duzdağının şərq tərəfində Xor gədiyinə gedən yolun ətrafında böyük bir yaşayış yerinin izləri indi də aşkar müşahidə olunur. 2011-ci ildə Sust yaxınlığında qədim yaşayış yerinin olduğu da müəyyənləşdirilib. Böyük ehtimal ki, mədən işçiləri burada yaşamış, duzun ilkin emalı, topdan satışı, karvanların yüklənməsi həmin yaşayış yerində təşkil olunmuşdur. Beləliklə, Naxçıvan şəhərinin ətrafında sənətkarlıq, ilkin emal və ticarət yönümlü bir mədəniyyət əmələ gəlmişdir. Duz məhsulları Naxçıvan şəhərinə Duzdağdan öküz arabaları ilə, yaxud da dəvə karvanları ilə daşınmışdır. Naxçıvan duzu mahalın əhalisini təmin etməklə bərabər, İrəvan və Yelizavetpol quberniyalarına, Qarabağa, İrana, Türkiyəyə və Gürcüstana da daşınmışdır.



Şəkil 23. Duzdağda qədim iş yerləri.

Duzdağ yatağı indi də istismar edilməkdədir: mədəndə işləyən mühəndislərin fikrinə görə duz yatağının uzunluğu 3 km, eni 2 km, qalınlığı 150 m-dir. XX əsrin 70-ci illərində mədənin cənub tərəfində iş aparılarkən sovet şaxtaçıları qədim tunelə daxil olmuşlar. Burada alətləri ilə birlikdə

dörd insan skeleti aşkar olunmuşdur. Bu skeletlər istifadə olunan daş alətlərə əsasən e.ə. III-II minilliklərə aid edilmişlər. Bu alətlər I Kültəpə və II Kültəpənin dəqiq stratiqrafik kontekstlərindən aşkar olunan daş çəkiclərlə bənzərdir.



Şəkil 24. Kür-Araz mədəniyyətinə aid keramika (Duzdağ).

Lakin 2007-ci ildə Fransız-Azərbaycan ekspedisiyasının qısamüddətli araşdırmaları zamanı yatağın cənub ətəklərindən Eneolit və Kür-Araz keramikasının aşkar olunması mədənin istismarının daha erkən başladığını ehtimal etməyə imkan verirdi. Daha əhatəli məlumat əldə etmək üçün 2008-ci ildə sistemli araşdırmalara başlanıldı.

Duzdağında aparılan iş Ovçulartəpəsi yaşayış yerinin tədqiqi ilə sıx bağlıdır. Bu yaşayış yerində aparılan araşdırmaların əsas məqsədlərindən biri Son Eneolit və Erkən Tunc dövrü cəmiyyətlərinin iqtisadi və yaşayış strategiyasının müəyyənləşdirilməsindən ibarət idi.




Şəkil 25. Dəmir dövrünə aid keramika (Duzdağ).

Duzdağında aparılan araşdırmaların əsas məqsədlərindən biri duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixəqədərki dövrün son mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir. Bu vəzifə mədənlərdə işlənmə izlərinin bərpası, həmçinin daş alətlərdə aşınma

izlərinin tədqiq edilməsi ilə mümkün olmuşdur. Tədqiqat zamanı müəyyən zaman ərzində duz çıxarılmasını bərpa etmək, əsas texnoloji və istehsal kəsintilərinin eyniləşdirməyinin mümkünlüyü araşdırılmışdır. Beləliklə tədqiqatın bir hissəsi istehsal infrastrukturları üzərində cəmləşdirilmiş, onların korrelyasiyası gil qab parçaları, makro və mikro daş alətlər əsasında aparılmışdır.

İrimiqyaslı topoqrafik xəritələr əldə etmək mümkün olmadığından bütün tapıntılar və arxeoloji strukturlar peyk təsvirlərinin ləkəsi üzərində yerləşdirilmişdir. Bu təsvir istifadəyə yararlı duz laylarının müəyyən edilməsində böyük köməklik göstərmişdir, belə ki duzun içərisində saxlanan su infraqırmızı diapozonda aydın şəkildə görünür. Bu həmçinin duz laylarının az olduğu kolluvium sahələri müşahidə etməyə, hidroqrafik nümunələrin çıxışlarını müəyyənləşdirməyə kömək edir. Araşdırmalara yekun vuraraq demək olar ki, Duzdağı başlıca olaraq suyun çəkilməsi ilə formalaşmış və bir-birindən minimal məsafədə olan duz zonalarından ibarətdir.



Şəkil 26. Əmək alətləri (Duzdağ).

Əgər Duzdağında olan keramika məmulatını, kiçik daş alətləri araşdırmalar zamanı toplamaq mümkündürsə, böyük daş alətləri toplamaq mümkün deyil. Onlar çox olmaqla bərabər, həmçinin ağırdır. Parçalar istisna olmaqla daş alətlərin ən kiçiyi bir kiloqramdır. Daş gürzlərin ağırlığı 10 kiloqrama qədərdir, lakin onların bəzisinin ağırlığı 60 kiloqrama çatır. Bu

çətinliyi aradan qaldırmaq üçün hər bir alətin yerindəcə şəkili çəkilmiş və sonra bu tipologiya əsasında qeydə alınmışdır.

2008-ci ildə Duzdağ yatağının ilk araşdırılması zamanı əsas məqsəd arxeoloji qazıntının yerini müəyyən etmək idi. Araşdırmalar göstərdi ki, arxeoloji tapıntılar, demək olar ki, Duzdağ yatağının hər yerində, gil çöküntülərinin üç başlıca səviyyəsinə uyğun olaraq yayılmışdır. Araşdırmalar göstərmişdir ki, təpənin yalnız ağ-yaşıl rəngli gil qatları duz-mədən sənayesi üçün əlverişlidir. Qırmızı zolaqlar çöküntülərin daha qaba və lilli laylarındandır. Burada yatağı formalaşdıran duz kristalları kifayət miqdarda toplanmamışdır. Onları mədən sənayesinin ənənəvi üsulları ilə istismar etmək çətindir.

Arxeoloji tapıntılar Duzdağında Şimaldan Cənuba doğru 3 km-lik bir məsafədə yayıldığından qazıntının yerini və həcmini müəyyən etmək olduqca əhəmiyyətli idi. Keramika parçaları və kiçik daş alətlər Duzdağdan kənarda, o cümlədən Cəhri Xoru adlanan hissədən də tapılmışdır. Bu ərazi, böyük ehtimalla, şaxtaçıların içməli suya olan tələbatını ödəmək üçün müvəqqəti olaraq dayandıqları yerdir.



Şəkil 27. Duzdağda tədqiqatlar.

Mədənlərin arxeoloji araşdırmalarla müəyyən olunmuş ölçüsünə uyğun olaraq, təpənin müxtəlif hissələrində, "pəncərə" adlandırılmış yeddi sahə intensiv tədqiqat obyektinə çevrilmişdir. Pəncərələrin yerinin müəyyən

edilməsi müxtəlif kriteriyalara – arxeoloji tapıntıların toplanmasına, infrastruktur istismarının tiplərinə [tunel, karxana], duz yataqlarının yaxınlığı və müasir baxımdan onlar əldə etmək imkanlarına [yolların mövcudluğu və s.] əsaslanmışdır. Pəncərələrin formasının və ölçüsünün müəyyən edilməsində mövcud dağ silsiləsi və vadilər nəzərə alınmaqla arxeoloji tapıntıların potensial trayektoriyasının izlənməsinə əsaslanmışdır. Tapıntıların bəzən sürüşüb yerini dəyişməsi də nəzərə alınmışdır. Beləliklə, duz mədəninin özündə bilavasitə altı pəncərə müəyyənləşdirilmiş, yeddinci pəncərəyə isə Cəhri Xorunun ətrafındakı duz təzahürləri aid edilmişdir.



Şəkil 28. Üyütmə daşı (Duzdağ).

Toplanılan materiallar peyk təsvirləri, yaxud havadan çəkilən rəngli fotorəsmlər üzərində işlənib hazırlanmışdır.

Hər bir pəncərədən götürülmüş faktiki arxeoloji materiallar – böyük daş alətlərdən tutmuş kiçik keramika parçalarınadək [diaqnostik, yaxud qeyri-diaqnostik] bütün tapıntılar dəqiqliklə GPS vasitəsi ilə qeydə alınmışdır. Digər tərəfdən seçilmiş sahələrdən kənarda qalanlar ilkin tədqiqata cəlb edilmişdir.

Duzdağında aşkar olunan arxeoloji materiallar çoxsaylı və müxtəlif formalı olması ilə fərqlənir. Onlar Türkiyədəki Tuzlucada olduğu kimi, yalnız bütün yataq boyu izlənən infrastrukturlardan ibarət deyil Xoy-Duzdağına oxşar vəziyyətlə təpənin ətəyi boyunca yayılan arxeoloji tapıntılardan ibarətdir. Sonuncudan fərqli olaraq Naxçıvan mədənlərindən

yalnız keramika parçaları deyil, həmçinin kiçik və böyük daş alətər aşkar olunmuşdur. Təsadüfi olaraq tapılan mis və dəmir qalıqlarına da rastlanmışdır.

Mədən sənayesinin ən maraqlı infrastrukturları ehtimal ki, qədim tunellər olmuşdur. Onlar duz yatağının ağ-yaşıl rəngli laylarında səpələnmişdir. Havadan çəkilmiş rəsmlərdən göründüyü kimi bu tunellər duz yatağının ortasında bir-birinin yaxınlığında qazılmışdır. İndiyədək qeydə alınan tunellərin hamısı dağılmışdır, lakin onlardan biri saxlanmışdır. Onun uzunluğu 4 m, eni 1,10 m-dir. Tunelin içərisindən heç bir tapıntı əldə edilməmişdir, belə ki tunelin döşəməsi qalın çınqıl qatı ilə örtülmüşdü. Digər mühüm tapıntı tunelin girişində qayada sütunun yonulması idi. Bu tunel də dağılaraq sütunun kapitelinədək çınqılla dolmuşdu, lakin maraqlıdır ki, o da müasir şaxtaya aparan əsas dəhlizdən kənarda yerləşən digər sütulara bənzəyirdi. Kür-Araz dövrünə aid keramika parçalarına əsasən onları eyni dövrlə tarixləndirsək, demək olar ki, biz Son Eneolit və Erkən Tunc dövrü ilə üst-üstə düşən mədən sənayesinin şəbəkəsi ilə rastlaşmışıq.



Şəkil 29. Əmək alətləri (Duzdağ).

Araşdırmalar zamanı 1-ci Pəncərədə iki yerdə açıq mədən izləri qeydə alınmışdır, onların birindən Orta əsrlərə aid keramika nümunələri aşkar olunmuşdur. 2007-ci ildə bizim apardığımız araşdırmalar zamanı öyrənilən ikinci belə emal sahəsi təpənin cənub yamacında yerləşirdi, lakin ən

maraqlısı 2010-cu ilin araşdırmaları zamanı 4-ci Pəncərədə aşkar olunan karxana idi. Aşkar olunan minlərlə Orta əsr keramikası içərisində XII-XIII əsrlərlə aid yaşıl rəngli şirli keramika, naxışlanmış kasalar da var idi.



Şəkil 30. Əmək alətlərinin hazırlanması (Duzdağ).

Duzdağda aparılan araşdırmaların əsas məqsədlərindən biri infrastrukturların istismar tarixinin müəyyənləşdirilməsi olmuşdur. Bu, arxeoloji tapıntılar, tunellər və karxanalar arasındakı korrelyasiyanın incəliklə öyrənilməsini tələb edir.

Duzdağından aşkar olunmuş tapıntılar arasında geniş funksional və morfoloji diapozona malik olan böyük daş alətlər xüsusilə diqqətçəkicidir. Mikro daş alətlər onlara nisbətən daha azdır. Onlar başlıca olaraq obsidianın qəlpələnməsi zamanı meydana gələn parçalardan ibarətdir. Kiçik bıçaqvari

alətlər azdır. 2011-ci ilin mövsümündə 7-ci Pəncərədən daha təkmil obsidian tiyəsi tapılmış, lakin hələlik analiz olunmamışdır. Çaxmaqdaşı alətlər olduqca məhdud miqdardadır.

Duzdağ mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə böyük daş alətlərdən istifadə edilmişdir. Formasına, həcminə və daş cinsinə görə fərqlənən bu alətlər duz çıxarılan zonalarda toplanmış keramika ilə birlikdə rastlanmışdır. Bu alətlərin GPS-lə sistematik qeydiyyatı 2008-ci ildən başlamışdır. 2011-ci ildə duz mədəninin müxtəlif hissələrindən əldə edilən [Pəncərə 1 – 7 ] səkkiz yüzdən artıq alət qeydə alınaraq bilavasitə ərazidə və laboratoriyada tədqiq edilmişdir. Duzdağ mədənində duzun istismarı və emalında bu alətlərin dəqiq funksiyasını müəyyən etmək üçün onlar tam texnoloji analiz edilərək alətlərdəki işlənmə izləri araşdırılmışdır.

İlkin araşdırmalar göstərir ki, bu alətlərin əksəriyyəti çay daşlarından, ola bilsin ki, Duzdağın üzərində yerləşən allyuvial yataqların çöküntülərindən hazırlanmışdır. Toplanan materialların 80 faizi daş çəkiclərdir. Onların xammalı müxtlif mənbələrdən götürülmüşdür. Qumlu çaydaşı, qranit və bazalt, ehtimal ki, Duzdağı təpəsinin səthində saxlanan allyuvial yataqlardan, ya da Naxçıvançaydan gətirilmişdir. Lakin müəyyən tip çəkiclərin istehsalı üçün dolorit və qabbro ailəsinə məxsus daş cinsləri istifadə edilmişdir. Bu tip daş cinsləri göstərir ki, mədənçiləri xammalla təmin etmək üçün müəyyən təşkilati işlər görülmüşdür. Belə ki, bu daşların ən yaxın geoloji mənbələri Şahbuz rayonundan iyirmi kilometr şimalda yerləşir.

Çəkiclərin funksional xüsusiyyəti göstərir ki, müxtəlif dövrlərdə daş duzun çıxarılmasında fərqli üsullardan istifadə edilmişdir. Bəzi çəkiclər sadə çay daşlarıdır, onlar işlənmədən birbaşa istifadə edilmişdir. Bəzilərinin hər iki üzündə sadə işlənmə izləri vardır. Lakin onların əksəriyyətinin uc, yan və üz tərəflərində dərin batıq zolaqlardan ibarət əyri və düz xətlərin müxtəlif konbinasiyasına rast gəlinir. Bu sadə və mürəkkəbləşdirilmiş kombinasiyalar onların insan əlinə adaptasiyası ilə bağlı olmuşdur. Bəzən onlarla kiloqram ağırlığında olan ağır daş alətlər əldə tutmaq üçün əlverişli deyil. Ona görə bu tip alətlərin baş tərəfində olan üfiqi və şaquli batıq xətlər, büyük ehtimalla, ip bağlamaq üçün nəzərdə tutulmuşdur.

Çəkiclərdən istifadə üsullarının müxtəlifliyi və onların təkrar istifadəsi də işin təşkilində müxtəlif üsullardan istifadə olunduğunu təsdiq edir. Dolerit və qabbro cinsli daşlardan hazırlanan alətlər I Kültəpə və II Kültəpə yaşayış yerlərinin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar edilmişdir. Onlar ustalıqla hazırlanaraq cilalanmış və uca doğru ensizləşdirilmişdir. Çıxarma zonaları ilə parallel yerləşən iş yerlərində qalan

müxtəlif tipli alətlərin qalıqları onların uzun müddət istifadə olunduğunu və müxtəlif inkişaf mərhələlərindən keçdiyini göstərir.




Şəkil 31. Duzdağ. Araşdırmaların xəritəsi.

Daş çəkiclərin həcminə və işlənmə üsullarına əsaslanaraq müxtəlif elmi mülahizələr irəli sürmək olar. Bəzi kiçik həcmli daş çəkiclər duz bloklarının üzə çıxarılmasında, bəziləri blokların sərhədlərinin müəyyən edilməsində, daha ağır çəkiclər isə duz blokların qırılmasında və tunellərin yaranmasında istifadə edilmişdir.

Tədqiqat zamanı daş duzun emal edilməsi əzici alətlər üçün istifadə olunan dən daşları, əzici alətlər sürtkəclər və dəstəklər birbaşa iş platformalarından tapılmışdır. Əzgi daşları və sürtgəclər bazaltdandır. Bu material Qafqazın Neolit və Tunc dövrü yaşayış yerlərində əzici alətlərin hazırlanmasında istifadə edilmişdir. Ümumiyyətlə, parçalanmış halda açkar edilın bu tip alətlər, ehtimal ki, mədənə ikinci dəfə istifadə olunmaq üçün gətirilmişdir. Ərazidən müxtəlif cinsli çay daşlarından hazirlanan konusvari və slindirik formalı dəstəklər də tapılmışdır. İşlənmə izlərinin ilkin araşdırmalarının nəticələri göstərir ki, onlar qida hazırlamaq üçün deyil yumşaq faydalı qazıntıların emalı üçün işlənmişdir. Bu onu göstərir ki,

duzun ilkin emalı bilavasitə karxanaların yaxınlığında yerləşən ərazilərdə - iş yerlərində olmuşdur.

Duzdağ mədənlərindən tapılan müxtəlif formalı daş alətlər ehtimal etməyə imkan verir ki, duzun sadə üsullarla çıxarılması ilə bərabər yüksək texniki biliyə əsaslanan daha strukturlaşdırılmış və mürəkkəb istismarı da mövcud olmuşdur. Daş alətlərin və çəkiclərin müxtəlif tiplərə bölünməsi də duz çıxarma zonaları ilə onların emalı həyata keçirilən platformalardakı "emalatxanalar" arasında əməyin təşkilinin müəyyən formasının mövcud olduğunu göstərir. Aşkar edilmiş daş alətlərin heç də hamısı duz çıxarmaq üçün olmamışdır. Onların bəzisi həmçinin əmək alətlərinin yenidən düzəldilməsi və duzun şaxtada birbaşa emalı üçün istifadə olunmuş və daşımaq üçün yararlı vəziyyətə salınmışdır. Əmək alətlərində saxlanmış izlər onların funksiyasını və istismar prosesini aydınlaşdırmağa imkan verir.

Duzdağdan həmçinin xeyli miqdarda keramika məmulatı aşkar olunmuşdur. Bu tip material mədənin cənub-qərb və şimal-qərb yamacından 2-ci və 4-cü pəncərələrdən tapılmışdır. Qədim işlənmə ərazilərindən kiçik keramika parçaları ilə yanaşı yaxşı saxlanmış tapıntılar da əldə edilmişdir. Cənub-qərb yamacda Erkən Dəmir dövrünə aid toxunulmamış bütöv qədəh, 2-ci Pəncərədən isə Kür-Araz mədəniyyətinə aid küpənin parçaları aşkar olunmuşdur. Bütün keramika parçaları saxlanma dərəcəsindən asılı olmayaraq toplanırdı. Belə ki, onların gilinin tərkibi və işlənməsi minimal dərəcədə olsa da xronologiyanı müəyyən etməyə imkan verirdi. Bəzi diaqnostik formalar, xüsusilə uzun bir zaman ərzində mövcud olan Erkən Tunc dövrünə aid eroziyaya uğramış "Naxçıvan qulpları" toplanmış ümumi materialın əksəriyyətini təşkil edirdi.

1, 2, 3 və 4-cü Pəncərələrdən aşkar olunan keramika məmulatının müqayisəli analizi müəyyən xüsusiyyətləri üzə çıxarmağa imkan verir.

Təpənin cənub-qərb yamacında yerləşən 2-ci Pəncərə saman qarışığı olan keramika Kür-Araz mədəniyyətinə aid keramika parçaları ilə xarakterizə edilir. Bəzi keramika parçalaları Erkən Dəmir dövrünə aiddir. Lakin onlar açıq-aşkar azlıqdadır. Erkən Tunc və Dəmir dövrünün keramikası 1-ci Pəncərədə nisbətən bərabərləşmiş, lakin buradan Eneolit dövrünə aid keramika aşkar olunmamışdır. Qeyd etmək lazımdır ki, Erkən Tunc dövrünə aid keramika 1-ci pəncərədə 2-ci Pəncərəyə nisbətən azdır.

Maraqlıdır ki, Cəhri Xorundakı təzahürlərdə [3-cü Pəncərə] Son Eneolit və Erkən Tunc dövrünə aid keramika məmulatına rast gəlinməmişdir. Cəhri Xorundan aşkar olunan keramika məmulatının əksəriyyəti ya Dəmir dövrünə, ya da Orta əsrlərə aiddir. Qədim mədənçilər

bu duz təzahürünə olduqca az gəlmişlər. Onlar ya bu marşrutla hərəkət etməmiş, ya da o zaman bu təzahürlər mövcud olmamışdır.

Orta Tunc dövrünə aid keramika məmulatı Pəncərələrdə, demək olar ki, rast gəlinməmişdir. Bəzi təsadüfi tapıntılar təpənin cənub yamacında aşkar olunmuşdur. Onların hamısı monoxrom boyalı olub qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır. Məlum olduğu kimi, Van da daxil olmaqla Cənubi Qafqazda Orta Tunc dövrünə aid keramika [Naxçıvan istisna olmaqla] başlıca olaraq qəbirlərdən aşkar olunmuşdur. Ehtimal ki, şaxtalarda Orta Tunc dövrü fəhlələri tərəfindən istifadə olunan keramika müəyyən funksional mahiyyət daşımışdır, lakin bu hələlik tam aydınlanmamışdır.

Son Tunc və Erkən Dəmir dövrünə aid keramika parçaları texnoloji xüsusiyyətlərinə görə az fərqlənir. Onları ayırmaq üçün başqa dəlillər olmadığından bu tip keramikanı Son Tunc və Erkən Dəmir dövründə birləşdirmək daha düzgün olardı. Lakin Son Tunc dövrünə aid naxışlanmış keramika parçalarına da rastlanmışdır. Onlar boz, boz-qara rəngli olub qabların çiyin hissəsini əhatə edən çərtmə və qabarıq-batıq xətlətlərdən ibarətdir. Maraqlıdır ki, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı başlıca olaraq 2-ci Pəncərədən aşkar olunmuşdur.

Orta əsr keramikasına gəldikdə, demək olar ki, onların əksəriyyəti təpənin cənub yamacında 4-cü Pəncərədən, az miqdarda isə 1-ci Pəncərədən aşkar olunmuşdur. Sonuncuda onlar Dəmir dövrü keramikası ilə birlikdə aşkar olunmuşdur. Orta əsr keramikası 4-cü Pəncərənin simal qurtaracağında daha çox toplanmışdır. Burada gips yataqları da aşkar olunmuşdur. Lakin hələlik karxananın nə üçün açıldığı hələlik məlum deyil. Karxanada gips, duz, yaxud onların hər ikisi çıxarıla bilərdi. Orta əsrlərə aid keramika gil məhluluna salınmış, içərisində dulus çarxının izləri qalan daraqvari ornamentlə naxışlanmış sadə keramikadan ibarətdir. Bununla bərabər göy şirli, yaşıl və qara rənglə naxışlanmış keramikaya tez-tez rastlanır. Antik və Sasani dövrünə aid keramika məmulatı indiyədək aşkar edilməmişdir.

Əgər daş alərləri keramikanın yayıldığı zonalar üzrə bölüşdürsək görərik ki, daş alətlərin aşkar olunduğu zonalar başlıca olaraq Son Eneolit və Erkən Tunc dövrünə aid keramikanın konsentrasiya olunduğu ərazilərlə uyğun gəlir. Bu faktlar daş alətlərin daha çox tarixəqədərki dövrün son mərhələsində istifadə olunduğunu ehtimal etməyə imkan verir. Bu fikir I Kültəpə və II Kültəpənin stratiqrafik tapıntıları ilə təsdiq olunur. Xüsusilə Kür-Araz mədəniyyətinə aid qabbro-doleritdən hazırlanmış daş çəkiclər arasında böyük uyğunluq vardır. Lakin bu daş alətlərin müxtəlif kateqoriyalarının morfoloji analizi zamanı aydın xronoloji fərq aşkar

edilməmişdir. Xronoloji cəhətdən fərqlənən keramika məmulatı ilə daş alətlərin müəyyən kateqoriyası arasında heç bir fərq izlənilməmişdir. Bununla belə daş alətlərin müəyyən qrupu ilə tunellər arasında müəyyən uyğunluq var. Son Eneolit və Erkən Tunc dövrünə aid keramika tunellərin çıxışında, adətən tunellərdən bir qədər aşağıda yerləşən təbii mənzillərdə aşkar edilmişdir. Bunun əksinə olaraq Orta əsr keramikası başlıca olaraq açıq karxanaların yaxınlığında aşkar olunur və olduqca nadir hallarda daş alətlər və tunellərlə bağlanır. Məsələn 1-ci Pəncərədə Orta əsr keramikasının aşkar olunduğu zonada iki tunel çıxışı vardır, lakin 4-cü Pəncərənin şimal hissəsindəki açıq duz karxanasının ətrafında minlərlə Orta əsr keramikasının parçasına rastlanmışdır. Kür-Araz keramikası ilə müqayisədə Son Tunc və Erkən Dəmir dövrünə aid keramika olduqca az aşkar olunmuşdur. Beləliklə, daş alətlərin bir qismi tunellərdən duz çıxarmaq və birbaşa tunellərin qazılması üşün istifadə edilmişdir. İlkin nəticələr göstərir ki, bu tip istismar üsulu Son Eneolit və Erkən Tunc dövründən mövcud olmuşdur. Lakin II Kültəpədən aşkar olunan daş alətlər nəzərə alınarsa demək olar ki, duz istehsalı Orta Tunc dövründə də davam etmişdir.

Duzdağda dörd mövsümdə aparılan sistematik araşdırmalardan sonra onun tarixəqədərki dövrün son mərhələsində mühüm əhəmiyyət kəsb etdiyi göz önünə çıxarılmışdır. Duzdağın istismarının miqyasından da göründüyü kimi duzun funksiyası "İkinci ərzaq inqilabı" zamanı e. ə. V - IV minilliklərdə Mesopotamiyanın böyük hissəsində və Qafqazda meydana gələn struktur dəyişikliklərini anlamaq üçün əsas açarlardan biridir. Bununla bağlı olaraq aşağıdakı əsas nəticələri çıxarmaq mümkündür:

Birincisi, 2-ci Pəncərədə mütəmadi aşkar olunan saman qarışıqlı keramikaya əsasən aydın olur ki, mədənin istismarı e. ə. V minilliyin ikinci yarısında başlamışdır. Bu onu göstərir ki, İspaniyadakı Kardona [La Müntania del Sal] ilə birlikdə Naxçıvan Duzdağı dünyanın ən qədim mədənlərindən biridir. Kardonada duz yataqlarının ətrafında insan fəaliyyətinin ən qədim izləri e. ə. 4200 və 3600-cü illərə aid edilmişdir. Erkən mədən sənayesi ilə bağlı fikirlər uzun müddət ərzində antikvarlar və yerli kənd əhalisi tərəfindən toplanan 173 bütöv və sınmış daş alətlər əsasında söylənmişdir. Bu alətlər duz mədənindən aşkar olunan iki qəbirin oxşar daş alətləri ilə müqayisə əsasında tarixləndirilmişdir. Qəbirlərin özü isə aşkar olunan digər materiallar əsasında Orta Neolit dövrünə aid edilmişdir. Belə görünür ki, Duzdağda duzun erkən çıxarılması ilə bağlı məsələlər Kardonadakı faktlardan daha tutarlıdır. Belə ki, duz mədənində müxtəlif xronoloji dövrlərə aid keramika məmulatı ilə birlikdə yüzlərlə daş əmək aləti də aşkar olunmuşdur. Aydındır ki, Duzdağında aşkar olunan

arxeoloji materiallar, xüsusilə xeyli informasiya verən keramika məmulatı tarixəqədərki dövrün son mərhələsindən başlayaraq müasir dövrədək duz sənayesinin inkişafının müxtəlif cəhətlərini öyrənmək üçün gözəl imkan yaradır.

İkincisi qeyd etmək lazımdır ki, Duzdağdakı erkən duz istehsalı prosesi intensivliyi ilə fərqlənir. Son Eneolit və Erkən Tunc dövrü keramikasının proporsiyası xüsusilə yüksəkdir. Naxçıvanda, həmçinin qonşu Urmiya və Van rayonunda Son Eneolit və Erkən Tunc dövrünə aid qeydə alınan yaşayış yerləri ilə müqayisədə bu olduqca yüksək göstəricidir. E.ə. II minilliyin sonundan yaşayış yerlərinin artması, ehtimal ki, Dəmir dövrünə və Orta əsrlərə aid keramika məmulatının artmasına səbəb olacaqdır. Hazırda duz mədənində yeddi pəncərədə aparlan sistematik araşdırmalar zamanı Kür-Araz keramikasının üstünlüyü tədqiqatların məhdudluğu ilə bağlı deyil. Müəyyən yerlərdə sayı dəyişsə də Kür-Araz keramikası Duzdağ mədəninin bütün ərazisində üstünlük təşkil edir. İndi qarşıda duran əsas sual bundan ibarətdir: Duzdağda mədənçilk işləri daha əvvəl Erkən Tunc dövründə, yoxsa Son Eneolit dövründə başlamışdır? Son illər Ovçulartəpəsində aşkar olunan tapıntılar Kür-Araz tayfalarının Naxçıvanda e. ə. V minilliyin sonundan məskunlaşdığını göstərir. Müəyyən edilmişdir ki, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasında Naxçıvanın xammal ehtiyatları, o cümlədən duz əsas yer tutmuşdur. Eneolit dövründən başlayaraq duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır. İnsanların məişətinə daxil olan duz onların ideologiyasının formalaşmasında müəyyən yer tutmuş, duzla bağlı inamlar yaranmışdır. Bu tip inamlar Azərbaycan xalqı arasında xüsusilə geniş yayılmışdır.

**Erkən Tunc dövrü abidələri.** E.ə. V minilliyin sonu və IV minilliyin əvvəlində - Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti formalaşmışdır. Bu dövrdə qədim Naxçıvan sakinlərinin tarixində əsaslı ictimai-iqtisadi dəyişikliklər olmuşdur. Eneolit dövründə əsası qoyulan tunc metallurgiyası inkişaf etmiş, maldarlıq əkinçilikdən ayrılmış, xış əkinçiliyi meydana gəlmiş, yaylaq maldarlığı inkişaf etmiş, tayfa ittifaqları yaranmışdır. Iqtisadiyyatın inkişafı və əhalinin artması yeni yaşayış yerlərinin salınmasına səbəb olmuşdur. Bu dövrə aid I Kültəpə, II Kültəpə, Aşağıdaşarx, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Hovuzlu yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ, Xornu nekropolları qeydə alınmışdır.

Erkən Tunc dövrü abidələrində xüsusilə I Kültəpədə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsində aparılan qazıntılar göstərir ki, Kür-Araz mədəniyyəti üçün dairəvi, yaxud düzbucaqlı artırmaları olan dairəvi evlər xarakterik olmuşdur. Kür-Araz mədəniyyətinin son mərhələsində düzbucaqlı binalardan da istifadə edilmişdir. Evlər düzbucaqlı və dairəvi formada olan ocaqlar və saxsı manqallar vasitəsilə qızdırılmışdır. II Kültəpədə düzbucaqlı ocaqların yaxınlığında mərkəzi insan fiquru formasında olan nal şəkilli sitayiş qurğularına da rastlanmışdır. Bu tip fiqurların bütün evlərdən tapılması insanlar arasında inanc birliyinin olduğunu və hər evin öz ziyarətgahı olduğunu göstərir.



Şəkil 32. II Kültəpə.

Yaşayış yerlərində aparılan qazıntılar evlərin həcmi haqqında da müəyyən təsəvvür əldə etməyə imkan vermişdir. Hesablamalar göstərmişdir ki, ayrı - ayrı evlərdən ibarət olan II Kültəpə əhalisi 700-900 nəfərlik yaşayış məskəni tipində olmuşdur. II Kültəpənin XII təbəqəsində bütövlükdə açılan evin diametri 5,3 m-dir. Ümumiyyətlə, II Kültəpədəki evlərin diametri 5,5 - 7,5 m arasında dəyişməkdədir. I Kültəpədə aşkar edilən evlərin diametri isə 3,5 - 6,5 m arasındadır. Onlardan yalnız birinin diametri 7,3 m-dir. Şübhəsiz ki, bu tip evlər cüt nikaha əsaslanan kiçik ailələrə, iri həcmli dairəvi evlər isə böyük ailələrə məxsus olmuşdur. Aşkar olunan evlərdən

birinin sahəsinin 59 kv.m olması da onun böyük ailələr üçün nəzərdə tutulduğunu göstərir. Belə hesab edilir ki, cüt nigaha əsaslanan ailə istehsalın əsas özəyini təşkil etmişdir. Iqtisadiyyatın inkişafı şübhəsiz ki, kiçik ailələri öz güclərini birləşdirməyə məcbur etmişdir. Ümumi ictimai binaların olması, ümumi idarə orqanlarının da olduğunu göstərir. I Kültəpə və II Kültəpədə aşkar olunan iri həcmli binalardan, həm də ümumi toplanış yeri kimi istifadə edildiyini söyləmək olar.



Şəkil 33. Erkən Tunc dövrünün kərpic divar qalıqları (II Kültəpə).

II Kültəpə yaşayış yerindən aşkar olunan ziyarətgahlar Naxçıvanın qədim sakinlərinin mənəvi mədəniyyəti və ideologiyasını öyənmək üçün dəyərli mənbələrdəndir. Belə ziyarətgahlardan birinə II Kültəpə yaşayış yerinin XI tikinti qatında rastlanmışdır. O dairəvi formalı binanın qalıqlarından ibarət olmuşdur. Tədqiqat zamanı möhrə bloklardan hazırlanmış ocaq, ocağın içərisindən heyvan sümükləri və gil qab parçaları aşkar olunmuş, onun ətrafındakı döşəmədə isə öküz buynuzu formasında hazırlanmış sitayiş əşyasının parçası aşkar olunmuşdur.

II Kültəpənin statiqrafiyasına əsaslanaraq bu ziyarətgahı Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid etmək olar.

İkinci ziyarətgah II Kültəpə yaşayış yerinin VI tikinti qatında aşkar olunmuşdur. Onun döşəməsi sarı rəngli gillə suvanmışdır. Divarın özülü çay daşlarından, yuxarısı isə çiy kərpicdən hörülmüşdür. Divarın şərq tərəfində

çay daşlarından qurularaq gillə suvanan səki, səkinin yaxınlıgında iki dən daşı aşkar olunmuşdur. Divarın qərb tərəfində içərisi küllə dolmuş dairəvi formalı ocaq, ocağın ətrafında kül yığını, heyvan sümükləri, gil qab parçaları aşkar olunmuşdur. Ocağın yaxınlığında qurbangah olduğu ehtimal olunan möhrədən düzəldilimş dördkünc formalı səkinin olduğu müəyyən edilmsişdir. Səkinin yaxınlığında öküz buynuzu formasında hazırlanmış iki sitayiş əşyasına rastlanmışdır.



Şəkil 34. Maxta Kültəpəsi. Kərpic divar (Erkən Tunc dövrü).

I Kültəpə və II Kültəpədə aşkar olunan tapıntılar Erkən Tunc dövründə keçirilən müəyyən mərasimləri tam olmasa da müəyyən dərəcədə bərpa etməyə imkan verir. Başlıca olaraq məhsuldarlıqla bağlı olan bu mərasimlər cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişiklikləri və insanların həyat tərzini aydın şəkildə əks etdirmişdir. Nalşəkilli sitayiş qurğularından birinin mərkəzi çıxıntısının insan fiquru formasında hazırlanması ehtimal ki, kişinin cəmiyyətdə artan rolunu simvolizə etmişdir. Sitayiş qurğularının iribuynuzlu heyvanlara bənzədilməsi iribuynuzlu malın insanların həyatında böyük rol oynadığını göstərir. Eneolit dövründə və Kür-Araz mədəniyyətinin erkən mərhələsində maldarlıq və iribuynuzlu malın üstünlük təşkil etməsi də bunu təsdiq edir. Sitayiş qurğularının ətrafından aşkar olunan heyvan fiqurları mərasimlər zamanı onlardan da istifadə olunduğunu

göstərir. Sitayiş qurğularının ətrafında xeyli kül yığınları, heyvan sümükləri və gil qab parçalarının aşkar olunması, bu mərasimlərin keçirilməsi zamanı müəyyən yeməklər verildiyini göstərir. Evlərdə aşkar olunan sitayiş qurğuları, Erkən Tunc dövrü sakinlərinin məişətində din və sitayişlə bağlı mərasimlərin mühüm yer tutduğunu, onların gündəlik həyatının məhsuldarlığı təmin edən ulu əcdad, qəbilə rəhbəri, iribuynuzlu və xırdabuynuzlu heyvanlarla bağlı olduğunu göstərir. Erkən Tunc dövründə öküz kultunun geniş yayılması, həm də xış əkinçiliyinin yaranması, iribuynuzlu maldan qoşqu qüvvəsi kimi istifadə edilməsi ilə bağlı olmuşdur.

I Maxta Kültəpəsinin yaxınlığında aşkar olunan ziyarətgah Erkən Tunc dövrünün son mərhələsində artıq ümumi qəbilə ziyarətgahlarının meydana çıxdığını göstərir. Dağıntıya uğramış ziyarətgahın yerində daşdan və möhrədən hörülmüş tikinti qalıqları saxlanmışdır. Dairəvi formalı ziyarətgahın içəri tərəfində bir sırada düzülmüş üç daş büt, bütlərin yaxınlığında nalşəkilli ocaq qurğusu aşkar olunmuşdur.

Qara rəngli tuf daşından hazırlanan bütlər aşağından yuxarıya doğru ensizləşən stela şəklindədir. Onların başı yivşəkilli oyuqla bədənindən ayrılmışdır. Bütlərin hündürlüyü 85-99 sm, qalınlığı 11-15 sm arasındadır. Bütlərin ikisinin  başında maili oyuq açılmışdır. Bütlərin ziyarətgahın içərisindən aşkar olunması onların sitayiş məqsədilə hazırlandığını göstərir. Ehtimal ki, onlar qədim insanların inandığı tanrıları, yaxud tanrılaşdırılmış tayfa rəhbərlərini, ulu əcdadı simvolizə etmişdir.

İlk Tunc dövrü sakinlərinin əsas məşğuliyyət formalarından biri əkinçilik olmuşdur. I Kültəpənin Erkən Tunc dövrü təbəqəsində aparılan qazıntılar zamanı arpa, buğda, noxud və darı qalıqları aşkar olunmuşdur. Bu tapıntılar əkinçiliyin çoxsahəli xarakter daşıdığını göstərir. Kür-Araz tayfalarının əkinçilik mədəniyyəti Eneolit dövründə qazanılan nailiyyətlərə əsaslanmışdır. Naxçıvanın təbii şəraiti həmçinin dəmyə əkinçilik üçün əlverişli olmuşdur. Lakin Naxçıvançay, Əlincəçay və Arpaçay vadisində süni suvarmadan da istifadə edilməsi üçün şərait olmuşdur. Naxçıvanın indiki əhalisi hər iki üsuldan bacarıqla istifadə edə bilirlər.

Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən xeyli miqdarda gil təkər modellərinin tapılması təkərli nəqliyyatın da inkişaf etdiyini göstərir. Araşdırmalar bu dövrdə xış əkinçiliyinin inkişaf etdiyini, iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunduğunu təsdiq edir.

Kür-Araz mədəniyyəti tayfalarının əsas məşğuliyyət sahələrindən biri də maldarlıq olmuşdur. Bu dövrdə heyvandarlığın daha da inkişaf etməsi I Kültəpə və II Kültəpənin Erkən Tunc dövrü təbəqəsində iribuynuzlu və xırdabuynuzlu heyvanlara aid çox sayda osteoloji  qalıqların aşkar

olunması ilə sübut olunmuşdur. I Kültəpədə ev heyvanlarından öküz, keçi, donuz, qoyun, köpək sümüklərinə rastlanmışdır.



Şəkil 35. Xornu nekropolu (Erkən Tunc dövrü).

Aşkar olunan osteoloji materialların analizi göstərir ki, Erkən Tunc dövrünün orta mərhələsində yaylaq maldarlığının geniş inkişafının başlanğıcı qoyulmuşdur. Kür-Araz mədəniyyətinin son mərhələsində xırdabuynuzlu mal artaraq maldarlıqda birinci yerə çıxmışdır. Bu dövrdə heyvandarlıqda xırdabuynuzlu heyvanların miqdarı 70 % olmuşdur. Xırdabuynuzlu maldarlığın üstünlük təşkil etməsi yarımköçəri yaylaq maldarlığının inkişafına səbəb olmuşdur. Naxçıvanın dağlıq və dağətəyi bölgələrində Erkən Tunc dövrünə aid qəbir abidələrinin aşkar olunması yaylaq maldarlığının inkişaf etdiyini təsdiq edən əsas faktlardan biridir. Ilk Tunc dövrü yaşayış yerlərinin bir qrupunda, o cümlədən Ərəbyeycə, Xələc, Ovçulartəpəsi, I Maxta Kültəpəsində mədəni təbəqənin digər abidələrlə müqayisədə az yığılması bu yaşayış yerlərində həyatın yarımoturaq xarakterdə olduğunu, əhalinin yaylaq maldarlığını mənimsədiyini göstərir. Bu abidələrdə Orta Tunc dövrü təbəqəsinə rastlanmaması, onların müəyyən dövrdən sonra tərk edildiyini təsdiq edir.

Erkən Tunc dövründə metallurgiya yüksək inkişaf səviyyəsi ilə fərqlənir. Bu dövrdə mis-arsen ərintisindən yüksək keyfiyyətli əmək alətləri

hazırlamaq texnikası artıq mənimsənilmişdi. Yaxın Şərq və Cənubi Qafqaz ölkələrində qalay yataqları olmadığından bu dövrdə misin aşqarlanması üçün mərgümüşdən istifadə edilmişdir. Yerli mis və mərgümüş yataqlarının mövcudluğu Naxçıvanda metallurgiyanın inkişafına şərait yaratmışdır.



Şəkil 36. Erkən Tunc dövrünə aid sitayiş əşyası (II Kültəpə).

Erkən Tunc dövründə metallurgiyanın inkişafını göstərən faktlardan biri də II Kültəpədə aşkar olunan metaləritmə kürəsi və metalişləmə emalatxanasının qalıqlarıdır.

I Kültəpə və II Kültəpədə aşkar olunan çoxsaylı metal əşyalar, habelə iki tərəfli gil qəlib, metalişləmə alətləri, o cümlədən körük ucluqlarının, metal emalı ilə bağlı ocaqların aşkar olunması Naxçıvan ərazisində metallurgiyanın yüksək inkişaf etdiyini göstərir.

Erkən Tunc dövründə əsas istehsal sahələrindən biri dulusçuluq olmuşdur. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunan dulus kürəsinin qalıqları və çoxsaylı keramika məmulatı dulusçuluğun yüksək inkişaf səviyyəsinə malik olduğunu, müxtəlif mərhələlərdən keçdiyini göstərir. Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid olan qablar yaxşı yoğrulmuş gildən hazırlanmış, keyfiyyətli bişirilmiş və anqoblanmaşdır. Erkən Tunc dövründə keramika məmulatı yalnız gil

qablarla deyil, gil təkər modelləri, sitayiş fiqurları, heyvan fiqurları, qəliblərlə təmsil olunmuşdur. II Kültəpənin Kür-Araz mədəniyyəti təbəqəsindən aşkar olunan tikinti keramikasının qalığı bu dövrdə tikinti keramikasının istehsal olunduğunu, onun üzərindəki sxematik heyvan təsviri isə bu tip keramika məmulatının tikintidə dekorativ məqsədlə istifadə edildiyini göstərir.



Şəkil 37. Manqal. Erkən Tunc dövrü (Kültəpə).

Yuxarıda qeyd edilənlərə əsasən, belə nəticəyə gəlmək olar ki, bu dövrdə iqtisadiyyat inkişaf etmiş, sosial münasibətlərdə müəyyən irəliləyiş yaranmışdır. Əkinçilik və maldarlığın intensiv inkişafı izafi məhsul istehsalının yaranmasına, sənətkarlığın müxtəlif sahələrinin inkişafına stimul yaratmışdır. Bu dövrdə maldarlıq əkinçilikdən ayrılmış, dulusçuluq, metalişləmə, daşişləmə sənətkarlığın əsas sahələri kimi inkişaf etmişdir.

Erkən Tunc dövründə sosial iqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri də mədəni əlaqələrin inkişafı olmuşdur. Qeyd olunduğu kimi, Yaxın Şərq ölkələri və qonşu Cənubi Qafqaz xalqları ilə intensiv əlaqələr Eneolit dövründən mövcud olmuşdur. Bu dövrdə Kür-Araz mədəniyyətinin olduqca geniş ərazini əhatə etməsi, bu əlaqələrin çoxsahəli olmasından xəbər verir. Erkən Tunc dövründə Naxçıvan abidələri Urmiya rayonunun abidələri ilə vahid iqtisadi-mədəni rayona daxil olmuşdur. Bu rayonların arxeoloji abidələrindən aşkar edilən keramika məmulatı forma və bəzəmə formasına görə bir-birinə bənzərlik təşkil edir. Ehtimal ki, bu bölgənin dulusçuluq

məmulatı Şərqi Anadoluya və Kiçik Qafqazın cənub şərq ətəklərinə doğru yayılmış və burada mədəni inkişafa müəyyən təsir göstərmişdir.



Şəkil 38. II Kültəpənin naxışlı keramikası.

I Kültəpə və II Kültəpənin Erkən Tunc dövrü təbəqəsindən aşkar olunan bir qrup keramika məmulatı və metal əşyalar Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrin davam etdiyini aydın şəkildə göstərir. II Kültəpənin straqrafiyasına əsaslanaraq demək olar ki, Kür-Araz mədəniyyəti tayfalarının Ön Asiya ölkələri ilə iqtisadi mədəni əlaqələri Erkən Tunc dövrünün ilk mərhələsindən mövcud olmuşdur. Şübhəsiz ki, qədim Şərq ölkələri ilə əlaqələr qarşılıqlı xarakterdə olmuşdur. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar olunan mavi şirli pasta muncuq da Yaxın Şərq ölkələri ilə əlaqələrin olduğunu göstərir. Mavi şirli pasta

muncuqların Misir və Mesopotamiyadan gətirildiyi araşdırmalarla müəyyən olunmuşdur. Araşdırmaların indiki səviyyəsinə dayanaraq demək olar ki, qədim Şərq ölkələri ilə ticarət əlaqələrində Naxçıvanda istehsal olunan duz, metal və dulusçuluq məmulatı mühüm yer tutmuşdur.




Şəkil 39. Erkən Tunc dövrünə aid heyvan fiqurları (Kültəpə).

Naxçıvanın Erkən Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi müxtəlif istehsal sahələrinin, o cümlədən daxili mübadilənin artdığını aydınlaşdırmışdır. Arxeoloji tapıntılar bu münasibətlərin Erkən Tunc dövrünün final mərhələsində xüsusilə inkişaf etdiyini göstərir. Daxili mübadilənin inkişafı sərvətin müəyyən qrup adamların əlində toplanmasına, sosial münasibətlərdə əsaslı dəyişikliyə səbəb olmuşdur. II Kültəpənin Erkən Tunc dövrü təbəqəsinin son mərhələsinə aid müəyyən planda tikilmiş dördkünc formalı bina qalıqları və müdafiə divarı sosial münasibətlərdə və ictimai quruluşda ciddi dəyişikliklərin olduğundan xəbər verir.

Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, bu dövrdə cəmiyyət inkişaf etmiş patriarxal münasibətlərlə xarakterizə edilir. Şübhəsiz ki, istehsalın mürəkkəb və çoxsahəli xarakter alması cəmiyyətdə kişilərin rolunu artırmış, kişi əməyinin birinci yerə çıxmasına səbəb olmuşdur. Kişinin hökmran olduğu ailə cəmiyyətin özəyini təşkil etmişdir. Bu dövrə aid abidələrin tədqiqi zamanı böyük əmlak bərabərsizliyi aşkar olunmasa da, böyük ailələrin formalaşması, istehsalın təşkili və mülkiyyətin qorunması müəyyən ictimai təşkilatların yaranmasını zəruri etmişdir. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid sonuncu tikinti qatında müdafiə divarının və çoxotaqlı evlərin aşkar olunması bununla bağlıdır. Azərbaycanın Kür-Araz mədəniyyətinə aid yaşayış yerlərinin ətrafına müdafiə divarlarının çəkilməsi də bununla bağlı olmuşdur. Tayfalararası toqquşmaların mövcud olduğu bu dövrün idarə forması ehtimal ki, hərbi demokratiya olmuşdur.



Şəkil 40. Erkən Tunc dövrünün maddi-mədəniyyəti (Kültəpə).

Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər olmasına baxmayaraq bu mədəniyyətin Cənubi Qafqazda

formalaşdığı qəbul edilmişdir. Bəzilərinin fikrinə görə, bu mədəniyyət Qafqazda və Şimali İranda, digərlərinə görə isə Şərqi Anadoluda və Arazın orta axarlarında formalaşmışdır. Son illərin araşdırmaları göstərir ki, bu mədəniyyətin formalaşdığı əsas rayonlardan biri Naxçıvan ərazisidir. Ovçulartəpəsi yaşayış yerində aparılan tədqiqatlar zamanı Kür-Araz mədəniyyətinin formalaşma mərhələsinə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Erkən mərhələyə aid keramika Eneolit dövründə olduğu kimi saman qarışığından hazırlanmışdır. Bu tip keramika "Proto Kür-Araz" keramikası adlandırılmışdır. Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin tədqiqi göstərir ki, Kür-Araz mədəniyyəti Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir. Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı Urmiya hövzəsi və Naxçıvan abidələrində xüsusilə aydın izlənilir. Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid Ovçulartəpəsi, Göytəpə, Yanıqtəpə, Xələc, II Kültəpənin keramika məmulatında aydın şəkildə izlənmişdir. Ümumiyyətlə, Urmiya hövzəsi və Naxçıvanda yerləşən İlk Tunc dövrü abidələrində mədəni təbəqənin qalınlığı, Kür-Araz mədəniyyətinin bütün mərhələlərinin aydın izlənilməsi, Kür-Araz mədəniyyətinə aid təbəqənin Eneolit təbəqəsini örtməsi təsdiq edir ki, bu rayon Kür-Araz mədcəniyyətinin formalaşdığı əsas ocaqlardan biri olmuşdur. Lakin qeyd etmək lazımdır ki, Urmiya hövzəsi ilə bağlı olan Naxçıvanın Kür-Araz keramikası bir sıra lokal xüsusiyyətlərinə görə digər regionların keramikasından fərqlənir. Bu fərqlər ocaq qurğuları və metal əşyalarda da özünü göstərir. Şimalda Şimali Qafqaz və Dağıstan, Cənubda Urmiya hövzəsi, qərbdə Suriya və Fələstinədək yayılan Kür-Araz mədəniyyəti müəyyən lokal xüsusiyyətləri ilə fərqlənmişdir. Kür-Araz mədəniyyətində lokal variantların izləndiyi digər tədqiqatçılar tərəfindən də qeyd etmişdir. Tədqiqatçılar qəbir abidələrinin müxtəlifliyinə əsaslanaraq əhalinin etnik tərkibcə fərqli olduğunu qeyd etmişdir. Kür-Araz mədəniyyətini hind-avropalılara, Nax-Dağıstan dil qrupuna aid edən tədqiqatçıların fikirləri ilə razılaşmaq olmaz. Hər şeydən əvvəl bu mədəniyyətin yaranma ocağı Cənubi Qafqaz olduğundan onun kənardan gətirildiyini söyləmək olmaz. Digər tərəfdən olduqca geniş bir əraziyə yayılan və yerli xüsusiyyətlərlə fərqlənən Kür-Araz mədəniyyətini vahid etnosa aid etmək olmaz. Kür-Araz mədəniyyətinin lokal variantlarının müəyyən tayfalarla bağlanması tamamilə təbiidir. Azərbaycanın cənubunda, o cümlədən Cənubi Azərbaycan və Naxçıvnda Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, su və turukki tayfaları olmuşdur. Bu tayfaların Urmiya hövzəsi və Mesopotamiyadakı fəaliyyəti ilə bağlı yazılı mənbələri məlumatları e.ə. III minilliyin sonuna aiddir. Tədqiqatlar e.ə. III-I minilliklərdə Cənubi

Azərbaycan əhalisinin kuti və lullubilərdən ibarət olduğunu göstərmişdir. Bu tayfaların etnik baxımdan Elam və Zaqro-Elam dil qrupuna aid tayfalara yaxın olduğu da qeyd edilmişdir. Tədqiqatlar bu dövrdə Azərbaycanda şumer dilinin də yayıldığını göstərir. Istər elam, istərsə də şumer dilinin türk dilləri ilə yaxın olduğu tədqiqatçılar tərəfindən qəbul edilmişdir. Şübhəsiz ki, Kür-Araz mədəniyyətinin formalaşmasında digər türkdilli tayfaların da rolu olmuşdur. Naxçıvanın zəngin toponimikası onların varlığından xəbər verir. Onlar arasında aparıcı rol kuti, lullubi və trukkilərə məxsus olmuş e.ə. III-II minilliklərdə Urmiya gölü hövzəsində bu tayfaların siyasi qurumları mövcud olmuşdur.

**Gəmiqaya təsvirləri.** Nuh peyğəmbərin adı ilə bağlı olan Gəmiqayadan Sovet dövründə bəhs etmək qadağan olunmuşdu. Həzrəti Nuh peyğəmbərin gəmisinin gəlib çatması ehtimal olunan məşhur Gəmiqaya abidəsinin tədqiqi məsələsi siyasi rejimin prinsiplərinə uyğun gəlmədiyi üçün arxa plana keçirilmiş, az qala unutdurulmuşdu. Gəmiqaya mövzusu yenidən yalnız müstəqillik illərində gündəmə gəldi. Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazanması Gəmiqaya abidəsinin siyasi bəraət almasına şərait yaratdı.



Şəkil 41. Gəmiqaya. Qaranquş yaylağı.

Rəvayətə görə Naxçıvan Nuh peyğəmbərin gəmisinin son dayanacağıdır. Bu yer dəniz səviyyəsindən üç min doqquz yüz altı metr

yüksəklikdə olan Qapıcıq zirvəsi ətrafındadır. Qapıcıq Kiçik Qafqaz dağlarının ən yüksək nöqtəsidir. Qapıcıq toponimi də Gəmiqaya hadisəsi ilə səsləşir. Əfsanəyə görə Nuh peyğəmbərin gəmisinin bir neçə həftəlik səfərdən sonra gəlib yetişdiyi bu yerdə qapı boyda, baca şəklində torpaq sahəsi görünmüş və Nuh peyğəmbər burada gəmidən yerə enmişdir. Beləliklə, Qapıcıq- bəşəriyyətin yeni həyatına açılan kiçik qapı mənasını dayşıyır. Yerli sakinlərin dediyinə görə Qapıcıq zirvəsinin altında, Gəmiqayanın ən yüksək nöqtələrindən birində qayadan çıxan Baca bulağı adlı çeşmə mövcuddur. Baca sözü Qapıcıq sözünün sinonimi kimi də başa düşülə bilər. Nuh peyğəmbərin ayağının ilk dəfə torpağa qoyulduğu yer qapıcıq, yaxud baca boyda imiş. Nuh peyğəmbərin əfsanəvi gəmisi ilə əlaqədar olan yerlərin heç birində Naxçıvan ərazisində olduğu qədər toponimə rast gəlinməyib.



Şəkil 42. Gəmiqaya. Ov səhnəsi.

Məlumdur ki, Nuh əsatirinə görə əfsanəvi gəmidə proseslərə nəzarət edən Nuh peyğəmbər uzun bir vaxtdan sonra suyun azılıb-azalmadığını, torpaq əlamətlərinin olub-olmadığını öyrənmək üçün qaranquşu gəmidən havaya buraxmışdır. Nuh əsatirinin Türkiyə versiyasında qaranquş deyil, həmin quşun göyərçin olduğu öz əksini tapmışdır. Naxçıvandan toplanılan əsatirdə isə qaranquşdan bəhs olunur. Bir az sonra qaranquş dimdiyində dəfnə yarpağı geri qayıdır. Bundan başqa, hadisə ilə bağlı əsas versiyalardan

birində geri qayıdan qaranquşun caynaqlarında palçıq əlamətləri müşahidə olunur. Nuh peyğəmbər bu yolla suyun çəkilməkdə olduğunu müəyyən edə bilir. Yəni qaranquş məsələsi qədim əhvalatdır. Torpaq əlamətlərinin müjdəsini gətirən qaranquşdur. Gəmiqaya yaxasındakı ən uca nöqtələrdən birində, təxminən Gəmiqayanın üç min yeddi yüz metrlik məsafəsində Qaranquş yaylağı yerləşir. Gəmiqyadakı əsas qayaüstü rəsmlər də Qaranquşun yaylağındadır. Burada mindən çox daşın üzərində qayaüstü təsvirlər vardır.



Şəkil 43. Gəmiqaya. Ovsun.

Gəmiqaya yüksəkliklərindəki yer adlarından biri olan Nəbi yurdu da birbaşa Nuh peyğəmbərlə əlaqədar yaranan toponimdir. Məlum olduğu kimi, Nəbi sözünün əsas mənalarından biri də peyğəmbər deməkdir. Nəbi yurdu – peyğəmbər obası mənasını daşıyır. Əsatirdə adı çəkilən Nuhdaban yaşayış yeri də adından göründüyü kimi Nuh əhvalatı ilə əlaqədardır. Nuhdaban yaşayış yerinin yerləşməsi barədə müxtəlif mülahizələr mövcuddur. Xalq arasında Nuhdabanın Ordubad rayonundakı Nəsirvaz kəndindən yuxarıda, yəni Gəmiqaya ətəklərində yerləşdiyi qeyd olunur. Görkəmli rus tarixçi-şərqşünası Konstantin Nikolayeviç Smirnovun «Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar» əsərində Nuhdabanın qədim Abbasabad qalasından bir qədər aralıda, Nuh peyğəmbərin məzarının olduğu yerdə mövcud olduğu göstərilir. Hətta K.N.Smirnova görə Nuh peyğəmbərin

məzarı da Nuhdabandadır. Nuhdaban – Nuh peyğəmbər və övladlarının dabanlarını yerə basıb ilkin oturaq məskən saldıqları yer mənasını bildirir.



Şəkil 44. Gəmiqaya. Keçi təsviri.

Gəmiqaya təsvirləri Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsidir. Gəmiqaya Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Qayaüstü təsvirlər başlıca olaraq Qaranquş yaylağında toplansa da, bu tip təsvirlərə Qapıcıq zirvəsindən başlayaraq Nəbiyurdu və Camışölən yaylağınadək geniş bir ərazidə rast gəlmək mümkündür. Başlıca olaraq su qaynaqları ətrafında toplanan qaya təsvirləri qədim insanların təsərrüfatı və

mənəvi mədəniyyətini öyrənmək üçün dəyərli mənbədir. Gəmiqaya təsvirlərini stilistik xüsusiyyətlərinə görə iki böyük qrupa ayırmaq olar. Birinci qrupa simvol-işarə və astral rəsmlər, ikinci qrupa isə sujetli təsvirlər daxildir. Birinci qrup təsvirlər arasında astral rəsmlər, xüsusilə Günəş təsvirləri mühüm yer tutur. Insanların həyatdakı uğurları təbiətlə, o cümlədən Günəşlə bağlı olduğu üçün istər əkinçi, istər də maldar tayfaların inancında Günəşə sitayiş geniş yer tutmuşdur. Gəmiqayada Günəşi simvolizə edən təsvirlərin çoxluğu da bu inanclarla bağlı olmuşdur.



Şəkil 45. Gəmiqaya. Qarşı-qarşıya duran keçilər.

Gəmiqaya təsvirləri arasında Veneranı simvolizə edən rəsmlər xüsusilə diqqətəlayiqdir. Başlıca olaraq qoşa dairə şəklində verilən Venera ekizlər kultu ilə bağlı olmuşdur. Ekizliklə bağlı tapıntılara digər arxeoloji abidələrin tədqiqi zamanı da rastlanmışdır. Onlar qoşa spiral şəklində hazırlanmış asmalar, qoşa disklər və qoşa heyvan fiqurları ilə təmsil olunmuşdur. Mingəçevirdən aşkar olunmuş qoşa disklərdən birinin ortasında insan təsvirinin olması, onların insanların mifik təfəkkürü ilə bağlı olduğunu deməyə imkan verir.

İkinci qrup rəsmlər insan, heyvan və astral rəsmlərin müxtəlif kompozisiyasından ibarətdir. Bu qrupa daxil olan rəsmlər başlıca olaraq qədim insanların mifik təfəkkürünü əks etdirir. Bu rəsmlər arasında məhsuldarlıq Tanrısı və məhsuldarlıqla bağlı inancları əks etdirən rəsmlər üstünlük təşkil edir. Bu təsvirlərin məzmununu təşkil edən başlıca ideya məhsuldarlığın təmin olunmasıdır. Insanların yaşayışı üçün həyati

əhəmiyyətə malik olan bu ideya təbii stixiyaların – quraqlığın, kütləvi məhvolmanın qarşısının alınması, ovun uğurluluğunun təmin olunması, bu məqsədlə gərəksiz ovun yasaq edilməsi ilə bağlı inancları əks etdirən rəsmlərdə ifadə olunmuşdur. Bu rəsmlərdə animizm, maqiya və totemizmlə bağlı ibtidai inancların qalıqları izlənməkdədir. Naxçıvanda məskənləşən qədim tayfaların ideoloji görüşlərinin xarakterik cəhətlərindən biri balıqla bağlı inanclardır. Balıqqulağı keçirilmiş sırğalar və boyunbağılar qədim geyimlərin ayrılmaz hissəsi olmuşdur. Sarıdərə nekropolundan aşkar olunmuş bəzək əşyalarının birinin üzərində yarı balıq-yarı insan şəklində mifoloji varlıq təsvir edilmişdir. Balıq təsvirlərinə Gəmiqayada da rastlanmışdır. Qədim dövrdə Naxçıvanda qəbirlərə balıqqulağı qoymaq adəti də mövcud olmuşdur. Balığa sitayiş Su Tarırısı ilə bağlı inancları əks etdirmişdir. Qədim Şərq sənətində, o cümlədən skiflərdə polimorf varlıqların xtonik xarakteri balıq quyruğu ilə ifadə edilmişdir. Rəsmlərdə əks olunan ikinci başlıca ideya əks başlanğıcların mübarizəsidir. Bu ideya yırtıcı heyvanların dırnaqlı heyvanları parçalamaması səhnələrinin təsvirində aydın şəkildə göstərilmişdir.



Şəkil 46. Gəmiqaya. Qurd ağzı bağlama.

Gəmiqaya təsvirlərində obrazlı şəkildə ifadə olunan Göy inancı, Göy cisimlərinə sitayiş, dağ kultu, Göy aləminin nizamlayıcı başlanğıc funksiyasını yerinə yetirməsi, bu dünya və o biri dünya anlayışlarının ikili müxalifət şəklində verilməsi türk xalqlarının mifologiyasında izlənmişdir.

Bu düşüncə tərzi indiyədək Azərbaycan xalqının sənət əsərlərində, folklorunda və etnoqrafik materiallarda yaşamaqda davam edir. Azərbaycan ərazisində yaşayan qədim tayfaların mifoloji görüşlərinin formalaşmasına qədim Şərq mədəniyyəti, xüsusilə Şumer mədəniyyətinin müəyyən təsiri olmuşdur. Bu təsir digər arxeoloji abidələrdə olduğu kimi Gəmiqaya təsvirlərində özünü göstərir.



Şəkil 47. Gəmiqaya. Həyat ağacı və keçi təsvirləri.

Naxçıvan arxeoloji abidələrinin tədqiqi bu ərazidə formalaşan mədəniyyətlərin Ön Asiya mədəniyyətləri ilə qarşılıqlı əlaqədə inkişaf etdiyini və qonşu ölkələrə təsir etdiyini təsdiq edir. Bəzi araşdırıcılar Maykop mədəniyyətində Misir mədəniyyətinin təsirini ortaya çıxarmağa, bu mədəniyyətin Balkanlar üzərindən Şimali Qafqaza gəlməsini sübut etməyə çalışsa da, Ön Asiya mədəniyyətinin Qafqaz üzərindən Şimala doğru yayıldığı çoxsaylı arxeoloji tapıntılarla sübut olunur. Gəmiqaya təsvirlərinin araşdırılması bir daha sübut edir ki, Azərbaycan ərazisi qədim Şərq mədəniyyətinin şimala doğru ötürülməsində bir körpü olmuşdur.

Gəmiqaya abidələrinin tarixləndirilməsi Azərbaycan arxeologiyasının aktual məsələlərindən biridir. Gəmiqaya təsvirlərinin araşdırılması burada müxtəlif dövrlərə aid və müxtəlif xarakterli rəsmlərin olduğunu göstərir. Arxeoloji araşdırmalar Azərbaycanda mifoloji təsəvvürlərin Paleolit

dövründə meydana çıxdığını təsdiq edir. Bu dövrdə axirət dünyasına inam, təbiət qüvvələrinə, ulu əcdada sitayiş, totem və ovsun kimi dini təsəvvürlər meydana çıxmışdır. Naxçıvan əhalisinin qədim dini təsəvvürlərini öyrənmək üçün ən qədim tapıntılar hələlik Neolit dövrünə aiddir. Neolit və Eneolit dövrünə aid qəbir abidələrinin tədqiqi qədim insanlarda mifoloji düşüncə tərzinin formalaşdığını təsdiq edir. Gil qablar üzərindəki təsvirlər və dəfn adətləri qədim insanların Günəşə, Aya və təbiət qüvvələrinə sitayiş etdiyini, məhsuldarlığın təmin olunması ilə bağlı müəyyən ayinlərin keçirdiyini deməyə imkan verir. Eneolit və Erkən Tunc dövrünə aid ev ziyarətgahları, Erkən Tunc dövrünə aid müxtəlif heyvan fiqurları və sitayiş əşyalarnrnı aşkar olunması dini təsəvvürlərin insanların həyatında mühüm rol oynadığını deməyə əsas verir. Erkən Tunc dövründə maldarlığın insanların həyatında mühüm rol oynaması, o cümlədən iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunması öküz kultunun geniş yayılmasına səbəb olmuş, sitayiş əşyaları öküz buynuzu formasında hazırlanmışdır.

Orta Tunc dövründə təsviri sənətin inkişafı qədim insanların ideoloji təsəvvürlərinin daha aydın ifadəsi üçün şərait yaratmışdır. Təsviri sənət nümunələrində dünyanın şaquli və üfiqi quruluşu ilə bağlı təsəvvürlər öz əksini tapmışdır. Türk mifologiyasında, o cümlədən Azərbaycan türklərində dünyanın quruluşu şaquli olaraq üç yerə bölündüyü kimi, üfiqi olaraq dörd yerə bölünmüşdür. Bu bölgü bəzən beşlik şəkilində – dünyanın mərkəzi və onun dörd tərəfi şəklində düşünülmüşdür. Boyalı qabların xarici səthinin üç qurşağa bölünərək naxışlanması, həyat ağacı təsvirləri, Qızılburun nekropolundan aşkar olunan beş çıxıntılı başlığı olan sancaqlar və digər faktlar bu ideoloji təsəvvürlərin mövcudluğunu təsdiq edir. Maaday Qara dağın başındakı dörd qayın ağacından nənni asaraq yeni doğulmuş uşağını ora qoyur. Burada dağ yerin mərkəzi, qayın ağacları isə dünyanın dörd tərəfini simvolizə edir. Qayın ağacları uşağı dünyanın dörd tərəfindən, Qaradağ isə göydən gələn bəladan qorumalı idi. Yerüstü məkanın dörd hissəli strukturu haqqındakı təsəvvürlər, habelə onun dörd tərəfinin hər birinin qoruyucu Tanrısı olması haqqındakı inanclar türk xalqlarının mifologiyası üçün xarakterikdir. Bu qoruyucu Tanrılar bəzən zoomorf və antopomorf obrazlarla verilmişdir. Qədim mədəniyyət nümunələrində xaçşəkilli işarələrin yaranması bu ideologiya ilə bağlı olmuşdur. Ilk nümunələrinə Şumer mədəniyyətində rastlanan bu tip xaçşəkilli təsvirlən Naxçıvanın e.ə. IV-I minilliyə aid mədəniyyət nümunələrində geniş şəkildə əks olunmuşdur.

Qədim insanların təsəvvürünə görə bu dünya və o biri dünya arasında daima mübarizə gedir, Göy aləmi və orda məskun olan Tanrılar bu

mübarizəni nizamlayır və dünyada ədalətin təntənəsini qoruyur. Heyvanların mübarizəsi səhnəsi, heyvan başlı bilərziklər, çərxi fələk şəkilli işarələr, müxtəlif heyvan təsvirləri və digər sənət nümunələrinin öyrənilməsi Naxçıvanın qədim sakinlərinin mifologiyası ilə türk xalqlarının mifologiyası arasında genetik bağlılıq olduğunu təsdiq edir.

Qədim insanlar həyatın o biri dünyada davam etdiyinə inandıqları üçün axirət dünyasında insanların həyatını təmin etmək üçün müxtəlif ayinlər icra etmişlər. Yuxarıda qeyd etdiyimiz kimi, Neolit və Eneolit dövründə ölülərin oxra ilə boyanması adəti mövcud olmuşdur. Tunc dövründə isə qəbirlərin üzərində kurqan düzəltmə, onların kromlexlərlə əhatə edilməsi adəti mövcud olmuşdur. Nəhəcir nekropolunda ikiqat kromlexlə əhatə olunmuş qəbirə də rastlanmışdır. Qəbirlərin üzərində kurqan düzəltmə və onların kromlexlərlə əhatə olunması qədim əkinçi-maldar tayfaların Günəşə inamı ilə bağlı olmuşdur. Kolanı nekropolunda daş qutu tipli qəbirlərin birinin divarında Günəş Tanrısını simvolizə edən təsvirin olması Günəşlə bağlı inancların geniş yayıldığını təsdiq edən dəlillərdən biridir. Qədim türklərin inamına görə cəmiyyətin seçilmiş üzvləri öldükdən sonra onların ruhu Göyə çəkilərək Günəşə qovuşurmuş.

Gəmiqaya abidələrinin tarixləndirilməsi yerli arxeoloji mədəniyyətlərin inkişaf xüsusiyyətlərini və Ön Asiya mədəniyyətinin Cənubi Qafqaza erkən təsirini nəzərə almağı tələb edir. Araşdırmalar e. ə. VI-I minilliklərdə Naxçıvan ərazisinin Cənubi Azərbaycan və Şərqi Anadolu ilə vahid iqtisadi mədəni rayona daxil olduğunu göstərir. Ovçulartəpəsindən aşkar olunan küpələr üzərindəki təsvirlər Naxçıvanda incəsənətin e.ə. V minillikdə inkişaf etmiş səviyyədə olduğunu göstərir. Fikrimizcə, Gəmiqaya təsvirlərinin əksəriyyətinin e. ə. V-I minilliyə aid etmək olar. Bəzi rəsmlərin bənzərlərinə arxeoloji sənət əsərlərində rastlandığından onların nisbi xronologiyasını müəyyən etmək mümkündür.

Sənət nümunələrinin tədqiqi Naxçıvanın qədim tayfalarının bitkin mifoloji təfəkkür tərzinə yiyələndiyini göstərir. Qədim sənət əsərlərində, etnoqrafik materiallarda, folklor nümunələrində əks olunan təsəvvürlərə görə insanların yaşadığı dünyanın yuxarısında və aşağısında da bir dünya vardır. Tanrılar, xeyirxah qüvvələr Göydə, o biri dünya insanların yaşadığı dünyanın altında, yaxud onların ətrafındadır. Bir-birinə qarşı qoyulan bu dünya və o biri dünyadakı proseslər qarşılıqlı əlaqədədir. Ölüm həyatın dəyişilməz şərtidir, canlıların daimi intibahının və təzələnməsinin rəhnidir. Göyün, Yerin və o biri dünyanın sahibi mifoloji obrazlarla verilmişdir. Bu varlıqlarla əlaqə yaradılması, dua edilməsi, qurban kəsilməsi və digər

ayinlərin icra edilməsi onların həyatındakı uğurların əsas təminatıdır. Arxeoloji sənət nümunələrindəki təsvirlər də bu inanclarla bağlıdır.



Şəkil 48. Monoxrom boyalı küpə (Yaycı nekropolu).

**Orta Tunc dövrü abidələri.** E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrü adlandırılan bu dövr I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir, Şortəpə və digər abidələrdə aparılan araşdırmalarla öyrənilmişdir. II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdir. V.H.Əliyevin apardığı araşdırmalar göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəlində ətrafı divarla əhatə

olunmuş yaşayış yerinə çevrilmişdir. Narınqalanın divarları 2-2,5 m qalınlığındadır. O dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin Narınqalasının planı tamamilə müəyyənləşdirilmiş, onun ilkin şəhərlər üçün xarakterik olan strukturu aşkara çıxarılmışdır. Narınqalanın proporsional arxitekturası, binaların küçələr boyunca yerləşməsi yaşayış yerinin əvvəlcədən müəyyən edilmiş plan əsasında tikildiyini deməyə imkan verir. Hakim təbəqənin və varlıların yaşadığı Narınqalanın yaşayış yerinin digər hissələrindən qalın divarla ayrılması cəmiyyətdə kəskin sosial ziddiyyətlərin olduğunu göstərir. Bu dövrdə insanlar dördkünc formalı təkotaqlı və çoxotaqlı evlərdə yaşamışdır. Istehsal müəssisələri Narınqalanın xaricində yerləşdirilmişdir. Şəhərin bu qismində aparılan qazıntılar zamanı dulus kürələri, dulusçuluq emalatxanaları, metaləritmə sobalarının qalıqları aşkar olunmuşdur.



Şəkil 49. Polixrom boyalı küpə (Şahtaxtı).

Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərin fomalaşdığını təsdiq edir. II Kültəpə, Şahtaxtı, Qızqala, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır. Əhali başlıca olaraq oturaq həyat tərzi keçirmiş, əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşdur. Iqtisadiyyatın yüksək inkişafı sənətkarlığın

xüsusi istehsal sahəsinə çevrilməsinə imkan vermişdir. Sənətkarlığın ən mühüm sahələri dulusçuluq, metalişləmə, toxuculuq və daşişləmə olmuşdur.



Şəkil 50. Polixrom boyalı keramika.

Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin ən mükəmməl əsərləri boyalı keramikadır. Monoxrom və polixrom olaraq iki böyük qrupa ayrılan boyalı qabların dörd inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir. Lakin son illərin araşdırmaları bir neçə aralıq mərhələnin də olduğunu təsdiq edir. Naxçıvanın Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların bənzərlərinə Urmiya hövzəsi, Mil düzü, Şimal-Şərqi Anadorlu, Gürcüstan və Ermənistanda rastlanmışdır. Bütöv olaraq götürüldükdə, müəyyən lokal fərqlər istisna olunmaqla Urmiya hövzəsi, Van gölü çevrəsi, Qafqaz dağlarının cənub ətəkləri, Mil-Muğan düzləri ilə hüdudlanan bir bölgənin ortaq mədəniyyətə malik olduğu aydın şəkildə görünür. Bu geniş ərazidə yayılan boyalı qabların bütün xüsusiyyətləri Naxçıvanda izlənmişdir. Gürcüstan və Ermənistanda yayılan tək stil boyalı qabların əksinə olaraq Naxçıvan, Şərqi Anadolu və Urmiya hövzəsində boyalı qablar daha çox çeşidlilik göstərmiş və müxtəlif mərhələlərdən keçmişdir. Şərqi Anadolu, Cənubi Qafqaz və Qərbi İranda ovalıqlarda yerləşən yaşayış yerlərində yaşayış kəsildiyi halda, Naxçıvanda oturaq həyat heç bir fasiləyə uğramadan davam etmişdir. Bununla birlikdə zəngin otlaq və su qaynaqlarına malik olan

dağ ətəklərində yarımköçəri həyat tərzi davam etmişdir. Orta Tunc dövründə qala tipli yaşayış yerlərinin yayılması köçmə maldarlığın inkişafı, əhalinin müdafiə ehtiyacının artması ilə bağlı olmuşdur. Qala tipli yaşayış yerlərindən Orta Tunc dövrünün erkən mərhələsinə aid keramika məmulatının aşkar olunması bu proseslərin e.ə. III minilliyin ortalarından başladığını təsdiq edir. Naxçıvanın Orta Tunc dövrü yaşayış yerləri güclü müdafiə divarı ilə əhatə olunmuş bu ərazidə güclü tayfa ittifaqları formalaşmışdır. Orta Tunc dövrünə aid ən möhtəşəm abidələrin Naxçıvanda yerləşməsi bu bölgənin Orta Tunc dövrü mədəniyyətinin əsas mərkəzi olduğunu təsdiq edir. Urmiya hövzəsi və Naxçıvandan fərqli olaraq Şərqi Anadoludakı yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsinin rastlanmaması, bu dövrə aid arxeoloji abidələrin başlıca olaraq qəbristanlıqlarla təmsil olunması həyatın köçəri xarakterdə olduğunu göstərir. Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda yaşayan tayfalar oturaq və köçəri həyat tərzi keçirmişdir. Oturaq tayfaların əsas məskənləri Naxçıvan və Urmiya hövzəsi, köçəri tayfaların məskəni isə Şərqi Anadolu olmuşdur. Gürcüstan və Ermənistan yaylaqlarında rastlanan qəbir abidələri bu tayfaların köç yolları üzərində salınmışdır. Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda boyalı qablar bütün qəbirlərdən tapıldığı halda Gürcüstanda yayılan Trialeti mədəniyyətində boyalı qablar yalnız varlılara aid qəbirlərdən aşkar olunmuşdur. Bu da boyalı qabların Gürcüstana idxal malı olaraq daxil olduğunu təsdiq edir. Naxçıvanda meydana gələn bu mədəniyyət Mil-Muğan düzünə, Göyçə ətrafına və Gürcüstanadək yayılmışdır.

Bu dövrdə Cənubi Qafqazın böyük bir qismində, o cümlədən Gürcüstan, Ermənistan və Azərbaycanın şimal rayonlarında Orta Tunc dövrü mədəniyyəti qara rəngli, cilalı, bəzən isə basma naxışlı keramika məmulatı ilə xarakterizə edilmişdir. Bu mədəniyyətin Kür-Araz mədəniyyəti əsasında formalaşdığı düşünülməkdədir. Arxeoloji abidələrin araşdırılması Azərbaycanın cənubunda, o cümlədən Naxçıvnda Boyalı qablar mədəniyyətinin yayıldığı dövrdə Azərbaycanın şimal rayonlarında Kür-Araz mədəniyyəti tayfaların kompakt şəkildə yaşamaqda davam etdiyini təsdiq edir. Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalına lullubi tayfaları tərəfindən sıxışdırılmışdır. Odur ki, Boyalı qablar mədəniyyətinin yaradılmasında bu tayfaların müəyyən rol oynadığı şübhəsizdir. Lullubi tayfalarının inanclarında səma cisimlərinə sitayiş mühüm yer tutmuşdur. Naxçıvan boyalı qabları üzərində səma cisimlərinin təsvirləri də bununla bağlıdır. II Kültəpə və Nəhəcirdən aşkar olunmuş boyalı qablar üzərində səkkizguşəli ulduz təsvirlərinə rastlanmışdır. Bu təsvirlər lullubi hökmdarı

Anubaninin qələbə abidəsi üzərindəki ulduz təsviri ilə bənzərdir. Anubaninin qələbə abidəsi üzərində təsvir edilən İlahənin geyimi ilə Qızılburun boyalı küpəsi üzərindəki qadının geyimi arasında da xeyli bənzərlik vardır. Boyalı qablar mədəniyyətinin yaradılmasında yazılı mənbələrdə xatırlanmayan naxçı tayfaları da müəyyən rol oynamışdır. Naxçıvanın Orta Tunc dövrü abidələrinin yaxınlığında naxçı tayfaları ilə bağlı toponimlərin saxlanması bunu təsdiq edir. Orta Tunc dövrü mədəniyyətinin formalaşmasında mühüm rolu olan tayfalardan biri də kassit, yaxud kas tayfaları olmuşdur. Assuriya mənbələrində «kaşşu» adlandırılan bu tayfalarla bağlı Naxçıvanda xeyli yer adları qalmışdır.  Kosalı, Kasqalan, Qozakar, Qazançı, Miskinkas və başqaları buna misal ola bilər.



Şəkil 51. Polixrom boyalı keramika.

Orta Tunc dövrünün erkən mərhələsi Naxçıvan ərazisində bəzən skeletsiz qəbirlərlə xarakterizə edilirsə, Qızqalası nekropolunda, Orta Tuncun son mərhələdə tək, cüt və kollektiv dəfnlərə rastlanır. Orta Tunc dövrünün son mərhələsində dəfn adətində meydana gələn dəyişiklik, şübhəsiz ki, ölkənin siyasi həyatında yeni tayfaların rolunun artdığını göstərir. Ümumiyyətlə, skeletltli və skeletsiz qəbirlər Naxçıvanda Erkən Tunc dövründən mövcud olmuşdur. Bu dəfn adətlərinə Azərbaycanın digər rayonlarında da rastlanmışdır. Arxeoloji araşdırmalar göstərir ki, ölkənin

tarixi iqtisadi-siyasi dəyişikliklərə uyğun olaraq tarix səhnəsində müəyyən etnosların güclənməsi ilə əlamətdar olmuşdur. Bu dövrdə Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda polixrom boyalı qablarla xarakterizə edilən mədəniyyət yayılmış, Cənubi Qafqazın digər regionlarında isə buna rastlanmamışdır. Bu faktlar Azərbaycanda məskənləşən qədim tayfaların öxünəməxsus mədəniyyəti olduğunu təsdiq etməklə, bu mədəniyyətin kənardan gətirilməsi ilə bağlı irəli sürülən qeyri-elmi iddiaları tamamilə rədd edir. Qeyd edək ki, skeletsiz qəbirlərin Erkən Tunc dövründən başlayaraq Son Tunc dövrünədək davam etməsi bu ərazidə müxtəlif etnik qrupların məskənləşdiyini, lakin onların vahid mədəniyyətə malik olduğunu bir-biri ilə qaynayıb qarışdığını təsdiq edir.



Şəkil 52. Polixrom boyalı keramika.

**İlkin şəhər mədəniyyətinin yaranması.** Naxçıvan ərazisinin əlverişli coğrafi mövqeyi, onun Yaxın Şərq ölkələri ilə bilavasitə qonşuluqda yerləşməsi, Naxçıvan ərazisi Yaxın Şərqlə Cənubi Qafqaz arasında iqtisadi-mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır. Naxçıvanın daş duz və mineral xammal mənbələri ilə zəngin olması, habelə bu ərazinin Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən ticarət yolunun qovşağında yerləşməsi

ticarətin və sənətkarlığın inkişafına əlverişli şərait yaratmışdır. Son illərin tədqiqatları e.ə. V-IV minilliklərdə Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən obsidian ticarətində Naxçıvanın mühüm yer tutduğunu göstərir. Birləşmiş Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Duzdağda apardığı araşdırmalar e.ə. V minilikdə mədənçiliyin Naxçıvan sakinlərinin həyatında mühüm yer tutduğunu, duzun yalnız şəxsi istehlak üçün deyil, həm də ticarət məqsədilə istehsal edildiyini göstərir. Araşdırmalar Naxçıvanın həmçinin erkən metallurgiya mərkəzlərindən biri olduğunu göstərir. İqtisadi-mədəni əlaqələrin, ticarətin və sənətkarlığın inkişafı şəhər tipli yaşayış yerlərinin formalaşmasına səbəb olmuşdur.

Arxeoloji tədqiqar Naxçıvanda şəhər tipli yaşayış yerlərinin e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir. Azərbaycanda şəhər mədəniyyətinin öyrənilməsi sahəsində ilk adımlar V.H.Əliyev tərəfindən atılmışdır. O, II Kültəpədə apardığı araşdırmalarla Azərbaycanda, o cümlədən Naxçıvanda şəhər mədəniyyətinin olduğunu təsdiq etmişdir. Bu yaşayış yeri Babək rayonunun Yuxarı Uzunoba kəndi yaxınlığında Cəhriçayla Naxçıvançayın birləşdiyi yerdə yerləşir. Birbaşa Erkən Tunc dövrü təbəqəsinin üzərində yerləşən Orta Tunc dövrü təbəqəsi 4,5 m qalınlığındadır. Araşdırmalar zamanı bu təbəqədə tikinti qalıqları ilə seçilən dörd mərhələnin varlığı ortaya çıxarılmışdır. II Kültəpə yaşayış yerini əhatə edən müdafiə divarı müəyyən məsafədə yerləşdirilən dördkünc formalı bürclərlə möhkəmləndirilmişdir. Müdafiə divarının möhkəmləndirilməsi, habelə onun memarlıq xüsusiyyətlərinin effektini artırmaq üçün dördkünc formalı kontrforslardan da istifadə edilmişdir. Divarların bəzi qismində çay daşlarından çəkilmiş üzlüyün qalıqları saxlanmışdır. Faktlar göstərir ki, bu dövrdə divarların xarici görünüşünün mükəmməl olmasına xüsusi fikir verilmişdir.

II Kültəpə yaşayış yerinin xarakterik xüsusiyyətlərindən biri də küçələrə daş döşənməsidir. Şəhər mədəniyyəti üçün xarakterik olan bu xüsusiyyət yaşayış yerinin təmizliyinə də müəyyən diqqət ayrıldığını göstərir. V.H.Əliyevin apardığı araşdırmalar II Kültəpənin eni 3 m olan dərin xəndəklə əhatə olunduğunu göstərir. Ehtimal ki, şəhərdəki çirkab sularını şəhərdən xaricə çıxarmaq üçün də müəyyən kanallar olmuşdur. II Kültəpənin daxili strukturu kifayət qədər öyrənilməsə də, ən mühüm inzibati binaların və idarə mərkəzlərinin, habelə şəhərin hakim dairələrinin yaşayış evlərinin narınqalada yerləşdiyi ehtimal olunur. Şəhərin bu qismində ərzaq anbarlarının olması ehtimalı da vardır.

II Kültəpə yaşayış yeri üçün xarakterik olan cəhətlərdən biri də istehsal müəssisələrinin narınqaladan kənarda yerləşdirilməsidir. Şəhərin

qazıntıları zamanı narınqalanın xaricində dulus kürələri, dulusçuluq emalatxanası, metaləritmə sobalarının qalıqları aşkar edilmişdir. Araşdırmalar göstərir ki, istehsalla məşğul olan əhali narınqalanın xaricində məskən salmışdır.



Şəkil 53. Qazançıqala.

Orta Tunc dövründə ətrafı möhkəmləndirilmiş yaşayış yerlərindən biri də Şahtaxtı olmuşdur. 1979-1981-ci illərdə V.H.Əliyev və Q.H.Ağayevin rəhbərliyi ilə Şahtaxtı yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid divar qalıqdarı aşkar edilmişdir. Araşdırmalara əsasən demək olar ki yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur. Şübhəsiz ki onun Narınqala hissəsi hakim təbəqənin yaşaması üçün nəzərdə tutulmuşdur. Bu yaşayış yerində həyat Dəmir dövrünədək davam etmiş, həmin dövrdə də yaşayış yeri qala-şəhər kimi mühüm inzibati mərkəz olmuşdur.

Bu dövrün qədim şəhərlərindən biri də Naxçıvan şəhəri olmuşdur. Qədim Naxçıvan nekropolu 1968-ci ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O, şəhərin şimalında, Naxçıvan-Şahbuz yolunun sol tərəfində yerləşir, Nekropolun ərazisi hərbi şəhərciyin müasir tikililəri altında qalmışdır. 1968-ci ildə dağıdılmış qəbirlərin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Aşkar edilmiş materialların

bir qismi V.H. Əliyev tərəfindən çap olunmuşdur. Aşkar edilmiş materiallar e.ə. II minilliyə aiddir.



Şəkil 54. Çalxanqala.

Bu materiallar Naxçıvanın digər abidələrindən aşkar olunmuş şəhər mədəniyyətinə aid keramika məmulatı ilə eyni xüsusiyyətlərə malikdir və burada qədim dövrdən yaşayışın olduğunu təsdiq edir. Naxçıvan şəhərinin qədim mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir. Naxçıvan şəhəri ərazisində aşkar edilmiş ən qədim tapıntılar e.ə. II minilliyin ikinci yarısına aiddir. Bu tapıntılar təsadüfən dağıdılmış qəbirlərdən aşkar edilmiş boyalı qablar, tunc əşyalar və başqa maddi-mədəniyyət nümunələrindən ibarətdir. Maddi-mədəniyyət qalıqlarına əsaslanaraq bəzi tədqiqatçılar Naxçıvan şəhərinin əsasının e.ə. II minillikdə qoyulduğunu qeyd etmişdir. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, Antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələri aşkar olunmuşdur. Belə güman etmək olar ki, yaşayış yerinin qalıqları müasir tikintilərin altında qalmışdır. Naxçıvan şəhərinin ərazisində e.ə. II minillikdə yaşayış olması heç bir şübhə doğurmur. Qədim Naxçıvan şəhərinin qalıqları indiki hərbi

şəhərciyin müasir tikintiləri, yaxud Orta əsr Naxçıvan şəhərinin xarabalıqları altında qalmışdır. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən Şahtaxtı, Qızqala, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerləri movcud olmuşdur. Naxçıvan şəhəri e.ə. III minillikdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur.



Şəkil 55. Son Tunc dövrünün boyalı keramikası.

**Son Tunc və Erkən Dəmir dövrü abidələri.** E.ə. II minilliyin sonu və I minilliyin əvvəlində bu regionun tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Naxçıvanın bu dövrə aid mədəniyyət abidələrinin bir qrupu boyalı, digər qrupu isə boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Qızılburun və Plovdağdan aşkar olunmuş boyalı keramika ilə fərqlənən qəbir abidələri üçün tək, cüt və kollektiv dəfnlər xarakterikdir. Boz rəngli keramika ilə seçilən qəbir abidələrini üç qrupa bölmək olar. Birinci qrupa skeletsiz qəbir abidələri daxildir. Arxeoloji materialların təhlilinə əsasən bu qrupun Orta Tunc dövrü mədəniyyətinin davamı olduğunu demək olar. Ikinci qrupa kollektiv dəfnlərlə xarakterizə edilən torpaq qəbirlər, üçüncüyə isə kollektiv dəfnlərin xarakterik olduğu daş qutu tipli qəbirlər aiddir. Sonuncu iki qrupda Xocalı-Gədəbəy mədəniyyətinin təsiri əks olunmuşdur. Bu dövrdə Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın

cənub rayonlarına, o cümlədən Naxçıvana yayılmışdır. Naxçıvan ərazisində bu mədəniyyətin təsiri I Kültəpə, II Kültəpə, Şahtaxtı, Kolanı, Sarıdərə, Bayəhməd, Hakkıxlıq və digər abidələrdə izlənilmişdir.

Naxçıvanın dağlıq və dağətəyi zonasında Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən yaşayış yerlərində həyat mövsümi xarakterdə olduğu üçün mədəni təbəqə az yığılmışdır. Bu da həmin tayfaların köçəri həyat sürdüyünü və təsərrüfatda maldarlığın əsas yer tutduğunu təsdiq edir. Bu qrupa məxsus abidələrdən xeyli miqdarda silah tapılması, tayfa başçısına aid qəbirin aşkar olunması müəyyən hərbi qüvvəyə malik iri tayfa birliklərinin formalaşdığını göstərir. Bu dövrdə Naxçıvanda tayfa ittifaqlarının formalaşmasında Azərbaycanın şimalında və cənubunda məskənləşən aborigenlərin müəyyən rolu olmuşdur.



Şəkil 56. Çaynik tipli qab. Son Tunc dövrü. (Naxçıvan nekropolu).

Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən kurqanaltı torpaq qəbirlər və daş qutularda ağ inkrustasiyalı keramika aşkar olunmamış, kannelyur naxışlı keramika isə hər iki qrupa aid qəbir abidələrində tapılmışdır. Sarıdərə nekropolunda kurqanaltı torpaq qəbirlər və daş qutular eyni ərazidə, bir-birinin yaxınlığında aşkar olunmuşdur. Faktlar təsdiq edir ki, müəyyən etnik əlamətlərin saxlanmasına baxmayaraq bu

dövrdə Xocalı-Gədəbəy mədəniyyətini yaradan etnosların siyasi və mədəni cəhətdən birləşmə prosesi başa çatmışdır.

Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə təsiri bu tayfaları cənuba doğru hərəkəti ilə bağlı olmuşdur. Cənubi Azərbaycanda bu mədəniyyətin təsirini əks etdirən abidələri aşkar olunması da bunu təsdiq edir. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin elemenləri ilə seçilən abidələrlə yanaşı boyalı qablarla xarakterizə olunan abidələrin mövcudluğu, Boyalı qablar mədəniyyəti üçün xarakterik olan elementlərin, o cümlədən çaynik tipli qabların Xocalı-Gədəbəy tipli abidələrdə və əksinə Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik elementlərin Boyalı qablar mədəniyyəti nümunələrində yayılması bu tayfalar arasında siyasi və mədəni birləşmə prosesinin getdiyini göstərir. Boyalı qablar mədəniyyətinin geniş yayıldığı I Kültəpə, II Kültəpə və Şahtaxtıda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus elementlərin izlənməsi müəyyən əhali qrupunun, ola bilsin ki, hərbi qarnizonların bu yaşayış yerlərində məskənləşdiyini göstərir. Şübhəsz ki, bu hadisələr Assuriyanın Azərbaycanın cənubuna fəal hərbi müdaxiləsi ilə əlaqədar tayfalar arasında yaranan hərbi-siyasi ittifaqla bağlı olmuşdur. E.ə. II minilliyin sonu və I minilliyin əvvəlində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr və xarici işğal təhlükəsi lullubi və kutilərin Urmiya gölü hövzəsində yenidən möhkəmlənməsinə, Manna dövlətinin meydana gəlməsinə səbəb olmuşdur.



Şəkil 57. Çaynik tipli qab. Dəmir dövrü (Qızılburun nekropolu).

Son illər aparılan tədqiqatlarla təsdiq olunmuşdur ki, Xocalı-Gədəbəy mədəniyyəti müxtəlif etnik qruplar tərəfindən yaradılmışdır. Özünəməxsus keramika və dəfn adəti ilə seçilən üç qrup müəyyən edilmiş və arxeoloji komplekslər konkret etnoslara aid edilmişdir. Ağ inkrustasiyalı keramika ilə seçilən birinci qrup hurrilərə, ağac konstruksiyalı qəbirlər, yandırma, at sümükləri və konnelyur ornamentli keramika ilə seçilən üçüncü qrup irandillilərə aid edilmişdir.



Şəkil 58. Çaynik tipli qab (Şortəpə).

Qeyd etmək lazımdır ki, bu qruplar, xüsusilə üçüncü qrup Xocalı-Gədəbəy mədəniyyəti içərisində olduqca azlıq təşkil edir. Belə ki, bu qrupa yalnız bir neçə kurqan aid edilmişdir. M.N.Poqrebova belə bir fikir irəli sürmüşdür ki, irandillilər bu ərazidə bir neçə əsr məskunlaşaraq yerli tayfaların mədəniyyətini qəbul etmiş və bu mədəniyyəti özləri ilə İran yaylasına aparmışlar. Lakin M.N.Poqrebova bu qrupun İrana daxil olarkən öz dilini və etnosunu nə dərəcədə saxladığını deməyə çətinlik çəkmişdir. Xocalı-Gədəbəy mədəniyyəti içərisində əksəriyyət təşkil edən, cızma və basma naxışlı boz keramika, daş qutular və zəngin tunc əşyalarla seçilən ikinci qrup şübhəsiz ki, yerli tayfalara məxsus olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan abidələrdə M.N.Poqrebovanın irandillilərə

aid etdiyi atla və kremasiya ilə bağlı elementlərin olduqca az izlənməsi gəlmələrin yerlilər içərisində əridiyini göstərir. Əgər nəzərə alsaq ki, silahların əksəriyyəti də ikinci qrup keramika ilə xarakterizə olunan daş qutu tipli qəbirlərdən aşkar olunmuşdur, belə nəticəyə gəlmək olar ki, siyasi hökmranlıq bu tayfalara məxsus olmuşdur. Digər tərəfdən kremasiya, at və itlə bağlı hər şeyin hind-avropalılarla, yaxud irandillilərlə bağlanması doğru deyildir.



Şəkil 59. Xocalı-Gədəbəy tipli xəncərlər (Kolanı nekropolu).

Azərbaycanda kremasiya adəti Erkən Tunc dövründən mövcud olmuşdur. Ağac konstruksiyalı qəbirlərin, at və itlə bağlı inamların digər xalqlarla, xüsusilə Türk xalqları ilə bağlanması, atın Ön Asiya və Azərbaycanda irandillilər gəlməmişdən xeyli əvvəl əhliləşdirilməsinə dair

tutarlı dəlillər vardır. At minik vasitəsi kimi də Ön Asiyada erkən istifadə edilmişdir. Odur ki, atın minik vasitəsi kimi Ön Asiyada yalnız irandillilər gəldikdən sonra istifadə edilməsi haqqında bir qrua şərqşünas alimlin fərziyyəsi inandırıcı deyil. E.A.Qrantovski və M.N. Poqrebova erkən Assuriya mixi yazılarında suvarilərin xatırlanmamasına əsaslanaraq belə bir fikir irəli sürmüşdür ki, Ön Asiyada atdan minik vastəsi kimi istifadə olunmamış, burada atlar yalnız arabaya qoşulmuşdur. Bu fərziyyə yalnız cüzi yazılı mənbə əsasında irəli sürülmüşdür. Arxeoloji faktlar isə onu təsdiq etmir. Şübhəsiz ki, e.ə. IV-III minilliklərdə Azərbaycanda, o cümlədən Naxçıvanda və Urmiya hövzəsində məskənləşən, geniş əraziyə yayılan əkinçi-maldar tayfalar atdan minik vasitəsi kimi istifadə etmədən mütəhərrik hərəkət edə bilməzdilər.




Şəkil 60. Xocalı-Gədəbəy tipli keramika (Qazxan nekropolu).

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan dəfn adəti və keramika məmulatı Azərbaycanda V-II minilliklərdə geniş yayılmışdır.

Kür-Araz mədəniyyətinin müəyyən xüsusiyyətləri e.ə. II minilliyin sonu və I minilliyin başlanğıcına aid abidələrdə kifayət qədər izlənmişdir. Azərbaycanın, o cümlədən Naxçıvanın Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində it, dələ kəlləsi, xırdabuynuzlu heyvanın çənə sümükləri ilə basdırılma adətinə təsadüf edilmişdir ki, bu da yerli xüsusiyyətləri əks etdirir. Antropolorq R.Qasımova Kolanı nekropolundan aşkar olunan kəllə sümüklərini tədqiq edərək onların yerli etnoslara aid olduğunu və müasir azərbaycanlıların etnogenezinin əsasında dayandağını qeyd etmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın cənub rayonlarında Boyalı qablar mədəniyyəti yayıldığı zaman Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalında kompakt halda yaşamaqda davam etmişdir. Odur ki, Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfaların Kür-Araz mədəniyyəti tayfalarının varisləri olduğu və aborigenlərdən ibarət olduğu heç bir şübhə doğurmur. Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyəti abidələninin aşkar olunması bu regionun Azərbaycanla vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edən tutarlı dəlillərdən biridir.

# II FƏSİL. DƏMİR DÖVRÜ ABİDƏLƏRİ

İnkişaf etmiş Dəmir dövrünə (e. ə. IX-VI əsrlər) aid abidələr Tunc dövrü abidələrinə nisbətən daha az öyrənilmişdir. Arxeoloji araşdırmalar zamanı Çalxan, Qarasu, Qız qalası, Külüs qalası, Sədərəkqala, Qazançıqala və digər yaşayış yerlərindən inkişaf etmiş Dəmir dövrünə aid keramika məmulatı toplansa da, bu abidələrdə arxeoloji qazıntılar aparılmamışdır. Lakin Naxçıvanda aparılan arxeoloji araşdırmalar, o cümlədən Oğlanqalanın tədqiqi inkişaf etmiş Dəmir dövrü mədəniyyətinin mövcudluğunu ortaya qoymuşdur.



Şəkil 61. Qarabağlar qalası.

Araşdırmalar göstərir ki, e. ə. II minilliyin sonu və I minilliyin əvvəllərində Naxçıvanın ovalıq ərazisində, xüsusilə Şərur düzündə oturaq, dağlıq zonada isə köçəri həyat tərzi hökmran olmuşdur. Dağlıq ərazidə yaşayış yerlərinin azlığı, mədəni təbəqənin az yığılması, yaxud heç yığılmaması bununla bağlıdır. Bu abidələr başlıca olaraq qala tipli yaşayış yerləridir. Həmin abidələrdən aşkar olunan arxeoloji materiallar Azərbaycanın şimalında yayılan Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin materialları ilə bənzərdir. Lakin bu qrupa daxil olan arxeoloji abidələrdə Boyalı qablar mədəniyyəti və Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik əlamətlərin

izlənməsi onlar arasında qovuşma prosesinin getdiyini göstərir. Bu abidələr başlıca olaraq boz rəngli keramika ilə xarakterizə edilir. Gil qablar cızma, kəsmə və çərtmələrlə, bəzən isə konnellyur ornamentlə naxışlanmışdır.



Şəkil 62. Qarasu qalası.

1999-cu ildə Qazançıqalada apardığımız araşdırmalar burada həyatın Dəmir dövründə inkişaf etdiyini göstərmişdir. Araşdırmalar zamanı həmçinin Dəmir dövrünə aid Narınqalanın olduğu müəyyən edilmişdir. Narınqalanın Dəmir dövrünə aid müdafiə divarları tikinti texnikasına görə Tunc dövrü qalalarından fərqlənir. Bu dövrə aid müdafiə divarları iri daş bloklardan hörülmüşdür. Bu hörgünün qalıqları abidənin şimal və şimal-şərq hissələrində daha yaxşı saxlanmışdır. Üst-üstə qoyulmuş iri daş bloklardan hörülən divarların hündürlüyü 1,5 - 1,8 m arasındadır.

Dəmir dövrünə aid memarlıq abidələrinin qalıqlarına Çalxan yaşayış yerində də rastlanmışdır. Abidədə arxeoloji qazıntılar aparılmasa da yerüstü tikinti qalıqları onun dördkünc planlı rizalitlərlə möhkəmləndirilmiş Narınqalaya malik olduğunu göstərir. 2001-ci ildə yaşayış yerində aparılan araşdırmalar zamanı inkişaf etmiş Dəmir dövrü üçün xarakterik olan keramika məmulatı toplanmışdır.

Arxeoloji abidələrin tədqiqi Dəmir dövründə Naxçıvanın güclü müdafiə sisteminə malik olduğunu göstərir. Müdafiə tikintiləri başlıca olaraq Naxçıvan ərazisinə qərbdən və şimaldan daxil olan yollar üzərində qurulmuşdur. Qalaların tikilmə istiqaməti eyni zamanda yadelli basqınlarının istiqamətlərini də göstərir. Naxçıvanın cənub sərhədləri gursulu Araz çayı ilə qorunduğundan ehtimal ki, bu istiqamətdə hücumlar az olmuşdur. Şərur rayonunda Fərhad arxı boyunca salınan qala tipli yaşayış yerləri onlardan suvarma sistemlərinin və su mənbələrinin qorunması üçün istifadə olunduğunu göstərir. Fərhad arxı ətrafında aparılan araşdırmalar zamanı onun yaxınlığından keçən qədim yolun qalıqları da aşkar olunmuşdur. Yol qalıqlarına həmçinin Oğlanqalanın şimal yamacında rastlanmışdır. Aşkar olunan faktlar Dəmir dövründə Naxçıvanda məskunlaşan tayfalarda inkişaf etmiş əlaqələndirmə sisteminin olduğunun göstəricisidir. Dəmir dövrü yaşayış yerlərinin möhtəşəm müdafiə sistemi bu ərazidə məskunlaşan tayfaların böyük iqtisadi qüdrətə sahib olduğunu təsdiq edir. Strateji cəhətdən əlverişli mövqelərdə salınan qalalar hərbi-inzibati və siyasi mərkəz rolunu oynamışdır.



Şəkil 63. Muncuqlutəpə nekropolu.

İnkişaf etmiş Dəmir dövrünə aid qəbir abidələri Xaraba-Gilanda, Muncuqlutəpə nekropolunda geniş tədqiqatlarla öyrənilmişdir.

Muncuqlutəpə nekropolu üçün qurbangahları olan daş qutu tipli qəbirlər və kollektiv dəfnlər xarakterik olmuşdur. Tədqiqat zamanı qəbirlərdən silindir formalı möhürlər, tuncdan hazırlanmış silahlar, bəzək əşyaları, boyalı və boz rəngli keramika aşkar olunmuşdur. Tədqiqatçılar Muncuqlutəpə nekropolunu e.ə.VIII-VI əslərə aid etmişlər. Muncuqlutəpə qəbirlərinin kompleksində olan fibula tipli bəzək əşyası, ağzının kənarı lüləyi ilə birləşən çaynik tipli qablar bizcə bu dövrləşmənin doğru olduğunu göstərir. Qəbirlərin birində Urartu tipli möhürün tapılması da bunu təsdiq edir. Tədqiqatçılar Muncuqlutəpə möhürlərinin amulet kimi istifadə edildiyini qeyd etmişlər.

Orijinal quruluşu ilə fərqlənən bu qəbirlər Naxçıvanın qədim sakinlərinin dəfn adətini öyrənmək üçün olduqca əhəmiyyətlidir. Qəbirlərdə dromosun və giriş qapısının olması təkrar dəfnlər zamanı qəbirlərin qapaq daşlarını qaldırmadan onlardan istifadə etməyə imkan vermişdir. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, Son Tunc və Erkən Dəmir dövründə təkrar dəfnlər qapaq daşları, yaxud yan daşları çıxarılaraq icra edilmişdir. Bu tip qəbir abidələri Dəmir dövründə Ön Asiya ölkələrində geniş yayılmışdır. Ehtimal ki, Xaraba-Gilan qəbirlərinin qurbangahları dəfndən sonra keçirilən qəbirüstü mərasimlər zamanı istifadə edilmiş, qurbangahlara dəfn edilənlərin ruhu üçün yemək və içki qoyulmuşdur.

Bu dövrə aid olan Yurdçu sərdabəsi təsərrüfat işləri görülərkən təsadüfən dağıdılmışdır. Aşkar olunan arxeoloji materiallar Şərur rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları tərəfidən kompleks şəkildə toplanmış və muzeyə təşvil verilmişdir. Dördkünc formalı olan qəbirin divarları iri daşlardan hörülərək qurulmuşdur. Qəbrin cənub divarında giriş qapısı, o biri divarlarında isə taxçalar olmuşdur. Onun üzəri iri həcmli sal daşlarla örtülmüşdür. Lakin qəbir kamerasının içərisi dağıdıldığından dəfn adətini müəyyənləşdirmək mümkün olmamışdır. Bizim araşdırmalarımız zamanı dağıdılmış qəbrin döşəməsində skelet qalıqlarının olduğu müəyyən edilmişdir. Bu qəbir abidəsinin tam bənzərinə indiyədək rastlanmamışdır. Onun ölçüləri 3 X 1,8 X 1,6 m-dir. Qəbirdən müxtəlif keramika məmulatı, silahlar və bəzək əşyaları aşkar olunmuşdur. Qəbir kamerasına qapı qoyulması onun önündə dromos olduğunu və bu qəbrin təkrar dəfnlər üçün nəzərdə tutulduğunu göstərir.

Batabat yaylağında rastlanan və xalq arasında Fərhad evi adlandırılan qaya məzarı vaxtılə talan edilmişdir. O, bir-biri içərisində yerləşdirilmiş, kobud yonulmuş otaqlardan ibarətdir. Bu qəbir Naxçıvanda qeydə alınan yeganə abidədir. Məlum olduğu kimi, bu tip qəbir abidələri Dəmir dövründə Ön Asiyada geniş yayılmışdır.

Dəmir dövrünə aid boyalı keramika məmulatı olduqca azdır. Ümumiyyətlə, Naxçıvan ərazisində Dəmir dövrünə aid abidələr az öyrənildiyindən bu dövrə aid arxeoloji materiallar olduqca azdır. Arxeoloji materialların bir qismi keramika məmulatından ibarətdir.

1985-ci ildə təsadüfən dağıdılan Yurdçu sərdabəsində digər arxeoloji materiallarla bərabər şirli qab parçaları da aşkar olunmuşdur. Küpə tipli qabın gövdəsinə aid olan bu parçalar ağ rəngli gildən hazırlanaraq yaxşı bişirilmiş, hər iki üzdən şəffaf şirlə örtülmüşdür. Onun xarici səthi mavi, ağ və qəhvəyi rənglərlə üç zolağa bölünmüşdür. Mavi zolaqda iti ucları aşağıya və yuxarıya çevrilmiş üçbucaqlar çəkilmişdir. Üçbucaqların bir qismi ağ, bir qismi isə qəhvəyi rənglə doldurulmuşdur. Azərbaycan abidələrindən olduqca az tapılan şirli qablar Xocalı kurqanından, Paşatəpə və II Kültəpədən aşkar edilmişdir. Tədqiqatçıların ümumi fikrinə görə, Erkən Dəmir və Dəmir dövrünə aid şirli qablar Ön Asiya mənşəli olmuşdur.

Dəmir dövrü abidələrindən aşkar olunan keramika məmulatının bir qismi boyalı qablardan ibarətdir. Tək-tək əldə edilən bu tip keramika nümunələri təsadüfi tapıntılarla təmsil olunmuşdur. Bu dövrdə boyalı qabların naxışlanmasında qara və qırmızı rəngdən istifadə edilmişdir. Oğlanqaladan aşkar olunan bəzi nümunələrin üzəri qırmızı boya ilə örtüldükdən sonra qara rənglə, enli şaquli xətlərlə naxışlanmışdır. Babatəpə yaşayış yerindən aşkar olunan kasa tipli qabın gövdəsinin yuxarı qismi narıncı boya üzərindən qırmızı rəngli enli xətlərlə naxışlanmışdır. Araşdırmalar Erkən Dəmir və Dəmir dövründə qırmızı rənglə naxışlanmanın geniş yayıldığını göstərir.

Dəmir dövrünə aid boyalı qab nümunələri Muncuqlutəpə nekropolunda da aşkar olunmuşdur. Kasa tipli, konusvari gövdəli qabların ağzının kənarı qırmızı boya ilə çəkilmiş enli zolaqla, gövdəsi isə şüaşəkilli ornamentlə naxışlanmışdır. Bu tip bəzəmə stili Naxçıvanın Erkən Dəmir dövrü abidələri üçün xarakterik olmaqla I Kültəpə, Qızılburun, Şahtaxtı və Culfa abidələrindən məlumdur.

Dəmir dövrünə aid keramika məmulatının böyük bir qismi narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş gil qablardan ibarətdir. Onların bir qismi qırmızı boya ilə örtüldükdən sonra yaxşı cilalanmışdır.

Dəmir dövrünə aid bədii metal məmulatı Yurdçu sərdabəsindən, və Muncuqlutəpə, nekropolundan aşkar edilmişdir. Aşkar olunan materialların əksəriyyəti Erkən Dəmir dövrünün metal əşyaları ilə bənzər olduğundan onlar üzərində geniş dayanmağı vacib hesab etmirik. Lakin qeyd etmək istəyirik ki, Yurdçu sərdabəsindən aşkar olunmuş metal məmulatının az bir

qismi gümüşdən hazırlanmışdır. Onlar arasında orijinal xüsusiyyətləri ilə seçilən sırğalar və üzüklər vardır.

Dəmir dövrünə aid metal məmulatının bir qismi ilanbaşlı bilərziklərdən ibarətdir. Bu tip bilərziklər Şahtaxtı, Yurdçu və Qarabağlardan xeyli miqdarda ələ keçirilmişdir. İlanbaşlı boyunbağılara Qızılburun tapıntıları arasında da təsadüf edilmişdir. Ehtimal ki, ilanbaşlı bilərziklərin və boyunbağıların hazırlanması onların qoruyucu məna daşıması ilə bağlı olmuşdur. Dəmir dövründə bu tip bilərziklər qədim Şərq ölkələrində geniş yayılmışdır.

Bu dövrə aid metal əşyaların bir qrupu da xarici səthi dərin gəzlərlə naxışlanmış bilərzik və üzüklərdən ibarətdir. Bu tip əşyalar başlıca olaraq Qarabağlardan və Qızılburundan aşkar olunmuş, lakin, nəşr edilməmişdir. Arxeoloji materiallar az olsa belə, bu dövrdə metal məmulatı istehsalının yüksək inkişaf etdiyini göstərir.

**Urartuların Naxçıvana yürüşləri.** Tədqiqatlar bu dövrdə xarici işğal təhlükəsinin artdığını göstərir. Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığında aşkar olunan İlandağ kitabəsi İşpuini və Menuanın adını xatırladır, e.ə. 820 və 810-cu illərdə onların hərbi hücumları və qələbələrindən bəhs edir. Onların bir metr uzunluğundakı yazısına görə İşpuini və Menua Arsinie və Ayanianu torpaqlarını işğal etmələri, Pluadidə kitabə qoymaları, urartuların hərbi Allahı Xaldinin şərəfinə qurban vermələri ilə fəxr edirmişlər. Kitabənin mətni belədir: "İlahi Haldinin əzəməti ilə İşpuini Sardurinin oğlu və Meniua İşpuininin oğlu Arsine şəhərinin ölkəsini zəbt etdilər, İş [....şəhərinin] ölkəsini, Arsikua şəhərinin ölkəsini, Ayanianu şəhərinin ölkəsini zəbt etdilər, dağıtdılar. Pluadi ölkəsində onlar ilahi Haldiyə lövhə ucaltdılar və əmr verdilər: Pluadi ölkəsində ilahi Haldiyə öküz və qoyun, Haldinin arvadına inək qurban kəsilsin". Kitabənin təntənəli şəkildə yazılmasına baxmayaraq Urartular heç vaxt bu ərazini işğal etməmişlər. Çünki burada Urartu qalalarının tikilməsi haqqında heç bir epiqrafik və arxeoloji dəlil yoxdur. Kitabənin mətnindən görünür ki, bu ərazilər urartulara məxsus olmamışdır. Onlar bu əraziyə işğalçı yürüşlər etmiş, lakin burada möhkəmlənəməmişlər. Elə buna görə də ilahi Haldiyə həsr edilmiş lövhə Pluadidə ucaldılmışdır. Məlum olduğu kimi, Pluadi Culfanın qonşuluğunda, Arazın o biri tərəfində yerləşirdi.

Oğlanqalanın tədqiqatları göstərir ki, bu qalanın ətrafında yaranan kiçik dövlət müəyyən mərhələdə Urartuların e.ə. 9-cu və 8-ci əsrlərdə müharibələr apardığı və *Etuini* adlandirdığı kiçik tayfaların və dövlətlərin birliyinə daxil olmuşdur. I Argiştinin kitabəsində deyilir : "İlahi Haldi yürüşə çıxdı, öz silahı ilə Etiuni ölkəsinə qalib gəldi. Kixuni şəhərinin

ölkəsinə qalib gəldi, onları Argiştinin qarşısında məğlub etdi ... gölün sahilində yerləşən Kixuni şəhərinin ölkəsini zəbt etdim, Aliştu şəhərinə çatdım, kişiləri, qadınları oradan apardım". Kitabənin mətnindən göründüyü kimi I Argiştinin yürüşləri zamanı Etuni ölkəsinin bir qismi Urartular tərəfindən işğal edilmişdi. Urartuların *Etuini* tayfalarını uzaq şimalda, Göyçə gölünün yaxınlığında yerləşdiyini xatırlasa da, qeyd etmək lazımdır ki, bu tayfalar Naxçıvanın qonşuluğunda yerləşən böyük tayfa birliyi olmuşdur. Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsində deyilir: "Mənim qarşıma ....Etiuhi ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..." Kitabənin mətni, Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını, həmçinin onların urartulardan nisbi asılılığını göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdı. Qeyd etmək lazımdır ki, Uti vilayətin lokallaklaşdırıldığı ərazi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazi ilə üst-üstə düşür. Antik mənbələr bu bu tayfaların yaşadığı ərazini Otena adı ilə xatırlamışdır. Məlum olduğu kimi, bu tayfalar vaxtilə Naxçıvandan və Xudafərindən keçərək Azərbaycanın cənubunda məskunlaşmışlar. Araşdırmalar zamanı Oğlanqaladan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı da aşkar olunmuşdur. Son illər Naxçıvanda və Xudafərində aparılan araşdırmalar bunu sübut edir. Deməli, Naxçıvanda məskunlaşan tayfalar Xocalı-Gədəbəy, yaxud Etuini tayfaları ilə sıx ittifaqda olduqları üçün urartular bu ərazini işğal edə bilməmişlər. E.ə. 8-ci və 7-ci əsrlərdə Yaxın Şərqin tarixində mühüm rol oynayan daha güclü bir tayfa ortaya çıxmışdı-*skif* tayfaları. Naxçıvandan aşkar olunan skif tipli ox ucluqları bu tayfaların Naxçıvanda məskunlaşdığını təsdiq edir. Akademik B.B.Piotrovskinin fikrinə görə, Urartuların şimal qalaları skiflər tərəfindən dağıdılmışdır. Bu həmin qalaların divarlarına sancılmış skif tipli ox ucluqları ilə təsdiq olunur. Qeyd etdiyimiz kimi, Urartu Naxçıvanın lap qonşuluğunda yerləşirdi və onlar lovğalıqla işğal etdikləri hər yerdən bəhs edirdilər. B.B.Piotrovski qeyd edir ki, əgər mixi yazılar qonşular haqqında susursa bu, sərhəddə olan ağır döyüşlərdən və məğlubiyyətdən xəbər verir.

**Oğlanqala şəhər-dövləti.** E.ə. I minilliyin əvvəlində yadelli basqınlarının artması yeni qala tipli yaşayış yerlərinin tikintisinə səbəb olmuşdur. Urartu kitabələrində mühüm inzibati-siyasi mərkəzlər qala, şəhər,

ya da qala-şəhər adlandırılmışdır. Naxçıvanda inşa olunan belə qala-şəhərlərdən biri də Oğlanqala yaşayış yeridir.




Şəkil 64. Oğlanqalanın Yaxın Şərqdə mövqeyi.

Yaşayış yeri Şərur rayonunun Oğlanqala kəndi yaxınlığında Qaratəpə dağı üzərində yerləşir. İndiyədək saxlanmış müdafiə divarının qalıqları inkişaf etmiş Dəmir dövrünə aiddir. Yaşayış yerində həyatın Son Orta əsrlərədək davam etməsinə baxmayaraq, müdafiə divarlarının qalıqları olduqca yaxşı saxlanmışdır. Abidənin ən hündür yerində Narınqala salınmışdır. Narınqala dördkünc formalıdır. Araşdırmalar Narınqalanın ikiqat müdafiə divarı ilə əhatə olunduğunu göstərir. Divarlar iri daş bloklardan bərkidici məhlul olmadan inşa edilmişdir. Narınqalanın təhlükəsizliyinin təmin edilməsi üçün o əlavə müdafiə divarları ilə möhkəmləndirilmişdir. Olduqca mürəkkəb və özünəməxsus xüsusiyyətləri olan bu tip müdafiə sisteminə Naxçıvan abidələrinin heç birində rastlanmamışdır. Oğlanqala cənub-qərb tərəfdə səkkiz sıra, şimal-şərq tərəfdə isə dörd sıra müdafiə divarı ilə əhatə olunmuşdur. Müdafiə divarları bir-birinə paralel olaraq çəkilmiş və qalanın gərəkli hissələrinin müdafiəsi möhkəmləndirilmişdir. Qalanın cənub-qərb ətəyi boyunca uzanan müdafiə divarı üç yerdə yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yonulmuş iri qaya parçalarından inşa edilən Şimal qala bürcü daha yaxşı saxlanmışdır. Qala bürcünün inşasında ağırlığı 2-3 ton olan daşlardan istifadə edilmişdir.

Şimal qala bürcü digər bürclərdən tikinti texnikasının özünəməxsusluğu ilə fərqlənir. Qala bürcü iki sıra yarımdairəvi divardan ibarətdir. Öndəki divar arxadakına nisbətən bir qədər yüksəkdədir. Araşdırıcıların fikrinə görə, divarlar arasındakı boşluq əsgərlərin hərəkəti üçün istifadə edilmiş, öndəki divar isə onların müdafiəsini təmin etmişdir.




Şəkil 65. Oğlanqalanın sitadeli.

Oğlanqala yaşayış yerinin memarlıq xüsusiyyətlərindən biri istər Narınqalanın, istərsə də müdafiə divarlarının rizalitlərlə möhkəmləndirilməsidir. Rizalitlərin ölçüləri 2-4 m arasındadır. Onların qurulmasında yonulmuş daşlardan da istifadə edilmişdir. Müdafiə divarının rizalitlərlə möhkəmləndirilməsi Dəmir dövrü abidələri üçün xarakterik olmuşdur. Naxçıvanda bu tip tikintilərlə Çalxan yaşayış yerində, Qazançıqalada və Sədərəkqalanın tikintisində rastlanmışdır.

Dəmir dövrü abidələrindən yalnız Oğlanqala yaşayış yerində geniş arxeoloji qazıntılar aparılmışdır. Bu qala Dəmir dövründə Naxçıvanda ən

böyük, Cənubi Qafqazda isə böyük qalalardan biri olmuşdur. Abidənin yerləşdiyi ərazi kənd təsərrüfatı üçün böyük əhəmiyyəti olan və Naxçıvanın ən məhsuldar ərazisi olan, öz başlanğıcını Kiçik Qafqaz dağlarından alan Arpaçayın keçdiyi Şərur düzənliyini nəzarətdə saxlamaq baxımından olduqca əhəmiyyətlidir.



Şəkil 66. Oğlanqalada saray binasının qalıqları.

Oğlanqalada 1988-1989 – ci illərin qazıntıları zamanı qalanın Erkən və Orta Dəmir dövründə bu ərazidə mühüm siyasi mərkəz olması ilə bağlı inkaredilməz dəlillər aşkar olunmuşdu. 2008-2011 – ci illərdə Azərbaycan-Amerika ekspedisiyasının dörd il ərzində apardığı qazıntılar nəinki bu ilk mülahizələri təsdiq etdi, həmçinin göstərdi ki, Oğlanqala Erkən Dəmir dövründə müstəqil dövlətin paytaxtı olmuşdur. O, qonşu Urartu dövləti ilə iqtisadi və mədəni əlaqələr saxlamış, Əhəməni imperiyasının dağılmasından sonrakı yüzilliklərdə güclü müdafiə sistemi ilə əhatə olunmuş şəhər-dövlətin paytaxtı olmuşdu. 1988-1989-cu illərdə aparılan qazıntılar 280 kv. m sahəni əhatə etmişdir. Qazıntı zamanı yaşayış yerində dörd tikinti dövrü müəyyən edilmişdir. Arxeoloji tədqiqatlar 150 kv. m sahədə ana torpağadək davam etdirilmişdir. Məlum olmuşdur ki, qalanın müdafiə divarları təbii qayalıq üzərində salınmışdır. Mədəni təbəqənin qalınlığı yerin relyefindən asılı olaraq 2,5 - 4,5 m arasındadır. Araşdırmalar müdafiə divarının müxtəlif tikinti dövrlərində fəaliyyət göstərdiyini sübut edir. İri qaya parçalarından hörülən divar relyefdən asılı olaraq 1-2,7 m hündürlüyündə saxlanmışdı.

Divarın ətrafında xeyli miqdarda çiy kərpic və möhrə qalıqlarının aşkar olunması, onun yuxarı qisminin çiy kərpiclə hörülərək tamalandığını göstərir.



Şəkil 67. Sütun altlıqları. Oğlanqala.

2008-2011-ci il mövsümündə aparılan qazıntılar zamanı əsas məqsəd Oğlanqalanın sitadelini və şimal bürcü yaxınlığındakı istehkamları açmaqdan ibarət idi. 2010-cu ildə şimal-qərbdəki dairəvi bürcün şimal divarının təməlindən götürülən kömür analizi göstərdi ki, bu müdafiə istehkamları təqribən e. ə. 800-cü ildə inşa olunmuşdur. Bu o deməkdir ki, Oğlanqalanın istehkamları Urartu imperiyasının Türkiyədə möhkəmləndiyi [təqribən e. ə. 850-600-cü il], Qafqazda və Şimal-Qərbi İranda. hərbi əməliyyatlar apardığı dövrdə tikilmişdir. Tapıntılardan daha çox müdafiə istehkamlarının tikinti texnikası maraq doğururdu. Oqlanqalanın mühəndisləri qalanı tikərkən Erkən Dəmir dövrü texnikasından, yoxsa öz nüfuzlu qonşuları olan urartuların tikinti texnikası və üsullarından istifadə etmişdilər? Urartu istehkamları fövqəladə dərəcədə standartlaşdırılmışdır, onlar müntəzəm möhkəmləndirmə, yonulmuş daşlardan ibarət və standart ölçülü kərpic tikinti ilə xarakterizə olunur. Ehtimal ki, Urartu arxitektorları dövlətin daimiliyini təmin etmək üçün imperiya ərazisindəki bütün istehkamların tikintisini layihələşdirmişdilər.

Oğlanqalanın tədqiqi zamanı şimal istehkamların xüsusiyyəti 215 metrlik məsafədə izlənmişdi. Araşdırma göstərdi ki, Oğlanqalanın istehkamları Dəmir dövrünün erkən mərhələsinin tikintilərini xatırladır. Lakin ola bilsin ki, Urartunun bəzi xüsusiyyətləri də təqlid edilmişdir. Urartu divarlarının düz və dördkünc, topoqrafiyaya uymayan xüsusiyyətlərindən fərqli olaraq Oğlanqala istehkamları Qaratəpə dağının topoqrafiyasına uyğun olaraq inşa edilmişdir. Şimal divarlarının araşdırılması ciddi düşünülmüş, lakin bəzən qeyri-müntəzəm möhkəmləndirilmiş istehkamları ortaya çıxardı. Uzunluğu 7 m, eni 4 m olan divarın qərb tərəfinin təməli kifayət qədər davamlıdır. Onlar bir-birindən 15 m aralıda idi. Lakin şərqə doğru bu nümunə qırılır. Möhkəmləndirilmiş divarlar əvəzinə qeyri-müntəzəm işlənmiş divar ziqzaqları ortaya çıxır. Möhkəmləndirilmiş divarların Urartu arxitekturasının xüsusiyyəti olmasına baxmayaraq, onların bənzərləri Cənubi Qafqazın Dəmir dövrü arxitekturasından da mövcuddur.

Şimal istehkamlar blok halına salınmış əhəngdaşı parçalarından inşa olunmuş, daş blokların arasındakı boşluqları doldurmaq və divarı düzəltmək üçün isə kiçik həcmli daşlardan istifadə edilmişdir. Divarın müxtəlif hissəsindəki daşlar səliqə ilə düzülmüş yonulmamış daşlardan ibarətdir. Lakin divarın bəzi hissələrində, əhəngdaşı parçalarının boyük hissəsi kvadrat və düzbucaqlı blok şəklində yonulmuşdur. Bu tip blokların ölçüsü 30 və 70 $sm^2$ arasındadır. Digər hissələrdə isə divarlarında bir qədər yonulmuş və yonulmamış daşlardan istifadə edilmişdir. Daşyonanlar IV Dövrdə, ümumiyyətlə, divarlara yaxşı yonulmuş küncləri olan daşlar qoymağın qayğısını çəkməmişlər, ehtimal ki, bu hissələr zəif olduğundan eroziyaya məruz qalmışdır. Divar boyunca istifadə olunan kiçik həcmli daşların da miqdarı dəyişmişdir. Bu müdafiə divarı ana qaya üzərində tikilmiş, bununla belə müxtəlif tikinti üsullarından istifadə edilmişdir. Ümumiyyətlə, divar inşa edilməzdən əvvəl təməldəki otlar yandırılmış və buna görədə birbaşa divarların altında tünd boz rəngli kül layı saxlanmışdır. Təməlin üzərindəki bitki örtüyünün yandırılması əhəngdaşının keyfiyyətini dəyişdirmiş, onların üzərində daş ovuğu və çatlaqlar qalmışdır. Bundan sonra bənnalar əhəngdaşı bloklarını təməlin üzərinə qoymaq və müxtəlif üsullardan istifadə etməklə səviyyəni düzəltməyə və düzgün səth almağa çalışmışlar Bəzən böyük blokların altı kiçik həcmli daşlarla düzəldilir, bəzən isə daş bloklar birbaşa qayanın üzərinə qoyulurdu. Urartu qalalarında olduğu kimi təməl üçün birbaşa qayanın düzəldilməsinə heç vaxt rastlanmamışdır. Urartularda pilləkən formasında yonulan qayalar birbaşa təməlin əsasını təşkil edirdi. Oğlanqalanın bu istehkamında müxtəlif tikinti üsullarının istifadə edilməsi

qalanı inşa edən arxitektorlar və daşyonanlar haqqında müəyyən fikirlər deməyə imkan verir. Belə hesab edirik ki, qalanın müxtəlif hissələrinin tikilməsinə ayrıca şəxslər cavabdeh olmuş və tikintidə Urartu qalalarında olduğu kimi heç bir standartlaşdırmaya ehtiyac duyulmamışdır.

Şimal müdafiə divarlarının daş istehkamları bəzi yerlərdə 2 m yüksəkliyində saxlanmışdır. Lakin, ümumiyyətlə, onların hündürlüyü 1-1,5 m-dən aşağı olmuşdur. Əlavə olaraq bu istehkamların üzəri ölçüləri 40 X 40 X 20 sm olan kərpic tikinti ilə tamamlanmışdır. Onlar həm inşa olunmuş divarların hündürlüyünü yüksəltmiş, həm də divarlar üçün terras rolunu oynamışdır. Divarların daş fasadı arxadan çınqılla doldurulurdu. Kərpic tikintilər daş təməl üzərində inşa olunurdu. Oğlanqalanın şimal tərəfinin araşdırılması göstərir ki, bu hissə kərpic terraslardan ibarət olmuş, divarların möhkəmliyini artıran çınqıl, daş divarlar kimi əsas tikinti materialı olmuş və təqribən e.ə. 800-cü ildə tikilmişdir. Terraslanmış sahənin ölçüsü təqribən 78 X 164 m olmuşdur. Sitadelin xarici divarı ilə müdafiə divarı arasındakı yüksəklik 35 m olmuşdur. Bu 2, 42 ha olan sahənin terraslaşdırılmasına, karxana işlərinə, böyük əhəng blokları və milyonlarla kərpicin daşınmasına xeyli işçi qüvvəsi cəlb edilmişdir. Bu təqribən milyonlarla işçidən ibarət böyük işçi qüvvəsi tələb edirdi. Bu tikinti layihəsinin monumentallığı IV Dövr Oğlanqala liderlərinin böyük qüvvəsindən xəbər verir. Tikintinin möhtəşəmliyi özlüyündə siyasi hakimiyyətin qüdrətini göstərir.

Araşdırma zamanı şimal-şərq tərəfdə qapı olduğu zənn edilən bir boşluğa rast gəlinmişdir. Bu boşluğun eni 8, 3 m idi. IV Dövrdə burada inşa olunan divar, ehtimal ki, sitadelə gedən orijinal qapı olmuşdur. Bu divarın şimal yamacın ən əlverişli mövqeyində yerləşməsi irəli sürülən ehtimalı təsdiq edir. Əlavə olaraq demək olar ki, burada çay daşlarından işlənmiş təmələ rastlanmamış, çay daşlarını kiçik hissələrə bölünmüş əhəng daşı ilə birləşdirən başqa bir üsuldan istifadə edilmişdir. Bu aralıqda, qərb tərəfdə ana qaya üzərində açılmış oyuq, böyük ehtimalla qapı oxu üçün nəzərdə tutulmuşdur. Bu pilləkənli sahə, ola bilsin ki, III Dövrdə sitateldə rastlanmış divara bənzər tikinti zamanı doldurulmuşdur. IV Dövrün son cərgələri kiçik həcmli yastı daşlarla işlənmiş və səviyyəni düzəltmək üşün istifadə edilmişdir. Bu tikintinin üzərinə iki cərgə kərpic tikinti, ondan sonra isə üç cərgə böyük daş bloklar qoyulmuşdur. Daş blokların əksəriyyəti IV Dövrdəki bənzərlərinə nisbətən çox kiçik idi. Ümumiyyətlə, yan-yana qoyulmuş 20-30 $sm^2$ ölçülü daşlar pis inşaat texnikasından xəbər verirdi, belə ki, bu tikintidə daşların bir çoxu bloklarla uyğun deyildi.

Ərazisi 1,2 ha olan sitadelin əsas binası şimal tərəfdə yerləşir və təqribən 4700 $m^2$ sahəni əhatə edir. Burada Sovet dövründə, 1988-1989-cu

illərdə və bizim 2008-2011-ci illərdə apardığımız araşdırmalar zamanı binanın 1800 $m^2$ sahəni əhatən edən hissəsi açılmışdır. Radiokarbon analizlər göstərir ki, sitadel, əvvəlcə, təqribən e.ə. 800-cü ildə Oğlanqala IV dövründə tikilmişdir. Bu bürclərin və müdafiə istehkamlarının yaradılması ilə üst-üstə düşür. İstehkamların inşasında istifadə edilən tikinti üsulları həmçinin sitadeldə istifadə olunmuşdur.

Oğlanqalanın IV Dövrünə aid sarayı ölçüləri 33 X 34 m, yaxud 1122 $m^2$ olan böyük daxili həyətin ətrafında inşa olunmuşdur. Bu demək olar ki, Türkiyədəki Altıntəpə məbədini əhatə edən daxili həyətlə eyni ölçüdədir. Daxili həyət, ehtimal ki, sitadeldə ən mühüm ictimai yerlərdən biri olmuşdur. Onun hədsiz dərəcədə böyük ölçüsü qala hökmdarının güclü siyasi hakimiyyətini göstərir. Daxili həyətdən şərqə doğru bir neçə uzunsov, ensiz binalar aşkar edilmişdi.

Biz daxili həyətdə IV Dövrə aid, qalanın inzibati funksiyaları ilə bağlı olan böyük küplərin qalığına və Azərbaycanda ən qədim mixi yazı olan keramika üzərindəki kitabələrə rast gəldik. Lakin heç bir təsərrüfat küpü bütövlükdə aşkar edilmədi. Təsərrüfat küplərinin parçaları bədii cəhətdən olduqca yüksək səviyyəli hazırlanmışdı. Üzərində mixi yazı olan parçalar isə demək olar ki, bu sahənin bütün kontekstlərindən aşkar olunurdu. Küplərin üzərində fraqment halındakı yazılar, şübhəsiz ki, onların tutumunu göstərirdi. Biz rəqəmlərə aid *a-q [ar] və ru* kimi bəzi işarələri bərpa olunmuşdur, ehtimal ki, onlar *aqarqi i terusi* işarələrini və həcm ölçüsünü bildirmişdir.

2011-ci il mövsümündə tədqiqatlar zamanı şərqdə sitadelin IV Dövrə aid istehkamları aşkar olunmuşdu. Burada müəyyən ara verilməklə divarlar qərbə doğru yönəlmişdi. Bu divarlar arasındakı məsafə qeyri-müntəzəm olub şərqə doğru 6,5 m – dən 7,5 m – dək genişlənirdi. Ehtimal ki, bu tikinti sitadelə daxil olan əsas girişin qalığıdır. Burada aparılan qazıntılar zamanı daha əvvəlki dövrə aid divar qalıqları aşkar olunmuşdur. Lakin divarların əksəriyyəti kobud işlənmiş standart əhəngdaşı bloklarından inşa edilmişdir. Bu tip tikinti texnikası istehkamın və sitadelin inşasında izlənmişdir. Bu divarda da ustalıqla yonulmuş yeddi daş blok var idi, onların ikisi standartlaşdırılmış formada olub 90 X 60 sm və 45 X 60 sm ölçüdə idi. Bu tip daş bloklar Bastam, Torpakqala, Çavuştəpə, Ayanis daxil olmaqla Türkiyə ərazisindəki Urartu yaşayış yerlərində və Şimal-Qərbi İranda aşkar edilmişdir. Bu bloklar Oğlanqalada olduğu kimi inzibati binanın təməlinin inşasında istifadə edilmişdir. Torpaqqalada belə bloklardan inşa edilmiş platforma üzərində Xaldinin məbədi inşa olunmuşdur. Ayanisdə bu tip texnika sitadelin cənub istehkamlarının təməlinin inşasında istifadə

edilmişdir. Bu yaşayış yerlərinin hamısı 7-ci əsrdə inşa edilmiş və Erzen bu tikinti texnikasını həmin dövrə aid etmişdir. Oğlanqalanın sitadeli, böyük ehtimalla, 7-ci əsrdən sonra qısa müddət ərzində tərk edilmişdir.

Arxeoloji araşdırmalar inkişaf etmiş Dəmir dövründə Naxçıvan abidələri üçün rizalitlərlə möhkəmləndirilmiş dördkünc planlı sitadellərin xarakterik olduğunu göstərir. Lakin yaşayış yerlərinin heç biri geniş qazıntılarla öyrənilmədiyindən onların daxili quruluşu haqqında müəyyən bir fikir söyləmək çətindir. Tədqiqatlarla müəyyən olunmuşdur ki, Oğlanqalanın narınqalası iki sıra divarla əhatə olunmuşdur. Narınqaladan kənarda olan yaşayış binalarını əhatə edən müdafiə divarları relyefə uyğun olaraq tikilmişdir. Bu xüsusiyyətinə görə Naxçıvanın Dəmir dövrü abidələri qonşu Urartu abidələrindən tamamilə fərqlənir.

Araşdırmalar müdafiə divarının xeyli yüksək olduğunu göstərir. Tədqiqatçılar divarların yuxarı qisminin çiy kərpiclə hörülərək tamamlandığını qeyd etmişlər. Oğlanqalanın müdafiə divarlarının bəzi qismlərdə 3 m yüksəkliyədək saxlandığını nəzərə aldıqda kərpic hörgü ilə birlikdə divarların hündürlüyünün 4-5 m-dək olduğunu söyləmək olar.

Oğlanqala yaşayış yerindən arpa, buğda, darı dənlərinin, üzüm çəyirdəklərinin aşkar olunması əkinçiliyin müxtəlif sahələrinin inkişaf etdiyini göstərir. Bu dövrdə suvarma əkinçiliyinin geniş inkişaf etdiyini Fərhad arxının qalıqları da göstərir. Bu qədim suvarma sistemi ətrafında apardığımız araşdırmalar zamanı müəyyən edilmişdir ki, arx iri daşlardan tikilmiş möhtəşəm divarla möhkəmləndirilmişdir. Divarların tikinti texnikası, xüsusilə onların bəzi qismlərdə düzbucaqlı rizalitlərlə təmin edilməsi Dəmir dövrü abidələri üçün xarakterikdir. Odur ki, bu arxın Dəmir dövründə də fəaliyyət göstərdiyi heç bir şübhə doğurmur.

Oğlanqalada aparılan araşdırmalar zamanı dəmirdən hazırlanmış əmək alətlərinə rastlanmamışdır. Lakin qala divarlarının inşasında yonulmuş iri daş bloklardan istifadə edilməsi bu dövrdə təkmil əmək alətlərinin olduğunu sübut edir. Dəmir dövrünün monumental müdafiə tikintiləri, məhz, belə alətlərdən istifadə edilməklə yaradılmışdır.

Dəmir dövrünə aid memarlıq abidələrinin xarici görünüşü ilə bağlı əlimizdə əsaslı dəlillər yoxdur. Bununla bağlı yalnız qonşu Şərq ölkələrinin memarlıq abidələrinə əsasən müəyyən fikirlər yürütmək mümkündür. Belə hesab etmək olar ki, Naxçıvan abidələri xarici görünüşünə görə qonşu Assuriya və Urartu qalaları ilə bənzər olmuşdur. V.H.Əliyev və D.A.Axundov Oğlanqalanın müdafiə sistemini Xett və Suriya - Xett qalalarının arxitekturası ilə müqayisə etmişdir. Lakin qeyd etmək istərdik ki, Naxçıvanın Dəmir dövrü abidələri yalnız ümumi əlamətlərinə görə Cənubi

Qafqaz və Yaxın Şərq abidələri ilə müqayisə edilə bilər. Naxçıvan abidələrinin özünəməxsus arxitekturası onların yerli mədəniyyətin məhsulu kimi meydana gəldiyini sübut edir.



Şəkil 68. Oğlanqalanın şimal qala bürcü.

Ə.K.Ələkbərov Oğlanqala yaşayış yerində araşdırmalar apararkən əldə etdiyi boyalı qablara əsaslanaraq, Oğlanqala və Qızılburun mədəniyyətlərinin bənzər olduğunu göstərmişdir. Ə.K.Ələkbərov həmçinin bu boyalı qabları Van işğalları dövrünə aid etmiş, Oğlanqala yaşayış yerini Urartu qalası Arba ilə eyniləşdirmişdir. Aparılan araşdırmalar Oğlanqalanın Urartu abidələri ilə həmdövr olduğunu, lakin tikinti texnikası və quruluşuna görə Urartu abidələrindən tamamilə fərqləndiyini göstərmişdir. Oğlanqaladan aşkar olunan keramika məmulatı da bu fikirləri təsdiq edir.

Mərkəzi Oğlanqala olan dövlətin sərhədlərini müəyyənləşdirmək üçün 2012-ci ildə Oğlanqalanın ətrafında geniş arxeoloji araşdırmalar aparıldı. Oğlanqala ətrafında aparılan araşdırmalar bu yaşayış yerinin böyük ərazini [487 hektar] əhatə edən şəhər dövlətin paytaxtı olduğunu təsdiq edir. Müəyyən edildi ki, Qızqala da bu dövlətin ərazisinə daxil olmuş, Oğlanqala və Qızqala arasında olan müəyyən ərazilərdə qala divarı inşa olunmuşdur.

Yaşayış yerini əhatə edən müdafiə divarlarının daha çox şimal istiqamətdə olması bu istiqamətdə hücumların intensiv olduğunu təsdiq edir.

Oğlanala Urartunun sərhədləri yaxınlığında yerləşmiş və onun ilk tarixi Urartulara qarşı mübarizə ilə bağlı olmuşdur. Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanın digər cəmiyyətləri ilə ticarət əlaqələri saxladığını təsdiq edir. Saraydan tapılan və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları Oğlanqalanın yazı sistemini də Urartudan mənimsədiyini göstərir. Oğlanqaladan aşkar olunan mixi yazılar həmçinin hesab sisteminin də mənimsənildiyini göstərir.

Dəmir dövrü incəsənətinin öyrənilməsi üçün 1983-cü ildə Şərur rayonunun Şahtaxtı və Təzəkənd kəndləri arasında təsadüfən aşkar olunan iki tunc əşya olduqca qiymətlidir. Onlardan biri Tunc kəmər parçası, digəri isə zınqırov formalı tunc möhürdür.

Tunc kəmərin parçası nazik təbəqədən hazırlanmışdır. Onun üzərindəki naxışlar əvvəlcə basma texnikası ilə işlənmiş, sonra kəsmə və cızma üsulu ilə tamamlanmışdır. Kəmər parçasının hər iki yanı iki qabarıq zolaqla məhdudlaşdırılmış, qabarıq zolaqlar boyunca kiçik oval deşiklər açılmışdır. Kəmərin üzərində hərbi-mifi səhnə təsvir olunmuşdur. Sol tərəfdə dal ayaqları üzərində duran qrifonlar təsvir edilmişdir. Onlar bir qədər yuxarı qalxan ensiz qanadlı, şir bədənli, tək buynuzu olan şir başlı, yuxarıya doğru qıvrılmış quyruğu olan mifik varlıqlardır. Qrifonların biri dırnaqlı, digəri isə pişik kimilərə məxsus pəncə ilə təsvir edilmişdir. Gözləri kiçik oyuqlarla ifadə edilmişdir. Mifik varlıqların əzələləri olduqca gərgin vəziyyətdə verilmişdir. Boynunun və bədəninin əzələləri paralel xətlərlə ifadə olunmuşdur. Onların ifadə edilməsi üçün bucaq və qövsvari xətlərdən də istifadə edilmişdir. Bədəninin tükü yalnız sinə hissəsində paralel xətlər qrupu ilə ifadə edilmişdir. Quyruğunun tükləri onlardan ayrılan kiçik xətlərlə bildirilmişdir. Qanadlarının lələkləri isə paralel xətlər arasına alınmış çərtmələrlə ifadə edilmişdir. Hər iki qrifon profildən və dinamik hərəkət vəziyyətində təsvir edilmişdir.

Qrifonlardan arxada Günəşi simvolizə edən içərisi şüa ilə doldurulan konsentrik dairələr təsvir edilmişdir. Günəş simvollarından arxada iki atlı təsvir edilmişdir. Atlılar şiş dəbilqəli, dairəvi qalxanlıdır. Arxa tərəflərində ox qabları vardır. Bir-birindən fərqlənən atlılar bir əlləri ilə atların yüyənini, digər əllləri ilə isə nizələrdən tutmuşlar. Gödəkçə geyən atlılardan biri saqqallıdır. İkinci əsgər saqqalsızdır. O da əvvəlki əsgər kimi qısa gödəkcə geymişdir. Əsgərlərin qalxanları da bir-birindən fərqlənir. İkinci əsgərin qalxanı birincidən fərqli olaraq ortada qabarıqdır. Atlar dinamik hərəkət,

sıçrayış vəziyyətindədir. Onların quyruğu ortadan bağlanmışdır. Atların sinəsində dəbdəbəli çul, başlarında dairəvi bəzəklər vardır. Budlarının əzələləri qövsşəkilli, ayaqlarınınkı isə düz və sınıq xətlərlə verilmişdir. Gözləri və burunları kiçik dairələrlə bildirilmişdir. Atların başı qövsşəkilli xətlərin bacarıqla birləşdirilməsi ilə yaradılmışdır.

Atlıların arasında qanadları yanlara açılmış vəhşi quş dimdiyində insan başını aparır. Quşun bədəni yuxarıdan təsvir edilmiş, gözləri kiçik dairələrlə, qanadları paralel xətlər arasına alınmış çərtmələrlə bildirilmişdir. İnsan başı isə profildən təsvir edilmişdir. Quşun quyruğu iki şaquli və bir sınıq xətlə bildirilmişdir. Quşun apardığı insan başı iti başlıqlı baş örtüyündə təsvir edilmişdir. Onun gözləri batıq nöqtə, ağzı kiçik çərtmə ilə bildirilmişdir. İnsanın burnu və çənəsi aydın ifadə edilmişdir.

Atlılardan arxada kəsilmiş başının yerindən qan fısqıran çılpaq insan meyidi təsvir edilmişdir. Mərhumun ayağı profildən, bədəni isə anfasdan təsvir edilmiş, döş qəfəsi bir qrup paralel xətlərlə ifadə edilmişdir.

Bu təsvirlərdən arxada kəmərin yuxarı hissəsində Günəşi simvolizə edən təsvir, aşağı hissəsində isə hansısa rəsmlərin anlaşılmayan qalıqları saxlanmışdır.

Bu nümunədəki təsvirlər Yaxın Şərq və Cənubi Qafqaz kəmərləri ilə ümumi xüsusiyyətlərə malik olmaqla onlardan fərqlənir. Qeyd edək ki, Qədim Şərq kəmərlərinin heç birində bu tip səhnəyə rastlanmamışdır. Lakin onun müəyyən detalları Yaxın Şərq, xüsusilə Urartu kəmərləri ilə bənzərdir.

Rəsmlər içərisində, xüsusilə Urartu atlılarına bənzəyən təsvirlər diqqəti çəkir. Bu tip təsvirlərə Altıntəpə kəmərlərində, Karmirblurdan aşkar olunmuş ox qabları və dəbilqələrdə rastlanmışdır. Bu tip atlıların təsvirinə Mitaniya barelyeflərində də rastlanmışdır. Lakin Urartu kəmərlərində bu təsvirlərin daha da inkişaf etmiş forması ilə rastlaşırıq. Bizim təsvir etdiyimiz kəmərdəki atlılar bəzi detalları ilə Urartu nümunələrindən fərqlənir. Bizim nümunədə ox qabları dairəvi başlıqlı təsvir edilmişdir. Fikrimizcə, onlara Urartu kəmərlərində rastlanmır və müəyyən dərəcədə Zakim kəməri üzərindəki təsvirlərə bənzəyir.

Bizim nümunədə atların başlıqları dairəvi olduğu halda, Urartu kəmərlərində yelpikşəkillidir. Atların quyruğunun təsvirində də müəyyən fərqlər vardır. Urartu kəmərlərində atların quyruqları saçaqlı olmaqla aşağı tökülür, lakin Şərur kəmərində atların quyruğunun tükləri yığılıb bağlanmışdır. Bütün bu fərqli cəhətləri ilə Şərur kəməri Assuriya incəsənəti ilə daha yaxından səsləşir.

Dimdiyində insan başı tutan vəhşi quşlar Assur incəsənətindən yaxşı məlumdur. Tellodan aşkar olunan stela parçası üzərində dimdiyində insan

başı və insan bədəninin müxtəlif hissələrini aparan vəhşi quşlar təsvir edilmişdir. Qanadları kənara açılan quş təsvirlərinin anfasdan verilməsi Mesopotamiya incəsənəti üçün xarakterikdir. Assuriya və Mitaniya barelyeflərində quşların başı profildən, Telloda isə anfasdan təsvir edilmişdir. Ağaca keçirilmiş bu tip quş fiqurlarından hərbi nişan kimi istifadə edilməsi və quşların insan başı ilə təsvir edilməsi əks başlanğıcların mübarizəsini göstərməklə bərabər, vəhşi quşların ölümgətirici xüsusiyyətini də əks etdirir. Ehtimal ki, bu, bir tayfanın digər tayfa üzərində qələbəsinin simvolu olmuşdur.

Mərhumun paltarsız təsvir edilməsi Assuriya incəsənəti üçün xarakterikdir. Bu tip təsvirlərə bir çox barelyeflərdə rastlanmışdır. Burada həmçinin başları vurulmuş əsirlərə də rastlanır. Bizim kəmərin üzərindəki əsirin duruşu tamamilə Assuriya nümunələrini xatırladır.

Qrifonların yaxın oxşarlarına Manna incəsənətində rastlanmışdır. Saqqız dəfinəsindən tapılan qızıl lövhə üzərində də belə təsvirlər vardır. Onların bəzi detalları Urartu nümunələrinə bənzəsə də, belə qrifonlar Urartu əşyalarından məlum deyildir.

Günəş rəsmləri də özünəməxsus xüsusiyyətləri ilə seçilir. Onlar qədim Şərq incəsənətində rastlanan rozetkaları xatırladır. Lakin belə rozetkalar Naxçıvanın keramika nümunələrindən də bəllidir. Onların qədim nümunələrinə Mesopotamiya və İran əşyalarında rastlanmışdır.

Şərurdan aşkar olunmuş kəmərin stilistik fərqləri, bir çox detallarının fərqlənməsi onun Yaxın Şərq ənənələri ilə yaxından tanış olan yerli ustalar tərəfindən hazırlandığını göstərir. Kəmərin üzərindəki təsvirlər Mesopotamiya ilə Manna incəsənəti arasında sıx əlaqənin olduğunu göstərir. Lakin atlı fiqurlar urartuların təsirini açıqca əks etdirir. Bu ola bilsin ki, onların Cənubi Qafqazda möhkəmləndiyi dövrə, e. ə. VIII-VII əsrlərə təsadüf edir.

İkinci tapıntı zınqırov şəkilli möhürdən ibarətdir. Onun yuxarısında zəncir keçirmək üçün halqa vardır. Həmin halqaya keçirilən zəncir kəsikdə dairəvi olan tunc məftildən hazırlanmışdır. Möhürün əsası oval formadadır. Onun üzərində qanadlı, ayaqları qarnına bükülmüş, buynuzları isə arxaya qatlanmış dağ keçisi təsvir edilmişdir. Kəmərin kənarında keçini halqaya alan ilan təsviri verilmişdir. Onun quyruğu keçinin buynuzunun yaxınlığında, başı isə qarnının altındadır. Keçinin ilanla birlikdə təsviri Mesopotamiya və Cənubi Azərbaycan qliptikasının geniş yayılmış motivlərindəndir. Təəssüf ki, möhürün bir qismi zərər görmüşdür. Buna baxmayaraq, qədim Şərq mifologiyası üçün xarakterik olan motiv aydın şəkildə verilmişdir.

Məlum olduğu kimi, ayaqları qarnına qatlanmış heyvan fiqurları qədim Şərq incəsənəti üçün xarakterikdir. Bu tip keçi təsvirlərinə Ras-Samra, Qezer və Ağaevlərdən tapılmış möhürlər üzərində rastlanır. Lakin bizim nümunə müəyyən oxşarlıqlara baxmayaraq, onlardan tamamilə fərqlənir. Burada keçinin ayaqlarının bükülməsi Manna-Skif incəsənəti üçün xarakterik forma almışdır. Ehtimal ki, möhür Manna və Skiflərlə bağlı olan hökmdara aid olmuşdur. Hər iki tapıntını tipoloji bənzərlərinə əsasən e. ə. VIII-VII əsrlərə aid etmək olar.



Şəkil 69. Fərhad evi qaya məzarı.

**Naxçıvan Antik dövr abidələri.** Makedoniyalı İsgəndərin ölümü və Makedoniya imperiyasının parçalanmasından sonra Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövləti yarandı. Naxçıvanın bu dövrə aid tarixinə aid yazılı mənbələr yoxdur. Naxçıvan şəhəri yaxınlığındakı Əliabad kəndi ərazisindəki küp qəbirlərin birində Makedoniyalı İsgəndərə aid gümüş sikkənin aşkar olunması Naxçıvanın bu imperiya ilə əlaqələrinin olduğundan xəbər verir. Bu abidənin maddi-mədəniyyət nümunələri ilə Qafqaz Albaniyasının mədəniyyəti arasında

müəyyən bənzərlik vardır. Bu dövrdə Naxçıvan ərazisində küp qəbirlərə və daş qutulara rast gəlinir. Naxçıvanda Antik dövrə aid Albantəpə, Qoşatəpə, Axura Kültəpəsi, Qalacıq, Meydantəpə yaşayış yerləri və qəbir abidələri qeydə alınmışdır.



Şəkil 70. İkinci Qız qalası (Şərur).

Bu dövrün geniş tədqiq olunan abidəsi Oğlanqaladır. Oğlanqaladan aşkar olunan maddi-mədəniyyət nümunələri, xüsusilə sütunlar, sütun altlıqları və keramika Atropatenanın mədəniyyəti üçün xarakterikdir.

Əldə olunan dəlillər e. ə. 400-250 –ci illərdə Oğlanqala sitadelinin yenidən məskunlaşdırıldığını, III Dövr memarlarının saray binasını bərpa etmək istədiyini göstərir. III Dövrün sarayı həmin ərazini əhatə edirdi və əvvəlki dövrlərdəki strukturların düzəldiməsi ilə inşa edilmişdi. Onun düzgün formada inşa edilmiş bəzi divarları IV Dövr arxitekturasını bərpa etmişdi, lakin daxili həyətin şimal, cənub və şərq divarları III Dövrdə yenidən istifadə olunmuş, yaxud yenidən inşa edilmişdi. Ümumiyyətlə, III Dövr sarayının binaları çoxsaylı və kiçik həcmlidir. III Dövrün daş hörgüləri özündən əvvəlki IV Dövrdəkindən daha az möhtəşəmdir. III Dövr divarlarının bənnaları gil məhlulu ilə bərkidilmiş, yonulmamış kiçik daşlardan istifadə etmişlər. Divarların düzəldilməsi üçün kiçik daşlardan da istifadə edilməmişdir və divarlar IV Dövrdəkilərə nisbətən ensizdir.

Divarların eni 1 və 2 metrlər arasında dəyişir, tikintinin əksər hissələrində isə 1 metrdir. Stratiqrafik dəlillər göstərir ki, III Dövr arxitektorları inşaat apararkən IV Dövrə aid maddi qalıqları dağıtmışlar. Onlar IV Dövr bənnalarının inşa etdiyi sahəni doldurmuş və III Dövrün kərpic teretuarları birbaşa ana qaya üzərində deyil torpağın üzərində inşa olunmuşdur. Lakin daş hörgülər əvvəlki kimi möhtəşəm deyildilər və əlimizdə olan faktlar onların tamamlanmış hissələrinin çox gözəl görünüşə malik olduğunu təsdiq edir. Bu binanın müxtəlif yerlərində, xüsusilə III Dövrün qərb və şərq hissələrində yonulmuş daşlardan istifadənin əlamətləri qalmışdır. Yonulmuş daşlar əvvəlki dövrdə olduğu kimi Qaratəpə dağının əsasını təşkil edən və arxitekturada geniş istifadə edilən mərmərləşmiş əhəngdaşından deyil, tuflaşmış əhəngdaşından və qum daşından hazırlanmışdır.



Şəkil 71. Qırmızıdaş qalası (Kəngərli rayonu).

Bu binanın ən böyük qismi əvvəlki daxili həyətin yerində yerləşən iri otaqdan ibarətdir. III Dövrə aid bu otaq IV dövrdəki bənzərinə nisbətən daha kiçik olub ölçüsü 27 X 33 m-dir. Bəzi faktlar, xüsusilə bu otağın şimal tərəfində cəmləşən 29 ədəddən ibarət tikinti materialı göstərir ki, III Dövrün arxitektorları əvvəlki daxili həyətin yerində sütunlu salon tikməyi planlaşdırmışdılar. Bu faktlar sütun barabanları, sütun altlıqları, kapitel və kvadratşəkilli postamentlərdən ibarətdir. Bu tkinti materiallarının heç biri sonadək işlənib tamamlanmamışdır. Qaldırılabilən sütun barabanlarının heç

biri tam işlənməmiş, son istifadə üçün cilanmamış və bədii formaya salınmamışdır. Bu sahədə aşkar edilən sütun altlıqları və sütun barabanları, sahənin hər tərəfinə yayılsa da, Əhəməni apadanalarına bənzər həyətlərin yaradılması üçün kifayət deyil. Onların başa çatmamış formasını nəzərə alaraq demək olar ki, dövlət binanın böyük hissəsinin tikintisini başa çatdırmamışdır. Buna görə də sütun altlıqları və barabanların bu geniş sahədə necə istifadə edildiyini söyləmək çətindir.



Şəkil 72. Aza qalası.

Sütunlu salonlar Yaxın Şərq abidələrindən yaxşı məlumdur. Şərqi Türkiyədə və Qafqazda bu tip bir neçə saray qazılıb aşkar edilmişdir. Oğlanqalanın salonu Altıntəpə və Erebuninin salonlarından kiçikdir, ehtimal ki, onlar satraplıq mərkəzi olmuşlar. Lakin onların forması və həcmi bənzərdir. Oğlanqala sütunlarının birbaşa bənzərlərinin tapılmaması çətinlik törətsə də, onların başa çatmamış forması, xüsusilə zəng tipli sütun altlıqlarını Qaracəmilli, Sarıtəpə, Qumbati və Bencaminin qazıntıları zamanı aşkar edilmiş nümunələrlə müqayisə etmək olar. Sütunların digər elementləri, xüsusilə yonulmamış gövdə, hədsiz dərəcədə kiçik olan barabanlar öz yaxın bənzərlərini İran [Nahavənd] və Əfqanıstan [Yunan-Baktriya, Ay-Xenum] Selevkidlərinin 2-ci əsrə aid kontekstlərində tapır.

Postəhəməni kontekstlərini nəzərə alsaq, ehtimal ki, sütun barabanları bir-birinin üzərinə qoyulmuş və kapitellər onların üst qismini tamamlamışdır.



Şəkil 73. Başqala (Kəngərli rayonu).

Qazıntı zamanı digər elementlərin aşkar olunmaması Farsdan kənardakı Əhəməni mərkəzlərində, satraplıqların və inzibati əyalətlərin mərkəzində daş əsaslar üzərində ağac və kərpic sütunlardan istifadə edildiyini göstərir. III Dövrün təməlindən və sütunların altındakı kül laylarından götürülən kömürün radiokarbon analizi göstərir ki, bu tikintilərin ehtimal olunan tarixi e. ə. 4 – 3-cü əsrlərdir. Binanın bərpası iki tarixi dövrdən birinə, ya Əhəməni imperiyasının son 50 ilinə, ya da post Əhəməni dövrünə, Selevkidlərin onların imperiyasını özlərinə birləşdirdiyi dövrə aiddir. Belə olduğu halda layihənin yarımçıq qalmasının səbəbi ya III Daranın ölümü və Əhəməni imperiyasının dağılması, ya da Makedoniyalı İsgəndərin imperiyasının süqutu ilə bağlı olmuşdur. İkincisi, bu, 4-cü əsrin sonunda imperiyanın dağılmasından sonrakı qarışıq onilliklərdə burada Midiya-Atropatena dövlətinin yaranması ilə bağlı ola bilər. Oğlanqala sitadelinin çoxsaylı özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bu binanın tikintisini ikinci dövrə aid etmək olar. Oğlanqala Qafqazda farsların birbaşa olduqları Qaracəmilli, Qumbati və Bencamindən əsaslı şəkildə fərqlənir. Oğlanqalada hakimiyyətin simvollarından biri kimi böyük sütunlu salon mövcuddur. O tamamilə yerli stildə inşa olunmuşdur. Onun tikilməsini

sifariş edən şəxs yerli əhaliyə məxsus olmuş, Şərur düzənliyini və ola bilsin ki, daha böyük ərazilər öz hakimiyyəti altında birləşdirmək istəmişdir. Ola bilsin ki, onun hakimiyyəti uzun sürməmiş, buna görə də tikinti proyekti və ərazinin gözəl peyzajı tərk edilmişdir. Bu binada tapılan çoxsaylı ox ucluqları və sapand daşları bu dövrün güclü dağıntıya məruz qaldığını göstərir. Əhəməni imperiyası dağıldıqdan sonra onun Qafqazda güclü təsiri Qərbi Gürcüstanda Kolxidanın və Vanın qazıntılarından məlumdur. Ola bilsin ki, bənzər hadisə Oğlanqalada da olmuşdur.

II Dövrdə sitadelin tikintisi ilə bağlı əsas dəlillərdən biri də III Dövr sarayının xarabalıqlarında qazılmış 30-dan artıq çuxurdur. Onların qeyri-adi tapıntıları ziyafətlərin keçirilməsi və başqa ictimai hadisələrdən xəbər verərək göstərir ki, sarayın bu monumental binası tərk edildikdən təqribən yüz illər sonra bura Oğlanqala sakinlərinin gündəlik gəldikləri yerlərdən biri olmuşdur. Təpənin digər yerlərində aparılan geofiziki analizlər təqribən e. ə. 100 və bizim eranın 100-cü ilini göstərmişdir. Bu dövrdə Oğlanqala, ola bilsin, Strabonun Qafqazda Olane adı ilə xatırladığı möhkəmləndirilmiş şəhər olmuşdur.

Qərb divarı boyunca aparılan təmizləmə işləri zamanı Oğlanqalanın II Dövrünə aid küp qəbirlərlə rast gəlinmişdir. Burada qəbirlərin olması təsdiq edir ki, tikinti və bərpa işlərindən sonra onlar öz funksiyasını itirmişdir. Bu qəbirlərdə cinsi məlum olmayan və pis saxlanmış yaşlı adam skeleti qalıqlarının bir hissəsi aşkar edildi. Lakin küp qəbirin qərb tərəfində aşkar olunan iki qulplu küpə bilavasitə Oğlanqalanın yerli insanlarına aid idi. Bu adam Roma imperiyasından gətirildiyi zənn edilən olduqca zəngin avadanlıqla dəfn edilmişdi. Əvvəlcə qəbirdən imperator Avqustun portretini göstərən dörd gümüş sikkə tapıldı. Lakin sikkələr paslanmış və bir qədər dağılmışdı. Buna baxmayaraq onların eyni tipli olduğu və üzərində iki kitabə olduğu aydın seçilirdi. Sikkələrin üz tərəfində dəfnə yarpağından tac qoyan Avqustun sağ tərəfdən şəkili var idi. Onun kənarında "CAESAR AVGVSTVS DIVI F PATER PATRIAE." sözləri yazılmışdı. Sikkənin arxa tərəfində Sezarın Qayus və Lusiusunun iki təsviri verilmişdir. Şəkil üz tərəfdən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə təsvir edilmişdir. Kənarda isə "VGVSTI F COS DESIG PRINC IVVENT, C L CAESARES" kitabəsi yazılmışdır. Sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Diğər sikkələr isə daha kiçik diapozona malik olub e. ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir. Bundan başqa dəfn edilənin bir tunc və dörd qaşlı üzüyü var idi. Onların üzərində inək və medalyon təsviri var idi. Bundan başqa qəbir inventarına yuvarlaq şəkilli şüşə flakon

və bu tip flakona aid parçalar da daxil idi. Bunlarla bərabər Finikiya mənşəli şirli muncuq da aşkar edilmişdir.

Eramızdan əvvəl I, bizim eranın II əslərinə aid mənbələrdə Naxçıvanla bağlı kifayət qədər məlumat yoxdur. Həmin dövrdə Atropatena Parfiya və Romanın döyüş meydanına çevrilmişdi. Ölkəmizin ərazisi yadelli işğalçılar tərəfindən qarət və talanlara məruz qalırdı. Şəraitdən asılı olaraq Atropatenada gah parfiyalıların, gah da romalıların mövqeyi güclənirdi. Əldə olan faktlar bu dövrün hadisələri haqqında məlumat əldə etməyə imkan verir. Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Arşaki [Parfiya] hökmdarı I Qotarza aid mis sikkə, Naxçıvan yaxınlığındakı *Urud* [Orod-Arşaki hökmdarı – V.B.] toponimi Arşakilərin təsirini əks etdirir. Tassit Cənubi Qafqazda baş verən hadisələrdən bəhs edərkən Parfiya hökmdarı Orodla albanlar, iberlər və sarmatların birləşmiş qüvvələri arasında olan döyüşdən bəhs etmişdir.

Oğlanqaladan aşkar olunan Roma sikkələri hələlik geniş nəticələr çıxarmaq üçün kifayət deyil, lakin bu tapıntılar ən azından Roma ilə əlaqələrin olduğunu, pul dövriyyəsinin inkişaf etdiyini təsdiq edir.

Bu dövrdə Azərbaycana, o cümlədən Naxçıvana masaget, sarmat və alanların yürüşləri başlayır. Kəngərli rayonunun Böyükdüz kəndi yaxınlığındakı daş qutu qəbirləri tədqiqatçılar sarmat-alan yürüşləri ilə bağlamışlar. Onların fikrinə görə bu qəbirlərin avadanlığı sarmat-alanlar üçün xarakterikdir. Bu qəbirlər e.ə. I, bizim eranın I-III əsrlərinə aid edilmişdir. Ümumiyyətlə, bu tayfalar tarixi ədəbiyyatda massaget-alan və massaget-sarmat tayfaları da adlandırılmış, Maskutlar çarlığı ilə bağlanmışdır. Bizim eranın I əsrində sarmat-alanlar Atropatenaya hücum etmiş, Cənubi Qafqaz ölkələrində dağıntı törətmiş və böyük qənimətlə geri qayıtmışlar. Araşdırmalar Böyükdüz qəbirlərinin sarmat-alanların müttəfiqləri ilə bağlı olduğunu göstərir. Mənbələr alan tayfalarının Şimalda yaşayan dağlıları ittifaqa cəlb edərək Cənubi Qafqaza hücum etdiyini təsdiq edir. Gürcü mənbələrində bu dağlılar *paçanik* [peçeneq- V.B.], *ciq, durzuk* və digər adlarla xatırlanır. Son zamanlar Böyükdüz qəbirlərinin bənzərləri Şahbuz rayonunun Biçənək, Culfa rayonunun Göynük kəndi yaxınlığındada aşkar edilmişdir. Araşdırmalar Biçənək oykoniminin peçeneq tayfaları ilə bağlı olduğunu göstərmişdir.

Bu dövrdə utilərin də Naxçıvanda yaşaması arxeoloji faktlarla təsdiq olunur. Azərbaycanın böyük tayfalarından biri olan utilər haqqında məlumat verən antik müəlliflər onların Araz çayı boyunda müqlərin qonşuluğunda, Atropatenanın sərhəddində yaşadığını göstərirlər. İqrar Əliyev bunları Qafqaz Albaniyasının Otena vilayətində yaşayan utilərlə eyniləşdirir.

Məlum olduğu kimi, Qay Sezar e.ə. 1-ci ildə Ermənistanı işğal edərək bu ölkəni Atropatenanın hakimiyyətinə verir. Bizim eranın 2-ci ilində parfiyalılar tərəfindən qızışdırılan ermənilər Ariobarzana qarşı üsyan qaldırır. Bu Roma sərkərdəsinin ikinci dəfə Ermənistana yürüşünə səbəb olur. Bu yürüş zamanı ermənilər məğlub olur və Atropaten hökmdarı Ariobarzan bu iki ölkə arasında nifaqa səbəb olan Albaka vilayətini geri alır. Tədqiqatçılar bu vilayətin Vanla Urmiya arasında, Ağrı dağından şərqdə yerələşdiyini, əhalisinin marlardan ibarət olduğunu göstərirlər. Albakada murasan nəslindən olan Ajdahakanın törəmələri yaşayırdılar. E.ə. I əsrlə eramızın II əsrinə aid dövrdə Naxçıvan və Qoxtan haqqında məlumatlar digər mənbələrdə də var. Mənbələrin məlumatına görə, Naxçıvanın hakimi murasan qəbiləsinin Əjdahaka nəslindən olmuşdur. Belə çıxır ki, Naxçıvan o zaman Albaka vilayətinin tərkibində olub. Bu nəsildən olan sərkərdə Arğam indiki Ermənistan ərazisində taxt-tac uğrunda mübarizədə tərəflərdən gah birinə, gah da o birinə kömək edərək onları zəiflətmişdir. Mənbələrin məlumatına görə Qoxtanda olan rabsodlar [gəzərgi müğənnilər] mahnılarında Ağramı tərənnüm etmişlər. Belə nəticəyə gəlmək olarki, o dövrdə Naxçıvanın əhalisi marlar, utilər, peçeneklər, çovdeylər həmçinin digər qəbilələr məskunlaşmışdılar. Onlar mənşəcə türkdilli idilər.

Atropatena dövrünə aid mədəniyyət nümunələri keramika məmulatı ilə təmsil olunmuşdur. Demək olar ki, halqa dabanlı, üzəri qırmızı və narıncı rənglə örtülmüş kasaların parçaları, ehtimal ki, II Dövrdə daha geniş yayılmışdır. Bu kasaların dairəvi, halqaşəkilli oturacaqları Parfiya və İran Azərbaycanının yaşayış yerləri üçün xarakterik deyil. Lakin bəzi nümunələr Pasarqaddan, İranın digər yerlərindən və Cənubi Qafqazın Ellin dövrü qəbiristanlıqlarından məlumdur. Kənarında yiv açılmış kasaların ağız kənarları xaricə doğru çıxıntılı olub qapaq qoyulmaq üçün nəzərdə tutulmuşdur. Bu tiplər daha çox yerüstü materiallar arasında yayılmış və həmin dövrlə tarixləndirilə bilərlər. Ağzının kənarı xaricə doğru çıxıntılı olan küpələr Cənub-Qərbi və Qərbi İranda Əhəməni dövründən Parfiya dövrünə keçən təbəqələrdən məlumdur və Oğlanqalanın II Dövrü üçün tipikdir.

**E.ə. VI-I minilliklərdə Naxçıvanda etnik mədəni proseslər.** Naxçıvanda yerləşən arxeoloji abidələrin tədqiqi Bu ərazidə formalaşan qədim mədəniyyətlərin yerli etnoslar tərəfindən yaradıldığını təsdiq edir. Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətləri ilə əlaqəli şəkildə inkişaf etmiş, mədəniyyətlərin formalaşmasında iqtisadi-mədəni əlaqələrin və miqrasiyaların da müəyyən rolu olmuşdur. Qədim Şərq ölkələri ilə mədəni əlaqələr hələ e.ə.VII-VI

minilliklərdən başlamışdı. I Kültəpənin Neolit təbəqəsindən aşkar olunan Xalaf tipli çölmək e.ə.VI minilliyə aid edilir. Tədqiqatçıların ümumi fikrinə görə bu çölmək Mesopotamiyadan gətirilmişdir. Çölmək I Kültəpədə arxasıüstə uzadılmış skeletlə birlikdə aşkar olunmuşdur. Əgər nəzərə alsaq ki, bu tip dəfn adəti Mesopotamiyada Xalaf mədəniyyətinin yayıldığı dövr üçün xarakterik olmuşdur, o zaman bu tip keramikanın müəyyən əhali qrupunun miqrasiyası ilə gətirildiyini demək olar. Bu dəfn adəti *şumerlərlə* bağlanmışdır. Şumerlərin türkdilli olması ilə bağlı bir sıra Avropa alimlərinin, o cümlədən mərhum alman alimi Q.Hüzingin, E.Forerin, F.Hummelin, V. Xristianın, B. Landsberqerin fikirləri sonradan siyasi məqsədlər xarakterinə inkar edilmişdir. F. Hommel şumerlərin Orta Asiyadan köçərək Ön Asiyaya gələn türk tayfaları olduğunu deməklə 350 şumer sözünün türkcə izahını vermişdir. Şumerlərdə Allah mənasını ifadə edən «*Dinqir*», türklərdə «*Tenqri*» sözlərinin, mifoloji və dil özəllikləri əski şumer dilinin türk dilinə uyğun olduğunu göstərir. Fikrimizcə, bu qruplar ticarət və sənətkarlardan ibarət olmuş yerli əhali ilə qaynayıb qarışmışdır. Ovçulartəpəsində aşkar olunan ev sıçanlarının araşdırılması onların Mesopotamiya mənşəli olduğunu, lakin yerli şəraitə uyğunlaşaraq xeyli dəyişdiyini göstərir. Araşdırmalar bu heyvanların qədim əkinçilik mədəniyyətlərini təqib edərək e.ə.VIII-VII minilliklərdə Naxçıvana gəldiyini təsdiq edir. Lakin bütün bunlar heç də, bəzi tədqiqatçıların iddia etdiyi kimi, Naxçıvanın qədim əkinçilik mədəniyyətlərinin Mesopotamiyadan gətirildiyini təsdiq etmir, əksinə onun yerli zəmində inkişaf etdiyini göstərir. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir göstərdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramika, o cümlədən Xalac boyalı keramikası Cənub mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur.

İ.H.Nərimanov Leylatəpə yaşayış yerini aşkar etdikdən sonra bu yaşayış yerinin Mesopotamiya tayfaları, xüsusilə Ubeyd-Uruk tayfaları tərəfindən salındığını qeyd etmişdir. Onun fikrinə görə, Naxçıvanda Xalaf mədəniyyətindən sonra, Ubeyd mədəniyyətinə mənsub tayfalar məskunlaşmışdır. Hazırda tədqiqatçıların bir qrupu tərəfindən Leylatəpə

tipli abidələr Ubeyd mədəniyyətinə, digərləri tərəfindən isə Uruk mədəniyyətinə aid edilməkdədir.

E.ə.V-III minilliklərdə bütün Azərbaycan ərazisində olduğu kimi Naxçıvanda da Kür-Araz mədəniyyəti yayılmışdır. Bəzi tədqiqatçıların fikrinə görə, e.ə. III minillikdə bu ərazidə *hurri* dili yayılmışdır. Lakin hurri dilinin yayılması yerli dillərin işlədildiyini istisna etmir. Araşdırmalar göstərir ki, Zaqros dağlarının qərb ətəklərində, Urmiyanın qərb vilayətlərində və digər yerlərdə yayılmış qədim tayfalardan biri də hurrilər idi. Hurrilərin vətəni Cənubi Qafqaz, İrəvan yaylası və Dağlıq Kürdüstan ərazisi idi. Hurri dili hind-Avropa dillərinə aid olmamışdır. Artıq müəyyən edilmişdir ki, bu dil Urartu dilinə qohumdur. Son dövrdə hurri [eləcə də Urartu] dilinin Şimal-Şərqi Qafqaz dilləri ailəsilə bağlayırlar. E.Forer e.ə. III-II minilliklərdə Ön Asiyada yaşayan hurrilərin dilinin türkoid bir dil olduğunu qeyd etmişdir. İ.M.Dyakonovun fikrincə, hurri etnik massivi Cənubi Azərbaycanı əhatə etməmiş və e.ə. III-II minilliklərdə bu regionun əsas əhalisi *kuti* və *lullubilərdən* ibarət olmuşdur. İ.Q.Əliyev və Q.A.Melikişvilinin fikrinə görə isə e.ə.III-II minilliklərdə Cənubi Azərbaycanın əhalisi mədəni və etnik baxımdan zaqro-elam etnosu ilə yaxın olmuşdur. Bu etnosun ural-altay dilləri ilə [türk dilləri ilə] bağlılığı irəli sürülmüşdür.

Məlum olduğu kimi, arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyətinin lokal variantlarının yerli etnoslara aid edilməsinə cəhd edilmişdir. Kür-Araz mədəniyyətinin yayıldığı dövrdə Azərbaycanda *kuti, lullubi və su* tayfaları yaşamışdır. Onların içərisində hökmran mövqe kuti və lullubilərə məxsus olmuşdur. E.ə. III minillikdə Urmiya hövzəsində kuti və lullubilərin siyasi qurumları da mövcud olmuşdur. E.ə. III minilliyin sonunda kutilərin Mesopotamiyadakı ağalığına son qoyulur, kuti və lullubilərin siyasi qurumları isə dağılır. İ.Q.Əliyev qeyd edir ki, "Urmiya gölünün qərb sahilində aşkar edilmiş və Cənubi Qafqaz mədəniyyətlərinə yaxın olan Göytəpə mədəniyyəti kutilərə məxsus imiş". Tədqiqatçının "Göytəpə mədəniyyəti" adı altında nəyi nəzərdə tutduğu dəqiq məlum deyil. Lakin bu dövrdə geniş yayılmış arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti idi.

Bu dövrdə Azərbaycanın cənub rayonlarında, xüsusilə Urmiya hövzəsi və Naxçıvanda Mesopotamiya və Elam mədəniyyətinin təsirini əks etdirən boyalı keramika yayılmağa başlayır. Bu mədəniyyət Urmiya hövzəsi, Şərqi Anadolu, Ermənistan və Gürcüstanın müəyyən qismini əhatə etmişdir. Lakin bu dövrdə Gürcüstanın və Şimali Azərbaycanın böyük bir qismində boz və qara rəngli cilalı keramika ilə xarakterixə edilən mədəniyyət mövcud olmuşdur. Fikrimizcə, qara rəngli keramika ilə xarakterizə edilən bu

mədəniyyət Kür-Araz mədəniyyətindən törəmiş və onunla bağlı olmuşdur. Boyalı keramikanın yayılması tədqiqatçılar tərəfindən yeni etnosun miqrasiyası ilə bağlanmışdır. Şübhəsiz ki, qədim əhalinin müəyyən qrupu yeni etnosla qarışaraq əvvəlki yerində qalmış, digər bir qismi isə şimal rayonlara sıxışdırılaraq orada kompakt halda yaşamışdır.

İ. M. Dyakonovun fikrincə, kutilər Cənubi Qafqaza güclənən lullubi tayfa ittiqafı tərəfindən sıxışdırılmışdır. Arxeoloji materialların təhlilinə əsasən demək olar ki, Kür-Araz mədəniyyəti tayfaları Boyalı qablar mədəniyyətini daşıyan tayfalar tərəfindən sıxışdırılmışdır. Məlum olduğu kimi, bu tayyfalar nəinki Azərbaycanın, həmçinin Mesopotamiya və İranın tarixində mühüm rol oynamışdır. Əgər Boyalı qablar mədəniyyəti lulubilərlə bağlanırsa şübhəsiz ki, bu tayfaların məskunlaşdığı əsas rayonlardan biri də Naxçıvan olmuşdur.

Arxeoloji araşdırmalar Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunun e.ə. III-II minilliklərdə ortaq mədəniyyətə malik olduğunu göstərir. Bu baxımdan e.ə. II minillikdə Urmiya hövzəsində xatırlanan *turukkilərin* də Naxçvan ərazisində məskunlaşdığını demək olar. Herodotda xatırlanan *iyurki*, Plini və Pomponiya Melada xatırlanan *turke* etnoniminin türklərlə bağlı olduğu tədqiqatçılar tərəfindən qəbul edilmişdir.

E.ə. II minilliyin birinci rübündə tarix səhnəsinə *kaşşu [kassit]* tayfa ittifaqı çıxdı. Onomastik materiallar bu tayfaların geniş əraziyə yayıldığını, o cümlədən Naxçıvanda məskunlaşdığını göstərir. Bəzi tədqiqatçıların fikrinə görə, yunanca "qalay" mənasını verən "kassiteros" sözü, kassitlərin adı ilə bağlıdır. Bu, kassit tayfalarının Orta Tunc dövrü mədəniyyətinin yaranmasında mühüm rol oynadığını təsdiq edir. Faktlar Azərbaycanda, o cümlədən Naxçıvanda formalaşan mədəniyyətlərin bir etnos tərəfindən deyil, bir-birinə qohum etnoslar tərəfindən yaradıldığını deməyə imkan verir. Orta Tunc dövrü abidələrinin tədqiqi "kassiteros"un, yəni qalayın e.ə. III minilliyin sonlarından başlayaraq Azərbaycanda, eləcə də Naxçıvanda yayıldığını göstərir. Naxçıvanda bu tayfalarla bağlı xeyli yer adları qalmışdır.

E.ə. II minilliyin sonu - I minilliyin əvvəlində Naxçıvan ərazisi mürəkkəb sosial-mədəni və siyasi dəyişikliklərə məruz qalmışdır. Araşdırmalar göstərir ki, bu dövrdə Azərbaycanda Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimal rayonlarında formalaşan bu mədəniyyət buradan Cənubi Azərbaycana və Naxçıvana yayılmışdır. Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə I Kültəpə, II Kültəpə, Şahtaxtı, Yurdçu, Kolanı, Sarıdərə, Bayəhməd, Haqqıxlık, Qarabulaq, Zeyvə və digər abidələrdə rastlanmışdır. Abidələrin

tədqiqi göstərir ki, bu mədəniyyəti yaradan tayfaların bir qismi maldarlıqla məşğul olaraq köçəri həyat tərzi keçirmişdir. Belə ki, bu mədəniyyətə aid abidələrdə yaşayış mövsümi xarakterdə olduğundan mədəni təbəqə yığılmamışdır. I Kültəpə, II Kültəpə, Şahtaxtı, Yurdçu, Qızılburun və digər abidələrdə Xocalı-Gədəbəy mədəniyyəti elementlərinin ortaya çıxması bu tayfaların Naxçıvanın Arazboyu vadisini də ələ keçirildiyini göstərir. Şübhəsiz ki, bu yaşayış yerlərində müəyyən əhali qrupu və hərbi qarnizonlar yerləşdirilmişdir. Ola bilsin ki, onlarn bir qismi də yerli əhali ilə qarışmış və əkinçiliklə məşğul olmuşdur.

Silahlara yalnız müəyyən qəbirlərdə rastlanması, tayfa başçısının mifik rəsmlərlə bənzədilmiş qəbirdə dəfn edilməsi cəmiyyətdə sosial təbəqələşmənin mövcud olduğunu göstərməklə bərabər müəyyən hərbi potensiala malik böyük tayfa ittifaqlarının da formalaşdığını göstərməkdədir.

Xocalı-Gədəbəy mədəniyyətinin formalaşmasında müxtəlif etnik qruplar iştirak etmişdir. Bir qrup abidələr hurrilərə, digərləri isə irandillilərə aid edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, tədqiqatçıların at skeletləri ilə əsaslandırılmış fikirləri heç də həmişə doğru deyildir. Belə ki, Ə.K.Ələkbərov tərəfindən tədqiq edilən Şahtaxtı qəbiri uzun müddət arxeoloji ədəbiyyatda skif qəbiri kimi qeyd edilmişdir. Halbuki, bu abidənin skif mədəniyyəti ilə heç bir əlaqəsi yoxdur. Digər tərəfdən bu abidələr irandillilərə aid olsa belə, onlar M.N.Poqrebovanın çıxardığı geniş nəticələr üçün əsas vermir. Bu qrupa daxil olan abidələr yalnızca bir neçə kurqanla təmsil olunmuşdur. Atla və kremasiya ilə müşayət olunan dəfn adəti isə yalnız irandillilər üçün deyil, digər xalqlar üçün də xarakterik olmuşdur. Məlum olduğu kimi at Ön Asiyada irandillilər gəlməmişdən xeyli əvvəl əhliləşdirilmişdir. Fikrimizcə, əgər mümkündürsə, irandillilərin yalnız Azərbaycandan keçərək İran yaylasına getdiyini söyləmək olar. Bu keçiş zamanı Azərbaycanda yerləşən tayfalar yerli mədəniyyəti qəbul edərək assimlyasiya olunmuşdur. Elə buna görə də M.N.Poqrebovanın irandillilərin Azərbaycan ərazisində uzun müddət məskənləşərək yerli mədəniyyəti qəbul etməsi, bu mədəniyyəti İran yaylasına aparması haqqındakı fikirləri də olduqca ziddiyyətli və subyektivdir. M.N.Poqrebova bu tayfaların İran yaylasına daxil olarkən öz dillərini və etnosunu nə dərəcədə saxladığını söyləyə bilməmişdir.

Xocalı-Gədəbəy mədəniyyətinin ikinci qrup abidələri ştamp və cızma naxışlı boz keramika, zəngin tunc inventarla xarakterizə edilən daş qutularla təmsil olunmuşdur. Yerli tayfalara mənsub olan bu abidələr indiyədək kifayət qədər təhlil edilməmişdir. Əgər nəzərə alsaq ki, tunc əşyalar, o cümlədən silahlar başlıca olaraq daş qutu tipli qəbirlərdən aşkar olunmuşdur,

o zaman demək olar ki, bu tayfalar öz hökmran mövqeyini və hərbi potensialını saxlamışdır. Araşdırmalar Naxçıvan abidələrinin Xocalı-Gədəbəy mədəniyyətinin bu qolu ilə bağlı olduğunu göstərir.

Araşdırmalara dayanaraq deyə bilərik ki, Xocalı-Gədəbəy mədəniyyəti qədim dövrdən bu ərazidə məskənləşən aborigenlər tərəfindən yaradılmışdır. Məlum olduğu kimi, bu mədəniyyət başlıca olaraq boz rəngli keramika ilə xarakterizə edilir. Bu tip keramika e.ə. V-III minilliklərdə Azərbaycanda yayılan Kür-Araz mədəniyyəti üçün xarakterik olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti isə bu mədəniyyətin davamı olmuşdur. Bu abidələr üçün xarakterik olan kollektiv dəfnlər Azərbaycanda və Naxçıvanda qədim dövrlərdən mövcud olmuşdur.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan qəbir tipləri də Azərbaycanda e.ə. III minillikdə mövcud olmuşdur. Buna görə də Xocalı-Gədəbəy mədəniyyətinin Kür-Araz mədəniyyətinə qohum tayfalar tərəfindən yaradıldığını söyləmək olar. Faktlar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfalar arasında mədəni və siyasi cəhətdən birləşmə prosesinin getmişdir. Etnik-mədəni proseslərin formalaşmasında xarici təsirlərin də müəyyən rolu olmuşdur.

Bu tayfaların Azərbaycanın şimalından hərəkət edərək Naxçıvan, daha sonra isə Urmiya hövzəsində məskənləşməsi Assuriya və Urartu tərəfindən işğal təhlükəsinin artması ilə bağlı olmuşdur. Mixi yazılar Urartu çarlarının Naxçıvana uğursuz reydi haqqında məlumat saxlamışdır. Lakin Naxçıvan ərazisində birbaşa urartulara aid abidələrə rastlanmamışdır. Tədqiqatlar göstərir ki, onların Naxçıvanda möhkəmlənə bilməməsinin səbəbi yerli tayfaların müqaviməti ilə bağlıdır. Qədim dövrdən Azərbaycanın cənubunda, o cümlədən Naxçıvanda məskunlaşan kuti və lullubi tayfaları e.ə. I minilliyin əvvəlində Azərbaycanın siyasi tarixində mühüm rol oynamışdır. Arxeoloji araşdırmalar Naxçıvanda yaşayan qədim tayfaların Göyçə gölü ətrafında formalaşan "Etiuni" konfederasiyası ilə sıx bağlı olduğunu göstərir.

Arxeoloji abidələrin tədqiqi e.ə. II minilliyin sonu, I minilliyin əvvəlində Naxçıvanda müxtəlif etnosların yaşadığını təsdiq edir. Bu hər şeydən əvvəl dəfn adətinin müxtəlifliyində və keramika məmulatında özünü göstərir. Bu baxımda skeletli və skeletsiz qəbirlər diqqəti çəkir. Arxeoloji mədəniyyətləri konkret etnoslarla bağlamaq müəyyən çətinlik törətsə də onomastik materiallar qədim dövrdə Naxçıvanda yaşayan *as* tayfaları haqqında da müəyyən məlumat saxlamışdır. Bu tayfalarla bağlı onomastik materiallar başlıca olaraq Kəngərli rayonunun Qarabağlar və Şahtaxtı ərazisində rast gəlinir. Bu etnosun adı Asnı çayının adında maddiləşmişdir.

Bu çayla bağlı müxtəlif əfsanələr var. Rəvayətə görə Asnı gursulu imiş və Qarabağlardan axaraq indiki Şahtaxtı kəndinin yaxınlığında Araza qovuşurmuş. Qeyd etmək lazımdır ki, bu tayfaların adı Araz [*Ar-as*] çayının, Culfa rayonundakı Ərəzin [*Ər-əz-in // Ar-as-in*] kəndinin adında da qorunub saxlanmışdır. Naxçıvanın digər rayonlarında olan toponimlər bu tayfaların Naxçıvanda məskunlaşdığını göstərir. Urartu hökmdarı Menuanın Culfa rayonundan aşkar olunan kitabəsində bu toponim *Arsine* şəklində qeyd edilmişdir.

Ordubad rayonunda yerləşən qəbir abidələrinin bir qrupu tədqiqatçılar tərəfindən qadın döyüşçülərə-amazonlara aid edilmişdir. Mənbələrin məlumatı amazonların "eorpat" adlandırıldığını göstərir ki, bu da Azərbaycan dilində qadın mənasını ifadə edir. Hazırda bu qəbir abidələrinin aşkar olunduğu nekropolun yaxınlığında Aza toponimi qalmışdır. Maraqlıdır ki, Azərbaycan dilində *as-az* sözü də qadın mənasını ifadə edir. Bu faktlar qadın döyüşçülərdən ibarət olan tayfaların olması ilə bağlı qədim miflərin müəyyən dərəcədə həqiqətə uyğun olduğunu göstərir. Ehtimal ki, bu qadınların kişilərlə bərabərhüquqlu döyüşçü olduğunu təsdiq edir.

E.ə. I minilliyin birinci yarısında Naxçıvanda məskunlaşan *skiflərlə* bağlı abidələr indiyədək Naxçıvanda az aşkar edilmişdir. Lakin Lakin Kəngərli və Şahbuz rayonlarından aşkar olunan skif tipli ox ucluqları bu tayfaların Naxçıvanda olduğunu təsdiqləyən faktlardan biridir. Assur mənbələrində skiflər *aşquz və işquz* kimi xatırlanmışdır. Skiflərin etnik mənşəyi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Skiflərin türk olduğunu qəbul etməyən və onları tamamilə irandillilərlə bağlayan mərhum akademik I.H.Əliyev onlar içərisində türk xalqlarının olduğunu etiraf etmişdir. Aşşur qaynaqlarında xatırlanan «iç quz», «aş quz» etnoniminin ərəb mənbələrində xatırlanan «quz»larla eyni olduğu və türklərə aid olduğu indi heç bir şübhə doğurmur. E.ə. I minilliyin birinci yarsında Ön Asiyanın tarixində mühüm rol oynayan tayfaların Naxçıvanda olmasını *sak* etnonimi ilə bağlı toponimlər də təsdiq edir. Ordubad rayonunda Sakkarsu çayının adı bu tayfalarla bağlı olmalıdır. Skif tayfalarının Yaxın Şərqə hərəkəti ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri vardır. Qafqaz Albaniyasına aid Arsax vilayətinin Naxçıvanın qonşuluğunda yerləşməsi sak tayfalarının bu regionun tarixində mühüm rola malik olduğunu göstərir. Ehtimal ki, skiflər Yaxın Şərqə müxtəlif yollarla irəliləmişlər. Şübhəsizki, bu yollardan biri də Naxçıvan ərazisindən keçmişdir. Sahbuz rayonunda skif tipli ox ucluqlarının tapılması bu tafaların Batabat aşırımından keçid kimi istifadə etdiyininin göstəricisidir.

# III FƏSİL. NAXÇIVAN ERKƏN ORTA ƏSR ABİDƏLƏRİ

**Feodal münasibətlərinin yaranması.** Tarixin müxtəlif mərhələlərində Atropatenanın tərkibində olan Naxçıvanda feodal münasibətləri digər Şərq ölkələrində olduğu kimi erkən meydana gəlmişdir. Naxçıvanda feodal münasibətlərinin meydana çıxmasını təsdiqləyən faktlar azdır. Erkən Orta əsrlərə aid arxeoloji abidələrin tədqiqi az da olsa torpaq üzərində feodal mülkiyyətinin meydana çıxdığını göstərir. Bu münasibətlər III əsrdən başlayaraq formalaşmağa başlamışdır. Naxçıvanda feodal münasibətləri, Şərqdə olduğu kimi, feodalların öz təsərrüfatlarını yaratması ilə deyil, kəndlilərdən renta alınması yolu ilə inkişaf etmişdir. İstehsalın əsasını kəndli əməyi təşkil edirdi. Kəndlilər şəxsən azad idilər. Kəndlilər əkinçilərə, maldarlara və bağçılara bölünürdülər. Az da olsa qul əməyindən istifadə olunurdu.



Şəkil 74. Babək qalası.

Naxçıvanın əlverişli təbii şəraiti, xüsusilə Araz vadisinin və Araz çayına qovuşan gursulu çayların vadisindəki münbit torpaqlar, dağlıq ərazidəki maldarlıq üçün əlverişli otlaqlar feodal mülkiyyətinin inkişafına, daha mütərəqqi quruluşun formalaşmasına əlverişli şərait yaradırdı.

Naxçıvanın təbii-coğrafi şəraiti süni suvarmanın olmasını tələb edirdi. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanda hələ qədim dövrlərdən suvarma kanallarından istifadə edilmişdir. Şübhəsiz ki, bu ənənə Erkən Orta əsrlərdə də qalmışdır. Bu dövrə aid su kanallarının qalıqları Naxçıvanda indi də qalmaqdadır. Araza qovuşan dağ çaylarından çəkilən kanallar vasitəsilə çayların suyu vadiyə çıxarılmış, əkinçiliyin inkişafı üçün şərait yaradılmışdır. Maldarlıqda köçmə yaylaq maldarlığına üstünlük verilmişdir. İstər əkinçilik, istərsə də maldarlığın inkişafı digər təsərrüfat sahələrinin də inkişafını stimullaşdırmış, Naxçıvanın iqtisadi və siyasi müstəqilliyi üçün əsas olmuşdur. Erkən Orta əsrlərdə Naxçıvan hakimlərinin müstəqil siyasət yürütməsinin səbəblərindən biri də budur.



Şəkil 75. Quyuludağ qalası.

Musa Kalankaytuklunun verdiyi məlumata görə mənşəcə Sisakandan (indiki Naxçıvan) olan Aran Araz çayından başlayaraq Hunan qalasınadək uzanan ölkənin düzənliklərini və dağlarını miras olaraq almışdı. Bu artıq torpaq üzərində irsi mülkiyyətin olduğunu təsdiq edir. Tarixi mənbələrin hakim sinifin nümayəndələrinə vilayətlərin və kəndlərin bağışlanması, hakim sinfin öz mülklərini oğulları arasında bölüşdürməsi haqqındakı məlumatları torpaq sahibliyinin dövlət formasının üstün olduğunu göstərir. Sasanilərin və ərəblərin hökmdarlara bütöv vilayətlər bağışlaması, onların isə öz vassallarına torpaq paylaması dövlət və feodal torpaqlarını artırır,

kəndlilərin onlardan asılılığını gücləndirirdi. İran şahlarının və Alban hökmdarlarının yeritdiyi siyasət kəndlilərin təbəqələşməsini sürətləndirdi. Kəndlilərin istismar olunmasının əsas forması vergi və mükəlləfiyyətlər idi. Kənd icmalarında təbəqələşmə və onların bir qisminin feodallardan asılı vəziyyətə düşməsi IV-VII yüzilliklər boyu davam etmişdir. Bununla belə qeyd etməliyik ki, icma torpaqlarının mövcud olması ilə bağlı məlumat azdır. Belə ki, "Alban tarixi"nin müəllifi, yuxarıda qeyd etdiyimiz kimi, Aranı düzənliklərin və dağlarının sahibi kimi təqdim edir. Ehtimal ki, otlaqlardan istifadə edən maldar qəbilələr hökmdar xəzinəsinə vergilər verir və müəyyən mükəlləfiyyətlər icra edirdilər. Həmin mənbədə ölkədə güclü təbəqələşmənin olmasına işarə edən məlumatlar da vardır. Alban hökmdarı Mömin Vaçaqan müqəddəslərin şərəfinə böyük ehsan verdikdən sonra kasıblara sədəqə və yemək paylayır.



Şəkil 76. Şahbuzqala (Şapurqala).

Feodalizm dövrünün əsas sinifləri feodallar və asılı kəndlilər idi. Bu iki sinfin formalaşması bir-biri ilə bağlı idi. Feodalların formalaşması iki yolla gedirdi. Bir tərəfdən azad icmalar arasında təbəqələşmə nəticəsində varlıların yeni qruplaşmaları yaranır və adlı sanlı əyanlarla birləşərək feodal sinfinin əsasını təşkil edirdi. Digər tərəfdən isə vilayət hakimləri vəzifələrini irsiləşdirərək atadan oğula vermək hüququ alırdılar. Sünik hakiminin öz

mülklərini oğlanları Qor və Qazan arasında bölməsi haqqında “Alban tarixi”ndə olan məlumatlar bu baxımdan diqqətəlayiqdir. Feodalizmin inkişafı ilə feodallar arasında da təbəqələşmə gedirdi. Onlar arasında üstün mövqe tutan vilayətin, yaxud əyalətin hakimləri idi. Əlincə və Qoxtan daxil olmaqla Sünikdə [mərkəzi Naxçıvan] on iki vilayət olduğunu nəzərə alsaq artıq feodal iyerarxiyasının olduğunu deyə bilərik. Sasanilərin zamanında feodal iyerarxiyası rütbə cədvəli ilə müəyyənləşdirilmişdi. “Alban tarixi”ndə verilən məlumatlar göstərir ki, rütbə cədvəli tərtib edilərkən feodalların keçmiş əsl-nəcabəti də nəzərə alınırdı. Vilayət hakimləri hökmdarın yanında rütbələrinə görə otururdu. Sünik hakiminə uyğun yer verlimədiyi üçün onlar Sasani hökmdarlarından incimiş və üsyan etmişdilər.

Erkən Orta əsrlərdə Albaniya və Atropatenada irsi [*dastakert*] və şərti torpaq mülkiyyəti [*xostak*] mövcud olmuş, şərti torpaq mülkiyyətinin irsi mülkiyyətə çevrilməsi prosesi getmişdir. Dastakertin sahibi hökmdar və iri feodallar, xostakın sahibi isə xırda zadəganlar [*azatlar*] idilər. Naxçıvanda vilayət hakiminin şəxsində irsi mülkiyyət daha üstün yer tutmuşdur. İstər Albaniya və Atropatenanın, istərsə də böyük imperiyaların tərkibində Naxçıvanın müstəqil siyasət yeritməsi bununla bağlı olmuşdur. Feodal torpaq sahibliyinin formalarından biri də dini torpaqlar idi. Dini torpaqlar və məbədlərə məxsus torpaqlar toxunulmaz idi və inanca görə Tanrı tərəfindən qorunurdu. Sünik vilayətində baş verən üsyan zamanı feodalların öz qiymətli əşyalarını Şalat məbədində gizlətməsi, sasanilərin bu təpəyə çıxarkən zəlzələ olması buna işarədir.

Erkən Orta əsrlərdə Naxçıvanda da Azərbaycanın digər yerlərində olduğu kimi hakim feodallar sinfinin mənafeyini müdafiə edən dövlət hakimiyyəti mövcud idi. Bu dövrdə Naxçıvanın müəyyən müddət ərzində müstəqil siyasət yeritdiyini nəzərə alsaq ali dövlət hakimiyyətinin vilayət hakiminin əlində cəmləşdiyini demək olar. Musa Kalankaytuklunun yazdığından məlum olur ki, Sünik hakimləri knyaz titulu daşıyırdı. Şahbuz rayonundan, Ağbulaq nekropolundan aşkar olunan üzük möhürlər yerli hakimlərin və feodalların möhürə də malik olduğunu təsdiq edir. Əyalət hakimləri vilayət hakimlərinə tabe idilər. Naxçıvan hakimi öz növbəsində Atropatena hökmdarından asılı idi. Son Antik və Erkən Orta əsrlərə aid yaşayış yerlərinin tədqiqi vilayət hakimlərinin saraylara malik olduğunu göstərir. Bəzi qalalarda sitadellərin mövcudluğu hakim təbəqənin qala divarları ilə mühafizə olunan xüsusi sahədə yaşadığını deməyə imkan verir.

Vilayət hakimlərinin həmçinin özünə tabe olan ordusu var idi. Sünik vilayətinin ordusu o qədər qüvvətli idi ki, onların gücündən Dərbənd keçidini mühafizə etmək üçün istifadə olunurdu. Mənbələrdə Sünik

hakiminin öz ordusu ilə Mədainə hücum etməsi, İran dövlətinin paytaxtında keçirilən ümumi hərbi keçiddə onun öz dəstəsi ilə iştirak etməsi haqqında məlumatlar vardır.

**Türkdilli tayfaların yeni axınları.** Erkən Orta əsrlərdə türk tayfalarının Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşması prosesi davam etmişdir.

Hun türklərinin [xəzər, şabir, onoqur və s.] II əsrdə Şimali Qara dəniz sahillərində, yaxud Xəzərin şimalında yaşaması haqqında Vızantiya tarixçisi Dionisiy, yunan coğrafiyaçısı Klavdi Ptolomey məlumat vermişlər. Lakin Moisey Xorenskinin 193-213-cü illərdə xəzərlərin Çoradan keçərək bütün Albaniyaya yayılmasını bəzi tədqiqatçılar anaxronizm adlandırmış, bu hadisələrin IV əsrdə baş verdiyini göstərmişlər. Lakin V.N.Qabiaşvili göstərir ki, qədim gürcü mənbələrində türk xalqları e.ə. IV-III əsrlərə aid hadisələrlə bağlı olaraq xatırlanır. Bu mənbələrdə Makedoniyalı İsgəndərin Cənubi Qafqaza yürüşü zamanı buntürklərlə qarşılaşdığı göstərilir. Birinci fəsildə qeyd olunduğu kimi, Heredot eramızdan əvvəlki hadisələrdən bəhs edərək türklərin Azərbaycanda məskunlaşdığını göstərmişdir. Bəzi tədqiqatçılar kəngərli tayfalarının Naxçıvanda I əsrdən məskunlaşdığını göstərir. Lakin Midiya ərazisində olan bəzi toponimlər - məsələn, Kinqarakku, Kinqibira, Kinqikanqi və digərləri ehtimal ki, bu tayfalarla bağlıdır. B.A Serebrennikov öz tədqiqatlarına əsaslanaraq yazır ki, hun dəstələrinin cənuba, cümlədən Azərbaycana yürüşləri maksimum III əsrə aid edilə bilər.

Erkən Orta əsrlərdə Şimali Qafqazdan keçərək Azərbaycana və Naxçıvana gələn tayfalardan biri hunlar idi. Bu tayfaların Şimali Qafqazda məskunlaşması tədqiqatçılar tərəfindən II əsrə aid edilmişdir. Şərur rayonunda mövcud olan *Qarxun - Qara hun* toponimi bu tayfaların Naxçıvanda məskunlaşdığını təsdiq edən faktlardan biridir. P.Qolden Cənubi Qafqazda hun tayfalarının meydana çıxmasının konkret tarixini 363, 370 və 395-ci illərə aid edir. Artamanov qeyd edir ki, IV əsrdə, bəlkə də bir qədər əvvəl hunların Xəzəryanı çöllərin şərq hissəsində meydana çıxması mümkün idi.

E.Yeremeyev «Türklərin etnogenezi» kitabında yazır ki, III-IV əsrlərdə türk tayfaları Kiçik Asiya, Qafqaz və Balkan xalqlarının çoxsaylı və daimi qonşuları idilər. Digər tədqiqatçı A.P. Novoselçev hun türklərinin I minilliyin birinci yarısında Cənubi Qafqazda yayıldığını qeyd edir. Sasani şahı II Yezdigerd də ermənilərin üsyanına qarşı mübarizədə türklərdən istifadə etmişdir. Y.Q.Cəfərovun tədqiqatlarında hunların protobulqar və

qədim türk tayfaları olduğu göstərilir. Tədqiqat işinin «Onoqur birliyi və Albaniya [395-466]», «Sabir birliyi və Albaniya [466-558]» bölümlərində türk xalqları ilə Albaniyanın münasibətləri aydın şəkildə izah edilir. Suriya tarixçisi Zaxari Mitilenski V əsrin sonu VI əsrin əvvəlində Dərbənd yaxınlığında 13 türk tayfasının sabir, avar, bulqar, xəzər və digərlərinin məskunlaşdığını qeyd edir. Bu barədə həmçinin Favstos Buzand, Moisey Xorenski, Eqişe, Sebeos, Parpeçi, Musa Kalankaytuklu və başqa müəlliflərin əsərlərində məlumatlar vardır. «Alban tarixi»ndə Sabir tayfalarının yeni axınlarının VI əsrdə Azərbaycanda məskunlaşması ilə də bağlı məlumatlar vardır.

Adil Bağırov Naxçıvan şəhəri yaxınlığındakı Bulqan toponiminin bolqar tayfaları ilə bağlı olduğunu göstərmişdir. Azərbaycanda məskunlaşan bu tayfalar kuvyar, çakar, kuruqir, qul qazan, iskilv kimi qollara ayrılmışdır. Naxçıvan ərazisində olan Qazan və Vənənd oykonimləri də bolqarlarla bağlıdır. Bu tayfaların Azərbaycanda məskunlaşmasının tarixi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür.

Erkən Orta əsrlərdə Bəkdüz [Böyük-düz] tayfaları indiki Böyükdüz kəndinin yaxınlığındakı yaşayış yerində məskunmlaşmışdılar. Bu tayfa haqqında Orta əsr müəlliflərindən M.Qaşqarinin, Rəşidəddinin, Əbülqazi Bahadır xanın əsərlərində və «Kitabi-Dədə Qorqud»da məlumat verilmişdir. Bu tayfanın adı ilə bağlı həmçinin bir sıra ərəb və fars mənbələrində də məlumat verilmişdir. Yuxarıda qeyd edilən mənbələrdə bu tayfanın adı «Buqdur», «Bəkdəz», «Bukdüz», «Bəkdüz», «Böyükdüz» şəklində xatırlanmışdır. Böyükdüz tayfaları Orta əsrdə xatırlanan iyirmi dörd oğuz tayfasından biridir. Bu tayfanın özünəməxsus damğası və quşu olmuşdur. Damğa, içərisində diaqonal boyunca xətt çəkilən düzbucaqlı təsvirlərdən ibarətdir. Böyükdüz tayfasının quşu şahindir. Əbülqazi Bahadır xanın məlumatına görə «Büqdüz» xidmət etmək mənasındadır. Əbülqazi Bahadır xanın «Türkmənlərin şəcərəsi» əsərində Büqdüz Oğuz xanın altıncı oğlu kimi xatırlanmışdır.

«Kitabi-Dədə Qorqud»da Bəkdüz Əmən Bayandır xanın və Qazan xanın yaxın silahdaşı kimi xatırlanır. Mənbələrdə yad edilən rəvayətlərə görə Bəkdüz Əmən Məhəmməd Peyğəmbərlə görüşmüş, oğuzlar içərisində ilk dəfə islamı qəbul etmiş və onu yaymışdır. Araşdırmalar Böyükdüz kənd adının oğuzların bəğdüz tayfaları ilə bağlı olduğunu göstərir.

Bu dövrdə Naxçıvanda məskunlaşan tayfalardan biri də xəzərlər idi. Ziya Bünyadov yazır ki, 531-ci ildən gec olmayaraq xəzərlər Cənubi Qafqaza basqınlar edirdilər. Məlum olduğu kimi, hələ V əsrdə xəzərlər Qəbələni ələ keçirmiş, Albaniyanın paytaxtı Qəbələdən Bərdəyə

köçürülmüşdür. Naxçıvanda indiyədək qalan toponimlər – məsələn Qarxun, Şada və digərləri hunların, bolqarların, xəzərlərin Erkən Orta əsrlərdə bu regionda yerləşdiyini təsdiq edir. Şad Cebu Xaqanın oğlu, Azərbaycana yürüş edən xəzərlərin sərkərdəsi idi. Naxçıvan və İrəvanda bir çox yaşayış yerləri qarxun sözünün əlavə edilməsi ilə yaranmışdır. Adil Bağırov karxun sözünü oğuzların karkın tayfaları ilə bağlamışdır. Şübhəsiz ki, bu, Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşan tayfalar arasında etnik birləşmə prosesinin getdiyini təsdiq edir. "Alban tarixi" müəllifinin xəzərlərdən bəhs edərkən onların ölkəsini "Yacuc" adlandırması da diqqəti çəkir. Fikrimizcə bunlar həmin yacuclardır ki, İncildə xatırlanmış və Naxçıvandakı Yaycı oykonimində qorunub saxlanmışdır. Səlcuq-oğuzların bir qolu olan yaycılar yerəşdiyi yerlərə öz adlarını vermişlər.

V əsrdə Naxçıvan, indiki Ermənistan və Cənubi Azərbaycan ərazisini əhatə edən böyük bir ərazidə güclü kəngərli birliyi mövcud olmuşdur. V əsrdə kəngərli ittifaqı Sasanilər imperiyası kimi böyük dövlətədə qorxu yaratmaq qüdrətində idi. Heredota əsaslansaq bu tayfaların Azərbaycanda e.ə. VII-VI əsrlərdə məskunlaşdığını deyə bilərik. Suriya müəllifi Mar-Aba 542-ci ildə Xosrov Ənuşirəvanın Naxçıvan və onun ətrafında kəngərlilərlə müharibə apardığını göstərir. Naxçıvanda kəngərli tayfaları ilə bağlı çoxsaylı oykonimlər – məsələn Keçili, Yurtçu, Qaraçuq, Qaraxanbəyli və digərləri həmin tayfaların yadigarıdır. V.Qriqoryev V əsrdə Naxçıvana gələn bu tayfaların 20 tayfadan ibarət olduğunu 120 tirəyə bölündüyünü yazır. K.N.Smirnov Naxçıvanda 28 kəngərli tayfasının olduğunu yazmışdır.

Ərəblər Azərbaycana hücuma hazırlaşarkən xəlifəyə verilən məlumatda Azərbaycanın türk ölkəsi olduğu bildirilmişdir. Deyilənlər göstərir ki, I-VII əsrlər boyu türkdilli xalqlar Azərbaycan ərazisində üstünlük təşkil etmiş və nəinki burdakı, bütün Cənubi Qafqaz və Yaxın Şərqdəki siyasi hadisələrə qarışmışlar. Xristianlığın yayıldığı dövrdə türk qıpçaqlar, sabirlər, onoqurlar xristianlığı qəbul etmişdir. Bu dövrdə türk xalqlarının Cənubi Qafqazda oynadığı rolu erməni və gürcü mənbələrində qalan türk sözləri də təsdiq edir. Bu məsələyə ilk dəfə diqqət yetirən doktor Mordman qeyd etmişdir ki, ermənilər hind-avropalı xalqlar sırasına daxil olsalar da onların dili türk dilinin böyük təsirinə məruz qalmışdır. O, qeyd edir ki, mən bu sözləri deyərkən osmanlılardan keçən təsirdən yox, IV,V, VII əsrlərdə yazı dilində işlədilən türk sözlərini nəzərdə tuturam, o vaxt ki, səlcuqlar və osmanlılar haqqında heç kəs heç nə bilmirdi. Erkən Orta əsrlərdə Cənubi Qafqaz və Yaxın Şərqdə məskunlaşan türk xalqlarının, bəzi tədqiqatçıların dediyi kimi, «vəhşi» olmadığını, bir çox xalqların yazılı ədəbiyyatına təsir

edəcək mədəni səviyyəyə malik olduğunu sübut edən faktlardan biri də «Iqor polku haqqında dastan»da olan türk sözləridir.

Şübhəsiz ki, etnoslar müxtəlif etnik qrupların birləşməsi nəticəsində formalaşmışdı. Onomastik materiallar Erkən Orta əsrlərdə Naxçıvanda hun, xəzər, sabir, bolqar, peçenek, oğuz, suvar, xurs və onlarla digər türkdilli tayfaların Naxçıvanda məskunlaşdığını göstərir. Arxeoloji və onomastik materialların araşdırılması Naxçıvanda formalaşan mədəniyyətlərin qədim türkdilli tayfalar tərəfindən yaradıldığını, bu tayfaların regionun ictimai-siyasi həyatında mühüm rol oynadığını göstərir.

**Naxçıvan Sasanilər dövlətinin tərkibində.** 226-cı ildə Ərdəşirin şah titulu qəbul etməsilə Sasanilər dövlətinin əsası qoyuldu. Naxçıvanın III-VII əsrlər tarixi Sasanilər dövləti ilə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, Sasani şahı I Şapura məxsus kitabədə Sünik müstəqil ölkə kimi xatırlanmışdır. Lakin I Şapurun ölümündən sonra Sasani-Roma müharibələri yenidən gücləndi. Bu müharibələr 283-cü ildə romalıların xeyirinə bağlanan sazişlə başa çatdı. Bu dövrdə digər şəhərlərlə birlikdə Naxçıvan da Sasanilərin hakimiyyəti altından çıxır. Amid döyüşündən sonra 359-cu ildə Sasanilərlə romalılar arasında bağlanan müqaviləyə görə Arsax, Marlar ölkəsi [Naxçıvan] və Kaspiana sasanilər tərfindən tutulur. 364-367-ci illərdə II Şapurun Cənubi Qafqaza yürüşü zamanı Naxçıvan yenidən dağıntılara məruz qalır. Erkən Orta əsr mənbələrinin verdiyi məlumata görə II Şapurun talançı yürüşləri zamanı səkkiz şəhər dağıdılmışdı ki, onlardan biri də Naxçıvan idi. Bu dövrdə Cənubi Qafqazın digər ölkələri ilə birlikdə Naxçıvan da sasanilər tərəfindən talan və qarətlərə məruz qalır. Mənbələr göstərir ki, əsir edilmiş əhali Cənubi Qafqazın digər yerlərindən İran ordugahının yerləşdiyi Naxçıvana gətirilirdi. Sonda Naxçıvan şəhəri də dağıdılıb talan edildi. Əhali sürgün edilib yad ölkələrə aparılırdı. II Şapunun istilaları zamanı Naxçıvanda 18 min ailə əsir edilmişdi. İşğal edilmiş şəhərlərin sasanilər tərəfindən verilən siyahısı və Sasani ordularının keçdiyi yolların təsviri bu Naxçıvanın Araz çayı üzərində olan Naxçıvan olduğunu göstərir.

Mənbələr yazır ki, bütün Azərbaycan və Naxçıvan ərazisi Sasani Roma ordularının döyüş meydanına çevrilmişdir. Bununla bərabər köçəri alan və hun tayfaları da buraya gəlirdilər. Hunlar tez-tez yerli əhalinin Sasanilərə qarşı mübarizəsinə müdaxilə edirdilər. Romalılar atəşpərəst məbədlərini dağıdır, yerində xristian kilsələri tikirdilər. Roma ilə İran arasında bağlanan 387-ci il müqaviləsinə görə Naxçıvan Sasanilərin tərkibində qaldı. Musa Kalankaytuklunun Alban tarixi əsərində Sünik

əhalisinin Sasani şahı II Şapura qarşı mübarizəsi haqqında maraqlı məlumat saxlanmışdır. Həmin məlumata görə II Şapur Cənubi Qafqazı işğal etdikdən sonra yerli hakimlərdən onların nəslinin qədim olduğunu təsdiq edən kitab tələb etmişdir. Kitab təqdim etməyənlər rütbə dərəcəsindən və əmlakdan məhrum edilirdi. Sünik hakimi ona verilən on dördüncü rütbədən narazı qalmış, buna görə də Sünik hakimi Andoka acıq edib şahın qonaqlığından imtina etmişdi. Bundan sonra şaha xəbər verirlər ki, saysız-hesabsız xəzərlər Çola keçidini aşaraq hücum etmişdir. Onlara qarşı vuruşmaq üçün şah Atropaten vilayətlərindən, alban, gürcü, iranlı və digər xalqlardan ordu toplayaraq xəzərlərə qarşı çıxmışdı. Lakin Sünik hakimi Andoka İran şahına kömək etməmişdi. Sonra o, öz ordusu ilə Mədainə hücum edərək xəzinələri qarət etmiş və öz ölkəsinə gətirmişdi. Sünik əhalisinə əmr etmişdir ki, evlərini yandırıb ölkədən qaçsınlar. Onlar bütün sərvətlərini, daş-qaşlarını Şalat məbədində gizlətdilər. Məbədi torpaqla örtüb üzərində təpə düzəltdilər və dağılıb getdilər. Musa Kalankaytuklu yazır ki, "... O gündən etibarən Sünikün adını heç kəs çəkmədi və bu vilayət 25 il ərzində əhalisiz qalıb viran olmuşdu". Müharibənin sonunda Mədain xərabələrini görən Şapur yenidən Sünikə hücum edir, lakin heç bir şey əldə etmir. Sasani qoşunları altında Şalat məbədi olan təpənin üzərinə çıxanda şiddətli zəlzələ olur və Sasani qoşunları tezliklə ölkəni tərk edirlər. Geri qayıdarkən Sünik əhalisinin sığındığı qalaya hücum edirlər, lakin qalanı ala bilmirlər. Onların ikinci və üçüncü yürüşləri də uğursuz olur. Mühasirə davam edərkən Sünik hakimi Andoka əlverişli vəziyyətdən istifadə edərək qaladan çıxaraq Romaya gedir, orada şöhrət qazanır və öz əcəli ilə ölür.

Bu zaman hunların sasanilərə qarşı yeni yürüşü başlanır. Musa Kalankaytuklu bu haqda məlumat verərək yazır ki, "İran ölkəsini qarət edən hunlar ölkəsindən Honoqur adlı birisi qəlir. O şah Şapurun yanına adam göndərib dedi: "Bu qırğın kimə lazımdır? Çıx qabağıma üz-üzə gələk". Bu müraciətin mətnindən göründüyü kimi sasanilər türk əhalisinə qarşı qırğın törətmişlər. Mənbənin verdiyi məlumata görə, Sasani şahı II Şapur Sünik şahzadəsindən, daha doğrusu Andokanın oğlundan hunlara qarşı mübarizədə istifadə edir. Oxbatmaz bu güclü sərkərdəni yalnız o məğlub edir. Deyilənə görə II Şapurun sarayında içərisi küllə dolu olan bir həvəng və dəstək varmış. "Onun yanından keçən hər bir adam dəstəklə vurub deməli idi: Qoy Sünik torpağı varıyla, dövlətiylə məhv olub bu külə dönsün!". Andokanın oğlu Hun sərkərdəsi ilə döyüşə razı olub İran şahının arzusunu yetirdiyi üçün o da oğlanın istəyini yerinə yetirir-həvəngin saraydan çıxarılması əmr edilir. Andokanın oğlu Babək bir gün ova çıxarkən təpənin altında gizlənən məbədi taır. Onun oğlanları Qor və Qazan öz dinlərini ataraq xristian olurlar.

Araşdırmalar göstərir ki, *qazan* bolqarların bir qolu olmuşdur. Bu fakt Sünik əhalisinin bolqar türklərindən ibarət olduğunu təsdiq edir. Qor və Qazan adlı iki qardaşın *oğuz* [*oğur*] türklərinin adlı-sanlı nəslindən olduğu da müəyyən olunmuşdur. Mənbələrdə Cənubi Azərbaycan, Naxçıvan və ona yaxın ərazilərdə məskunlaşan kəngərlilərin yaşadığı yer "Kəngərlilərin vilayəti", oradakı dağ isə "Kəngərlilərin dağı" adlandırılmışdır. Musa Kalankaytuklu yazır ki, "bütün bunlar xristian dinini məhv edib və bizi zərdüşt dininə bağlamaq istəyən II Yezdəgirdin [438-454] taxta çıxmasından iyirmi il qabaq olub". Yəni 418-ci ildə.

II Şapur [309-379] hunların [xəzərlərin] hücumuna qarşı mübarizə aparsa da xəzərlərə qarşı ciddi mübarizə I Qubadın [446-531] zamanında olmuşdu. O, Dinavərədək irəliləyən xəzərləri geri çəkilməyə məcbur etmiş Gürcüstan və Aranı geri almışdı. Ərəb mənbələri bu haqda məlumat verərək yazırdı: "O, Arran ölkəsinə daxil oldu və ər-Ras [Araz] adı ilə məhşur olan çayla Şirvan arasında olan bütün torpaqları tutdu. I Xosrov Ənuşirəvanın [531-578] dövründə xəzərlərə qarşı mübarizə daha da artdı. O, Dərbənd keçidini möhkəmləndirdi.

Bir tərəfdən hunların hücumları, digər tərəfdən isə İranın Bizansla müharibələri ölkənin təsərrüfatına ziyan vurduğu və ölkə başdan başa talan edildiyi üçün Ənuşirəvanın dövründə Sünik hakimi Sasanilərin vassallığını qəbul edir.

Ərəb mənbələrində Naxçıvan Aranın bir vilayəti olan Basfurcanın mərkəzi kimi göstərilir. Yaqut Həməvi yazır ki, "Basfurcan Arranda bir vilayətdir. Paytaxtı Nəşəva, ona Naxçıvan da deyirlər". Bu mənbələrdə Basfurcan və Sisacan ayrı-ayrı ölkələr kimi xatırlanır. Yəqubi xəzərlər haqqında məlumat verərək yazır ki, "onlara xaqan adlanan padşah başçılıq edir. Onun Arran, Curzan, Basfurcan və Sisacan üzərində Yəzid Balaş adlı canişini vardır. Yaqut Həməvi və Bəlazurinin məlumatına görə Sasani şahı Ənuşirəvanın Sisacanda [Sünik] Vays, al-Kilab və *aş-Şahabuş* qalalarını bərpa etdiyi haqqında məlumat vermişdir. Sonuncu Naxçıvanda olan Şahbuz oykonimi ilə uyğundur. Hazırda Şahbuz rayonunun Şahbuz kəndi [Kənd Şahbuz] yaxınlığında eyni adlı qala var. Bu qala xalq arasında Şapurqala adlanır.

Ərəb mənbələrinin məlumatları xəzərlərin VI əsrdə [531-ci ildən gec olmayaraq] Naxçıvan ərazisində məskunlaşdığını göstərir. Xəzərlər sasanilərin aldıqları əraziləri yenidən ələ keçirirlər. Naxçıvanda xəzər sərkərdələrinin adı ilə bağlı yer adları bunu bir daha təsdiq edir. Şahbuz rayonunda Şada, Ordubadda Vənənd, Şərurdakı Qarxun toponimləri hun, xəzər, bolqar sərkərdələrinin adı ilə bağlıdır. Lakin sasanilər müəyyən

müddət yerli əhalini tabe etsə də onlar müstəqilliklərini qorumuş, sasanilər isə onlarla hesablaşmalı olmuşlar. Təsadüfi deyil ki, sasanilər Dərbənd keçidini qorumaq üçün Sünik ordusundan istifadə etmişdir.

Cənubi Qafqaz hakimlərinin İranın paytaxtında keçirilən hərbi keçidlə bağlı Musa Kalankaytuklu maraqlı məlumat verir. Bu məlumata görə hərbi mərasimdə alban və erməni sərkərdələri ilə bərabər Sünik sərkərdəsi də iştirak etmişdir. Daha sonra keçidə digər sərkərdələrdən daha tez qatılan Alban hökmdarı Cavanşirə göstərilən ehtiramdan bəhs edilir.

Mənbələrin məlumatları Erkən Orta əsrlərdə Naxçıvanın Cənubi Qafqazın sosyal-siyasi həyatında mühüm rol oynadığını göstərir. Naxçıvan şəhəri Sasanilərin Cənubi Qafqazda əsas dayaq məntəqələrindən biri olmuşdur. Naxçıvanın rolu o qədər mühüm olmuşdur ki, müəyyən dövrlərdə Sasani mərzbanlarının iqamətgahı Dvindən Naxçıvana köçürülmüşdür.

VII əsrin əvvəlində Naxçıvan yenidən Sasani-Bizans müharibələrinin meydanına çevrilir. Bizans Sasanilərin tərkibində olan Naxçıvana bir neçə dəfə hücum edərək şəhəri mühasirəyə almışdılar. Lakin II Xosrov Pərvizin göndərdiyi ordu şəhəri mühasirədən azad edir. Müharibənin gedişində Bizans hökmdarı İraklinin xeyirinə dəyişiklik yarandıqdan sonra II Xosrov İrakli üçün əlverişli müqavilə bağlamaqdan imtina etdir. O, 625-ci ildə 120 min nəfərlik qoşunla Naxçıvana hücum edir və şəhəri dağıdır. Naxçıvanı işğal etdikdən sonra İrakli Arazı keçdi və Cənubi Azərbaycanın paytaxtı Qazaka şəhərini tutur. Atəşpərəstlərin bu şəhərdəki baş məbədi bizanslılar tərəfindən dağıdıldı. İrakli çoxlu əsir və qənimətlə qışlamaq üçün Arana getdi. Bunun səbəbi Bizansın xəzərlərlə müttəfiq olması idi.

Bizans işğalı uzun sürmədi. Bir müddətdən sonra sasanilər Naxçıvanı yenidən ələ keçirdilər. Rəvayətə görə Sasani şahı III Yezdəgird Naxçıvan qalasında bərpa və təmir işləri aparmışdır. Buna görə qala bir müddət "Yezidabad" adlandırılmışdır. Ümumiyyətlə, Sasanilər Naxçıvan ərazisində olan bir sıra yaşayış məntəqələrində bərpa işləri aparmışdır. Lakin bəzi mənbələrin bu qalaların Sasanilər tərəfindən inşa olunması ilə bağlı məlumatları həqiqətə uyğun deyildir.

Naxçıvan strateji cəhətdən əlverişli mövqedə yerləşdiyindən burada Sasanilərə məxsus zərbxana olmuşdur. Bu həm də Naxçıvanın mühüm sənətkarlıq və ticarət mərkəzi olması ilə bağlı idi. Bu zərbxana Azərbaycanın ən qədim zərbxanalarından biridir. Y.A.Paxomov müəyyən etmişdir ki, üzərində "naxç" işarəsi olan sikkələr məhz Naxçıvanda zərb olunmuşdur. Digər zərbxanalara nisbətən daha böyük olan Naxçıvan zərbxanası ərəb istilasınadək fəaliyyət göstərmişdir. Naxçıvan zərbxanasında ilk sikkə 533-cü ildə Sasani şahı I Xosrovun adından, son sikkə isə 638-ci ildə III

Yezdəgirdin adından kəsilmişdir. Sikkələr IV Hörmüzd [579-590], VI Bəhram [590-591], III Yezdəgird [632-651] və digər Sasani şahlarının adından kəsilmişdir. Sasani şahların adından kəsilən draxmalar yüksək ayarlı gümüşdən idi. Sübhəsiz ki, bunun səbəblərindən biri də Şərur rayonunda gümüşlə zəngin sink-qurğuşun yatağının olması idi.

Bu dövrdə Naxçıvan "dünyanın ən gözəl və məşhur şəhərlərindən" biri idi. Naxçıvan Şərq ölkələrini cənubi Qafqaz və Avropa ilə birləşdirən ticarət yollarının mərkəzində yerləşirdi və Şərqlə Qərb arasında körpü rolunu oynayırdı. Araşdırmalar Naxşıvanın hələ qədim dövrdən Şərq ölkələri ilə münasibətdə mühüm rol oynadığını, bu şəhərin Araz boyunca keçən qədim ticarət yolu üzərində mühüm məntəqə olduğunu təsdiq edir. Şərqi Qərblə birləşdirən qədim ipək yolu da Naxçıvandan keçmişdir. Bəzi mənbələrin məlumatına görə bu dövrdə Naxçıvanda 30 minə qədər yaşayış evi və 150 min əhali olmuşdur.

Ərəblərin yürüşü ərəfəsində Naxçıvan Oğuz eli, türk torpağı idi. Naxçıvanda oğuzlarla bağlı çox sayda oykonimlər vardır. Kitbi-Dədə Qorqud dastanın da xatırlanan Bəkdüz, Əyrək, Xələc və onların tirələrinə aid oykonimlər bunlardandaır. Bu dövrdə artıq Azərbaycanda məskunlaşan türkdilli tayfaların vahid etnik birliyi formalaşmışdı. Bu baxımdan Müaviyənin Übeyd ibn Şəriyyə ilə söhbətləri dqqətçəkicidir. Müaviyə Übeyddən Azərbaycan haqqında məlumat istədikdə o belə cavab vermişdi: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər.

Naxçıvanın Erkən Orta əsr tarixi ilə bağlı xeyli abidələr vardır. Xalq arasında **Şapurqala** adlanan qala Şahbuz rayonunun eyniadlı kəndi - Şahbuzkənd yaxınlığında, Naxçıvançayın sol sahilində hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş hündür dağın üzərində yerləşir. Xalq arasında çoxdan məlum olmasına baxmayaraq, arxeoloji abidə kimi 1990-cı ildə qeydə alınmışdır, sahəsi 1300 kv.m-dir. Qalaya qalxan yol qayalıq olub olduqca çətin keçirilir. Yolun üstündə yerli əhali tərəfindən ziyarət olunan Pir vardır. Pirdən bir qədər üstdə hər tərəfdən qayalarla əhatə olunmuş meydança yerləşir. Burada uçub tökülmüş tikinti qalıqlarına və forma verməyən çəhrayı rəngli gil qab qırıqlarına təsadüf olunur.

Qalaya qayaların üzərində salınmış dar cığırla cənub-şərq tərəfdən qalxmaq mümkündür. Bu qalanın yeganə yoludur. Qalaya qalxan cığır kiçik meydançaya çıxır. Burada qayanın üzərində diametri 1,2 m olan dairəvi quyu qazılmışdır. Quyunun içərisi torpaqla dolmuşdu. Torpaq təmizlənərkən heç bir maddi-mədəniyyət qalığı tapılmadı. Onun dərinliyi 1,3 m idi. Quyunun ətrafına çəhrayı rəngli gil qab qırıqları səpələnmişdi. Yeri

gəlmişkən qeyd edək ki, Əlincə qalada da hovuzlar qayanın aşağı hissəsində qazılmış və su ehtiyatı saxlamaq məqsədi daşımışdır.

Kiçik meydançadan qalaya yalnız qayaların üzəri ilə dırmanmaq olur. Qalanın yerləşdiyi meydança çoxbucaqlı şəklindədir. Meydançanın hündür yeri onun cənub-şərqində yerləşən iri qayadır. Qayanın içərisində dördkünc formalı otaq qazılmışdır. Onun uzunluğu 4 m, eni 3,6 m-dir. Otaq qapıya tərəf yığıldığından onun qapı yerləşən divarı əks tərəfdə olan arxa divardan bir qədər qısa idi. Arxa divarda yuxarıya çıxmaq üçün daş pilləkən düzəldilmişdir. Otağın içərisi əhəng qarışıq torpaqla dolmuşdu. Yerli əhalinin verdiyi məlumata görə, onun içərisi xəzinə axtaranlar tərəfindən bir neçə dəfə qazılmışdır. Otağın döşəməsində dördkünc formalı oyuq açılmışdır. Onun içərisi torpaqla dolmuşdu. Uçub-tökülmüş tikinti qalıqları içərisində kvadrat formalı bişmiş kərpiclərə təsadüf olunurdu. Onların ölçüsü 19 x 19, 5 sm idi. Otağın qərb divarında rombşəkilli taxça düzəldilmiş, taxçanın altında divar yarımdairəvi şəkildə yonulmuşdu. Taxçanın içərisi çoxüzlü formada idi. Onun içərisi hislənmişdir.

Qalanın içərisində qayada çapılmış daha iki otağa təsadüf edildi. Onlar bir-birini təkrar edirdi. İkinci otağın uzunluğu 4 m, eni 2,5 m, qapının eni 1m-dir. Üçüncü otağın uzunluğu 4,5 m, eni 3 m, qapının eni 80 sm-dir.

Abidənin üzərindən toplanmış materialların əksəriyyəti şirsiz və şirli saxsı qabların qırıqlarından ibarətdir. Saxsıları çəhrayı rəngli olub yaxşı bişirilmişdir. Onlar nimçə, kasa və küpələrdən ibarətdir.

Qalanın mərkəzi hissəsində tamamilə dağıdılmış tikinti qalıqlarına, bişmiş kərpic və çəhrayı rəngli gil qab qırıqlarına təsadüf edilirdi. Bu sahədə mədəni təbəqəni yoxlamaq üçün 2,5 x 2,5 m ölçüdə şurf qoyuldu. Qazıntı zamanı kül qalıqları izləndi və forma verməyən çəhrayı və boz rəngli gil qab qırıqları tapıldı. Təbəqə 0,5 m dərinlikdə qurtarırdı. Bu səviyyədə dən daşlarının qırıqları və bişmiş kərpiclərdən qurulmuş dairəvi formada olan ocaq yerinə təsadüf olundu. Ocağın içərisi boz rəngli küllə dolmuşdu. Başqa maddi-mədəniyyət qalıqlarına təsadüf olunmadı.

Şapurqaladan toplanmış gil məmulatına və tikinti qalıqlarına əsasən demək olar ki, burada eramızın ilk əsrlərindən XV-XVI əsrlərədək həyat davam etmişdir. Şapurqaladan həm müdafiə məqsədilə, həm də gözətçi məntəqəsi kimi istifadə edilmişdir.

Bu dövrə aid abidələrdən biri **Babəki yaşayış yeridir.** Abidə Şərur rayonunun Babəki kəndi yaxınlığında yerləşir. Ərazisi 3 hektardır. Yaşayış yeri hazırda əkin sahələrinin altında qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsi uzunsov-oval formalı təpə şəklində olmuşdur. Təpənin aşınması nəticəsində skelet qalıqları və gil qab sınıqları aşkar edilmişdir. Mədəni

təbəqənin qalınlığı bəzi yerlərdə 2 m-dən artıqdır. Təbəqə torpaq qarışıq kül laylarından ibarət olub saxsı məmulatı, tikinti qalıqları və ostoloji materiallarla zəngindir.

Yaşayış yerindən aşkar edilmiş materiallar əsasən Orta əsrlərə aid şirsiz və şirli qab sınıqlarından ibarətdir.

Şirsiz saxsı məmulatı küpə, qapaq, qazan tipli qabların sınıqlarından ibarət olub əsasən çəhrayı və sarı rəngdə bişirilmişdir. Küplərin ağzının kənarında gövdəsinin yuxarı hissəsinə birləşən lentşəkilli qulpları vardır.

Şirli saxsı məmulatı əsasən nimçə və kasa tipli qab hissələrindən ibarətdir. Onların içərisi anqobüstü və anqob fonun qazılması üsulu ilə naxışlanmışdır. Qabların naxışlanmasında yaşıl, göy və qəhvəyi rənglərdən geniş istifadə olunmuşdur. Kasa tipli qabların bəzisi ancaq içəridən, başqaları isə hər iki üzdən göy şirlə örtülmüşdür.

Aşkar olunmuş tapıntılara əsasən Babəki yaşayış yerini VIII-XVIII əsrlərə aid etmək olar.

İnşa edlmə tarixi Xürrəmilər hərəkatı ilə bağlı olan, xalq arasında **Babək qalası** adlanan qala Ordubad rayonunun Biləv kəndindən cənub-qərbdə yerləşir. Hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Gilançayın sağ sahilində yerləşən qalaya ensiz dar cığırla qalxmaq mümkündür. Strateji baxımdan əlverişli mövqedə yerləşən Babək qalasının divarları bəzi qismlərdə yonulmuş daşlardan inşa olunmuşdur. Bir-birinə bitişik, dördkünc formalı bina qalıqları, başlıca olaraq qala divarına bitişik formada inşa olunmuşdur. Bu üslub Azərbaycanın qədim və Orta əsr qalaları üçün xarakterikdir. Qalada dairəvi formalı binaların da qalıqları vardır. Divarlar 0,8 - 1 m hündürlükdə salamat qalmışdır.Yaşayış yerinin şimal tərəfində qayada qazılmış, qərb divarı daşla hörülmüş dördkünc formalı tikintiyə rastlanmışdır. Ehtimal ki, ondan su hovuzu kimi istifadə olunmuşdur. Onun içərisi lilli torpaq və su ilə dolmuşdur. Yerüstü materiallar dən daşları, obsibian lövhələri, çəhrayı və qəhvəyi rəngli keramika, şirli qab parçalarından ibarətdir. Şirli qablar qum qarışığı olmayan gildən hazırlanaraq yaxşı bişirilmiş, anqob təbəqəsini qazma, qravirovka üsulu ilə yaşıl, sarı, mavi rənglə naxışlanmış, şəffaf şirlə örtülmüşdür. Arxeoloji materiallar qaladan uzun müddət müdafiə məqsədi ilə istifadə olunduğunu göstərir.

Babək qalasından II- XIV əsrlər ərzində müdafiə istehkamı kimi istifadə olunmuşdur.

Naxçıvanın bu dövrə aid möhtəşəm abidələrindən biri **Naxçıvanqala tarix-memarlıq kompleksidir.** Xalq arasında «Köhnəqala» adlanan Naxçıvanqala Antik və Orta əsr Naxçıvan şəhərinin qalıqlarıdır.

Z.Yampolskinin fikrinə görə şəhərin adı *naxçı* tayfa adı və məkan bildirən *van* şəkilçisinin birləşməsindən yaranmışdır. Hübşmanın yozumuna görə Naxçıvan sözü üç hissədən – *Nax* (Nuh), türk dillərində isim düzəldən şəkilçi olan *çı* şəkilçisi və türk dilində yer, məkan bildirən *van* toponimik formatından ibarət olub, *Nuhçuvan* – Nuhçuların (Nuh tərəfdarlarının) məskəni, *Nuhun diyarı* deməkdir. C. Cəfərov şəhərin adının türk mənşəli olub eramızdan əvvəl yarandığını və ilkin variantda dörd hissədən *ak + üç + eb + on* ibarət *Akçiban* (qədim türklərin, ağ asların – *oğuzların* adı) olması fərziyyəsini irəli sürmüşdür. Prof. A. Axundov isə Naxçıvan toponimini *elamlarla* əlaqələndirərək, onun elamların *Nahhunte* adlı tanrısının adı ilə bağlı *Nahhuntevan* olub, sonradan yerli türk əhali tərəfindən *Naxçıvan* şəklində tələffüz edilməsini ehtimal edir. E.ə. IX-VII əsrlərdə Naxçıvan müstəqil dövlət kimi Uurartulara qarşı mübarizə aparmış, VII əsrdə Skiflərin yürüşünə məruz qalmış, daha sonra Midiya dövlətinin tərkibinə daxil olmuşdur. E.ə. IV-I əsrlərdə Atropatena dövlətinin tərkibində olmuşdur. Erkən Orta əsrlərdə Sasani mərzbanlığının mərkəzinə çevrilən Naxçıvan inkişaf edərək böyümüşdür. Tarixçi – numizmat prof. Y. A. Poxomovun fikrincə, Sasani hökmdarlarının adından kəsilmiş *naxç* işarəli gümüş dirhəmlər Naxçıvan zərbxanasına məxsusdur. 625 – ci ildə Bizans imperatoru İraklinin yürüşü nəticəsində dağıdılan Atropatena – Adərbayqan şəhərlərindən biri də Naxçıvan olmuşdur. Orta əsr ərəb və fars dilli mənbələrdə şəhərin adı *Nəşavə, Nəqçuan (Nəxçuan, Nəxçuvan, Nəxçəvan)* şəkillərində işlənmişdir. Bir sıra qaynaqlarda Naxçıvan toponimi kimi təqdim edilən *Nəqşicahan* adı təşbeh olub, dünyanın bəzəyi mənasını bildirir. Orta əsrlər türk səyyah-tarixçisi Övliya Çələbi Naxçıvan şəhərinin əsasının Turan hökmdarı Əfrasiyab tərəfindən qoyulduğunu qeyd edir.

Orta əsr Naxçıvan şəhərinin Narınqala hissəsinin qalıqları hazırda şəhərin cənub-şərq hissəsində qalmaqdadır. O, iki hissədən – kiçik qala və böyük qaladan ibarətdir. Şəhərin adı ilk dəfə II əsrdə yunan coğrafiyaşünası K. Ptolomeyin "Coğrafiya" əsərində çəkilmişdir. Arxeoloji qazıntılar Naxçıvan şəhərində e.ə. II minilikdən yaşayış olduğunu təsdiq edir. Ilk orta əsrlərə aid mənbələrdə Naxçıvan şəhəri ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edilmişdir. Şəhərin böyük qala hissəsində küp qəbirlərin tapılması burada Antik dövrdə də həyatın olduğunu göstərir. Qalanın müasir dövrədək saxlanmış divarları Orta əsrlərə aiddir. Qala divarları daş qarışıq möhrədən inşa edilmiş, yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yaşayış binaları əsasən qala divarı boyunca salınmış, bir-birinə bitişik kvadratşəkilli otaqlardan ibarətdir. Bu binaların üst hissəsindən döyüşçülərin hərəkət etməsi üçün meydan kimi istifadə olunmuşdur. Bu xüsusiyyətlərə

görə Naxçıvan şəhərinin narınqalası Muxtar Respublikanın Tunc və Dəmir dövründə salınmış qalaları ilə oxşarlıq təşkil edir. Oğlanqala, Çalxanqala, Qazançı qala məhz belələrindəndir. Qalanın altından keçən kəhrizlər onun həm dinc vaxtlarda, həm də mühasirə zamanı su ilə təmin olunması üçün şərait yaratmışdır. Kəhrizin qalanın altından keçən qolları xeyli genişləndirilmişdir. Burda hətta at qoşulmuş arabalar da hərəkət edə bilər. Müşahidələrə əsasən demək olar ki, kəhrizlərdən həm də müdafiə məqsədi üçün istifadə edilmişdir. Kəhrizlər nəzərdən keçirilərkən həmçinin müxtəlif istiqamətlərdə yönəlmiş yeraltı dar yollar da aşkar edilmişdir. Şübhəsiz ki, bu yollar yerli hökmdarların və feodalların təhlükəsizliyini təmin etmək məqsədi daşımışdır.



Şəkil 77. Naxçıvanqala bərpadan əvvəl.

Eramızın ilk əsrlərində başlayaraq mühüm sənətkarlıq və mədəniyyət mərkəzi kimi dünyada tanınan Naxçıvan şəhəri, həm də inzibati-siyasi mərkəz rolunu oynamışdır. Şəhər X-XI əsrlərdə Naxçıvan şahlığının, XII əsrdə isə Eldənizlər dövlətinin paytaxtı olmuşdur. Sonrakı dövrlərdə də Naxçıvan inzibati mərkəz kimi öz əhəmiyyətini itirməmişdir. XVIII əsrin ortalarından başlayaraq şəhər Naxçıvan xanlığının mərkəzinə çevrilmişdir.

Antik və Orta əsr Naxçıvan şəhərinin əksər hissəsi müasir tikililərin altında qalmışdır. Vaxtilə aparılan tikinti işləri mədəni təbəqənin dağılmasına səbəb olmuşdur. Möminə Xatın türbəsi ətrafında aparılan tikinti

zamanı alınan kəsikdə təbəqənin qalınlığı 13 m olmuşdur. 1983-1991-ci illər ərzində aparılan tədqiqatlar zamanı şəhərin iqtisadi-mədəni həyatını əks etdirən zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qazıntı zamanı IX-XVII əsrləri əhatə edən üç mədəni təbəqə aşkar edilmişdir. Bu materiallar əsasən istehsal ocaqları, tikinti qalıqları, şirli və şirsiz keramikadan ibarətdir.

Naxçıvan Dövlət Universitetinin yerləşdiyi ərazidə aparılmış tədqiqatlar göstərdi ki, həm qədim dövrdə, həm də orta əsrlərdə bu sahə şəhərin tərkibində olmuşdur. Əliabad kəndi istiqamətində uzanıb gedən təpələrin zirvəsində qala divarları tikilmişdir. Tikinti materialları kimi möhrədən istifadə edilmişdir. Qala divarlarının planı strateji cəhətdən əlverişli təpənin zirvəsinə uyğundur. Çıxıntılar bir növü bürcləri əvəz etmişdir. Odur ki, ayrıca bürclərin tez-tez təkrar edilməsinə ehtiyac qalmamışdır. Qeyd edilən sahədə aşkar edilmiş divar qalıqlarının tikinti materialları içərisində arxeoloji tapıntılara tez-tez təsadüf edilir. Əsasən şirsiz saxsı məmulatından ibarət olan materiallar e.ə. II minilliyə aiddir. Qala divarları antik dövrdə və orta əsrlərdə dəfələrlə bərpa edildiyindən divarlarda həmin dövrlərin materiallarına da təsadüf edilir.

Naxçıvan şəhərində aparılmış arxeoloji qazıntılardan fauna və flora qalıqları da aşkar edilmişdir. Taxıl, şaftalı, ərik, gilənar, armud, alma tumlarının qalıqları Orta əsrlərdə Naxçıvanın flora və faunasını müəyyənləşdirməkdə qiymətli materiallardır. Aparılmış tədqiqatlar nəticəsində Naxçıvan şəhərinin keramikası ilə Zaqafqaziya, Orta Asiya və Yaxın Şərq keramikası arasında xeyli oxşar cəhətlər müəyyən edilmiş, bu ölkələrlə geniş iqtisadi-mədəni əlaqələr saxlanılması təsdiq olunmuşdur. Şəhər ərazisindən tapılmış seladon qablar bunu sübut edir. Naxçıvan şəhərinin kiçik qala hissəsindən aşkar olunmuş belə qablardan birinin üzərində Çin dilində yazıya təsadüf olunmuşdur.

Naxçıvan şəhərinin narınqalası XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuşdur. Lakin Səfəvi-Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmamışdır. Qala müdafiə əhəmiyyətini itirdikdən sonra burada mülki əhalinin həyatı müəyyən müddət davam etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixdə imzaladığı "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" sərəncam tarix və mədəniyyət abidələrimizin qorumaya alınması və təbiliğində mühüm bir addımdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri Vasif Talıbov demişdir: "Naxçıvan qədim tarixə malikdir. Milli sərvətlərimiz olan abidələrlə zəngin bir diyardır. Tale

bu torpaqdan öz səxavətini əsirgəməyib. Bu yurdun ən böyük sərvəti isə şübhısiz ki, onun dünyaya bəxş etdiyi böyük tarixi şəxsiyyət, bəşəriyyətin ikinci atası sayılan həzrəti Nuh peyğəmbərin də vətəni olmasıdır”.

# IV FƏSİL. NAXÇIVANIN IX-XV ƏSR ABİDƏLƏRİ

IX əsrdə Ərəb xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda müstəqil feodal dövlətlər yarandı. Bu dövrdə Naxçıvan əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətinin tərkibinə daxil olmuşdu. X əsrin 80-ci illərində Naxçıvanda yarımmüstəqil "Naxçıvanşahlıq" formalaşır. Bu feodal dövlətinin başında Düləfilər sülaləsinin nümayəndələri dururdu. Düləfilər tərəfindən idarə olunan Naxşıvan bir müddət Şəddadilərə tabe olmuş, 1064-cü ildə səlcuqlar tərəfindən tutulmuşdur. Naxçıvanın bu dövrə aid tarixi tarixi abidələrimizdə yaşamaqdadır. Bu dövrdə bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da mədəni yüksəliş olmuş, dünya mədəniyyətinin incisi sayılan memarlıq abidələri inşa edilmişdir. Belə abidələrimizdən biri Əlincəqaladır. Qalanın tikilmə tarixi Erkən Orta əsrlərə aid olsa da onun əsas fəaliyyət dövrü IX-XV əsrlərə aiddir. Əlincəqalanın tarixi Azərbaycanın Orta əsr tarixini özündə əks etdirməkdədir. Naxçıvanın mühüm strateji mövqeyi Orta əsrlədə bu ərazinin Teymuri, Qaraqoyunlu və Ağqoyunluların mübarizə meydanına çevrilməsinə səbəb olmuş, Əlincəqala isə bu mübarizələrin mərkəzində dayanmışdı.



Şəkil 78. Əlincəqalanın şərq girişi.

**Əlincəqala tarix-memarlıq kompleksi.** Əlincəqala Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biri hesab olunur.

Lakin son illər aparılan araşdırmalar zamanı Əlincəqalanın tarixinə aid yeni faktlar aşkar edilmişdir. Bu faktlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 11 fevral 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamın imzalanmasından sonra aşkar edilmişdir. Bu faktların bir qismi Əlincəqaladan tapılan VII əsrə aid mis və güşüş sikkələrlə bağlıdırsa, digər faktlar Əlincəqalanın memarlıq üslubu ilə bağlıdır.



Şəkil 79. Əlincəqalada su hovuzu.

Əlincəqalanın adı Orta əsr mənbələrində müxtəlif şəkildə xatırlanmışdır. Qalanın xatırlandığı ilk mənbə Kitabi Dədə Qorqud dastanıdır. Əlincə sözünün etimologiyası ilə də bağlı müxtəlif fikirlər söylənmişdir. Qalanı əyləncə sözü ilə bağlayanlar, alan tayfaları ilə əlaqəndirənlər, onun adının Alınca xanın adı ilə bağlı olduğunu söyləyənlər olmuşdur. Lakin son araşdırmalar qalanın adının əlincək tayfasının adı ilə bağlı olduğunu göstərmişdir. Əlincəqala teymurilərin hücumu zamanı güclü dağıntıya məruz qalsa da XIX əsrədək öz funksiyasını itirməmişdir.

Əlincəqala özünəməxsus təbiəti olan bu yerlərin əzəmətinin, mübarizliyinin rəmzidir. Qala, hər şeydən əvvəl özünün qeyri-adi görünüşü ilə insanı heyrətə gətirir. Əlincəqalanın divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qala divarlarının inşası üçün daşdan, bəzən isə bişmiş kərpicdən istifadə olunmuşdur. Divarların bünövrəsinə adətən iri yonulmuş daşlar qoyulmuşdur. Əlincəqalanın təsviri ilə bağlı müxtəlif məlumatlar verilmişdir. Bu məlumatlar bəzən anlaşılmaz olduğundan biz yeni təsvir vasitəsindən istifadə edəcəyik. Qalanın bəzən iki, bəzən isə üç qapısı olması ilə bağlı fikirlər vardır. Lakin şimal divarlardakı ehtimal olunan keçid tamamilə dağıldığından burada giriş olub olmadığını dəqiq müəyyən etmək mümkün deyil. Ehtimal ki, bu istiqamətdən də giriş olmuşdur. Çünki qala divarlarının xaricində bir neçə yerdə qalada qazılmış, əsgərlərin yerləşdiyi səkilərə rast gəlmək mümkündür.



Şəkil. 80. Əlincəqalanın şərq qapıları.

Şərq və qərb girişlər kifayət qədər yaxşı saxlanmışdır. Qalanın şərq qapısı Xanəgah kəndi tərəfdəndir. Ehtimal ki, bu qapı qalanın əsas girişi olmuşdur. Çünki bu istiqamətdə Əlincə dağının ətəyində böyük yaşayış yeri vardır. Şübhəsiz ki, qalanın müdafiəçilərinin bu yaşayış yeri ilə sıx əlaqəsi olmuşdur. Burada dördkünc formalı yaşayış binalarının qalıqları indi də

qalmaqdadır. Bu hissədə səkkiz müdafiə istehkamının qalıqları qalmaqdadır. Qalanın əsas su mənbələrindən olan üç quyulu böyük kəhriz də məhz buradadır.



Şəkil 81. Əlincəqalanın şərq qapısı bərpa zamanı.

Yamac boyunca səpələnən daş yığınları müdafiə divarlarının daha çox olduğunu göstərir. Bunu Mirheydərzadənin XX əsrin 30-cu illərində verdiyi məlumat da təsdiq edir. Onun verdiyi məlumata görə hər 20-25 addımdan bir müdafiə divarlarının qalıqlarına rast gəlinir. Əlincə dağının ətəyində yerləşən yaşayış yerini əhatə edən müdafiə divarının qalıqları hazırda qalmaqdadır. Eni, 2, 5 m olan divarlar bəzi yerlərdə 2-3 m hündürlükdə qalmışdır. Belə hesab edirik ki, bu divar Əlincəqalanın ilk müdafiə istehkamı olmuşdur. İri və orta həcmli daşlardan inşa olunan divarın

möhkəmləndirilməsi üçün düz bucaqlı çıxıntılardan istifadə olunmuşdur. Bu tip arxitektura üslubu qalanın, demək olar ki, əksər divarlarında vardır.

Qalanın zirvəsinə doğru iki tərəfdən sıldırım qayalarla qorunan dərə daraldığından müdafiə divarlarının uzunluğu azalmışdır. Dərə boyunca bir-birinin ardınca inşa olunan möhkəm divarlar vardır. Divarlar başlıca olaraq Əlincə dağının öz daşlarından inşa olunmuş, bərkidici məhlul olaraq əhəng məhlulundan istifadə olunmuşdur. Divarların çox aşınmaya məruz qalmasına baxmayaraq bəzi hissələrdə saxlanan arxitektura elementləri müdafiə divarlarının estetik görüntüsü haqqında təsəvvür yaradır. Bu qalıqlara əsasən deyə bilərik ki, divarlar inşa edildikdən yonra yaxşı yonulmuş daşlarla üzlənmişdir. Üzləmə məqsədilə daha çox müxtəlif həcmli kvadrat formalı daşlar seçilmişdir. Amma bəzən iri həcmli yonulmuş daşlardan da istifadə olunmuşdur. Bu hissədə olan divarlar başlıca olaraq düz, bəzən isə düzbucaqlı ziqzaq şəkilli əyilmələrdən ibarətdir.



Şəkil 82. Əlincəqala bərpa zamanı.

Bu istiqamətlə qalxarkən dağın şimal-şərq hissəsində qalanın müdafiəsi üçün təhlükə olan yerə əlavə müdafiə divarı çəkilmişdir. Burada yarımdairəvi bürclərin qalıqları da vardır. Ümumiyyətlə, Əlincəqalanın vüdafiə divarlarında yarımdairəvi bürclər çox azdır. Qalanın bu hissəsi bir-birinin yaxınlığında olan (2, 5 m) iki divarla möhkəmləndirilmiş, divarların arası yaşayış sahəsi kimi istifadə olunmuşdur. Bu tikintilərin yaxınlığında

həmçinin su hovuzlarının qalıqları vardır. Araşdırmalar göstərir ki, qalanın müdafiəsinin etibarlı olmasını təmin etmək üçün müdafiə divarları ilə yanaşı müdafiəçilərin su, ərzaq və sursatla təminatına xüsusi fikir verilmişdir.



Şəkil 83. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
Vasif Talıbov Əlincəqalada.

Qalanın şərq tərəfdə çəkilən sonuncu divarı giriş qapısının ətrafındadır. Bu divar sərt qayada açılmış oyuqlara söykənən, relyefə uyğun inşa edilən və heç bir arxitektura elementi olmayan düz divardan ibarətdir. Divarların yuxarısı qövsşəkilli sonluğu olan dördkünc dişlərlə bəzədilmişdir. Bu müdafiə divarı boyunca dördkünc formalı binalar inşa olunmuşdur. Binalar qalanın şərq qapısının müdafiəçiləri üçün nəzərdə tutulmuşdur. Müdafiə istehkamının yaxınlığında iki böyük su hovuzunun olması da bu qapının mühüm strateji əhəmiyyəti olduğunu təsdiq edir. Qalanın möhkəm divarları və qayanın sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirmişdir.

Əlincəqala əsasən üç geniş sahədən ibarət olmuşdur. Yuxarıda təsvir etdiyimiz sahə qalanın üç hissəsindən biri olmaqla yalnız müdafiə məqsədi daşımış və əskərlərin yerləşdiyi sahələrdən biri olmuşdur. Buradan qalanın mərkəzi hissəsinə yenmək üçün ayaq yerləri və pillələr düzəldilmişdir.



Şəkil 84. Əlincəqalada kəsilmiş mis pul (XIII əsr).

Qalanın kiçik şəhərciyi xatırladan mərkəzi hissəsində bişmiş kərpic və daşdan tikilmiş çoxlu yaşayış və ictimai binaların xarabalıqları və bünövrə daşları nəzərə çarpır. Qalanın ən böyük sahəsi olan bu hissədə yaşayış binaları və ictimai binaların qalıqları daha çoxdur. Təmir-bərba işləri zamanı binaların bəzisində axur qalıqlarının aşkar olunması binalardan bir qisminin heyvanların saxlanması məqsədilə istifadə olunduğunu göstərir. Binalarda təndir qalıqları, əl dəyirmanları da aşkar olunmuşdur. Qeyd edək ki, qaladakı su hovuzlarının böyük qismi məhz bu hissədədir ki, bu da mərkəzi hissədə əhalinin daha çox məskunlaşdığını göstərir. Mərkəzi hissəyə həmçinin qərb tərəfdə, Xanəgah-Qazançı yolu istiqamətindən qalxmaq mümkün olduğu üçün bu hissə də müdafiə divarları ilə möhkəmləndirilmişdir. Bu hissədə üç müdafiə divarının qalığı qeydə alınmışdır. Ehtimal ki, əvvəlki dövrlədə müdafiə istehkamlarının sayı daha çox olmuşdur.

Divarlar başlıca olaraq qaya parçalarından inşa olunmuş və yonulmuş daşlarla üzlənmişdir. Qalın divarlara yığışan suyun kənara çıxması üçün divarların müxtəlif hissəsində dördkünc formalı oyuqlar qoyulmuşdur ki, bunlar həm də divarların arxitektura bəzəyinə çevrilmişdir.

Qalanın qərb girişi dördkünc formalı bürclər və ziqzaq çıxıntılarla möhkəmləndirilmişdir. Divarlar başlıca olaraq daşdan, girişin yan tərəfləri isə bişmiş kərpicdən inşa olunmuşdur. Bu hissədə müdafiəni

möhkəmləndirmək üçün həmçinin labirintlərdən istifadə olunmuşdur. Bu hissədə qalanın üç müdafiə divarı olmuşdur.



Şəkil 85. Əlincəqaladan tapılan gümüş sikkə (VII əsr).

Dağın ən uca yerində Əlincənin iç qalası yerləşir. Bu içqalanı yerli əhali *"Şahtaxtı"* adlandırır. Buranın Şahtaxtı adlandırılması təsadüfi deyil. Tədqiqatçılar hökmdarların qalanın məhz bu hissəsində yerləşdiyini qeyd etmişlər. Şahtaxtı dəniz səviyyəsində 1700 m yüksəklikdə yerləşir. Mərkəzi hissədən Şahtaxtıya yalnız sıldırım qayalıqdan keçərək getmək mümkündür. Vaxtilə keçidi asanlaşdırmaq üçün qayada eni 30-40 sm olan dar cığır yonulmuşdu. Hazırda bu cıxır təbii aşınmaya məruz qalaraq dağılmışdır. Hakimlərin, o cümlədən Eldəniz hökmdarlarının sarayları Şahtaxtı terrasında yerləşmişdir. Əlincənin qala divarları və qalanın daxilində olan tikililərdə yüksək tikinti mədəniyyəti görünür, qala tikintisi üçün qeyri – adi sayılan incə işlənmiş daş ayrıntılar gözə dəyir. Məhz bu səbəbdən də mütəxəssislər Əlincəqalanın Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl əsərlərindən biri hesab edirlər.

Əlincəqala Azərbaycanın və Yaxın Şərqin yüzillərlə müxtəlif hakim sülalələrinə qulluq göstərsə də tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamətgahı və xəzinə yeri kimi tanınmışdır. Azərbaycan atabəyləri–Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. Naxçıvan hakimi Zahidə xatının iqamətgahı Əlincəqalada olmuşdur. 1225-ci ildə Xarəzmşah Cəlaləddinin Azərbaycana hücumu zamanı Eldəniz hökmdarı Özbək (1210-1225) Əlincəqalaya sığınmış və burada vəfat etmişdir. Şəmsəddin Eldənizin hakimiyyət illərindən başlayaraq Atabəylər dövlətinin baş xəzinəsi Əlincəqalanda saxlanmış, Əlincədəki saraylar və yardımçı binaların bir çoxu Azərbaycan Atabəylərinin sifarişi ilə bərpa edilmişdir. İndiyə qədər qalıqları qalan Əlincəqalada uzun müddətli hücumlara dözüm üçün hərbi-strateji və maddi-iqtisadi imkanların olduğu aydın görünür.



Şəkil 86. Əlincəqalanın gecə görüntüsü.

Şahtaxtını şimaldan müdafiə etmək üçün üç müdafiə istehkamı inşa edilmişdir. Birinci müdafiə istehkamı, şimalda, Qazançı kəndi istiqamətindədir. Daşdan inşa edilən divarlar başlıca olaraq əhəng məhlulu, bəzən isə palçıqla möhkəmləndirilmişdir. Divarların hündürlüyü bəzi yerlərdə 4-5 m-ə çatır. Divarın qərb qurtaracağı dördkünc formalı bürclə

möhkəmləndirilmişdir. Bu divarın ətrafında yaşayış binaları yoxdur. Ehtimal ki, dördkünc formalı bürc həmçinin əsgərlərin yaşayış sahəsi kimi istifadə olunmuşdur. Qala divarının xaricində əsgərlərin durması üçün səkilər düzəldilmişdir. Bu divardan Şahtaxtıya doğru, sərt qayaların üzəri ilə, ensiz yol düzəldilmişdir.



Şəkil 87. Əlincəqala bərpadan sonra.

İkinci müdafiə sistemi şimal-şərqdə, Xanəgah kəndi istiqamətindədir. Burada qalaya qalxmaq çox çətin olsa da, qalanın müdafiəçiləri ehtiyyatı əldən verməyərək buranı divarla möhkəmləndirmişlər. Divarların hörgüsündə yenə də daş və əhəng məhlulu istifadə olunmuşdur. Bu divar yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir.

Üçüncü divar Şahtaxtının ictimai binalarını əhatə etmiş, binalarla su hovuzunun arasında inşa olunmuşdur. Qeyd edək ki, Şahtaxtıda dörd böyük hovuza rast gəlinmişdir ki, onların biri öz həcminə görə Əlincəqalanın ən böyük hovusu hesab olunur. Onun uzunluğu 25 m-dir. Şahtaxtıdakı binaların tikintisində bişmiş kərpicdən daha çox istifadə olunmuşdur. Burdakı böyük və kiçik otaqlar dar keçid vasitəsi ilə bir-biri ilə əlaqələndirilmişdir.

El içində qaladan Əlincəçaya gizli yolun olması da söylənilir. Bu haqda Fuad Köprülünün də əsərində məlumat verilir. Araşdırmalar göstərir ki, Əlincəqalanın özünəməxsus müdafiə sistemi bütün mövsümlərdə burada yaşamağa imkan vermişdi.




Şəkil 88. Əlincəqalada müasir kitabə.

Əlincəqalanın memarlıq xüsusiyyətləri onun VI əsrlə müəyyənləşdirilən tarixinin həqiqətə uyğun olduğunu göstərir. Yuxarıda qeyd etdiyimiz kimi, Əlincəqalada düzbucaqlı bürclər və düzbucaqlı çıxıntıları olan divarlar, həmçinin yonulmuş daşlardan istifadə üstünlük təşkil edir. Bu memarlıq üslubu Naxçıvanda qədim dövrdən məlum olmaqla, Qazançıqala, Vayxırqala və Oğlanqalada geniş tətbiq edilmişdir. Bu memarlıq üslubu, Erkən Orta əsrlərə aid Dərbənd və Bayburt qalalarında da müşahidə olunur. Dərbənd mənbələrdə I əsrdən xatırlansa da müdafiə divarları hələlik VI əsrə aid edilir. Əlincəqalanın memarlığında isə Sasani dövrünün ənənələri aydınca hiss edilir. Bu xüsusiyyətlər xüsusilə Xanəgah kəndi istiqamətində inşa olunan divarlarda görünməkdədir. Bu memarlıq üslubunun bənzərlərinə Cənubi Azərbaycan ərazisində rast gəlinmişdir. Son tədqiqatlar zamanı Əlincəqaladan VII əsrdə zərb edilən sikkələrin tapılması onun qədim tarixini bir daha sübut edir. Əgər VII əsrdə Əlincəqalanın Mərkəzi Asiya ölkələri ilə əlaqələri olmuşdursa, deməli onun tikilmə tarixi daha qədim dövrə aiddir. Yəqin ki, gələcək araşdırmalar Əlincəqalanın tarixi ilə bağlı yeni faktların aşkar olunması ilə nəticələnəcəkdir.

Araşdırmalar göstərir ki, Əlincəqalanın müdafiəsini təmin etmək üçün müxtəlif hidrotexniki qurğulardan istifadə olunmuşdur. Onlar başlıca olaraq su hovuzları və kəhrizlərdən ibarətdir. Hovuzlara su qayada çapılmış kanallar vasitəsilə gətirilmişdir. Qayada relyefə uyğun olaraq qazılan kiçik kanallar yağmurlu havada yağan yağış sularının toplanmasına imkan verir. Həcmcə olduqca böyük olan su hovuzları qala sakinlərinin uzun müddət suya olan tələbatını ödəmişdir.

**Yusif Küseyir oğlu türbəsi** Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biri olan bu türbə Naxçıvan şəhərində yerləşir. Türbə yeraltı və yerüstü hissələrdən ibarət olub, hər iki hissədə səkkizbucaqlı formada inşa edilmişdir. Türbə konstruktiv həllinin harmoniyası və gözəlliyi ilə diqqəti cəlb edir. Türbənin sərdabəsi yuxarıda yastı olan günbəzlə örtülmüşdür. Türbənin yerüstü hissəsi içəridən çatmatağ şəkilli sferik günbəzlə tamamlanır. Xaricdən prizmatik gövdəyə malik olan türbə səkkiz üzlü piramidal örtüklə tamamlanmışdır. Həm içəridən, həm də xaricdən bişmiş kərpiclə üzlənmişdir.

Sərdabənin divarları  ilə günbəz arasında kiçik çıxıntılar vardır. Sərdabə günbəzinin təpəsi kəsilmiş səkkizbucaqlı fiqurla tamamlanır. Türbənin yuxarı kamerasının döşəməsində düzəldilmiş səkkizbucaqlı deşik, onun altında yerləşən sərdabəyə açılır.

Türbənin qülləsi səkkibucaqlı formasında olub künclərdə qalın dayaqlar şəklində işlənmiş, dayaqlar arasında dördkünc formalı taxçalar yaradılmışdır ki, bu da türbənin xarici görünüşünə özünəməxsus görkəm vermişdir. Qüllavari hissənin bu tip konstruktiv həlli onun dayanıqlığını və uzunömürlülüyünü artırmışdır.

Türbənin xarici səthinin hər biri müxtəlif şəkilli həndəsi ornamentlərlə bəzədilmişdir. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, sonra gəc məhlulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində möhkəmləndirilmişdir. Quruluşu etibarı ilə türbənin qərb tərəfə baxan səthi fərqli şəkildə həll edilmiş və burada türbənin giriş qapısı yerləşdirilmişdir. Çatmatağ şəkilli bu qapının üzərindəkii kitabə bildirir ki, "Bu türbə xacə, sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayında (miladi 1162) tikildiyini də bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir" şəklində türbənin memarının adı qeyd olunmuşdur.



Şəkil 89. Yusif Küseyir oğlu türbəsi.

Yusif Küseyir oğlu türbəsinin dazili səthi bəzədilməmiş, xarici səthi isə kərpicdən yığılmış sıx həndəsi naxışlarla üzlənmişdir. Türbənin səthləri ilə piramidal örtüyü arasında yaranan qurşaqda kufi xətti ilə yazılmış kitabə yerləşdirilmişdir. Dekorativliyi ilə seçilən bu kitabə zolağı gövdə ilə örtük arasında yüngül bir keçid yaradır. Kitabənin hərfləri 20 x 20 x 4 sm ölçülü kərpiclərdən düzəldilmişdir. Yazılar  friz müstəvisindən 2 sm irəli çıxaraq xüsusi effekt yaratmışdır.

Memar tağçaların içərisini də naxış kompozisiyaları ilə yüngülləşdirmiş, künclərin vertikal ritmini, konstruktiv dəyərini artırmışdır.

Bişmiş kərpiclə işlənən türbənin xarici səthlərində mürəkkəb kompozisiyalı həndəsi ornamentlərdən geniş istifadə olunsada, kərpiclərin bir rəngli olması onun görkəminə sadəlik vermiş, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirmiş, ifadəli kolorit vermişdir. Prizmatik gövdə, piramidal günbəz, girinti-çıxıntıları üzlər, onları tamalayan horizontal friz bol kölgə - işıq effekti yaradaraq abidənin baxımlığını artırmışdır.

Yusif ibn Küseyr məqbərəsinin bəzəklərində şirli kərpiclərdən istifadə olunmamışdır. Bu abidədə yazılar müxtəlif ölçülü kərpiclərin hörgüyə düzülüşü nəticəsində əldə edilmişdir.



Şəkil 90. Möminə xatın türbəsi.

**Möminə xatın türbəsi** Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri, Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biridir. Türbə Naxçıvan şəhərində yerləşir.

Türbənin kitabəsində: *"...bu türbəni dünyanın elmli, adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl islam və əl müslimin Məhəmməd Cahan Pəhləvan /Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz ...dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!..."* yazılmışdır.



Şəkil 91. Möminə xatın türbəsinin qoşa minarəli baştağı.

Tədqiqatçı Ə. Ə. Ələsgərzadə baştağın üzərindəki çərçivədə abidənin tikilmə tarixinin "məhərrəm 582" (miladi 1186)–cı il olduğunu müəyyən etmişdir. Vaxtilə türbə yaxınlığında olmuş baştağın kitabəsindəki məlumata və tarixi qaynaqlara görə belə bir nəticəyə gəlinmişdir ki, *"...türbə Məhəmməd Cahan Pəhləvanın ölümündən bir az öncə bitmiş, baştağ isə onun ölümündən sonra tikilmişdir. Şübhəsiz ki, Məhəmməd Cahan Pəhləvanın özü də bu türbədə dəfn edilmişdir".* Tədqiqatçı Cəfər Qiyasi bu fikrə onu da əlavə edir ki, yerli əhali arasında abidənin "Atabəy Günbəzi" adlandırılması türbənin Atabəylərin soy türbəsi olduğuna işarədir.



Şəkil 92. Möminə xatın kompleksinə daxil olan məscid.

Möminə xatın türbəsinin ümumi quruluşu Naxçıvan memarlıq məktəbi üçün xarakterikdir. Türbə yeraltı sərdabə və yerüstü qülləvari hissədən ibarətdir. Yusif Küseyir oğlu türbəsi ilə müqayisədə memar bu türbənin xarici bəzəyində həndəsi ornamentlərin daha mürəkkəb kompozisiyasından istifadə etmişdir. Ornamentlərdə rəngli kaşılardan istifadə edilməsi türbənin zahiri görünüşünə daha xoş görkəm vermişdir.

XIX əsrə və XX əsr əvvəllərinə aid rəsm və fotoşəkillər onun vaxtilə böyük bir memarlıq ansamblının tərkib hissəsi olduğunu təsdiq edir. Türbə orta həcmli daşlardan inşa olunmuş, bişmiş kərpiclə üzlənmişdir.



Şəkil 93. Möminə xatın türbəsinin kərpic bəzyi.

Türbənin sərdabəsi planda onbucaqlıdır. Sərdabə yuxarıya doğru daralan çatmatağlarla tamamlanmışdır. Tağlar sərdabənin ortasında inşa edilən qalın onüzlü dayağa söykənmişdir ki, bu da sərdabənin örtüyünü daha da dayanıqlı etmişdir.

Göbələkvari dayağın gözəlliyini və işlənmə effektini daha da artırmaq məqsədi ilə memar onun tinlərindən qarşı künclərə kərpic qabırğalar – nervürlər atmışdır. Bu qabırğalar ulduzvari karkas yaratmışdır. Bu karkas da biçimcə abidəni bəzəyən və riyazi ahəngdarlığa əsaslanan naxış quruluşları ilə bir köklüdür. Karkasların araları saya naxışlı kərpic hörgüsü ilə üzləndiyindən konstruksiyanın tektonik gözəlliyi daha aydın duyulur.

Türbənin yerüstü hissəsi xaricdə onbucaqlı, içəridə isə dairəvidir. Sərdabə və xarici üzlərdən fərli olaraq, Əcəmi qüllənin iç tərəfində mürəkkəblikdən uzaq olmuş, sayalığa və bütövlüyə üstünlük vermişdir. İç məkanın uca silindrik tutumu sferik günbəzlə örtülmüşdür.

Türbənin kürsülüyü gövdəsi kimi onüzlü şəkildə olub, cilalanmış iri daş bloklarla üzlənmişdir. Türbənin gövdəsi yuxarıda piramidal örtüklə tamamlanmışdır. Lakin bu örtük hazırda qalmamışdır. Indiki halda türbənin yerüstü hissəsinin hündürlüyü 25 metrə yaxındır. Vaxtilə piramidal örtüklə birlikdə hündürlüyü 35 metr olmuşdur.

Onüzlü gövdənin qalın künc dayaqları bir qədər irəli çıxmış və dərin düzbucaqlı taxçalar yaratmışdır. Taxçaların üst hissəsi tağvari formada stalaktitlərlə tamamlanmışdır.



Şəkil 94. Möminə xatın türbəsinin kərpic bəzyi.

Stalaktit və tağlar adi və kaşılı kərpicdən düzəldilən ornamentlərlə örtülmüşdür. Türbənin üzərində kitabələrdən ibarət memarlıq bəzək elementləri diqqəti cəlb edir. Kərpicdən yığılan kitabə türbənin görkəminə xüsusi gözəllik vermişdir. Ə. Ələsgərzadənin fikrinə görə onüzlü türbənin bütün üzləri yuxarıda Yasin surəsinin mətni ilə haşiyələnmişdir. İki dəfə təkrar olunan bu surə, bir dəfə bir üzdən beşinci üzə, ikinci dəfə altıncı

üzdən onuncu üzədək davam edir. Yasin surəsi ilə haşiyələnmiş taxçalar lap yuxarıda başqa bir yazı qurşağı ilə əhatə olunmuşdur. Bu, kaşı ilə işlənmiş 97 sm hündürlüyündə olan bu kitabə türbənin sifarişçisini və kimin xatirəsinə inşa edilməsini göstərən əsas kitabədir. Kitabəli frizin arxasınca türbənin tamamlayıcı çadırına keçid üç cərgədə yerləşdirilmiş stalaktitlə həll edilmişdir.



Şəkil 95. Türbənin giriş qapısı üzərindəki kitabələr.

Giriş qapısı türbənin şərq tərəfində yerləşdirilmişdir. Giriş qapısı dayaz sivri tağça içərisinə salınmış, onun üstündə kərpicdən kufi xətti ilə *"Bənna Əcəmi Əbu Əkr oğlu"* kitabəsi yığılmışdır. Baştağ kompozisiyasının üstündə, tinləri birləşdirən düzbucaqlı çərçivədə eyni xəttlə türbənin tikinti tarixi yazılmışdır (1186).



Şəkil 96. Türbənin bəzəmə motivindən nümunələr.

Türbənin xarici səthi həndəsi ornamentlə naxışlanmışdır. Möminə Xatun türbəsinin on səthinin doqquz tağçasının şəkilləri bir-birindən tamamilə fərqlənən həndəsi ornamentlərə malikdir. Türbənin giriş qapısı olan onuncu səthin tağçasında doqquz səthdən birinin ornamentləri təkrar edilmişdir. Ornamentlər başlıca olaraq kərpicdən və firuzəyi kaşılardan yığılmışdır. Ornamentlərin əsasında çoxguşəli ulduzlar və çoxbucaqlılar durur. Memar müxtəlif ornamentləri bir-biri ilə əlaqələndirərək ahəngdarlıq yarada bilmişdir.

Türbənin yerüstü hissəsinin içəri tərəfi zəngin dekorativ bəzəkdən mərum olmaqla başlıca olaraq sadədir. İş tərəfdə 20 m hündürlükdə yerləşən kitabə qurşağı və dör ədəd böyük ölçülü medalyon vardır. Medalyonlar gəc

üzərində oyma üsulu ilə işlənmiş həndəsi və bitki ornamentlərindən ibarətdir. Özünəməxsus kompozisiyada işlənən medalyonların özəyinin "Allah" sözü təşkil edir. Bu özəyin ətrafında çoxguşəli ulduzların arasında Ömər, Osman, Əli sözləri yazılmışdır.

**Culfa karvansarası** Culfa rayonunun Gülüstan kəndində, Araz çayının sol sahilindədir. Culfa (Gülüstan) karvansarasının qalıqları 1974-cü ildə çöl-tədqiqat işləri zamanı aşkar edilmiş, 1978-ci ildə binanın planı tam üzə çıxarılmışdır.



Şəkil 97. Culfa karvansarası.

Bakı-Culfa dəmiryolu xətti çəkilərkən (1939-1940) karvansaranın təqribən yarısı dağılmışdır. Tədqiqatlar nəticəsində Culfa karvansarasının Azərbaycanda yolüstü karvansaralar içərisində ən görkəmli və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir. Ümumi uzunluğu 37 m olan Culfa karvansarasının eyni tipi Araz çayının sağ sahilində, demək olar ki, bütünlüklə salamat qalmışdır. Karvansaraların hər iki sahildə üzbəüz yerləşməsi hələ Araz çayı üzərində körpü tikilməzdən əvvəl burada çay bərəsinin işlədiyini göstərir və karvansaraların tikilmə dövrünü XIII əsrin əvvəllərinə aparıb çıxarır. Karvansara çaydaşıdan tikilmiş və gəc məhlulu ilə

suvanmışdır. Culfa karvansarasının içərisində çoxlu yaşayış otaqları vardır. Bəzi otaqların örtük hissəsi maraqlı konstruksiyaya malikdir. Binanın şimal tərəfində sağ və solda tağ formasında dərin divar oyuqları olan böyük zal mövcuddur. Bu zal haqqında qəti fikir söyləmək çətindir. Lakin belə plan quruluşuna malik köhnə məscidlər də məlumdur.



Şəkil 98. Möminə xatın türbəsinin sərdabəsi.

**Qarabağlar Türbə Kompleksi.** Naxçıvan Muxtar Respublikasında yerləşən tarix və mədəniyyət abidələr yalnız Azərbaycan tarixi üçün deyil, həm də Yaxın Şərq və Cənubi Qafqaz tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. Muxtar respublikamızdakı bir çox tarixi abidələr dünyada bənzəri olmayan mədəniyyət inciləridir. Belə mədəniyyət incilərindən biri də Qarabağlar Türbə Kompleksidir. 4 iyul 2016-cı ildə Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı qüvvəyə minmişdir.



Şəkil 99. Qarabağlar türbəsi.

Qarabağlar Türbə Kompleksi Orta əsr Azərbaycan memarlığının nadir sənət əsərlərindəndir. Şübhəsiz ki, belə mədəniyyət inciləri birdən birə yaranmamış, mədəni inkişafımızın təkamülünün nəticəsi olmuşdur. Araşdırmalara əsaslanaraq demək olar ki, nadir konstruksiyalı memarlıq abidələri Naxçıvanda hələ Eneolit və Tunc dövründən başlayaraq inşa olunmuşdur. Tədqiqatlar göstərir ki, Kəngərli rayonunun ərazisi, o cümlədən Qarabağlar kəndi Azərbaycanın dünya əhəmiyyətli tarix-mədəniyyət abidələrinin qruplaşdığı əsas regionlardan biridir.

Qarabağlar kəndinin ərazisində aşkar olunan ən qədim abidələr hələlik Eneolit dövrünə aid olsa da, burada daha qədim abidələrin aşkar olunacağı gözlənilir. E.ə. III minillikdən başlayaraq Qarabağlar kəndində qala tipli yaşayış məskənləri formalaşmışdır. Hazırda bu kəndin ərazisində I Bəzəkli, II Bəzəkli, Qalacıq, Qarabağlar qalası, I Suzqunlar, II Suzqunlar qalası adı ilə qeydə alınan müdafiə istehkamları mövcuddur. Bu abidələrin

tədqiqi Orta Tunc dövründən başlayaraq Qarabağlarda memarlıq sənətinin inkişaf etdiyini təsdiq edir.



Şəkil 100. Qarabağlar türbəsinin qoşa minarəli baştağı.

Tarixi mənbələrin verdiyi məlumata görə, Qarabağlar Orta əsrlərdə Azərbaycanın əsas şəhərlərindən biri, mühüm ticarət və sənətkarlıq mərkəzi olub. Qarabağlar ətrafında böyük Orta əsr yaşayış yerlərinin, karvansarayların aşkar olunması onun tarixi ipək yolunun üzərində yerləşməsi ilə bağlı olmuşdur. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdi. Şəhər, adından da göründüyü kimi çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü. Bəzi mənbələrin məlumatlarına görə şəhərin əsasını XII əsrdə Şirvanşah Mənuçöhr tərəfindən qoyulub. Şəhərin Elxanilər dövründə (1256 – 1353) salınıb inkişaf etməsi ilə də bağlı məlumatlar vardır. Maraqlıdır ki, Qarabağlar türbəsinin də tikilməsi həmin dövrə təsadüf edir.

Türbənin Qarabağlar kəndində tikilməsi, şübhəsiz ki, bu kəndin Elxanilər dövlətinin mühüm iqtisadi-mədəni mərkəzlərindən biri olduğunu göstərir. Tarixi mənbələrdən məlumdur ki, qədim dövrdən başlayaraq Orta əsrlərədək Orta Asiyada yaşayan türk tayfalarının Azərbaycana axınları

davam etmişdi. XIII əsrdə monqollarla birgə hərəkət edən türk tayfalarının böyük bir qismi Azərbaycanda məskunlaşmışdı. Tədqiqatçıların fikrinə görə, "Qarabağlar" sözü qədim türk tayfası olan kəngərlərin bir qolunun adı ilə bağlı olub. X əsr müəllifi Konstantinin Sibirdə yaşayan kəngərlərin bir tayfasının "qarabay" adlandığını qeyd edib. Beləliklə, Qarabağlar tayfası Kəngərlərin bir qolu hesab edilir. Bu tayfaların Azərbaycan xalqının formalaşmasında böyük rolu olub.



Şəkil 101. Qarabağlar türbəsinin sərdabəsi.

Evliya Çələbi "Səyahətnamə" əsərində Qarabağlar kəndini belə təsvir edir: "Bu şəhərin özülünü Mənüçöhr qoyub. Şəhər çox qədimdir. İndi Naxçıvan torpağında ayrıca sultanlıq təşkil edir. III Mehmet zamanında Türklərin əlindən çıxaraq farsların ixtiyarına keçib. Əmir Teymur Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlağa qalıb. Şəhər çox abaddır, ətrafında ucsuz – bucaqsız münbit düzənlik yerləşir. Bizim xidmətçilər şəhərin içində 40-a qədər minarə sayıblar. Şükür Allaha, bu şəhərdə iqlimin və suyun yaxşılığı bizim əhvalımızı qaydaya saldı. Deyilənlərə görə, burada bağı və üzümlükləri olan 10 000-ə qədər ev, 70 mehrab, minarəli 40 cami var. Karvansaray, hamam və bazarlar da çoxdur. Onların sayı artmaqda davam edir. Bura bolluq diyarıdır. Şəhərdə gəzərkən bir bağban bizə 25 çeşid dadlı armud gətirdi. Bunları yeyərkən ağzında dondurma hiss edirsən. Yaqut rəngli nar yetişir. İrəvan düyüsündən bişirilən plov çox dadlıdır".



Şəkil 102. Qarabağlar türbəsində təkrarlanan kitabə.

Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı bas tağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Mütəxəssislər qoşa minarələrin XII-XIII əsrlərdə, baş tağın isə XIV əsrdə tikildiyini qeyd etmişlər. Qoşa minarələrin və baş tağın müxtəlif dövrlərə aid olması onların tikinti texnikasından da aydın görülür. Baş tağın minarələrə sonradan əlavə edildiyi aydın şəkildə seçilir. "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti "nin elmi katibi M. Mirheydərzadənin fikrinə görə, qoşa minarəli baş tağın üzərində ərəb dilində "Allahın bu nişanəsi türkmən Quti xatındır" sözləri yazılmışdır. Bəzi əsərlərdə Quti xatının Hülaku xanın arvadı olduğu

qeyd edilmişdir. Lakin tədqiqatçıların fikrinə görə baş tağda adı xatırlanan Qudi xatın, yaxud Qoday xatın, ola bilsin ki, Abaqa xanın (1265-1282) arvadı olmuş Qoday xatındır. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə türbənin tikilmə tarixi Elxani hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyət illərinə (1319-1335-cu illər) aid edilir. Son araşdırmalar Qarabağlar türbəsinin Qudi xatının əmri ilə tikildiyini deməyə imkan verir.

Qarabağlar türbəsi sərdabə və yerüstü xatirə abidəsindən ibarətdir. Sərdabə on iki bucaqlı olub divarları daşdan, günbəzi isə kərpicdən inşa edilmişdir. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarım silindrdən ibarətdir. Türbənin səthi firuzəyi rəngli kaşılarla həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Yarım silindrlərin üzərində içərisində ərəb əlifbası ilə*"lə iləhə illəllah Məhəmmədən Rəsulallah" (Allahdan başqa Allah yoxdur, Məhəmməd (s.ə.v.) onun rəsuludur)"* kəliməsi həkk edilən kvadratlar dəfələrlə təkrar olunmuşdur. Bu tip ornamentdən 1322-ci ildə inşa olunan Bərdə türbəsində də istifadə olunmuşdur. Elə buna görə də bəzi tədqiqatçılar Qarabağlar türbəsi ilə Bərdə türbəsinin memarının eyni şəxs olduğunu qeyd etmişlər. Lakin qeyd etməliyik ki, Qarabağlar türbəsi konstruksiyasının ilə fərqlənir. Türbəbin özünəməxsus memarlıq xüsusiyyətlərindən biri 4 baş tağlı olmasıdır. Bu baş tağlar şimal, cənub, qərb və şərq istiqamətlərinə, dünyanın dörd tərəfinə yönəlmiş və türbənin görünüşünün mükəmməlliyini təmin etmişdir. Ehtimal ki, türbənin dörd baş tağlı quruluşu əski inanclarla bağlı olmuşdur. Baş tağların səthi kaşılar vasitəsi ilə həndəsi və nəbati üslubda naxışlanmışdır. Türbənin gövdəsini təşkil edən yarım silindrlərin yuxarı hissəsində kaşılarla işlənmiş kitabələrin qalıqları saxlanmışdır. Ehtimal ki, bu kitabələr Qurani Kərimdən götürülmüş kəlmələrdir. Memarlıq abidələrində və qəbirüstü monumental tikintilərdə bu tip kitabələrə rast gəlinir. Qarabağlar türbəsi konusvari örtüyə sahib olmuşdur. Mütəxəssislərin fikrinə görə bu örtük türbənin quruluşuna uyğun olaraq on iki yarım silindrin birləşməsi şəklində olmuşdur.

**Gilan şəhərinin xarabalıqları.** Ordubad rayonu ərazisində yerləşən şəhər, Gilançayın sol sahilində 100 hektardan artıq sahəni əhatə edir. Şəhər narınqala və onu əhatə edən məhəllələrdən ibarətdir. Həm narınqala, həm də məhəllələr daşdan inşa olunmuş müdafiə divarı ilə əhatə olunmuşdur. Qala divarları dairəvi və dördkünc bürclərlə möhkəmləndirilmişdir. Arxeoloji tədqiqatlar zamanı şəhərin ərazisində karvansara, su hovuzları və sərdabələrin qalıqları aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, şəhərin içərisindən keçən çayın kənarları daşla hörülərək düzəldilmişdir. Şəhərin xarabalıqlarından su tünglərinin qalıqlarına rastlanması vaxtilə su

təchizatının təmin edildiyini göstərir. Lakin yağış sularını yığmaq üçün düzəldilən hovuzlar su təchizatında müəyyən çətinliklər olduğunu göstərir. Ehtimal ki, şəhərin tərk edilməsinin əsas səbəblərindən biri su sisteminin pozulması olmuşdur. Maddi-mədəniyyət qalıqlarının tədqiqi şəhərin əsasının e.ə. V-IV əsrlərdə qoyulduğunu deməyə əsas verir. Orta əsrlərdə, xüsusilə XII-XIV əsrlərdə şəhər mühüm ticarət və sənətkarlıq mərkəzi olmuşdur. Tədqiqatlar zamanı yaşayış yerindən şirli və şirsiz keramika məmulatı əldə edilmişdir.



Şəkil 103. Gilan türbəsi.

**Gilan türbələri.** Ordubad rayonunda Gilan şəhərinin xarabalıqlarında onlarla türbə vardır. Türbələr hazırda yarımdağılmış vəziyyətdədir. Onların biri 1979-cu ildə aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. Gilan türbəsinin sərdabəsi Azərbaycan və qonşu ölkələrin Orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvari, yuxarıya doğru genişlənən sütuna dayanır. Sütun da planda səkkizbucaqlıdır. Buna bənzər mərkəzi dayaq sütunu Azərbaycan ərazisində indiyədək yalnız iki abidədən-Marağadakı

Qırmızı günbəz (1148) və Naxçıvandakı Möminə xatın (1186) türbələrinin sərdabələrindən bəllidir.



Şəkil 104. Gilan türbəsinin sərdabəsi.

Gilan türbəsi Marağa-Naxçıvan memarlıq məkanında olmasına baxmayaraq, memarlıq quruluşu, konstruksiya baxımından Şərqi Anadolunun (Türkiyə), Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsinin (XII əsrin əvvəlləri) alt qatı ilə, demək olar ki, eynidir. Hər iki sərdabənin həcmi və hündürlüyü də bir-birinə çox yaxındır. Kemahdakı türbənin də Marağa-Naxçıvan memarlıq məktəbi nümayəndəsi tərəfindən tikilməsi ehtimal edilir. Çünki həmin illərdə Menqucuqların əsas tikililərini iki azərbaycanlı memar yerinə yetirirdi. Onlardan birinin - memar Əhməd Əbubəkr oğlu Mərəndinin Sivasda ucaltdığı Keykavus türbəsi görünüşcə Gilan və Kemah türbələrinə bənzərdir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. İnteryerdə tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın

hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bütövlükdə, sərdabə interyerinin ifadəliliyi biçimlərin təmiz həcm quruluşuna əsaslanır, estetik tələblərə uğurla cavab verməklə fəzalı plastik arxitektonikası ilə gözəl təsir bağışlayır. Bayırda sərdabə qatının üstündə kubvarı tutumlu gövdə ucaldılmışdır. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gövdənin künclərini silindrik kərpic sütunlar qapayırmış. Sütunlardan birinin alt bölümü qalmışdır. Bəzək işlərində göy rəngli kaşı lövhələr də işlədilmişdir. Gilan türbəsinin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin XII əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

**Gülüstan türbəsi.** XIII əsr Azərbaycan memarlığının ən maraqlı nümunələrindən biri olan Gülüstan türbəsi Culfa şəhəri yaxınlığında yerləşir. Naxçıvan memarlıq məktəbinin digər nümunələrindən fərqli olaraq Gülüstan türbəsi daşdan inşa olunmuşdur. Qeyd edək ki, daşla inşa olunmuş memarlıq abidələri Naxçıvanda çoxdur. Daş başlıca olaraq qalaların və körpülərin inşasında istifadə olunmuşdu. Görünür bu daşa dekorativ görkəm verməyin çətinliyi ilə bağlı olmuşdur. Lakin buna baxmayaraq Orta əsr Naxçıvan ustaları Gülüstan türbəsinin timsalında daş üzərində oyma sənətinin ən mükəmməl nümunəsini yarada bilmişlər. Üstündə kitabəsi qalmadığından türbənin tikilmə tarixi, sifarişçisi, kimin şərəfinə tikilməsi və memarı bilinmir. Mütəxəssislər türbəni üslubi xüsusiyyətlərinə görə XIII əsrin başlanğıcına aid edirlər.

Gülüstan türbəsinin özünəməxsus xüsusiyyətlərindən biri sərdabənin yerin üstündə inşa edilməsidir. Ehtimal ki, bu yeraltı suların sərdabəyə daxil olmasının qarşısını almaq məqsədilə edilmişdir.

Əcəmi yaradıcılığının bilavasitə təsiri ilə yaranan bu abidə özünəməxsus arxitekturası və zahiri ornamentlərinin orijinallığı ilə seçilir. Türbə qırmızı rəngli tuf daşından inşa olunmuşdur. Türbənin sərdabəsi xaricdən kvadratşəkilli, daxildən isə dairəvidir. Sərdabənin girişi düzbucaqlı formasınadır. Türbənin yuxarı hissəsinə keçid kvadratşəkilli kürsülükdən qoşa kəsikli künclər və stalaktitlər vasitəsilə həll edilmiş, nəticədə on üzlü qülləvari hissənin əsası yaradılmışdır.



Şəkil 105. Gülüstan türbəsi bərpadan əvvəl.

Sərdabəni qülləvari hissədən ayıran stalaktit qurşağı orijinallığı ilə seçilir. Bu orijinallıq qurşağın mərkəzdən aşağıya və yuxarıya doğru azalmasında, həmçinin nəbati elementlərdən istifadə edilməsindədir. Bunun nəticəsində stalaktit kəmər zəngin və plastik görünüşə sahib olmuşdur.

Türbənin xarici səthləri üçpərli çatma tağla tamamlanmış, səthlər daş üzərində həndəsi oymalarla naxışlanmışdır. Memar üç müxtəlif ornament hazırlamış və onlar üzlərdə təkrarlanmışdır. Lakin eyni müşahidə nöqtəsindən baxan tamaşaçı həmişə müxtəlif ornamentlər görür. Üst kameranın girişi pəncərə kimi təfsir edilmişdir. Ə.Salamzadə və

K.Məmmədzadənin fikrinə görə türbənin üst kamerasının əməli əhəmiyyəti olmamışdır. Onların fikrinə görə bu türbənin xatirə səciyyəsi daşıması ilə bağlı olmuşdur.



Şəkil 106. Gülüstan türbəsi bərpa zamanı.

Türbənin üzlərindən dam örtüyünə keçid iki cərgə stalaktit vasitəsi ilə həll olunmuşdur. Üst örtüyü uçub dağıldığından forması bəlli deyildi. Lakin mütəxəssislər türbənin üst örtüyünün piramidal formada olduğunu ehtimal etmiş və türbə bu şəkildə də bərpa olunmuşdur.

Gülüstan türbəsi Azərbaycanın daş memarlğının nadir incilərindən biridir. Ə.Salamzadə və K.Məmmədzadənin fikrinə görə Gülüstan türbəsinin daş üzərində oyulmuş ornament bəzəkləri Kiçik Asiya abidələrinin oyma daş bəzəklərindən əvvəl gəlməklə bu tip bəzəklərin ilk nümunəsidir.

Türkiyə sənətşünası Oktay Aslanapanın fikrinə görə görə Övliyyə Çələbinin "Səyahətnamə" əsərində xatırlanan "Kəsik günbəz" Gülüstan türbəsidir.



Şəkil 107. Gülüstan türbəsinin bəzək elementləri.



Şəkil 108. Gülüstan türbəsinin bəzək elementi.

**Dər türbəsi** Opdubad payonunda, Dapkəndin cənub təpəfində, keçmiş yaşayış məpkəзi əpaзisindədir. Əщali təpəfindən günbəз

adlandıpılıp. Yuxapı щissəsi tam dağılıb. Щəp bip cəщətdən (şimal, cənub, гəpb, şəpг) gipişi вapdıp. Dər türbəsinin konstruksiyası üç yaruslu tikili formasında həll olunmuşdur. Onun yeraltı sərdabəsi, yerüstü kamerası və günbəzlə örtülmüş yuxarı silindirşəkilli boyun hissəsi türbənin üç yarusunu təşkil edir. Dər türbəsi günbəzli-qülləvari tikintilər qrupuna daxildir. Künc söykənəcəklərinin çıxıntısı dayaq divarlara çevrilmiş və aşağı hissənin enini artırmaqla onun zahiri quruluşuna özünəməxsus görkəm vermişdir. Türbənin sərdabəsi çay daşlarından inşa olunmuş, kvadrat formalı bişmiş kərpiclə üzlənmişdir. Türbənin kürsülüyü iri daş bloklarla üzlənmişdir.



Şəkil 109. Dər türbəsi.

Dər türbəsi konstruktiv həllinə görə Azərbaycanın digər türbələrindən fərqlənir. Onu fərqləndirən digər bir əlamət türbənin gövdəsinin üzlənməsində qara rəngli kaşıdan istifadə olunmasıdır.

Ə.Salamzadə və K.Məmmədzadə Dər türbəsinin memarlıq xüsusiyyətlərini nəzərə alaraq onu XIV əsrin birinci yarısına aid etmişlər.

B.M.Sısoyeв вə I.Əзimbəyoв vaxtilə türbənin üzərindəki kitabəni tədrir etmiş вə tüpbənin 1487-1488-ci illəpdə Şeyx ibn Cüщənna təpəfindən inşa edildiyini təyin etmişləp.



Şəkil 110. Dər türbəsinin iç tərəfi.

**Gülüstan körpüsü.** Körpü Gülüstan türbəsinin yaxınlığında Araz çayı üzərində salınmışdır. Sağ sahildəki birinci dayaq müstəsna olmaqla qalan dayaqların hamısı dağılmışdir. Salamat qalan dayaqda, su səmtinə baxan tərəfdə dörd şaquli cərgəli oval deşiklər açılmışdır. Belə deşiklər tağın oturacağında aydın müşahidə edilir.

Sahil dayağının içərisində bir sıra otaqlar yerləşir. Dayağın çaya baxan tərəfində zərif və hündür arakəsmə ilə üç hissəyə bölünmüş kifayət qədər enli açırım qalmışdır. Körpünün dayaqlarında üçpilləli hörgü izləri aydın izlənir.

Körpünün tikilməsində başlıca inşaat materialı möhkəm əhəng məhlulu ilə bərkidilən qırmızıyaoxşar qumdaşı olmuşdur. Tikinti massivinin bəzi yerlərində kvadrat formalı kərpic hörgü vasitəsilə bəndetmə müşahidə olunur. Körpü XII-XIII əsrlərə aiddir.

**Kırna türbəsi** Culfa rayonunun Kırna kəndində yerləşir. Abidə Naxçıvan memarlıq məktəbinin mərkəzi günbəz tipli binalar sahəsində də diqqətəlayiq memarlıq kompozisiya üsulları yaratdığını göstərir. Abidənin ümumi quruluşu onun türbə və ya məscid olması haqqında mülahizə irəli sürməyə əsas verir. Planda kvadratşəkilli olan bina türbələr üçün səciyyəvi

şəkildə ikiqat örtüklü olub, içəridə çatmatağlı, xaricdən isə piramidaşəkilli çadırvarı günbəzlə örtülmüşdür. Beləliklə, Kırna abidəsi ümumi kompozisiyası etibarı ilə günbəz-qülləvarı adlandırılan Azərbaycan türbələri sırasına daxil edilə bilər. Kırna abidəsi bir sıra xüsusiyyətlərinə görə Əlincəçay Xanəgahındakı abidəyə oxşayır. Bu, türbənin daxili günbəzinin quruluşunda və xüsusən xarici çadırvarı günbəzin oxşarlığında özünü göstərir. Hər iki abidənin xarici örtüyü 16 səthli piramida şəklində həll edilmişdir. Kırna abidəsinin qərb fasadındakı stalaktit qurğusu da bu abidənin zəmanəmizə qədər ancaq bir hissəsinin qaldığı kompleks tikintinin yalnız bir hissəsi olduğuna dəlalət edir. Abidənin üzərində kitabə olmadığından tikintinin inşa tarixinin müəyyənləşdirilməsi çətinlik törədir. Lakin yuxarıdakı faktları nəzərə alaraq türbənin yaranma tarixini XIII əsrə aid etmək olar.



Şəkil 111. Kırna türbəsi.

**Əlincəçay xanəgahı.** Xalq arasında Şeyx Xorasan xanəgahı da adlandırılan bu memarlıq kompleksi Culfa rayonunun Xanəgah (keçmiş Xanağa) kəndi yaxınlığında, Əlincəçayın sol sahilində yerləşir.

Kompleksdən dövrümüzə qədər yalnız türbə, məscid, təyinatı məlum olmayan sütunların qalıqları və yonulmuş daşlardan inşa olunmuş çeşmə qalmışdır. Kompleksin ətrafında Orta əsr qəbiristanlığı, ondan bir qədər aralıda isə yaşayış yeri vardır. Araşdırma göstərir ki, xanəgah yaşayış yerinin şimal-şərq hissəsində salınmışdır.



Şəkil 112. Əlincəçay xanəgahı.

Memarlıq kompleksinə daxil olan türbə əmir, sipəhsalar, böyük alim Uluğ Qutluğ Lala bəy tərəfindən tikdirilmişdir. Türbənin kitabəsində memarın adı (Memar Cəmaləddin) qalsa da, kitabənin tarix yazılan hissəsi dağıldığından onun nə vaxt tikildiyini dəqiq müəyyənləşdirmək mümkün olmamışdır. Kitabədə memarın adı aşağıdak şəkildə yazılməşdır: *"Bu binanı tikən (memar) Xoca, hörmətli və əziz Camal-əl-din"*. Tədqiqatçılar üslub xüsusiyyətlətinə görə türbəni XII əsrin sonu – XIII əsrin əvvəllərinə aid edirlər.

Türbənin yuxarı hissəsindəki səkkizbucaqlı tağvarı konstruksiya stalaktitlər vasitəsi ilə günbəzin çadırvarı oturacağını əmələ gətirmişdir. Türbənin giriş qapısının hər iki tərəfində şərti olaraq “mehrab” adlandırılan

düzbucaqlı taxçalar gəcdən oyulmuş qabarıq naxışlar və dini məzmunlu kitabələrlə bəzədilmişdir. Bunlar dünya memarlığı tarixində gəc üzərində plastik oymanın ən gözəl nümunələrindən biridir.



Şəkil 113. Əlincəçay xanəgahında I türbənin kitabəsi.

Türbənin baştağının memarlıq həlli Mömin Xatun türbəsi ilə bənzərdir. Onun inşasında kərpiclə yanaşı, firuzəyi kaşıdan da istifadə olunmuşdur. Qeyd edək ki, türbənin bərpası zamanı türbənin içərisində müsəlman adəti ilə dəfn edilən dörd skelet qalığı aşkar olunmuşdur. Onların ikisi türbənin içərisindəki mehrabların qarşısında, digər ikisi isə onlardan bir qədər aralıda aşkar olunmuşdur. Türbərin üzərindəki kitabədə onun kimin şərəfinə tikildiyi saxlanmamışdır. Lakin yerli əhali arasında yayılan məlumata görə hürufilik təliminin banisi Fəzlullah Nəimi burada dəfn olunmuşdur. Ancaq türbənin tikilmə tarixi ilə Fəzlullah Nəiminin ölüm tarixi arasında xeyli fərq olduğundan bu fikir uzun müddət inandırıcı kimi görünməmişdir. Türbənin içərisində bir neçə qəbirin aşkar olunması bu fikirlərin doğru olduğunu təsdiq etməkdədir. Bu xanəgahın ətrafındakı kitabələrin oxunması nəticəsində bir çox sufi şeyxləri, Elxani

hökmdarlarından Olcaytu Xudabəndə və Əbu Səidin vəziri olmuş Tacəddin Əlişah, Əlincəqalanın müdafiəsində iştirak etmiş Əmir Seyid Əhməd Oğulşami haqqında da məlumat əldə edilmişdir.



Şəkil 114. Əmirxan türbəsi.

Türbənin ön tərəfində, baştağa bitişik tikilmiş məscid iki dayaqla altı hissəyə bölünmüş və hər hissə də günbəzlə örtülmüşdür. Məlum olduğu kimi, hürufilik təriqətinin banisi, görkəmli ideoloq və tarixi şəxsiyyət olan Fəzlullah Nəimi bir müddət Naxçıvanda Astrabad adlı şəhərdə yaşamış və oz ideyalarını təbliğ etmişdir. Orta əsr qaynaqlarında onun Əlincəqala yaxınlığında edam edilməsi haqında məlumat vardır. Bəzi tədqiqatçıların fikrinə və xalq arasında yayılan rəvayətlərə görə Fəzlullah Nəimi Əlincəçay xanəgahında dəfn edilmişdir. Bu məsələni aydınlaşdırmaq üçün H.F.Səfərli Əlincəçay xanəgahındakı kitabələri və tarixi mənbələri yenidən araşdırmışdır. Əlincəçay xanəgahı kompleksindəki kitabələrin oxunması nəticəsində Fəzlullah Nəimi ilə bağlı heç bir məlumat aşkar olunmasa da, Orta əsrlərin digər görkəmli şəxsiyyətləri haqqında məlumat əldə edilmişdir. Məlum olmuşdur ki, Xanəgah kompleksinə daxil olan binalardan biri hicri 901-ci ildə (1495-1496) Şeyx Hacı Lələ Məlik üçün Bikə xatunun səyi ilə inşa edilmişdir. Qeyd etmək istərdik ki, məscid adı ilə tanınan bu binanın

içərisində aparılan bərpa işləri zamanı binanın qərb divarları yaxınlığında skelet qalıqlarının aşkar olunması Şeyx Hacı Lələ Məliyin burada dəfn edilməsi ehtimalını təsdiq edir. Bikə xatın vəfat etdikdən sonra özü də xanəgahın ətrafında dəfn edilmişdir.



Şəkil 115. Əmirxan türbəsinin kitabəsi.

**Əmirxan türbəsi** Culfa rayonunun Xanəgah kəndinin içərisində yerləşir. Türbə xalq arasında Təkyə adlanır və bəzi tarixi ədəbiyyatda elə təkyə kimi də təqdim edilmişdir. Vaxtilə türbənin içərisində aşkar edilmişdir belə bir kitabə olmuşdur: “Bu şərəfli günbəzin bina olunmasına mərhum, xoşbəxt şəhid, əmir Seyyid Əhməd əl-Oğul-Şaminin oğlu, sahib əl”əzəm Hacı Məhəmməd vəfat etmiş oğlu Əmirxan üçün ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında, Allah onun hökmranlığını əbədiləşdirsin, əmr etmişdir. Və adı çəkilən bani dəvət edən məqbərəyə..... əkilmiş yer... bu dəfn yeri olan günbəzə ildə ... vəqf etmişdir”(Nemət M., 1992, s. 51-52; Səfərli F. 2013, s. 77-78). Kitabənin mətnindən göründüyü kimi, memarlıq abidəsi Əmirxanın xatirəsinə tikilmişdir. Abidənin təkyə adlandırılmasının səbəbi, şübhəsiz ki, burada dini mərasimlərin keçirilməsi ilə bağlı olmuşdur. Abidə 1978-ci ildə ərazidə torpaq işləri görülərkən aşkar olunmuşdur. Planda kvadrat formalı olan binanın günbəsi dairəvi formalıdır. Kvadrat əsasdan günbəzə keçid tağvari stalaktitlərlə həll edilmişdir. Binanın kvadrat formalı hissəsi yonulmuş daşdan, günbəzi isə bişmiş kərpicdən əhəng məhlulundan istifadə edilməklə inşa edilmişdir. Türbə tikinti-memarlıq üslubuna görə Əlincəçay xanəgahındakı türbə və Kəngərli rayonunun Xıncab kəndindəki Yaralı Sultan türbəsi ilə bənzərdir. Bu tip türbələr XV əsr üçün xarakterik olmuşdur. Əmirxan türməsinin kitabəsində adı çəkilən “Sultan Cahanşah

Bahadur xan" Qaraqoyunlu hökmdarı Cahanşahdır. Kitabədə dəqiq tarix yazılmamışdır. Amma qaraqoyunlu Cahanşahın hakimiyyət illəri 1435-1467-ci illər olduğundan türbənin də həmin tarixdə inşa olunduğunu demək olar.



Şəkil 116. Pir Süleyman.

**Pir Süleyman (Tənənəm).** Rəvayətə görə, Həzrəti Süleymanın qəbri burada yerləşir. Qəbir üzərində tikilmiş sərdabə uzun illərdir ki, ibadətgaha çevrilmişdir. Pir Süleymana daim nəzir verilir və qurbanlar kəsilir.

Kənd əhalisinin verdiyi məlumata görə Pir Süleymanın kitabəsi olmuşdur. Kitabə daş üzərində oyulmuş və ərəb dillində yazılmışdır. Türbənin divarları yastı daşlardan inşa edilərək, əhəng məhlulu ilə bərkidilmişdir. Tavanın mərkəzi hissəsi günbəzlə tamamlanır. Günbəzi bütün Orta əsr müsəlman abidələrində olduğu kimi tağvari və dairəvi planlıdır. Sərdabənin yeraltı hissəsində olan qəbirin izləri itmişdir.

Abidənin içərisində divardan asılmış yazı üzərində qoşa uclu qılınc tutmuş şəxs təsvir edilmiş və onun sağ tərəfində «Ya Əli» sözü yazılmışdır. Vərəqin digər üzündə haşiyələr içərisində Quranın II surəsinin 256-cı ayəsi yazılmışdır. Digər hissədə Quranın 39-cu surəsinin 54-cü ayəsi həkk edilmişdir.

Pir Süleyman türbəsinin ətrafından xeyli miqdarda saxsı qab sınıqları kaşı hissələri aşkar edilmişdir. Şirli qablar və kaşılar XIV əsr üçün səciyyəvidir. Abidəni buradan aşkar edilmiş materiallar əsasında XIV-XV əsrə aid etmək olar.

**Yaralı Sultan ocağı** Kəngərli rayonunun Xıncab kəndinin içərisində yerləşir.



Şəkil 117. Yaralı Sultan ocağı.

Bina dördkünc formalı kərpic tikintidən ibarətdir. Girişi cənub tərəfdəndir. Damı günbəzşəkilli örtüklə tamamlanmışdır. Içəri üzündə künclər bir-biri ilə tağbəndlərlə birləşdirilərək günbəzə keçid yaradılmışdır. Bu memarlıq üslubu Orta əsr Azərbaycan arxitekturası üçün xarakterikdir. Pirin binası şərq divarda вə günbəzdə olan pəncərələr vasitəsilə işıqlandırılmışdır. Vaxtilə pirin kitabəsi olmuş, lakin indiyədək saxlanmamışdır. Pirlə bağlı xalq arasında müxtəlif rəvayətlər vardır. Onun ətrafından Orta əsrlərə aid şirli вə şirsiz saxsı qabların parçaları tapılmışdır.

Arxeoloji materialların araşdırılmasına вə tikintinin memarlıq üslubuna əsaslanaraq onu XIV-XV əsrlərə aid etmək olar.

**Naxçıvan buzxanası** Naxçıvan şəhərində, İmamzadə kompleksinin yaxınlığında memarlıq abidəsidir. Azərbaycan Respublikasında ən böyük

buxxanalardan biridir. Planda düzbucaqlı formada olan buzxananın uzunluğu 20 m, eni 9 m, indiki halda hündürlüyü 9,6 m-dir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir.



Şəkil 118. Naxçıvan buzxanası.

Təxminən hər 3 m-dən bir qurulan çatma tağlar arasındakı boşluq tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin dağılmasına baxmayaraq, kərpic hörüklərindən görünür ki, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və çox güman ki, balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Azərbaycan ərazisində buna oxşar buzxana Ordubad şəhərində vardır. Naxçıvan buzxanasının yüksək memarlıq həlli bu abidənin Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə (XII-XIV əsrlər) tikildiyini göstərir.

# V FƏSİL. NAXÇIVANIN XVI-XVIII ƏSR ABİDƏLƏRİ

Mərkəzləşmiş Səfəvilər dövlətinin yaranması Azərbaycanda sosial-iqtisadi münasibətlərin inkişafına mühüm təsir göstərmiş, mədəniyyətin müxtəlif sahələri inkişaf etmişdir. Bu dövrdə Səfəvi-Osmanlı müharibələrinin Naxçıvana müəyyən təsir etməsinə baxmayaraq Səfəvilər dövlətinin yaranmasından sonra Naxçıvan ölkənin əsas mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Culfa rayonunun Saltaq kəndində saxlanan kitabə Səfəvilərin Naxçıvanda quruculuq işləri aparmasından xəbər verir. Ordubad şəhərinin əhalisi isə Səfəvilərə yaxından kömək etdikləri üçün I Şah Abbasın fərmanı ilə vergi və mükəlləfiyyətlərdən azad edilmişdi. Səfəvilər dövlətinin dağılmasından sonra Naxçıvan Nadir şah imperiyasının tərkibinə daxil olmuş, onun dağılmasından sonra isə Naxçıvan xanlığı yaranmışdır. Bu dövrə aid abidələrimiz tariximizin canlı şahidi kimi indi də Naxçıvanda qalmaqdadır. Belə abidələrimizdən biri Ordubad Came məscididir.



Şəkil 119. Ordubad came məscidi.

**Ordubad came məscidi** şəhərin mərkəzi meydanının ən hündür yerində inşa olunmuşdur. Məscidin tikintisində Azərbaycanın XVII memarlığının xüsusiyyətləri əks olunmuşdur. Ə.Salamzadə və

K.Məmmədzadənin fikrinə görə məscidin zahiri memarlıq siması XVII əsrin əvvəllərində yaranmışdır. Məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. 17 əsrdə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. 1901-1902-ci illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpic üzərindəki yazıdan onun əsasının hicri 111 (miladi 729 il) ildə qoyulduğu aydın olur. Məscidin cənubundakı meydanda vaxtilə karvansaraylar, dükanlar olmuşdur. Bu meydanla məscid ərazisi o vaxtlar vahid mərkəzi kompleks təşkil etmişdir. Tədqiqatçılar Cümə məscidinin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şimal-şərqində mədrəsə, qərbində isə zorxana binaları yerləşir.



Şəkil 120. Ordubad came məscidinin kitabəsi.

Məscidin mərkəzi hissəsi üçnefli ibadət salonundan ibarətdir. Binanın mərkəsi hissəsi günbəzlə tamamlanmış, digər hissələr isə yastı damla örtülmüşdür. Məscid binasının hündür qaya üzərində inşa olunması onun

görkəminə möhtəşəmlik vermişdir. Fasadın memarlıq həlli – düzbucaqlı çərçivəyə salınmış tağtavanlı tağçalar XVII əsrin dini binaları üçün xarakterikdir.



Şəkil 121. Aza körpüsü.

Məscidin şərq qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xəttilə farsca beş sətirlik fərmanı həkk edilmişdir. 1604 ilə aid olan bu fərmanda deyilir: "...Ordubad qəsəbəsinin bütün əhalisinin …Şah Abbas Bahadur xanın xanədanına nisbət bəslədikləri məhəbbət və fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlərin əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə - Tusiyyə silsiləsinin fədakarlığı müqabilində Şahın müzayiqəsiz mərhəmətinin bir qisməti onlara bəxş edildi.

Qeyd olunan vilayət yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlataq, nüzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın...”

**Aza körpüsü** Ordubad rayonunun, Aza kəndində, Gilançayın üzərində memarlıq abidəsidir. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3,5 m, uzunluğu 46 paqonometrdir. Beş aşırımlıdır.

Qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış, tağlar arasındakı məsafə müxtəlif ölçülərdə qoyulmuşdur. Tağların dördündə dalğakəsən vardır. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən Aza körpüsü Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa etdirilmişdir. Buradan keçən ticarət karvanları ilə yerli məhsullar, o cümlədən quru meyvələr, sənətkarlıq məhsulları, ipək ixrac olunurdu. Baş verən təbii fəlakətlər və bəzi tarixi hadisələr nəticəsində dəfələrlə dağılmış, sonralar təmir edilmişdir. Güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdığından 1997-ci ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur. Hazırda Naxçıvandan və Ordubaddan Azadkəndə gedən əhali və nəqliyyat vasitələri bu körpüdən istifadə edir. Körpü XVII əsrə aiddir.



Şəkil 122. Qazançı körpüsü.

**Qazançı Körpüsü** Culfa rayonunun Qazançı kəndinin cənub tərəfində, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsidir. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur. Körpü XVI-XVII əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək yoluna xidmət edən bu körpü vasitəsi ilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir.

Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55 m, uzunluğu 10,85 *m*, hündürlüyü 8,8 *m*-dir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağların haşiyə və arxivoltu təmiz yonulmuş qumdaşındandır. Bunun sayəsində tağların kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.



Şəkil 123. Ləkətağ körpüsü.

**Ləkətağ körpüsü** Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ərəfsə kəndindən şimal-şərqdə Əlincəçayın üzərindədir. Körpü Əlincə çayın sol sahilində olan kəndləri Culfa rayonun digər kəndləri ilə əlaqələndirilmişdir.Tikinti texnikasına əsasən körpünü XVI-XVII əsrlərə aid etmək olar. 1991-ci ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası bu ərazidə işləyərkən körpünün ölçülərini və fotosunu götürmüşdür. Körpü tağvarı formada olub, müxtəlif həcmli çay və dağ daşla rından tikilmişdir. Onun tağı kənarlarda yonulmuş ağ daşlardan, ortada isə müxtəlif çay daşları ilə hörülmüşdür. Bərkidici maddə kimi iri qum və əhəng qarışığı olan gəcdən istifadə edilmişdir. Aşağı hissədə körpunun eni 7 metrdir. Onun hündürlüyü daş özülə qədər 5, çaya qədər 6,5 metrdir. Körpünün eni 2,7 metrdir. Onun üst hissəsi tamamilə uçub dağılmış, tağı isə uçmaq üzrədir. Belə hesab etmək olar ki, Orta əsrlərdə Əlincəçay vadisi ilə uzanan yol Ərəfsə kəndin yaxınlığında çayın sol sahili boyunca davam etmişdir.

**Qeysəriyyə** Ordubad şəhərində XVII əsrə aid tarixi memarlıq abidəsidir. Şəhərin mərkəzində yerləşir. Ümumi sahəsi 540 $m^2$-dir. Abidə 10x10 *m* olan mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 m) ibarətdir. Dayağın divarlarındakı taxçaların ölçüləri 1,4x1,45x2,2 m-dir.



Şəkil 124. Qeysəriyyə.

Dayaq taxçalarından fərqli olaraq kənar divar taxçaları çatmatağ konstruksiyalı olub, ölçüsü 3,4x1,37x3 m-dir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanıb. Abidə bişmiş kərpicdən inşa olunmuş, divarının qalınlığı 80 sm-dir. Abidənin mərkəzi, günbəzi də daxil olmaqla, ümumi hündürlüyü 8,5 *m*-dir. Qeysəriyyə sözunun mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə tikililərə dünyanın 3 yerində rast gəlmək olar: Səmərqənd, Təbriz və Ordubad şəhərində. Hazırda ən görkəmlisi və abadı Ordubaddakıdır. Sonrakı dövrlərdə bu abidədən "Zorxana" kimi istifadə edilmişdir. Belə ki, zalının döşəməsi nisbətən binanın döşəməsindən aşağı olduğu üçün döşək əvəzinə dağlardan yığılmış gəvən kollarını buraya doldurub üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan və başqa yerlərdən gələn pəhləvanlar burada öz güclərini sınayarmışlar. Kim qalib gəlirdisə, hücrələrdə əyləşən xandan mükafat kimi bir kisə qızıl alırmış. XIX əsrin ortalarına yaxın Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri (yaradıcısı fars və ərəb dillərini gözəl bilən, həcv və

satirik şeirlər yazan, lakin, təəssüf ki, əsərləri bizim dövrümüzə gəlib çatmayan Ordubadlı Kərbalayı Molla Əhməd adlı bir nəfər olmuşdur) Hacıağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Aşıq Abbas Dəhri, Usta Zeynal Nəqqaş, Hacı Əhməd Bikəs və başqaları bu binaya yığışıb öz yazdıqları əsərləri oxuyaraq kimin güclü yazdığını bəyan edərmişlər. Qeysəriyyə binası çar Rusiyasının hakimiyyəti dövründə üçtürləngəli feldşer Qasımın və pinəçi İbrahimin babaları və dayıları tərəfindən qızıl pulla alınaraq ipək sarıyan sexə çevrilmişdir. Sovet hakimiyyəti dövründə binanın bir tərəfi mağaza və anbar, digər tərəfi isə aşxana kimi istifadə edilmişdir. XX əsrin axırlarında, 1978-ci ildə ordubadlı memar Zakir Haşım oğlu Babayev tərəfindən abidə yenidən bərpa edilmişdir. Hazırda Qeysəriyyə binası Ordubad rayonunun Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.



Şəkil 125. Naxçıvan şəhərində imamzadə kompleksi.

**Naxçıvan şəhərində imamzadə kompleksi.** Xanəgah əvəzinə İmamzadələrin meydana gəlməsi Səfəvilər dövrü üçün xarakterikdir. Naxçıvan şəhərinin cənub-şərq hissəsində yerləşən memarlıq abidəsi XVIII əsrə aiddir. Kompleks 3 binadan ibarətdir. Kompleksin özəyini planda kvadrat şəkilli, xarici görünüşünü isə kubik formalı qülləvari türbələrdən gələn dairəvi gövdənin qovuşduğu kompozisiya-türbə təşkil edir. Türbənin qülləsinin silindrik gövdəsinin dekorativ Bərdə türbəsi ilə eyniyyət təşkil edir. Üfüqi düzülmüş qırmızı kərpiclərin təkrarlanmasından yaranan

epiqrafik motivli naxışlar türbənin yeganə bəzəyidir. Bu tip naxış Qarabağlar türbəsində də istifadə olunmuşdur. Sonradan türbəyə əlavə edilən otaqlar qapı keçidləri ilə əlaqələndirilmişdir. Onların biri yastı, digəri isə günbəzli dam örtüyü vardır. Dördkünc binadan günbəzə keçid çatmatağlar vasitəsilə həll edilmişdir. Türbəyə bitişən, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. Keçən yüzilliyin 20-ci illərində Naxçıvanda olan rus alimi V.M.Sısoyevin yazdığına görə kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin şəhadətinə görə burada Abbasqulu xanın hicri 1337-ci ildə (1918) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbri varmış.



Şəkil 126. İmamzadə kompleksinin cənubdan görünüşü.

Türbə XVIII əsrdə inşa olunmuşdur. Tədqiqatçı İ.Əzimbəyov ərəb dilində yazılmış və hazırda yerində olmayan daş kitabənin mətnini oxumuşdur. Kitabənin mətni belə omuşdur: "1722-1732-ci illərdə bu İmamzadə, ərəb və əcəmin ixtiyar sahibi, səxavətli xaqan, möhtərəm əmir, ən böyük sultan, şah oğlu Şah Əbu Müzəffər Təhmasib Bahadır xanın hökmdarlığı dövründə, günahları bağışlamağa layiq, mərhum Hacı Polad bəyin oğlu sahibkar, zəmanənin xeyirxahı olan Rufan bəyin əmri ilə tikilmişdir".

Kompleksdən azca aralı şimal tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpicdən inşa edilən bu türbə aşağıdan kvadratşəkilli götürülərək yuxarıda çoxbucaqlı şəkildə inşa olunmuş, üstü günbəzlə örtülmüşdür. Kompleksə

daxil olan başqa tikililərlə müqayisədə bu türbə yaxşı vəziyyətdə qalmışdır. Ancaq onun içərisində heç bir qəbir və xatirə kitabəsi qalmadığından təyinatı aydınlaşdırılmamışdır.

**Pir Yaqub xanəgahı** iki dördkünc formalı binanın birləşməsindən ibarətdir. İçərisində iki müsəlman qəbiri vardır. Əsas binanın üzəri sferik günbəzlə örtülmüşdür. Abidə hazırda bərpa edilərək abadlaşdırılmışdır. Xanəgahın giriş qapısının üzərində latın qrafikası ilə «Pirəli və Miryaqub piri» sözləri yazılmışdır. Memarlıq üslubuna əsasən xanəgahın binasını XVIII əsrə aid etmək olar. Tədqiqatçı F.Səfərlinin fikrinə görə bu xanəgah Bəktaşiyyə Sufi cəmiyyətinə mənsub olmuşdur. Xanəgaha əvvəlcə Pir Əli, Sonra isə Pir Yaqub rəhbərlik etmişdir.



Şəkil 127. Pir Yaqub xanəgahı.

**Zaviyə məscidi** Naxçıvan şəhərində yerləşir. Ərəbcə guşə, künc, bucaq mənasmı verən zaviyə sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir. Orta əsrlərdə Naxçıvanda mövcud olan bəzi təriqət tərəfdarları məscidlərə getmir, özləri üçün ayrıca təkyələr, zaviyələr tikir, orada yaşayır və zikrlə məşğul olurdular. Məscidin özünəməxsus arxitekturası vardır. Bina böyük ibadət salonundan, ona bitişik vestibüldən, ikimərtəbəli üç yardımçı otaqdan və dolama pilləkənləri olan minarədən ibarətdir. Binanın xarici tərəfi bişmiş kərpiclə üzlənmişdir. Fasadında

kərpiclərdən çıxıntı verilməsi ilə dərin taxçalar yaradılmışdır. Zaviyənin xarakterik cəhətlərindən biri ön tərəfindəki künclərdən birinin yarım silindirlərin birləşdirilməsi ilə həll edilməsidir. Məscidin içərisi sadədir. İç divarları gəclə suvanmışdır. Binaya üç tərəfdən: qərbdən və şimaldan bir, şərq tərəfdəki həyətdən isə üç giriş qapısı var. Əsas giriş qərbdəndir. Bina dəfələrlə bərpa edildiyindən forması bir qədər dəyişmişdir. Arxitektura quruluşuna görə XVII-XVIII əsrlərə aid edilir.



Şəkil 128. Zaviyə məscidi.

**İsmayılxan hamamı.** Naxçıvan şəhərində, Heydər Əliyev prospekti və Təbriz küçəsinin kəsişməsində, Dədə Qorqud meydanında tarixi-memarlıq abidəsidir. XVIII əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə və ocaqxanadan ibarətdir. Ümumi sahəsi 526 *m2*-dir. Hamam planda düzbucaqlı formadadır. Bina 20x20x5 *sm* ölçüdə bişmiş kərpiclə inşa edilmişdir. Hamama giriş çatmatağlı portaldandır. Portalın eksteryeri kaşılarla bəzədilmişdir. Hamamın daxilinə geniş vestübüldən, soyunma zalına isə dar keçiddən daxil olmaq mümkündür. Soyunma zalı səkkizbucaqlı formadadır. Zalın divarları boyunca 6 ədəd dərin taxça yerləşdirilmişdir. Yuyunma zalının iki keçidi var. Keçidlərdən biri digər otağa açılır. Zalın mərkəzində 2x2 m ölçüdə çarhovuz inşa edilmişdir. 108 *m2* sahəsi olan zalın tavanı sferik günbəzlə

örtülmüşdür. Hamam zalların divarlarına yerləşdirilmiş kiçik pəncərələr və kümbəzin üstündəki bacalarla işıqlandırılır.



Şəkil 129.İsmayılxan hamamı.

Hamamın xəzinəsi binanın qərbində, yuyunma zalına bitişik yerləşdirilmişdir. Xəzinədən açılan gözlükdən su götürülməsi üçün istifadə olunmuşdur. Hamamın su təchizatı kəhriz vasitəsilə ödənilmişdir. Xəzinənin altındakı ocaq hamamın isidilməsində əsas rol oynamışdır. Otaqlara istilik yeraltı kanallar vasitəsilə verilmişdir. Hamam Naxçıvan xanlarından biri olan İsmayıl xanın adı ilə bağlıdır. Hazırda əsaslı təmir və bərpa edilmişdir.

**Nehrəm İmamzadəsi.** Türbə bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən Nehrəm İmamzadəsi türbə, məscid, təkyə və s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasında olub gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvari çərçivələrdə dini xarakterli

kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Memarlıq quruluşuna görə XVIII əsrə aid edilir.



Şəkil 130. Nehrəm İmamzadəsi.

**Parçı imamzadəsi** Şərur rayonunun Xanlıqlar kəndinin şimalında, Parçı kəndinin ərazisindədir. Parçı yaşayış yeri Naxçıvan-Şərur şose yolunun sağ tərəfində Xanlıqlar kəndinin şimalında yerləşir. Abidə hazırda Xanlıqlar kəndinin əhatəsində qalmışdır. Burada möhrədən və çiy kərpicdən hörülmüş tikinti qalıqları vardır. Yaşayış yerinin üzərində xeyli şirsiz və şirli saxsı məmulatına təsadüf olunur. Yaşayış yerinin üzəri müasir tikintilərlə örtüldüyündən ona məxsus bir çox əlamətlər itmişdir. Yaşayış yerinin mərkəzində Sultan İbrahim imamzadəsi adlanan memarlıq kompleksi yerləşir. Günbəzli böyük binadan ibarət imamzadənin mərkəzi salonunda bir qəbir var. Son zamanlar bina kənd camaatı tərəfindən bərpa edilərkən qəbrin üstü səliqə ilə düzəldilmiş, üzərinə yerli materiallardan hazırlanmış baş daşı və sinə daşı qoyulmuşdur. Deyilənə görə, vaxtilə qəbrin üzərində kitabə olmuşdur. Kənd əhalisi abidəni "Şahzadə İbrahim ibn Musa imamzadəsi" adlandırır. Buna əsasən ehtimal etmək olar ki, ziyarətgahda dəfn olunan şəxs yeddinci imam Museyi-Kazımın oğlu İbrahimdir. Abidənin üzərində sonralar türbə ucaldılmışdır. Memarlıq-konstruktiv əlamətlərinə görə, Parçı

İmamzadəsi XVII–XVIII əsrlərə aid edilir. Abidə bərpa edilərək təmir edilmişdir.



Şəkil 131. Parçı imamzadəsi.

**Xan Sarayı** Naxçıvan şəhərində yerləşir. XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 3600 $m^2$ sahəsi olan saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində 42x8 m ölçüdə yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib.

Xan Sarayının ümumi sahəsi 382 $m^2$, divarlarının qalınlığı 60 sm-dən 1,1 m arasında dəyişir. Bina 20x20x5 sm ölçüdə bişmiş kərpiclə tikilmişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur. 1-ci mərtəbədə 3 otaq, 2-ci mərtəbədə 8 otaq (2 zal) və otaq kimi istifadə olunan vestibüllərin üzərində 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestibüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində döşəmədən 40 sm hündürlükdə səhnə tipli taxt yaradılmışdır.




Şəkil 132. Xan sarayı.

Taxtlı güşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə nəfis bəzədilmişdir. Zalın digər divarları taxçalar, nəbati və süjetli rəsmlərlə işlənmişdir. Sonralar aparılan çoxsaylı təmir və bərpa işləri zamanı rəsmlər pozulmuş və ya üzəriləri suvaqla örtülmüşdür. Zalın əzəmətini cənub divardakı, ətrafı həndəsi formalar və güzgü parçaları ilə bəzədilmiş buxarı daha da artırır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş.

**Biləv körpüsü.** Biləv kəndinin cənubunda yerləşir. Beş aşırımlıdır. Körpünün yalnız bir qisminin qalıqları salamat qalmışdır. Gilançayın

üzərindədir. Aşırımlar arasındakı məsafələr müxtəlifdir. Tağvari aşırımlar dördkünc formalı dayaq sütunları üzərində inşa olunmuşdur. Körpünün eni 3,3 m, uzunluğu 55 m-dir. Körpü əhəng məhlulu ilə iri həcmli çay daşları və qaya parçalarından hörülmüş, yonulmuş daşlarla üzlənmişdir. Körpü XVIII əsrə aiddir.



Şəkil 133. Beş aşırımlı Biləv görpüsü.

**Əfqan qalası.** Ordubad şəhərinin içərisində, Dübəndi çayının sahilində yerləşir. Qala şərq tərəfdən sıldırım qayalıqlarla məhdudlaşır. Digər tərəflərdə müdafiə məqsədi ilə iri qaya parçalarından hörülmüş müdafiə divarı vardır. Hörgüdə bərkidici kimi əhəng məhlulundan istifadə edilmişdir. Qala divarının aşınma nəticəsində dağılmasına baxmayaraq, 5 m hündürlükdə salamat qalmışdır. Qalanın içəri tərəfindəki tikintilər tamamilə dağılmış vəziyyətdədir. Bəzi qismlərdə dördkünc formalı binaların qalıqlarını izləmək mümkündür. Araşdırmalar zamanı qalanın ərazisində Orta əsrələrin sonuna aid şirli və şirsiz keramika məmulatı toplanmışdır. Arxeoloji materiallara və qala divarının tikinti texnikasına əsasən, Əfqan qalasını XIV-XVIII əsrlərə aid etmək olar.



Şəkil 134. Əfqan qalasının divarları.

# VI FƏSİL. XIX ƏSRİN TARİX-MEMARLIQ ABİDƏLƏRİ

XIX əsrin əvvəllərində Çar Rusiyasının Cənubi Qafqazdakı işğalçılıq siyasəti tarixi Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə nəticələndi. Çar Rusiyasının Cənubi Qafqazda möhkəmlənməsindən sonra yeritdiyi ermənipərəst siyasət Naxçıvanın vaxtaşırı olaraq erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmasına səbəb olurdu. Naxçıvanda erməni silahlı dəstələrinə qarşı mübarizə üçün bu dövrdə müdafiə tikintiləri inşa olunmuşdu. Araşdırmalar göstərir ki, Naxçıvanın bir çox qədim qala tipli yaşayış yerləri də XIX əsrdə müdafiə məqsədilə istifadə olunmuşdu. Bu dövrdə inşa edilən müdafiə tikintilərinin bir qrupu isə Çar Rusiyasının işğalçı müharibələrə qarşı mübarizəsində istifadə olunmuşdu. Belə qalalardan biri Abbasabad qalası idi.




Şəkil 135. Abbasabad qalası.

**Abbasabad qalası** Naxçıvan şəhərinin cənub-şərqində, Araz çayının sahilində inşa olunmuşdur. Qala xarici hücumlardan müdadafiə məqsədilə fransız hərbi mütəxəssislərinin layihəsi əsasında 1809-1810-cu illərdə tikilmişdir. Abbasabad qalası şahzadə Abbas Mirzənin arzusu ilə fransız mühəndisləri tərəfindən tikdirilmiş, Gülüstan müqaviləsindən (1813) sonra

isə ingilislər tərəfindən bərpa edilərək yenidən qurulmuşdur. Abbasabad qalası Avropa memarlığı üslubunda tikdirilmişdir. Beşbucaq şəklində olan qalanın bucaqşəkilli beş bürcü var. Qala divarlarının hündürlüyü 4 m 30 sm, qalınlığı 60 sm olmuşdur. Qalanın ətrafı 10 m eni olan dərin xəndəklə əhatə olunmuşdu. Qala İranın Birinci Rusiya-İran müharibəsinin gedişində (1804-13) dəfələrlə ağır məğlubiyyətə uğramasından sonra müdafiə məqsədilə inşa edilmişdi. Qalanın ərazisində hərbi təlimlər də keçilirdi.

Qalada olan çoxlu istehkamlardan ikisi qərb istiqamətində Araz çayına söykənirdi. Belə istehkamların başlıca vəzifəsi zərurət nəticəsində qala qarnizonu geri çəkilərkən onun Araz çayının sağ sahilinə təhlükəsiz keçməsini təmin etməkdən ibarət idi.

Abbasabad qalası Iran ordusunun Cənubi Qafqazda mühüm dayaq məntəqələrindən biri olmuşdur. Azərbaycanın cənubuna gedən yolun təhlükəsizliyini təmin etmək üçün bu qalanın mühüm əhəmiyyəti var idi. Ikinci Rusiya–Iran müharibəsi zamanı (1826–28) Abbasabad qalasında vuruşmalar olmuşdur. Qalanın süqutu Naxçıvan xanlığının süqutu ilə nəticələnmişdir. Qalanın baş mühafizi Iran ordusuna komandanlıq etmiş Abbas Mirzənin kürəkəni Məhəmməd Emin xan idi. Ehsan xan Kəngərli də qalanın mühafizi olmuşdur.

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra qala baxımsızlıq ucbatından yararsız hala düşmüşdür.

Araz su qovşağı tikilərkən (1967–71) qalanın xarabalıqları su altında qalmışdır.

**Piləpan qalası.** Ordubad rayonunun Çənnəb kəndindən qərbdə, hündür təpənin üzərində yerləşir. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun təbii cəhətdən zəif müdafiə olunan şərq tərəfinə hündür divar çəkilmişdir. Divarların hündürlüyü 2-4 m arasındadır. Divar boyunca qalanın içərisində dördkünc formalı evlər inşa olunmuşdur. Otaqların həcmi bir-birindən fərqlənir. Bəzi otaqlardan bir-birinə keçid qoyulmuşdur. Divarın üzərində əsgərlərin müdafiəsi üçün 40-50 sm hündürlüyündə xüsusi sipər düzəldilmişdir. Axtarışlar zamanı qaladan yalnız Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən, qalanı XIX əsrə aid etmək olar. Yerli əhalinin verdiyi məlumatlara görə qala erməni-müsəlman müharibələri zamanı istifadə olunmuşdur.

XIX əsrdə odlu silahlardan geniş istifadə olunması şübhəsiz ki, qala tipli yaşayış yerlərinin inşasına ehtiyacı azaltmışdır. Bununla belə Naxçıvan ərazisində aparılan arxeoloji araşdırmalar göstərir ki, bu dövrdə xarci işğalçılara qarşı mübarizədə digər qalalardan da istifadə olunmuşdur. Şərur rayonunda yerləşən Oğlanqala, Qızqala, Culfa rayonunda Əlincəqala,

Berdiqala və digər qalalar xalqımızın erməni işğalçılarına qarşı mübarizəsində istifadə olunmuşdur.



Şəkil 136. Piləpan qalası.

XIX əsrdən günümüzədək bir çox mülki tikintilər yadigar qalmışdır. Onlar arasında məktəb binaları və hamamlar üstünlük təşkil edir. Bununla belə digər dini və mülki tikintilər də olmuş, lakin onların çox az bir qismi zamanın sınağından çıxmışdır.

**Cəmşid Naxçıvanskinin ev-muzeyinin binasi** – Naxçıvan şəhərində Atatürk küçəsində inşa edilmişdir. Şərq və Qərb memarlıq elementlərindən istifadə edilərək tikilmiş xan evi XIX əsrin 2-ci yarısında C.Naxçıvanskinin atası Cəfərqulu xan tərəfindən tikdirilmişdir. Bina iki mərtəbəlidir. Bina çiy kərpicdən tikilib və bişmiş kərpiclə üzlənilmişdir. Birinci mərtəbəyə giriş cənub tərəfdəki həyətdəndir. Binanın quruluşu təmir və bərpa işləri zamanı bir qədər dəyişdirilmişdir. 1920 ilə qədər C.Naxçıvanskinin ailəsi bu evdə yaşamışdır. Daha sonra bina müxtəlif məqsədlərlə istifadə olunmuş, 1982 il oktyabrın 22-dən görkəmli sərkərdə, Azərbaycan atıcı diviziyasının komandiri general Cəmşid Naxçıvanskinin ev muzeyi kimi fəaliyyət göstərir. Muzey ekspozisiyası kimi ikinci mərtəbədən istifadə olunur. Muzey 4 əsas və 5 yardımçı otaqlarda yerləşir. Otaqlara giriş hündür və pilləkənli vestübüldəndir. Binanın interyer quruluşu dəyişdirilərək muzeyə uyğunlaşdırılmışdır. Muzeydə Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmalar, şəxsi və ev əşyaları nümayiş etdirilir.



Şəkil 137. Cəmşid Naxçıvanskinin ev-muzeyi.



Şəkil 138. Nehrəm məktəbi.

**Nehrəm məktəbi** kəndin mərkəzində yerləşir. Məktəb binası hazırda bərpa olunsa da əski arxitektura üslubunu qoruyub saxlamışdır. Ümumi planda dördkünc olan binanın xarici divarları girintili çıxıntılıdır. Bu arxitektura üslubu XIX əsrdə Naxçıvanda tikilən bir sıra binaların

tikintisində istifadə edilmişdir. Azərbaycanın məşhur yazıçısı C.Məmmədquluzadə vaxtilə bu məktəbdə dərs demişdir. Hazırda binada C. Məmmədquluzadənin xatirə muzeyi yerləşir.

XIX əsrdən günümüzədək qorunub saxlanılan abidələrin bir qrupu hamamlardan ibarətdir. Bu hamamlardan biri Şahtaxtı kəndindədir.



Şəkil 139. Şahtaxtı hamamı.

**Şahtaxtı hamamı** kəndin mərkəzində yerləşir. Hamam soyunma, yuyunma otaqları, onlara birləşən köməkçi otaqlar və ocaqxanadan ibarət olub tavanı çatma tağlarla və üç günbəzlə örtülmüşdür. Hamam daşla inşa edilmiş, 20x10,5x6,4 sm ölçülü bişmiş kərpiclərlə üzlənmişdir. Hamam yeraltı kanallar vasitəsi ilə qızdırılmışdır. Yaşlı nəslin dediyinə görə bu hamam İsa Sultan Şahtaxtılı tərəfindən tikdirilmişdir. Deyilənə görə bu tip hamamlar az yanacaq sərfi ilə qızdırılırmış.

**Yengicə hamamı** Şərur rayonunun Yengicə kəndində yerləşir. Daşla inşa olunmuş, bişmiş kərpiclə üzlənmişdir. Hamam giriş, iki səkkizbucaqlı zal və onlara bitişik köməkçi otaqlardan ibarətdir. İki zalın arasında yerləşən köməkçi otaqların qapıları yuyunma zalına açılır. Hamam yeraltı kanallar vasitəsilə qızdırılırmış. Binatın tavanı çatma tağlar və iki böyük günbəzlə örtülmüşdür. Hamamın XVIII əsrin sonunda Şahtaxtılı Tovuz xanım

tərəfindən tikdirilməsi ilə bağlı məlumat vardır. Xalq arasında olan məlumata görə Şahtaxtı, Xök və Yengicə hamamları Şahtaxtılı İsa Sultan tərəfindən tikdirilmişdir. Hər üç hamam memarlıq quruluşuna görə bir-biri ilə bənzərdir və XIX əsrə aid edilə bilər.



Şəkil 140. Yengicə hamamı.

**Nehrəm hamamı** yerin dərinliyində tikilmiş hamamlar tipinə aiddir. Onun xarici görünüşü vestibül - soyunma otağının və mərkəzi salonun yuyunma bölməsinin üstünü örtən bir cüt günbəzdən ibarətdir. Hamama giriş yolu vestibüldən keçir. Küçə ilə hamamın döşəməsi arasında hündürlük fərqinin çox olması nəticəsində dəhliz hissəsində pilləkən düzəldilmişdir. Vestibüldən - soyunma otağından yuyunma bölməsinə üstü tağtavanla örtülmüş alçaq aralıq dəhliz vasitəsilə keçmək olur. Mərkəzi yuyunma salonu səkkizbucaqlı formadadır. Isti su hovuzunun hər iki tərəfində masaj və fərdi yuyunma otaqları yerləşmişdir. Isti su hovuzunun arxasında, hamamın köndələn oxu voyunca ocaqxana yerləşmişdir.

Hamam əhəng məhlulu ilə çay daşından inşa olunmuşdur. Binanın üstü çatma tağtavanla örtülmüşdür. Nehrəm hamamı XIX əsrə aiddir.

**Nüs-nüs hamamı.** Hamam XIX əsr abidəsi olub, Ordubad rayon Nüsnüs kəndində yerləşir. Bu hamam yeraltı hamamlar qrupuna aiddir. Hamamın planı düzbucaqlı formada olub, uzunluğu 22.60 m, eni 9.40 m olmaqla, ümumi hündürlüyü  5.60 m-dir. Ümumi sahəsi 213 kvm olan hamam soyunma və yuyunma zalı, ona birləşdirilən kömkçi otaqlar iki günbəzlə örtülüb. Soyunma və yuyunma zalı bir-biri ilə kiçik tamburlar vasitəsilə birləşirlər. Isti  sulu hovuz yuyunma zalına bitişik inşa olunub. Keçmişdə xəzinəyə su dağdan çəkilmiş saxsı su boruları ilə gətirilirmiş. Su xəzinənin arxasında inşa olunmuş su anbarına toplanaraq oradan hamama və hovuza verilirmiş. Hamamda yuyunan adamlar isti suyu yuyunma zalına açılan hovuzdan, soyuq suyu isə digər borular vasitəsi ilə xəzinənin yanında yerləşdirilmiş otaqdan göturərmiş. Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedir. Kanalın bir ucu  ocağa digər ucu isə bacaya birləşdirilib. Hamamın 3 bacası var. Yuyunma zalının cənub hissəsində ocağın üstündə, digər ikisi isə yuyunma zalının şimal hissəsində, qərb və şərq divarlarında. Ocaq xəzinənin altında yerləşir.



Şəkil 141. Nüs-nüs hamamı.

**Üstüpü hamamı.** Ordubad rayonunun Üstüpü kəndindədir. Hamam kəndin cənubunda, Hacalı məhəlləsində, Düylün çayın sol sahilindədir. Dağılmış vəziyyətdədir. Girişi qərbdən olub, soyunma, yuyunma otaqları, tulanbarxanası qalmaqdadır. Soyunma otağının günbəzi dağılıb. XVIII-XIX

əsrlərə aiddir.

**Azadkənd hamamı.** Ordubad rayonunun Aza (Aşağı Aza) kəndində yerləşir Hamam kəndin cənub hissəsindədir. Dağılmış vəziyyətdə olan hamam XVIII-XIX əsrlərə aiddir. Dörd günbəzi var. Xaricdən ölçüsü: uzunluğu 19 metr, eni 8,2 metr. Tulambar hamamın cənubundadır. Hamam 1 metrə yaxın yerin üstündə, qalanı yeraltıdır. Girişi qərbdəndir. Sal daşlardan və çay daşından inşa edilib. Üç günbəzlə örtülmüşdür.



Şəkil 142. Vənəbd hamamı.

**Düylün hamamı.** Ordubad rayonun Düylün kəndindədir. Orta əsr hamamıdır (XVIII-XIX əsrlər). Kəndin mərkəzində, yarım dağılmış vəziyyətdədir. Soyunma, yuyunma salonlarından, qazanxanadan, təmizlik otağından və s. ibarətdir. Tulanbar tiyanın altında, cənub tərəfdədir. Sal daşdan və çay daşından inşa olunub.

**Gənzə Hamamı.** Ordubad rayonunun Gənzə kəndində yerləşir. Hacı Hüseynqulu məscidinin şimal-şərq tərəfində, məsciddən azca aralı demək olar ki, ona bitişik yerləşir. Əhalinin verdiyi məlumata görə bu hamamı da Hacı Hüseynqulu inşa etdirmişdir. Naxçıvanda bu günədək qalan ən qədim hamam nümunələrindəndir. Girişi şimal- şərqdəndir. Əvvəl soyunma otağı, ondan şimal-qərbdə isə yuyunma salonuna daxil olursan. Hər salonun öz

künbəzi var. Künbəzin baş tərəfində təxminən 50 sm diametri olan deşik vardır. XVIII-XIX yüzilliyə aiddir.

**Buzxana.** Cəlilkəndin girəcəyində memarlıq abidəsi. Bina dördkünc formalı olub yuxarıda tağabənzər formada tamamlanmışdır. Girişi cənub tərəfdəndir. Yerin altında yerləşən buzxanaya yenmək üçün daşdan xüsusi pilləkən düzəldilmişdir. Binanın divarları yüngülcə yonulmuş boz rəngli qaya parçalarından inşa edilmişdir. Içərisində divarlar boyunca dörkünc formalı səkilər inşa edilmişdir. Son zamanlar aparılan təmir işləri zamanı binanın arxitektura üslubu təhrif olunmuşdur. Buzxana binası XIX əsrə aiddir.



Şəkil 143. Düylün hamamı.

**Şeyx Məhəmməd gölünün bəndi** yonulmuş daşlardan tikilmişdir. Culfa rayonunun Qazançı kəndi yaxınlığındadır. Uzunluğu 18,8 m, hündürlüyü 5 m-dir. Bəndin üstü hamarlanmış, kənarları 40 sm hündürlüyündə xüsusi divarla əhatələnmişdir. Onun ön tərəfi yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir. Bəndin ön tərəfində yerləşdirilən 1 m hündürlüyündə olan ensiz taxçalar onun arxitektura özəlliyini daha da artırmışdır. Tikintidə bərkidici maddə kimi əhəng məhlulundan istifadə edilmişdir.

Tikinti texnikasının xüsusiyyətlərini nəzərə alaraq bəndi XVIII-XIX əsrlərə aid etmək olar.

**II Bist körpüsü**. Ordubad rayonunun Bist kəndinin şərq tərəfindən keçən Nəsirvazçayın üstündə biraşırımlı körpü. Qırılmış dağ daşından çatma tağvari formada hörülüb. Ölçüsü: uzunluğu 23 m, eni 3,4 m, hündürlüyü 8 metr. XIX yüzillikdə təmir olunub. Həmin vaxt körpünün çatma hissəsi yonulmuş daşla haşiyə şəklində işlənib. Təmir zamanı oyma üsulu ilə bir daş üzərində yazılıb: 1869. Körpüdən hazırda istifadə olunur.



Şəkil 144. II Bist körpüsü.



Şəkil 145. Ələhi körpüsü (XIX əsr).



Şəkil 146. Qanlı göl bəndi.



Şəkil 147. Məktəb binası (1896. Kənd Şahbuz).



Şəkil 148. Bəhruz Kəngərlinin ev muzeyi (1897).



Şəkil 149. Xök hamamı (XIX əsr).



Şəkil 150. Aza hamamı (XIX əsr).




Şəkil 151. Ordubad hamamı (XIX əsr).

# NƏTİCƏ

Tarix və mədəniyyət abidələrinin araşdırılması göstərir ki, Naxçıvan Muxtar Respublikasının ərazisi qədim Daş dövründən başlayaraq məskunlaşdırılmışdır. Naxçıvanın zəngin xammal ehtiyyatları və əlverişli tarixi-coğrafi mövqeyi burada qədim mədəniyyətlərin meydana gəlməsinə və inkişafına səbəb olmuşdur. Özünəməxsus xüsusiyyətləri ilə fərqlənən Naxçıvan mədəniyyətləri həmçinin qonşu Cənubi Qafqaz və Şərq ölkələrinə də müəyyən təsir etmişdir.

Naxçıvanda yerləşən çoxtəbəqəli Neolit, Eneolit və Tunc dövrü abidələri tarixi inkişafın müxtəlif mərhələlərini ardıcılıqla izləməyə imkan vermişdir. Unikal stratiqrafik quruluşu ilə fərqlənən bu abidələrin tədqiqi yalnız Naxçıvanın deyil bütün Cənubi Qafqaz və Yaxın Şərq tarixindəki müəyyən boşluqların doldurulmasına imkan vermiş, Daş, Mis və Tunc dövrlərinin öyrənilməsinə imkan vermişdir. Neolit və Eneolit abidələrinin öyrənilməsi göstərir ki, hələ e.ə. VII-VI minilliklərdə Naxçıvanda yaşayan tayfalar Göyçə hövzəsi, Urmiya hövzəsi və Zəngəzur dağları ilə sərhədlənən geniş bir əraziyə hökmranlıq etmiş, burda baş verən etnik-mədəni proseslərə təsir göstərmişlər.

Erkən və Orta Tunc dövründə Naxçıvan Yaxın Şərq və Cənubi Qafqazın böyük bir qismini əhatə edən Kür-Araz mədəniyyətinin və Boyalı qablar mədəniyyətinin mərkəzi olmuşdur.

Orta Tunc dövründən başlayaraq Naxçıvanda şəhər dövlətlər formalaşmış və bu dövlətçilik ənənələri sonrakı dövrlərdə də davam etmişdir. Tarixən qədim mədəniyyətlərin beşiyi olan Naxçıvanda müxtəlif dövrlərə aid qalalar, xatirə abidələri, ictimai və siyasi binalar inşa olunmuşdur. Bu abidələrin çox az bir qismi günümüzədək gəlib çıxmışdır.

Bu abidələrimizin tədqiqi və öyrənilməsi ulu əcdadlarımızın qədim və möhtəşəm mübarizə ilə dolu həyat yolu haqqında bizdə təsəvvür yaradır, düşmən hücumlarının amansızlığından, xalqımızın qəhrəmanlıq tarixindən xəbər verir. Bu abidələrin öyrənilməsi, qorunması və təbliğ edilməsi hər bir Azərbaycan vətəndaşının borcudur.